AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# AZƏRBAYCAN FOLKLORU KÜLLİYYATI

## XI cild

# NAĞILLAR

## XI kitab

BAKI – 2009

**AMEA Folklor İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur.**

**REDAKSİYA HEYƏTİ**

**Hüseyn İsmayılov,** filologiya elmləri doktoru **(sədr);**
**İsrafil Abbaslı,** filologiya elmləri doktoru, professor;
**Teymur Bünyadov,** akademik;
**Tofiq Hacıyev,** AMEA-nın müxbir üzvü;
**Məhərrəm Cəfərli,** filologiya elmləri doktoru, professor;
**Paşa Əfəndiyev,** filologiya elmləri doktoru, professor;
**Oruc Əliyev, fi**lologiya elmləri namizədi;
**Qara Namazov,** filologiya elmləri doktoru, professor;
**Azad Nəbiyev,** AMEA-nın müxbir üzvü;
**Əziz Ələkbərli,** filologiya elmləri namizədi;
**Ağaverdi Xəlil,** filologiya elmləri namizədi;
**Seyfəddin Rzasoy,** filologiya elmləri namizədi **(məsul katib**).

**TƏRTİB EDƏNLƏR:** **İlkin RÜSTƏMZADƏ**
**Aynurə SƏFƏROVA**

**NƏŞRİNƏ MƏSUL:** **f.e.n. Əziz ƏLƏKBƏRLİ**

**Azərbaycan folkloru külliyyatı, XI cild, Nağıllar (XI kitab),** Bakı, "Nurlan" nəşriyyatı, 2009, 308 səh.

A 4603000000 / N-098-2009 Qrifli nəşr

© Folklor İnstitutu, 2009

# İSGƏNDƏR ZÜLQƏRNƏ

İsgəndər Zülqərnə həddinnən artıq varrı, döölətdi adam olur, həm də çox insanpərvər olur. Bunun fikri oymuş ki, demək, bütün o yaşadığı ölkeynən bərabər, yoğun ölkələrin də hamısın öz əlinə ala. Başqa mənada yox, yəni insaniyətdiyin, mərifətdiyin, mədəniyətin bildirə. Gəldikcən də yaxşı olur. Axırda bir günnəri yığır vəzir-vəkili, hamısın bir yerə. Deyir ki, mən dünyada yeganə adam olmağ istiyirəm. İndiyətən qazanmışam öz yerində. İndi mən isdiyirəm ki, bir dəfə şimala, bir dəfə cənuba, bir dəfə şərqə, bir dəfə qərbə gedəm, orda məni tanımıyannar arasında da özümü göstərəm ki, belə bir insan var.

Bir gün bu yoldaşdarın yığır. Deyir, gedək cənuba. Beş-altı gün gələnnən soorasına bunlar çıxır böyük bir dağa. Dağın da üstü böyük meşədi. Gəlir bırda durur, ta bırdan belə çıxmax mümkün döyül. Nətər eliyəh, necə eliyəh? Vəzir-vəkil deyir:

– Qayıdax.

Deyir:

– Yox ey, bəs bu boyda yol gəlmişəm. İndi nə bilim o tərəfdə ölkə, vilayət, şəhər var, yoxdu?

Bınnar deyir:

– Bə neyniyəh?

İsgəndər deyir ki, kim çıxıb ordan maa bir xəbər gətisə, ona bir küp qızıl verəjəm.

İndi bir küp qızıl nə qədər qiymətdi olsa da, can hər şeydən üstündü dana. Hamı başın aşağı salır. Bir yetim oğlan varmış, atası, anası yox idi. Öz-özünə otduğu yerdə fikirrəşir, deyir: “Ya Rəbbim, ya Rəsul Allah, atam yox, anam yox, bacım yox, qardaşım yox. Ölsəm də, onsuz da həyatdan tək gedirəm, qalsam da. Qoy icazə alım, mən gedim axtarım. Tapsam da, gəlim deyim, tapbasam da”.

Bı gəlir İsgəndərin yanına. Əlin qaldırır, deyir:

------------------------

* Yoğun – yaxın

– Hörmətli şahım, mən gedərəm.

Padşah deyir ki, a bala, gedif gələ bilərsən? Deyir:

– Hə.

Bı durur, bınnardan icazə alır, iki-üş saata qalxır dağın başına. Dağın başına qalxanda görür, o tərəfdə evlər, həyət-baca, məsələn, insannar... Bir az da irəli yeriyəndə görür meşənin qırağında bir nəfər oğlan mal, heyvan, qoyun otarır. Yaxınnaşır bına ki, bura haradı, kimdi, nədi? İndi nə bı bının dilin bilir, nə bı bının da. Bı dinmir. Belə deyəndə bı çoban ağacı götürür kü, bı yetimi vıra. Bı oğlan yerdən bir daşı götürür, nətəər belə atırsa, çobanın kürəyinə dəyəndə bı yıxılır. Yıxılanda yüyürür bının əlin də, qolın da daldan bağlıyır. Bağlıyannan soorasına deyir ki, çıxım gedim. Bir on, on beş metr aralanannan soora öz-özünə deyir: "Ə, mən dəliyəm, cinniyəm? Mən gediv orda deyəjəm belə bir şey tapbışam, onda mənə inanmıyajaxlar ha. Bəs mən neyniyim? Yaxşısı budu, bunu sürüyə-sürüyə aparım". Gəlir bını tutur, belə sürüyəndə, indi bı da candı axı, ağrıyır. İşarə eliyir ki, onsuz da hara deyirsən, gedirəm dana. Əyaxlarımı aş, onsuz qolum bağlıdı da, gedəh. Gətirir bının əyaxların açır, qolunnan tutur, yavaş-yavaş gəlir.

Görür bəy-zad – bılar hamısı oturubdu. Deyir:

– Ağa, o tərəfdə ev də var, millət də var, dünya da var, mal, pul, var, devlət. Min dəfə də bizimkinnən yaxşıdı. Bıdı, bir nəfər də gətirmişəm.

Uje bırda padşah day atkaz eliyə bilmir. Deyir ki, indi neyniyək? Vəzir, vəkil deyir ki, padşah sağ olsun, indi oranın adamları kimdi bilmirik, xasiyyətin bilmirik. Gedəh evə, bı oğlanı yerri qızın biriynən evləndirəh, bınnardan uşağ olar. Uşağ böyüdühcən atanın da dilin örgənər, bizim də dilimizi, ananın da dilini dana. Bizə təkrar eliyər, bilərih ki, kimdi.

Götürüllər oğlanı da gəlillər, gələn kimi bir qıznan bını evləndirillər. Bınnar yaşıyana qədər deyir ki, padşah sağ olsun,

hardeysə bir səkgiz, dokquz, on il lazımdı da bı uşağ orda böyüyə, neyniyə. Deyir:

– Onda gedəy şərqə.

Deyir:

– Yaxşı.

Gəlillər, şərqə çatanda böyük bir meşəyə çıxıllar. Deyir:

– Neyniyək?

Deyir ki, gəlib meşəni tapbışıx. Düşəh bı meşiyə təhlihdə. Kim ceyrannan, cüyürdən vırsa, gətirək bırda tonqal qalıyağ, böyük bir qonağlığ eliyək.

Bir ağacın dibinə yığılıllar, padşah özü təhcə düşür meydana. Bı meşə bını nətəər cəlb eliyirsə, bir də onda başın qaldırır ki, axşam saat beş-altıdı, hava qarannıxlıyır. Belə vaxtda geri qayıtmax mümkün dəyil. Qayıtsa, bını vəhşi heyvannar parçalıyar. Neyniyim, nejə eliyim? Meşədən qırağa çıxanda görür kü, bir çoban mal, qoyun otarır. Yaxınnaşır bına:

– Salamməlöykü.

– Əleykümsalam.

Deyir:

– A qardaş, kimsən, nəçisən?

Deyir:

– A kişi, mən ovçuyam. Gəlmişəm bura, indi qarannığa düşmüşəm. Sən harda yaşıyırsan?

Deyir:

– Odey, o görükən kəntdə.

Deyir:

– Olar, mən də gedim sənnən gejə orda qalım, səhər gələrəm?

Bı müsəlmanın ayrı şeyi olmasa da, bir-birinə inamı, hörməti var da. Deyir:

– Gedəh.

Bınnar gəlir. İndi bir az yol gedənnən soora baxır ki, yol uzaxdı da. Deyir:

– Ə, çoban qardaş, gəlsənə bı yola bir nərdivan salax, – deyəndə bı çoban öz-özünə deyir ki, ə, bu dəlidi, cinnidi? Bıra nərdivan salmaxçun nə qədər taxta, ağaj, mismar, kərpic, balta, insan lazımdı.

Tay dinmir. Bir az da gəlillər, gələnnən soora qabaxlarınnan balaca bir çay keçir. Bı çoban atı vurdu çayı keçə. İsgəndər indi qorxur axı belə yerdən keşməyə. Deyir:

– Çoban qardaş, gəlsənmi bıra bir körpü salax?

Gənə bı belə baxır, baxır. Deyir: "Ə, bu dəlidi, cinnidi? Bıra körpü salmaxçun nə qədər daş, ağac lazımdı". Genə dinmir. Ordan birtəhər keçillər, kəndə çatmağa iki-üç kilometr qalmış görür kü, böyük bir taxıl zəmisidi, sünbül bax belə-belə. Adam baxır, həvəsə gəlir. Deyir:

– Çoban qardaş, görəm bı taxılın yiyəsi biçif yiyəjəh, biçmiyif yiyəjəh?

Çoban öz-özünə deyir: "Ə, bu dəlidi, cinnidi? Taxılı da biçməmiş yiyəllər?"

Nəysə, gəlillər, kəndə çatanda bının evi kəndin qırağındeymiş, gözünün də ağı-qarası bir qızı varmış. Deyir ki, odey, o ev mənimdi, qapıdakı da qızımdı. Çağırıb ona deyəjəm. Sən get otur evdə, əl-üzünü yu, mən qoyunu, malı paylıyıb gəlim.

Çağırır qızın, deyir:

– Qızım, bir qonax var, onu qarşıla.

Bı gedir, evə çatannan soora qız su qızdırır gətirir, bının əlin-əyağın yuyur, süfrə açır. Atası hərrənif gəlir. Oturullar, Allah verənnən yeyif-eliyillər. – Onda belə ev döyüldü ey. Dam bajasıydı, dokquz metr eni, dokquz metr uzunu. – Çoban deyir ki, gedək. Gedəndə deyir ki, ovçu qardaş, – elə bilir ovçudu dayna, – bağışda, day kasıbın olanı bıdı da. Nə xoşa gəldi, nə xoşa gəlmədi? İsgəndər deyir:

– A kişi, evin yaxşıdı, amma bir azca bajası əyridi.

Dedi:

– Yaxşı, gedəh.

Çoban genə ürəyində dedi: "Ə, sənin nə borcuna baja əyridi, əyri döyül". Gətirdi, yolun yarısınnan bı dedi, mən meşənin qırağınnan gedəjəm, sən getginən. Gəldi çatdı yoldaşdarına. Gördü bılar ceyran-zad vırıflar, oturuflar, ojax-zad qalıyıflar. Hamısı da qorxusunnan əsir ki, padşahı itirmişik də. Görən bını canavar yedi, çaqqal yedi, öldü, qaldı? Padşahın gəldiyini görəndə hamısı üstünə yüyürür:

– A sən Allah, harda qaldın, noldu, nağardın?

Dedi:

– Hava qaralmışdı deyə qayıda bilmədim. Bir çobana qonağ oldum, getdim onun evinə, ordan qayıtdım gəldim.

Bırdan deyillər gedəh. Deyir:

– Yox, bırdan belə evə qayıdajeyih.

Gəlir, evdə məsləhət edir ki, orda çobanın bir qızı var, mən ona vurulmuşam. Ona elçi getməlidi, mən onu alam. Durur bırdan vəzir-vəkili göndərir.

İndi bı çoban axşam gələndə qız deyir ki, dədə, o ovçu kim idi? Onu hardan tapbışdın? Deyir:

– Aaz, ovçu nədi, o gijin biriydi, ağlı çatmırdı.

Deyir:

– Nətər?

Deyir:

– Ay balam, yol gedirik, maa deyir, gəti bıra nərdivan salax. Ordan deyir, gətir bıra bir körpü salax. Ordan gəlmişik, deyir, taxılın yiyəsi biçif yiyəjəh, biçmiyif yiyəjəh? İndi də səhərə qədər yatıf, az-çox yeyif-içif, maa deyir ki, bajan yaxşı bajadı, bir əz əyridi.

Dedi:

– Dədə, o kimdisə mən tanımıram, dünyada onnan ağıllı, gözəl insan yoxdu.

Dedi:

– Nətəər?

Dedi:

– O çoban dəyilmiş, dövlət başçısıdı. Yolda yoruluf, saa deyif ki, gəl yola körpü salax. Yəni yorulduğuna görə bir söhbət eliyəh, söhbət adamın başın qarışdırır axı, gedif mənzilə çatax. Gəlib ordan keçəndə o saa deyə bilmiyif məni də götür. Utandığınnan deyib bıra körpü salax, yəni məni də al kürəyinə, apar da. Sən də fikir verməmisən. Gəlib burda deyib ki, bı taxılın yiyəsi biçif yiyəjəh, biçmiyif yiyəjəh? Yəni bını əkən adam özü yiyəjəh, yoxsa padşaha verəjəh. Dədə, o baja deməkdə də, bajanı demirdi. Deyirdi, qızın yaxşı qızdı, heyif, gözü çəpdi. İndi o harda olsa, maa, bəlkə, elçi göndərdi. İşdi, maa elçi göndərsə, denən, qızımın dərdi özündədi, özü cavab verər, nə desə, ona əməl eliyərəm.

Nəysə, aradan bir-iki gün keçir. Bir gün bı padşah götürür bılara bir vəzirdən, vəkildən elçi göndərir. Gəlillər. Deyir ki, bəs bu yaxınnarda sizə qonax gəlib. O gələn adam padşahdı, sizin qızınızı istiyir. Çoban deyir:

– Vallah, qardaş, düzdü, mən qızın atasıyam, amma hər kəs özü-özünə cavab verməlidi. Qız özü cavab verər.

Gəldi qıza dedi ki, nə deyirsən? Qız dedi ki, siz padşaha deyin, mən ona bir şərtnən gedərəm ki, o əvvəlcə bir sənət örgənsin. Nə örgənir örgənsin, bir sənətin sahibi olsun. İkinci, ona məsləhət bilin ki, o, hara getsə, getdiyi istiqaməti maa desin və neçə günə gedif qayıdajax bunu bilim.

Dedilər:

– Yaxşı.

Dedi:

– Üçüncü şərtim odu ki, o padşaha deyin, harda çətinə düşsə, ordan adam göndərsin geri, bizə xəbər versin ki, padşah hardadı, hansı əzaba düşüb geri qayıda bilmir.

Dedilər:

– Yaxşı.

Vəzir-vəkil gəlib bunu padşaha deyəndə dedi:

– Əşi, mən nə örgənim, neyniyim?

Bı vəzir, vəkil dedi:

– A kişi, biz örgənmişik, ən yüngül şey xalçaçılıxdı. Gəti belə bir şey örgən. İkinci də o getmək... O saa demir ki, hara gedirsən, niyə gedirsən, nəyə gedirsən dənə. Getdiyin istiqaməti deyəjəksən ki, ya şərqə gedifsən, ya qərbə. Bunnan hasant nə var. O birsi də ki, harda olsan, öz zəhmətinnən özünü doğrultmalısan.

Nəysə, bınnarı örgənənnən soorasına xəbər göndərillər qıza ki, uje padşah hazırdı. Deyir, gəlsin aparsın. Nəysə, qızla evlənir.

Aradan bir-iki ay keçənnən soorasına deyir ki, biz çıxaq şimala tərəf, gedək o meşənin qırağına, gəzəh, ordan qayıdax gələk.

Durullar düşüllər yola, gəlillər bir dağın qırağınnan keçəndə, görüllər iki dağın arasında böyük bir binadı. Bir az yaxınnaşanda görüllər qabağına yazıblar ki, yeməkxana. Bı deyir ki, gedəh oturax, yeyəh-içəh. Gəlillər, oturullar, çay içillər, çörəh yeyib qutarannan soorasına, indi bu yeməkxananın yiyəsinə deyillər ki, biz birəz dincəlməh isdiyirik. Deyir:

– Dincəlməyə yaxşı yerimiz var, gəlin bəri.

Bınnarı aparır salır padvala. Padvala salannan soora bınnar görür ki, padvalda nə qədər adam oturub, özü də hamı bax belə əsir, qupquru. Deyir ki, ə bala, bura nədi, noolub? Deyillər ki, siz nə iyinə gəlmisiz? Deyir ki, çayxanaya. Deyib ki, əşi, nə pivə, nə çay. Orda sizə yedirtdihləri bizim ətimizdi. Bizi saxlıyıllar bırda, həftədə birimizi kəsillər, o gəlib-gedənləri razı salıllar. İndi sizi də gətiriflər ki, siz köksünüz də, ətdisiniz, sizi kəsələr. Deyəndə bı padşah qayıdır belə baxır: “Mən neyniyim, nağayrım?” Birdən sənəti yadına düşür. Bunların yanına adam gələndə deyir ki, padşaha denən ki, məni kəsib yedirtsə, nə qədər qazana bilər? Deyillər ki, məsələn, yüz manat. Deyir ki, padşaha denən, mən belə xalı toxuyuram. Xalı toxuyaram, yerin də deyərəm, aparıb satarsınız, ordan yüz yox, bəlkə, beş yüz, altı yüz manat pul alarsınız.

Gəlillər padşaha deyəndə padşah deyir:

– Mən neynim, nağayrım?

Deyillər:

– Padşah sağ olsun, bını kəssən, yüz manat götürəjeyih, amma bı ayda iki xalça toxusa, gör bizi nə qədər varrandırar.

Deyir:

– Yaxşı.

Gətirillər bını, bı sənəti qoyıllar qabağına, başdıyır toxumağa. İndi bı demişdi axı üş günnüh gedəjəm. Üş günün əvəzinə on üş gün olur, bınnar hələ geri qayıtmayıflar, xəbər-ətər yox. Bının arvadı bı adamlara – vəzirə, vəkilə, nökərə deyir ki, gedin bazara, harda xalı satıllarsa, neçiyə dediyinə baxmayarax o xalıları götürün gəlin, mən alıram. Bilir ki, bı belə ola bilər dana.

Gedillər, hərrənillər, görüllər üş-dörd nəfərdi, xalı satır.

– Ə, neçiyədi?

Deyillər:

– Həşdat manat.

Deyir:

– A kişi, gəlin bəri, bizim xanım sizə yüz manat verəjəh.

Bınnarı götürür, qapıya gələndə qız xalılara baxan kimi bilir ki, bıdı. Özü də adın yazıb da ora, adın üstünə hərifnən yazıb. Deyir ki, neçiyədi? Deyillər, belə-belə. Yüz manatdan pulun verir. Deyir ki, bınnan soora nə vaxt xalınız olsa, satmax isdəsəniz, gələrsiz bıra. Bıları keçirir o tərəfə çörək yeməyə. Vəzirə, vəkilə deyir ki, padşah hardeysa bınnarın əlinin altdadı. Bınnar gedənnən soora düşün arxalarına, bınnarı gəzə-gəzə gedin görün hardeysa oranı yarın, padşahı götürün gəlin.

Bınnarı yedirdif yola salannan soora, beş-altı nəfər durur atdanır, arxadan bınnarı işarə eliyə-eliyə gəlillər, bınnar da gəlif çıxır bura. Görüllər ki, ay kabab yeyən, ay ət yeyən, nə bilim neyniyən. Bınnar çörəyi yeyənnən soora qalxıllar, ordakıların hamısını döyüllər, əllərin, qolların bağlıyıllar. Bağlıyannan soora deyir:

– Dustaxlar hardadı, yerin deyin.

Məjbur olıllar, yerin deyillər. Gediv açanda görüllər padşah odey orda oturuf əsir. Deyir ki, padşah sağ olsun, səni tapdıx, dur gedəh. Gəlir evə. İndi bir müddət oturannan soora

deyir, doğurdan da, bı arvad olmaseydi, indi mən batıb getmişdim də. Elə yaxşı ki, bı orda maa köməh elədi.

Bir müddət qalannan soorasına İsgəndər deyir ki, cənuba getdih, şərqə getdih, indi şimala gedəh. Durullar genə atdanıllar, gəlillər şimala. Bir-iki gün yol gedillər, axşamçağı bir də görür kü, meşədən bir ceyran çıxdı. Bərdən ayna qaçanda, bı yoldaşdarı isdiyir ki, bını vıra. Onda da ən güjdü silah ox idi. Padşah deyir:

– Qılış da məndə, ox da məndə. Heş kim dalımca gəlməsin. Ceyranın dalıncan özüm gedəjəm. Vırdım, götürüb gələjəm, vırmadım, qayıdıf gələrəm.

Bı ceyranı qavır, qavır, gəlir bir təpədən aşanda görür kü, böyük bir çadırdı. Bı ceyran qaşdı girdi çadıra. Dedi, hə, indi gedib bırda tutaram. Gəldi, atı çöldə bağlıyannan soora, qılıncı sivirdi, içəri girəndə gördü ceyran nədi. Bırda bir qız oturuf ki, o nağılda, əfsanələrdə deyilir ey, Aya deyir, sən çıxma, mən çıxım, Günə deyir, sən çıxma, mən çıxım. Belə gözəldi. Dedi ki, ay qız, sən kimsən? Bırda nəəzirsən belə?

Dedi:

– Mən böyük bir padşahın qızıyam, atamgil həmişə gəzməyə-zada gedəndə məni də özdəriynən götürürdü. Gəlib burdan keçəndə çadır qurdular, tezdən qarannıxda durublar, özdəri yığılıf gedif, yaddan çıxıf mənim çadırım qalıf burda.

Dedi:

– Bəs mən də filan padşaham. Gələrsənmi səni alım?

Dedi:

– Vallah, alıram deyirsən, al, mən etiraz eləmirəm. Amma indi sən məni aldın getdin, kimə sübut eliyə biləjəhsən ki, belə bir padşahın qızın almışam?

Dedi:

– Mən neyniyim?

Dedi:

– Get özünnən bir ağıllı, savatdı adam gəti, heç olmasa bir şahidin olsun böyründə ki, sən belə bir şey tapbısan.

Dedi:

– Yaxşı.

Bu qayıdır gəlir yoldaşdarın yanına. Deyir ki, ə, ceyranı tutmuşam, filan yerdədi. Bir nəfər mənimnən getməlidi, ceyranı götürəh gələh. Tanıdığı ağıllı adamın birin salır yanına, qayıdıf gəlillər bıra. İndi çadıra çatmağa iyirmi metr qalmış, birdən bının ağlına gəlir ki, ya Rəbbim, ya Rəsul Allah, indi bəlkə bı kadın yatıfdı. Gediv içəri girməh düz döyül dana. Bı oğlana deyir ki, sən dayan bırda, mən gedim, görüm nətərdi vəziyyət, soora səni çağırım, birrikdə götürək gedəh.

Vəzir qalır, bı gəlir çadırın qapısın açanda görür kü, bırda bir qoja arvad oturub, həşdat-doxsan yaşında, danışa da bilmir. Deyir ki, a-a-ay bala, sən k-k-kimsən? Dedi:

– Ay nənə, mən bırda qız qoydum getdim ey?

Dedi:

– O-o-o q-q-qız mənəm.

Dedi:

– Nətəər sənsən?

Dedi:

– Elə fikirdi də qojaldıf, mən burdayam.

Nəkqədər eliyir, ayan-bayan. Deyir ki, oğul, o ceyran da mənəm, o qız da mənəm, bı qoca da mənəm. Mən Allahın yolçusuyam. Belə deyəndə, dedi:

– Onda sənnən bir şey xayiş eliyim. De görüm mən neynəsəm, daha da varrı, dövlətdi ola bilərəm?

Dedi ki, yaxşısı budu, heş kimə qoşulma dana, özün öz əqlinnən istədiyin kimi istifadə eliyə bilərsən. Dedi:

– Ana, mən nə qədər yaşıya bilərəm?

Dedi:

– Sən hardeysa qırx, əlli il yaşıya bilərsən.

Dedi:

– Mən nətər eliyə bilərəm ki, ölmüyüm də, qalım.

Dedi ki, bı tərəf meşədi, o tərəf meşədi, amma o tərəfdə Diri dağı var. O Diri dağın altında dirilik suyu var. O sudan

gətirə bilsən, bir sən yox, ən böyük dəvədi, fildi, nə cür böyük canlı olursa-olsun, o öləndə onun ağzına bu dirilik suyunnan bircə damcı atsan, o dirilər, qalxar ayağa. Səni də saxlıyan bıdı. Gediv ordan gətirə bilsən, ömrü boyu yaşıyarsan.

Dedi:

– Yaxşı.

Gəldi çıxdı çölə. Gördü vəzir oturuf. Vəzir dedi:

– Gedəh?

Dedi:

– Yox, xoşum gəlmədi danışığınnan. – Tay demir nədi dənə. – Qayıdax gedək.

Gəldi yoldaşdarına çatanda, dedilər, ağa, belə-belə. Dedi:

– Yox, qayıdajeyih vətənə.

Qayıtdılar vətənə. Bı fikirrəşdi. Çox fikirrəşənnən soorasına dedi, cənuba getdim, şərqə getdim, şimala getdim, indi bı tərəfə – qərbə gedəjeyih. Belə bir dağ var, o dağın altına. İndi mən heş kimi aparmıram, kimin xoşu gəlirsə, maa bir yeddi-səkkiz nəfər lazımdı, özümnən aparım. Orda suyu tapsam, götürəh gələh.

Bir kişinin gözünün ağı-qarası bir oğlu varıdı. Bu gəldi axşam dedi:

– Ay ata, məni bağışda, yoldaşdarım filan yerə gedir, mən də gedirəm.

Dedi:

– Hara gedir?

Dedi:

– Belə-belə.

Dedi:

– Get o padşaha denən, məni də götüsün, mən də gedim.

Dedi:

– Ay ata, axı sən yaşdı adamsan.

Dedi:

– Yox, get de.

Gəldi, padşaha deyəndə padşah dedi:

– Yox, o yaşda adam olmaz.
Dedi:
– Onda padşaha denən, məni qəbul eləsin, ona iki-üş kəlmə sözüm var.
Nəysə, padşah dedi:
– Buyursun içəri.
Gəldi içəri. Dedi:
– Nədi?
Dedi:
– Padşah sağ olsun, siz gedirsınız yerin altındakı dirilik suyuna. Yerin altındakı su iki-üş yerdeysə, amma yerin üstündə gör neçə milyon, milyardlıx su var. Özü də getdiyin yerdə bu suynan o suyun tamı bir deyil. Bırda su var kirri sudu, bırda var turş sudu, nə bilim ajı sudu. Eləcə də yerin altında var. İndi siz gedif orda o dirilik suyun nətər tapa bilərsınız? – deyəndə, padşah qaldı belə.
Dedi:
– Nətər tapa bilərəm?
Dedi:
– Hər saldata bir dənə balıx tutdurun, onlar o balığı aparallar, orda salallar suya. Hansı suda balıx dirilsə, demək dirilik suyu odı da, onı götürsünnər.
Dedi:
– Yaxşı.
Dedi:
– İkinci, getdin suyu tapdın, o suyu nətər gətirəssən? Civaa yığassan, yoxsa əlində?
Dedi:
– Hə, düz deyirsən, bəs mən neyniyim?
Dedi:
– Hər saldata dəridən bir dənə tulux düzəlt, həm təmiz olsun, həm də büksünnər qoysunnar civlərinə. Harda tapsalar, o sudan doldurallar tuluğa, götürüb gələllər. İkinci, adam hələ

yerin üstüynən gedəndə sağın-solun tanıyammır. Yerin altıy-nan getdilər, soora qayıdıf çıxa bilmiyəjəhlər axı.

Dedi:

– Neyniyim?

Dedi:

– İki nəfər daş, zəncir götürsün. İçəri girif bir on beş, iyirmi metir irəli gediv orda dayansınnar. Adamlara da vaxt ver ki, məsələn, bir saat, iki saat gəzin, qayıdın. Onlar qayı-danda həmin adamlar zəngi vırsın, zəngin səsinə onlar qayı-dar ora, ordan çıxallar, götürüb gələrsən.

Dedi:

– Ağıllı fikirdi.

Nəysə, dedi, getməyimizə bir on, on iki gün qalıf. Gətdi həbelə bınnarın hərəsinə bir tulux düzəltdi, hərəsinə bir balığ gətdi, nə bilim orda yoldaş oldılar. Gəldi bı Diri dağına çatanda dedi ki, belə-belə gedirsınız, məsələn, dörd saat sizi gözdüyəjeyih. Dörd saat hardan tapdız, gətirirsiz, ordan gəlirik.

Bınnar indi ikisi sağa, ikisi sola gedillər. İkisi də gəlir. Bir yerdə bınnarın qabağına su çıxır. Baxıllar belə. Biri deyir:

– Ə, bırda şırıltı var, qəşəh sudu.

O biri deyir, ə, baxım görüm. Bu balığı çıxardır, elə belə suya əlin uzadanda balığ bının əlindən sivrilir. Deyir:

– Ə, dirilik suyu bıdı.

Deyir:

– Qoy mən də bir baxım görüm.

Bı da balığı gətirif salanda bının da əlindən gedir. Deyir:

– Hə, tapbışıx, gəl tuluxları doldurax, gedəh.

Tuluxları doldurullar, şəlliyillər kürəhlərinə. Bir az gə-lənnən soora bı yoldaşın biri deyir ki, ə, indi biz hara gedirik? Bəlkə gəldiyimiz yerə getmirik, ayrı yerə gedirik. Gəl oturağ dincələh, zəngi nə vaxt vırsalar, o dəmirin səsinə gedərik. Bınnar oturullar. İndi bınnar neçə gündü yol gəlif yorulub, sə-hərdən bırda yol gəzillər ağır tuluğ da çiyinlərində. Oturduğ-ları yerdə birdən yuxu tutur bınnarı.

Bı dirilik suyunun sahibi eşitdiyimə görə qızıl quşdu. Bu quş özü yoxmuş, balası bırdeymış dana. Bı qızıl quş yuvasına gələndə görür balası ağlıyır. Dedi:

– Nədi?

Dedi:

– Belə-belə. İki dənə insan gəlmişdi, həbelə sudan hərəsi bu qədər götürdü, getdi. Ona görə ağlıyıram.

Dedi:

– Hansı tərəfə getdilər?

Dedi:

– Bı istiqamətə.

İndi bu uça-uça gəldi. Gördü bınnar oturublar, belə yatıblar. Arxadan qondu, tuluğun ikisin də dimdiyiynən deşdi. Demək, tuluğda bir qıram su qalmır e. Su hamısı axıb gedənnən soora indi zəngin səsi gələndə bınnar ayıldı, qalxdı. Qalxanda gördülər ə, yüngül qalxdılar axı. Belə baxdılar ki, tuluxlar bekardı. İkisi də ağladı. Dedilər, ə, indi biz getsək, padşah bizi öldürəjəh. Neyniyəjeyih, nağarajeyih? Biri dedi, a kişi, gedəh də. İndi yalvararıx ki, ay padşah, bilməmişih, cırılıfdı. Gələn səfər gələndə genə getdiyimiz istiqamətnən gələrih, axtarıb taparıx.

Nəysə, gəldilər. Çölə çıxanda gördülər hamı oturub. Dedilər:

– Nooldu?

Bınnar olduğu kimi dedi.

– Padşah, səni allatmırıx, suyu tapmışdıx, tuluğu da doldurmuşdux. Yolda yuxuya qalmışıx, quş tuluğu deşib, bütün su axıb gedib, – deyəndə padşah dedi, eybi yoxdu, neyniyək, gedəh, bir müddətdən soora bir də qayıdıf gələrih.

Bılar bir xeyli gedənnən soorasına gəldilər bir meşənin qırağınnan keçəndə, gördülər ki, həddinnən artıx yağışdı, küləhdi. Neyniyəh, nağayrax? – Orda bir şey yadımdan çıxdı. O arvad bınnara bir kəlmə də demişdi ki, sən dirilih suyunu tapassan, amma onnan işməh sənə qismət olmuyajax. Sənə taxtadan bir ev tikəjəhlər, onun altında canını tapşırassan. – Tax-

dadan bına bir yuva düzəltdilər, özdəri bir yerə, padşah da gedir bıra. Uzanannan soorasına bir az aradan keşmişdi, bir də gördü qapıdan içəri bir nəfər girdi. Qayıdır:

– Sən kimsən ə, bıra niyə girmisən?

Dedi:

– Ə, danışma, mən gəlmişəm sənin canını alam.

– Sən kimsən mənim canımı alasan?

Dedi:

– Mən cənabi-Əzrayılam, mən can almağa gəlmişəm.

Dedi:

– Bəs sən mənim canımı ala bilməzsən.

Dedi:

– Nəyə görə?

Dedi:

– Nə vaxtı mənim üstümdə taxtadan, ağajdan ev tikilsə, onda ala bilərsən.

Dedi:

– Onda bir gözünü belə aş bax.

Baxanda görür kü, üstü də, altı da taxtadı. Belə baxdı, baxdı, dedi:

– Qadan alım, onda icazə ver, o nökəri, nayibi çağırım, iki-üş kəlmə sözüm var, onlara deyim.

Bı səsdədi bınnarı:

– Gəlin bıra.

Gəldilər:

– Ağa, nədi, ağa, nədi?

Dedi:

– Ə, oturun, səs eləməyin.

Dedi ki, mən burda keçinəjəm. Mənim gözümün ağı-qarası bir anam var. Mənim meyidimi qabax aparsaz, anamın ürəyi partdıyar. Əvvəlcə, bir dəstə yetim uşaxlardan göndərin, onın dalınca bir dəstə yaşdı adam göndərin, onın dalınca bir dəstə qoyun göndərin, dalınca bir dəstə mal-heyvan göndərin, soora

mənə çatanda mən gözü açığ öləjəm. Anama deyin ki, bunun bizə məsləhəti var. Harda gözü yumulsa, orda dəfn eliyəjeyih.

Tez bının canın alır Əzrayıl. Bunu götürüllər, düşüllər yola. Uşax yığıllar, nə bilim qoca, bir az da at, heyvan-filan. Anası ağlıyanda deyillər ki, oğlunun vəsiyəti var ki, onun harda gözü yumulsa, orda dəfn eliyəjeyih. Neyniyəh? Deyillər, qoyax tabuta, gəzdirəh, görəh harda gözü yumulur.

İki gün, üş gün, bunu nə qədər gəzdirillərsə, gözü yumulmur ki, yumulmur. Bınnar da yorulub əldən düşüb, yayın istisi. Görüllər aşağıda böyük bir çinar ağacı var. Bı çinar ağacı harda olsa, onın dibində bulağ olur, su olur. Gəlillər çinar ağacına çatanda görüllər bırda bir çobandı – yaşdı adamdı qoyun otarır, oturubdu bırda. Bılar gələndə bı dedi:

– Nədi, noluf? Niyə ağlaşırsız?

Dedi:

– Əşi, sən nə bilirsən e.

Dedi:

– Heç olmasa bir kəlmə deyin.

Deyillər ki, bəs hal-qəziyə belə-belə. Çoban torpaxdan bir damcı İsgəndərin gözünə atan kimi bının gözdəri yumulur. Hamısı qalır məhətdəl. Deyillər ki, neyniyəy? Biri deyir ki, ə, torpax torpaxdı dana, aparağ anasının yanında dəfn eliyək də, bıra neyçün gətiririk. Gətirillər ordan anasının yanına. Başa salıllar ki, ay ana, oğlun uşağı, yetimləri tabutun qabağınca göndərmişdi ki, ana, gör mən həyatımda yetimlərə nə qədər hörmət eliyirəm. Qocaları göndərmişdi ki, qocalara nə qədər hörmət eliyirəm. Malı-heyvanı göndərdi ki, ana, gör mən nə qədər varrı adamam, nə qədər varım, pulum var. Nə qədər imkansız adamlara köməy eliyirəm. Ölümün qarşısını almax mümkün olsaydı, bular alardı. O torpağın mənası odur ku, yəni bütün cannının hamısının əvvəli torpaxdan əmələ gəlir, axırı da torpağa qismət olajax. Bınnan belə neyniyim yox, elə bırda öz qəbirsannığımızda yer qazırıx, basırırıx. Onıynan da orda qazıb basdırıllar.

## TISBAĞA QIZ

Bir şah olur. Bu şahın devrində belə bir adət varmış ki, evlənməh vaxdı çatanda qızdarı yığıf meydan açırmışdar. Qızdara alma verərmişdər ki, hansı oğlanı sevsə, almanı o qapıya atarmış, onnan evləndirərmişdər. Oğlannara ox-yay verərmişdər, kimi isdəsə, o qapıya atarmış, onnan evləndirərmişdər. Bir padşahın da üç oğlu vardı. Deyir ki, oğlannarımın evlənməh vaxdıdı. Buları gərəh evləndirəm. Meydan açır, car çəkdirir, bütün camaatı yığır. Böyüh oğluna ox-yay verillər. Böyüh oğlu atır, vəzirin qapısına düşür. Ortancıl oğlu atır, vəkilin qapısına, kiçih oğlu yayı dartır, oxu boşduyanda ox gedir, gedir, dənizin qırağında bir qazdıx* yerə düşür. Deyillər, yox, ox səf getdi. O vaxd üş dəfə atarmışdar. Üşdən nə artıx olmazdı, nə əysik. Üş dəfə oxu atıllar, üçüncüdə də gedir kiçih oğlun oxu düşür bu qaznağa. Deyillər ki, belə oldu, bunun qisməti budu. Padşah camahatı dəvət eliyir, toy məclisi qurulur. Yeddi gün, yeddi gecə toy eliyir. Böyüh oğlunu vəzirin qızıynan, ortancıl oğlunu vəkilin qızıynan evləndirir. Bulara da deyir ki, indi ki belə oldu, hərəəzin ayləsi bir gün kiçih qardaşuza xidmət eliyəjəhdi. Yeməyin, işməyin verər, palın-paltarın yuyar.

Nəysə, bu gəlinnər hərəsi bir həftə, iki həftə buna qulluğ eliyillər. Yavaş-yavaş yaddan çıxır. Bir dəfə oğlan gəlir görür yatağını nətər qoyuf gedifsə, yatağ yığılmıyıf, elə heylə qalıf. Bir dəfə görüf paltarın nətər soyunuf qoyufsa, elə heylə qalıf. Bir dəfə gəlif görür, yemək buz təki. Bir dəfə gəlir, yemək heş yoxdu.

Bir gün durur gəzməyə çıxanda, deyir: "Əşi, gəlmişəm gəlmişəm, bir görüm bu nətəri şeydi? Allah-taaladan mənim qismətim nə idi? Boş yerə mənim oxum niyə getdi? Heş kasıbın, nökərin də qapısına düşmədi. Mənim qismətim niyə yoxdu? Gedif, vallah, ora baxajam". Gəlif ora baxanda görür

---

[*] Qazdıx – qazılmış

ki, bu qaznağın içində bir dənə tısbağa var. Deyir, ey Allah-taala, madam ki mənim talehim bu tısbağadı, vallah, bu tısbağanı götürüf aparajam. Götürür bu tısbağanı, qoyur heyvəsinə, gətirir evə. Keşmiş evlərdə buxarı olurmuş. Buxarı yerinə qoyur, qavağına da yer-yeməyini qoyur.

Bir gün oğlan gedir, qayıdıf gələndə görür, ay allah, bunun evi nətəri təmizdənif, yığılıf, yığışdırılıf, gülab səpilif. Evə girirsən adamı müşkü-ənbər iyi bürüyür. Elə yeməh bişif ki, tay bu ləzzətdə yeməh görmüyüf. Para da qızıl alma qoyuluf bunun yeməyinin yanına. O diyarda da qızıl alma olmazmış. Deyif:

– Hə, yəqin atam bilifdi ki, qardaşım arvatdarı məə qullux eləmədi. Atam özü mənim evimi-eşiyimi belə təmizdədif. Bu yeməh də atamın mətbəxinnən gəlif, bu qızıl alma da hardasa atama hədiyyə gəlif, bunun parasın məə verif.

Nəysə, bu yeyir-içir. Gənə həmişəki təki durur yatır. Sabah ertədən durur gedir. Qayıdır gəlir, görür gənə heylədi, eyni vəziyətdi. Məhətdəl qalır. Deyir, balam, atamnan indiyətən çıxmayan iş. Bu, nətər ola bilər? Pusajam, görüm bunu kim eliyir. Üçüncü günü durur evdən çıxır, gedir gizdənir. Başdıyır pusmağa ki, görüm mənim evimin şərayitini belə eliyən kimdi. Atamın vilayətində bu müşkü-ənbər iyini mən hələ almamışam. Bu qızıl alma olmuyuf. Bunu bir dəfə atam mənim üçün eləsin. Axı hər gün, hər gün eləməz. Bu pusur, görür ki, yavaşcadan buxarının qapağı düşdü yerə, tısbağa çıxdı çölə. O tərəfə, bu tərəfə boylandı, gördü heş kəs yoxdu. Qınınnan sivrildi çıxdı, oldu dünya gözəli bir qız. Oğlan bunu görəndə az qalır huşunu itirə. Hannan-hana özün ələ alır. Görür bu qız getdi qavaxcan girdi hamama, yuyundu, darandı, bəzəndi-düzəndi. Elə bir gözəl oldu ki, Günə, Aya bərabər. Gözdüyür, görür ki, bişmişi də bu bişirdi. Özü də qoynunnan bir alma çıxartdı, parasın böldü öz yeməyinin üsdünə qoyuf özü yedi, parasın da bu oğlanın surfasına qoydu. Yedi, işdi, sildi, süpürdü, getdi girdi qınına, oldu tısbağa. Dedi, hə, mənim deməк, qismətim buymuş.

Bu gün keçir, səhəri gənə pusur. Qız çıxanda qızı tutur. Deyir:

– Ey zalım qızı, neçə vaxdı məni dəli-divanə eləmisən. Mən deyirəm, mənim qismətim yoxdu. Mənim qismətim heş demə, sənsən. Bəs niyə gizdənirsən?

Qız buna yalvarır, deyir:

– Oğlan, məni boşda. Gənə, bax, bu qayda ömrümüzün axırına qədər sənə xidmət eliyəjəm. İntaası mən pərilər qızıyam, məni bəni-insan görsə, mənim üsdümdə sənə çox bəlalar gələr. Məni boşda, gedim.

Deyir ki, burda heç kim olmaz. Evdən çölə çıxmıyessan. Tısbağanın çanağını götürür, pencərədən atır çilihliyir, qırır. Qız qalır naəlac. Nəysə, bular başdıyır burda ömür sürməyə.

Bir gün sübh tezdən qız duruf küləfirəngidə saçın daradığı yerdə bu nəhlətdəmə qayınatası tezdənnən duruf dəsdamaz üçün çıxıf. Görüf kiçih oğlunun işığı yanır. Buna tərəf baxır ki, balam, kiçih oğlumun niyə işığı yanır, bu yatmıyıfdımı? Baxıf görür ki, kiçik oğlunun küləfirəngisində bir qız var ki, vallah, deyirsən, Aydı, Gündü. Padşah bunu görəndə huşun itirir, yıxılır. Hannan-hana vəzir-vəkil tökülür:

– Ay padşah, bu nə idi, nədi?

Padşah deyir ki, vəzir, ölürəm. Kiçih oğlumun küləfirəngisində bir qız görmüşəm, ona aşiq olmuşam. Bilmirəm, nətər eliyirsən elə, o qızı məə almalısız. Vəzir deyir ki, padşah, gözdə görüm o qız nədi, onu sənin oğlun hardan gətirif. Yəqin sənin oğlun hardasa o qızı görüf, bəyənif, gətirif. O sənin oğlunun arvadı ola bilər. Bütün şahlar, bütün ölkə səə nifrət eliyər, əgər sən arvadı oğlunun əlinnən alsan. Qoy görəh bir yönnən birtəri eliyə bilərihmi.

Nəysə, vəzir örgənir ki, bu bunun kiçih oğlunun arvadıdı. Gəlir deyir:

– Padşah sağ olsun, o sənin kiçih oğlunun arvadıdı, onu sən zornan ala bilməzsən.

Deyir:

– Bilmirəm vəzir, tez bir tədbir görginən. O qızı məə çatdırmasaz, çatdıyıf öləjəm.

Deyir:

– Onda padşah sağ olsun, sən özünü vur xəsdəliyə. Devlər diyarında bir qazan var. Oğluna deynən get, o qazanı məə gətir, o qazanda su qızsın, mən çimim. Əgər çimməsəm, mən öləjəm. Əgər oğlun sənin sözünnən çıxsa, qəzəflənif boynun vurdurarsan. El sənnən nifrət eləməz. Deyəllər atasının sözünnən çıxdı, atası qəzəflənif elədi. Yox, gedərsə, ölər, qız qalar səə. Gənə də heş kəs səə bunu noksan tutmaz. Dul qalmış gəlindi.

Padşah özün vurur azarrığa. Car çəkdirir oğlannarım gəlsin. Oğlannarı gəlir.

– Ay ata, noluf, nədi?

Deyir:

– Oğlannarım, bəs devlər diyarında bir qazan var, gərəh o qazan gələ, onda su qıza, mən çiməm, yaxşı olam. Yoxsa təbiblər deyir, öləjəm.

Bu oğlan məlil-müşkül deyir:

– Ay ata, mən devlər diyarını hardan tapım?

Deyir:

– Mən bilmirəm. Səə möhlət verirəm, əgər gətdin, gətdin. Gətirməsən, boynu vurdurajam.

Oğlan məlil-müşkül qayıdır evə. Qız deyir:

– Oğlan, nədi, de görüm atan səni nə işə buyuruf? Səə dedimmi, mən sənin başına bəla açajam. Bu mənim ujumnandı. Sənin atan məni hardasa görüf, mənə aşiq oluf. İndi de görüm, atannan möhlət aldınmı?

Deyir:

– Yox.

Deyir:

– Get üş gün möhlət al.

Qayıdıf gedif atasınnan üş gün möhlət alır. Üş günü bular yeməhdə-işməhdə, kefdə-damaxda. Üçüncü günü deyir:

– Oğlan, dur get məni gətirdiyin həmən o çalada "nənə", "nənə" deynən çağır. Nənəm gələjəh. Ona deyərsən, qızın deyir ki, balaja qazanımı versin, lazımdı. Sənin sohrasıynan işin yox-du.

Durur gəlir. Həmən çalada çağırır:

– Nənə, nənə.

Burdan bir qara örpəhli qarı çıxır:

– Can bala, nədi, de görüm qızımın nə ehtiyacı var?

Deyir:

– Nənə, qızın deyir ki, balaja qazanımı versin, gərəyimdi, – deyəndə deyir ki, oğlum, məni burda gözdə, gələjəm. Bir də görür, əyə, balaja qazan nə qazan. Dünyanın yarısı boyda qazan. Yeddi öküzün qatarına qoşuf heçə-heçnən sürüyə-sürüyə gətirir. Gətirdi verdi bunu oğlana. Dedi:

– Get, bala.

Oğlan dünyanın yarısı boyda tiyanı sürüyə-sürüyə gətdi şəhərdən qıraxda saxladı. Gəldi, atasına dedi ki, ata, bəs qazanı gətirmişəm. Padşah bir gün axşamatan su daşıtdı ki, bu qazanı suynan doldura. Padşah xəsdeydi? Padşahı azar başqa yerin-nən tutmuşdu. Padşah çimir, ayılır. Deyir:

– Vəzir, işimiz baş tutmadı, oğlan sağ-salamat qayıtdı gəldi.

Dedi:

– Padşah sağ olsun, gənə özünü azarrığa vur. Deynən, oğlun getsin, devlər diyarında qarpız var, onu gətsin.

Nəysə, bir də oğlun çağırır. Deyir:

– Oğlum, bəs indi də həkimlər deyir ki, devlər məkanın-da bir qarpız bitir, gərəh o qarpız gələ, onnan yeyəsən. Əgər o qarpızdan yeməsəm, öləjəm.

Oğlan nə qədər eliyir, deyir:

– Yox ey, getməsən, boynu vurdurajam.

Əlacı olmur, oğlan gənə məlil-müşkül qayıdır. Qız deyir:

– Hə, oğlan, de görüm, indi atan səni hara göndərir?

Deyir:

– Bəs indi də atam elə yerə göndərir heç olmuyan. Deyir, Ağ devin diyarında bir qarpız var, onu gətir. Mən nə bilim Ağ devin diyarı haradı? Ordan gedib qarpız gətirənəm mən?

Deyir:

– Onu qəm eliyirsən? Onu özüvə qəm eləmə. Get, atannan bir həftəlih möhlət al.

Gedir, atasınnan bir həftəlih möhlət alır. Gəlir, bu bir həftəni də gənə burda kefdə-damaxda keçirillər. Həfdə tamam olanda deyir:

– Oğlan, gedərsən, gənə nənəmi çağırarsan. Deyərsən ki, qızın deyir ki, mənə bir dənə balaja qarpız qırsın versin. Sohrasıynan işin yoxdu.

Bu durur gedir, burda çağırır:

– Nənə, nənə.

Həmən arvad çıxır:

– Nədi, bala, qızım səə nə əziyət verif gənə?

Deyir ki, nənə, qızın deyir, bosdannan mənə balaja bir qarpız qırsın versin. Deyir:

– Oğlum, burda dur, gəlirəm.

Bu gedir. Görür gənə yeddi kəldi, dağ boyda bir qarpızı sürüyə-sürüyə gətirir. – “Ay Allah, bu nədi, bu hara gedəndi?”

Deyir:

– Oğlum, ala apar. Qızıma deynən səni bir də belə əziyyətdərə salmasın.

Gedir. Bu qarpızı heçə-heçnən gətirir, şəhərin qırağında saxlıyır. Gəlir, atasına xəbər verir ki, bəs, ata, qarpızı gətdim. Dəhrəynən, baltaynan qarpızı çapıllar. Bütün şəhər darışır bu qarpıza, ye ki yeyəsən. Qarpız hara qutarandı? Bunnan bir az yeyir, zəhəri olsun. Bunun azarı qutarır. Azarı vardı? Deyir:

– Vəzir, tədbir gör, indi neyniyim? Oğlum gənə salamat qayıtdı.

Deyir:

– İndi şah sağ olsun, bu dəfə oğluu elə yerə göndərəjəm ki, heş gəlməsin.

Deyir:

– Nədi?

Deyir:

– Deyərsən ki, bəs, oğlum, görürəm hər şeyə sən bajarıxlısan. Anan öləndə mənim padşah nişanası olan üzüyüm onun barmağında gedif. Anaa tapıf mənim üzüyümü gətirərsən. Əgər üzüyüm gəlməsə, Misir padşahı mənnən davaya çıxajax. Ona da güjüm çatan deyil, bizi yernən yeksan eliyəjəh. Ya padşahlıx nişanam olan üzüyü verəm, ya da davaya girəm. Onda getməzsə, əlində bəhanən olar, öldürərsən. Gedərsə də, ölər qalar.

Nəysə, bu oğlunu çağırır. Bir də deyəndə deyir:

– Ay ata, insaf elə, mürvət elə. Anamın sümühləri də çürüyüf. Mən nə bilim, anam hardadı? Anamın qavrının da yerin bilmirəm.

Deyir:

– Yox ey, əgər getməsən, boynu vurdurajam.

Nəysə, oğlan qəm dəryasına batmış gənə qayıdır. Qız deyir:

– Oğlan, de görüm, indi atan səni hara göndərir?

Deyir ki, atam deyir, get, anaan barmağında mənim padşah nişanam olan üzüyüm qalıf, onu gətir. Mən neyniyim? Mən anamı hardan gedim tapım?

Deyir:

– Oğlan, qəm eləmə. Get bir aylıx möhlət al, gəl.

Gedir bir aylıx möhlət alır, gəlir. Bu bir aylıx möhlətin on beş gününü gənə burda kef eliyillər. On beşinci gün deyir:

– Oğlan, dur get. Nənəmi çağır, nənəmə deynən səni aparsın, gətsin.

Oğlan durur halallaşır, hümmətləşir, gedir. Çağırır:

– Nənə, nənə.

Nənə çıxır. Deyir ki, nənə, bəs məni apar, gedim nənəmin barmağında üzüh var, onu alım gətirim. Deyir:

– Ay oğul, Allah səni göndərənə nəhlət eləsin. Səni göndərənin nəsə məqsədi var, səni ölümə göndərir. Sənin atan sənin düşmanındı. Səni aparajam, amma bilginən ki, atan sənin ölümüvə çalışır. Deyir, oğul, min dalıma, yum gözdəru. Mən havaxt deyəndə onda gözü açarsan.

Bu oğlan minir nənənin dalına, gözün yumur. Nənə bunu gətirir. Ayağı yerə dəyəndə deyir:

– Oğlum, aş gözü.

Oğlan gözün açır. Görür elə bir məkandadı ki, bu yerrəri bu görmüyüf. Deyir:

– Oğul, burdan belə mən gedə bilmərəm. Buraynan belə get, nənəə tapeysan. Gələndə gənə burda məni çağırarsan, səni çıxardajam işıxlı dünyaya.

Oğlan bir az gedir, görür bir qapı var. Bu qapını açır, keçir gedir. Görür gənə bir qapı var. Bunu da açır. Görür bir nəfər lüt adamdı, bir az yumurta yığıfdı. Bu, yumurtanı qujağına yığır, aşır tökülür. Torbası yox, heyvəsi yox, paltarı yox. İpin arasına yığır, aşır tökülür. Bu yumurtanı yığıf topalıyıf götürə bilmir. Əl-ataş oluf.* Topalıyır, dağılır, bir də topalıyır, bir də dağılır. Deyir:

– Ay qardaş, bu nədi? Bir heyvən yox, bir torvan yox, bir qavın yox. Bu, nə zulumdu sən çəkirsən?

Deyir:

– Qardaş, dinmə, get, gələndə deyərəm. Bu mənim öz ejirimdi, çəkirəm.

Nəysə, bunnan aralanır gedir. Görür, bir qapı var. Bu qapını da açıf keçəndə görür, bir çılpax adamdı, qaratikan kolunu yığıf, bu kolu bir-bir qoyuf üsdə, qujağına ala bilmir. Lüt adamdı, ipi yox, şələ çəkə. Elə bu kolu yığır, tökülür, yığır, tökülür. Əsir-yesir oluf. Deyif:

– Ay qardaş, bu nə zulumdu çəkirsən? İpin yox, kəndirin yox, bir ulağın yox.

---------------------

* Əl-ataş olmaq – nəfəsi kəsilmək

Deyir:

– Qardaş, dinmə, bu mənim ejirimdi çəkirəm. Get, gələndə deyərəm.

Bunnan da aralanır gedir. Bir qapı açır, keçəndə görür bir nəfər lüt adamdı, saşdarınnan bağlıyıflar göydən, əyağının altında bir ojax yanır. Əyağının altına bir dənə isdəkan qoyuflar, od vurduxca davanınnan damcı-damcı yağ əriyif düşür isdəkana. Düşən təki yox olur. Deyir:

– Ay bajı, bu nə zulumdu səə verilif?

Deyir:

– Dinmə, a qardaş, öz ejirimdi, çəkirəm. Get, gələndə deyərəm.

Bunnan da aralanır gedir. Bir qapı açanda görür burda da bir dənə taxt quruluf. Bir dənə cavan oğlandı, oturuf bu taxdın üsdündə, bir dənə qara ilan sallaşıf, bunun barmağını ağzına salıf sorur. Bir dənə də pis, eybəcər, cəhcəki qancıxdı, üzdən irağ, bax bunun taxdının ayağında "həy-həy" eliyə-eliyə ağzını atır ki, bunu tuta, tuta bilmir. Cəh-cəh cəngildiyir. Day səsinnən-küyünnən bezar olur. Deyir:

– Ay qardaş, bu nə işdi, bu qancıx nədi? Bunu vur, aralanıf getsin. Bu ilan nədi sənin barmağını sorur?

Deyir:

– Qardaş, qardaş, bu mənim ejirimdi. Get, gələndə deyərəm.

Nəysə, bunnan da aralanır, keçir gedir. Bir qapı açanda görür nənəsi oturuf. Nənəsi bunu görəndə qalxır:

– Ay oğul, xoş gəldin, beş gəldin. Niyə gəlmisən?

Deyir ki, ay nənə, bəs dədəmin padşahlıx nişanası olan üzüyü səndə gəlif, gəlmişəm üzüyü aparam. Bu, barmağınnan üzüyü çıxardıf verir. Deyir:

– Bala, dədəə deynən ki, nənəm dedi ki, üş günətən mənim yanıma donquz sifətində anqıra-anqıra gələjəh. Atan sənin ölümüvə çalışır. Nəyə bir belə sənə əziyət verir?

Nəysə, bu anasıynan halallaşır, hümbətləşir. Üzüyü alır, qayıdır geri. Gəlir həmən o barmağınnan ilan sallaşan oğlanın yanına. Deyir:

– De görüm, qardaş, bu nə cəzadı?

Deyir:

– Qardaş, o dünyada sağ vaxdı mən çox dostpərvər, tanış tutan, yeyən-içən bir oğlan idim. Görürsən, bu qancıx da mənim anamdı. Mən hər dəfə gedif dosdarımnan gəzif gələndə bu anam mənim günümü qara eliyirdi. Danışırdı, danışırdı, məni canımnan bezdirirdi. Bir gün mən gedif dosdarımnan gəzif gələndə bu nənəm başdadı mənnən dalaşmağa. Anam mənnən deyişən vaxdında dosdumun biri gördüm barının dalında məni çağırır. Mən anamın qorxusunnan səsimi çıxartmadım, barmağımnan belə elədim ki, belə gəl, xəlvətcə gedərəm. Anamnan gizdin elədiyim işə görə Allah-taala bu barmağımın cəzasın verir. İndi mən ölüf gəlmişəm bu dünyaya, mən gələn günnən bu ilan sallaşıf. Anamnan xəlvət belə eləməyimin cəzasıdı. Anam da ölüf, gəlif. Nə o dünyada mənə irahatdıx vermiyif, nə də bu dünyada. İndi o mənim anamdı. Nə onu döyə bilirəm, nə vura bilirəm. Get, qardaş, sənə dediyim odu ki, nə yaxşılıx bajarırsan o dünyada elə, bu dünyaya yamannıxnan gəlmə. O dünyanın ejirin bu dünyada alallar.

Burdan da gəlir həmən o saçınnan asılan kadının yanına. Deyir:

– Ay bajı, dərdin nədi, səni niyə odduyullar?

Deyir:

– Qardaş, bəs o dünyada mən qonşudan bir isdəkan yağ borc aldım. Nətər oldusa, onu qaytara bilmədim. Ajal gəldi, öldüm. İndi yağ yiyəsi gəlif bu dünyada yağın isdiyir. Mənə bu ejiri veriflər. Mənim davanımdan o yağ damcı-damcı süzülür tökülür, töküldühcə də yoxa çıxır. İndi neçə ildi ölüf gəlmişəm, nə isdəkan dolmur, nə də mənim canım azad olmur. O dünyanın ejirin bu dünyada çəkirəm. Get, səə nəsihətim budu

ki, o dünyada kimnən nə borc alsan, lap bir ibişka da olsa, qaytar. Bu dünyaya özünnən borc gətirmə.

Bunnan da halallaşır, düşür yola. Gəlir kol daşıyana. Deyir:

– Ay qardaş, bu nədi?

Deyir:

– Qardaş, o dünyada mən elə bir bəzzad uşağıdım ki, tay bir qonşunun qoymurdum çalı-çəpəri qala. Buyünnəri kolu qırırdılar, gətirirdilər, çəpərrərin çəpərriyirdilər. Ayna gedən təki odduyurdum, dağıdırdım, qonşu yenidən bir də qayırırdı. Qoymazdım bir qonşunun çəpərində bir kol-kos qala. İndi də ölüf gəlmişəm, çəpər yiyəsi gəlif kolun isdiyir. Yığıf topalamışam, apara bilmirəm. O dünyanın ejiridi, bu dünyada çəkirəm. Sənə də nəsiyətim budu ki, o dünyada bir bəndənin kolun-kosun tərpətmə.

Bunnan da ayrılır, gəlir yumurta daşıyana. Deyir:

– Ay qardaş, sənin dərdin nədi?

Deyir:

– Qardaş, mənim dərdim odur ki, o dünyada mən qoymurdum yeddi evli qonşunun biri bir toyuğunnan yumurta götürə. Pusurdum, toyuğ yumurtduyan təki yumurtasını oğurruyurdum. İndi də ölmüşəm, bu dünyada yumurta yiyəsi gəlif boynumun dalın kəsif, yumurtasın isdiyir. Mən yığıf topalamışam, indi bunu apara bilmirəm. Bunun hamısın gərəh birdən aparam. İndi o dünyanın ejirin bu dünyada çəkirəm. Səə də vəsiyətim budu ki, o dünyada bir bəndənin bir yumurtasın oğurrama. Nə yeyirsən, halallıxnan ye. Haram tikə boğazınnan keşməsin.

Bunnan da halallaşır gəlir. Çıxır həmən qapıya.

– Nənə, nənə.

Nənəsi hazır olur:

– Bala, gəldin çıxdın?

Deyir:

– Hə.

Deyir:

– Oğlum, min dalıma, yum gözü.

Minir nənənin dalına, gözün yumur. Deyir:

– Oğlum, gözü aç.

O vaxt gözünü açır ki, gəlif çıxıfdı işıxlı dünyaya. Gətirif üzüyü verifdi atasına. Atası görüf üzüh gəldi. Gənə də əlacı kəsilir. Deyir:

– Bala, anan nə dedi?

Dedi:

– Ata, anam dedi ki, gedif deyərsən atan sənin ölümüvə çalışır. Üş günə qədər donquz sifətində anqıra-anqıra mənim yanıma gələr.

Elə Allahın izniynən üş günətən atası pis sufatnan, əzab-əziyətnən ölür. Cəhənnəm olur gedir. El-oba da yığılır, bu balaja oğlu şah qoyullar. Ömürrərinin axırına qədər heylə şad-firavan devran keçirillər. Siz də bu dünyada devran sürün, arzularuza Allah çatdırsın. Sizi şərdən, böhtannan, namərtdərin pis zavalınnan qorusun. Nağılımız burda bitdi. Göydən üç alma düşdü. Biri mənim, biri Narış nənənin, biri də nağıl danışanın. Yerdə qalan da sizin. Aparın bölüşdürün.

## NARXATIN

Bir arvadın yeddi oğlu varmış. Bu oğlannar bajı isdiyirmişdər. Deyirmişdər ki, ana, elə olsun, bizim bir bajımız olsun. Allahın izniynən kadın hamilə olanda, kadının vaxdı yaxınnaşanda oğlannarı deyir:

– Ana, biz gedirih səyahətə. Biz gəlincə əgər sənin qızın olsa, evin üsdünə bir ələk bağlıyarsan. Biləjeyih bajımız oluf, gələjeyih. Oğlun olsa, ox-yay bağlıyarsan. Oğlun olsa, gəlmiyəjeyih. Biz bajı isdiyirih. Bajımız olsa, gələjeyih, olmasa, gedəjeyih qərib diyara.

Bular gedənnən soora Allahın əmriynən bu arvadın bir qızı olur. Arvad durur evin üsdünə ələk bağladır. Allah heş bəndəyə xayın, paxıl qonşu qismət eləməsin. Bunun da bir paxıl qonşusu varmış. Bu arvad evə gəlif girən təki bu qonşu gedif ələyi açır, yerinə ox-yay bağlıyır. Bu oğlannar ovdan qayıdanda görür evin üsdündə ox-yay var. Deyir: "Hə, gənə qardaşımız olufdu. Tay biz getmirih evə". Burdan bu oğlannarın yeddisi də qoşulur, gedir uzax bir ölkədə, bir dev məkanında bir kahada məskən salıllar. Bir dənə qəşəh qızıləhmədi alma təmizdiyif, ipəh yaylığa büküf qoyullar bura. Günüz gedif gəzillərmiş, axşam gələndə deyirmişdər: "Bajımızı gətirin, bir bajımızı qoxluyax, iyliyəh". Bu almanı bular bir-bir öpürmüş, iyliyirmiş, gənə büküf yaylığa aparıf qoyullarmış sandığa ki, bu, bizim bajımızdı. Bu almadan bajı iyi alırmışdar. Bir belə bajı həsrəti çəkirmişdər. Gündə buların biri qalıf yeməh-işməh hazırrıyırmış, altısı gedif ceyran-cüyür ovluyurmuş, burda belə günnərin keçirirmişdər.

Vaxt olur, bu qız böyüyür on beş-on altı yaşına çatır. Bunun anası da ölür, atası da ölür, qalır yetim. Bircə dənə danası qalır. Bu qız günün ancax bu danaynan keçirir. Səhərdən axşamatan bu dananı hamarrıyır, tumarrıyır, otarır, suyun verir, otun verir. Dədə yox, nənə yox, bajı yox, qardaş yox, tək bir qız bir evin altında günün danaynan keçirir. Qəfil gəlir bu dana

yıxılıf ölür. Dana öləndə bu qız durur dananın qarnın aparıf suda ağlıya-ağlıya yuyur ki, Allah məni hər şeydən eləmişdi, bir danam vardı, danam da öldü. Deyəndə bir qarğa gəlir qonur bu bulağın başına, qarıldıyır. Qızın da adı Narxatın olur. Deyir:

– Narxatın, niyə ağlıyırsan?

Deyir:

– Ay qarğa, ağlamıyım neyniyim? Atam öldü, anam öldü. Bir danam vardı, o da öldü. Heş kimsəm yoxdu, – deyəndə deyir:

– Narxatın, sənin yeddi qardaşın var, heylə demə.

Deyir:

– Hanı mənim yeddi qardaşım?

Deyir:

– Sənin yeddi qardaşının yerin mən bilirəm. O vaxdı belə-belə oldu, sənin qardaşdarın bajı ujunnan başdarın götdülər qərif diyara getdilər.

Qarğa deyir ki, sən o qarnı ver mən yeyim, mən səni aparım qardaşdaru yanına. Deyəndə deyir:

– Əgər düz deyirsənsə, verərəm.

Deyir:

– Get bir torba buğda gətir. Torbanın da altınnan deşih qoy, torbanı bağla mənim ayağıma, ver o qarnı da mən yeyim.

Dananın qarnın verir, qarğa yeyir. Buğdanı bağlıyır bunun ayağına. Deyir:

– Mən göynən uçajam, buğda töküləjəh yerə. Buğdanın iziynən gəl, səni düz aparıf qardaşdarına çatdırajam.

Bu qarğa göynən uçur. Buğda töküldühcə buğdanın iziynən gedir, gəlir çıxır qardaşdarının yaşadığı kahaya. Deyir:

– Sənin qardaşdarın burda yaşıyır. Qardaşdaru altısı ova gedif, biri də budey, evdə yatıf. Daa burdan beləsi sənin öz işindi.

Qız deyir ki, birdən-birə gedif çıxmaxnan bular məni özünə bajı kimi qəbul eləməz. Qoy buları hələ bir yoxluyum, görüm bular gerçəhdən bajı həsrəti çəkir, yoxsa qarğa məni

alladır. Bu gizdənir bir yerdə. Axşam oldu, altı dənə bir-birinnən boylu-buxunnu qardaşdarı gəldi töküldü. Baxırsan hərəsi bir cəngavər təki. Deyir: – "Allah, bular yanı mənim qardaşdarımdı?" Baxır, görür bular gəldi otdu. Bu yatan qardaş durdu surfa saldı, bulara çay-çörəh qoyanda böyüh qardaş dedi:

– Dayanın, əliizi saxlıyın. Hələ çörəh yeməmişdən dur bir bajımızı gətir, bajımızı qoxluyax, iyini ürəyimizə çəkəh, onnan sohra yeməyimizi yeyəh, – deyəndə balaca qardaş getdi bir sandıxca aşdı, qırmızı yaylığın içinnən bir dənə qırmızı alma çıxartdı gətdi. Bular bir-bir bu almanı iylədi, öpdü, ötürdü ona. Bu yeddi qardaşın yeddisi də bu almanı iylədi, gənə bükdülər qoydular sandığa, başdadılar çörəhlərin yeməyə.

Deyir:

– Hə, doğurdan da, bu qardaşdarım bajı həsrəti çəkir.

Sabah olur. Gənə qardaşın altısı gedir, biri qalır. Bu gözdüyür, gözdüyür, görür ki, qardaşın yuxu tutdu, yatdı. Yuxu tutuf yatan təki gedif bu kahanı silir, süpürür. Kişi əliynən kadın əli bir deyil. Kadın əli dəyən yer gür-gümüş olur. Bu kahanı yuyur, təmizdiyir, silir-süpürür, ov ətinnən ləzətti bir yemək bişirir, qoyur ojağın üsdünə. Özü də bir az yeyir, gedir gənə gizdənir.

Axşam olur, qardaşdar gələndə deyir:

– Ə qardaş, bu ev-eşih nə gözəldi, burdan gül-çiçəh iyi gəlir.

Deyir:

– A qardaş, mən təmizdəmişəm.

Deyir:

– Hələ indiyətən biz belə şey görməmişdih. Bu təmizdih, yeməhdə bu dad, bu nə olan şeydi?

Bu deyir ki, mən eləmişəm, bura dev məkanıdı, bura kim gəlif, kim gedə bilər? Nəysə, bular gənə gətirillər, bu almanı iyliyillər, yeyif-içif yatıllar. Səhəri gənə belə, üçüncü günü gənə belə. Dördüncü günü dördüncü qardaş qalanda deyir:

– Vallah, burda bir sirr var. Mən yatmıyajam, görüm bu nə sirdi? Qardaşdarım doğurdan özdəri bişirif, yoxsa yox? Axı yeməhdə bu dadı, ləzzəti indiyətən biz görməmişdih.

Bu oğlan özün yuxuluğa vurur, görür, hə, yavaşcadan qapı açıldı. Evə bir gözəl-göyçəh qız girdi. Bu, evi-eşiyi yudu, sildi-təmizdədi, yeməyi bişirdi, qoydu ojağın üsdünə. “Özüm də çıxım” – deyəndə, oğlan qalxır bunu tutur.

– De görüm, sən kimsən? – deyəndə deyir ki, mən sizin bajınızam. Mən dediyim təki nə var hamısını nağıl eliyir buna. Deyir ki, mən sizin bajınızam, atamız da öldü, anamız da öldü, məni bir qarğa gətirif bura çıxarıf. Sizin həris bajınız mənəm.

Deyir:

– Onda, bajı, sən get gizdən, qoy qardaşdarım gələndə mən muşduluxluyum oları. Sən birdən-birə oların qavağına çıxma.

Deyir:

– Yaxşı. Mənim də gizdənməyimin məqsədi odu ki, birdən-birə sizin qarşınıza çıxmıyım.

Qız gənə gizdənir. Qardaşdarı gəlir, surfa salıllar. Böyüh qardaş deyir:

– Əlizi saxlıyın, gedin bajımızı gətirin.

Gətirir bu almanı iyliyə-iyliyə, qoxluya-qoxluya ötürüllər, nöybə gəlif qızı görən qardaşa çatanda bu, almanı dişdiyir. Dişdiyif yeyəndə qardaşdarın buna ajığı tutur ki, ə, vijdansız, adam da bajısın dişdiyər? Niyə dişdədin sən onu? Axı, o, bizim bajımızdı. Deyəndə deyir:

– Ə, qardaş, dəli olmuyun. Bu almadan bizə bajı olan dəyil. Bizim özümüzün bajımız var, gəlif çıxıfdı.

Durur gizdəndiyi yerdən qızın qolunnan tutuf gətirir. Deyir:

– Bizim bajımız budu.

Qız başına gələn əhvalatı nağıl eliyir. Deyir ki, o vaxdı ələyi xayın qonşu dəyişdirifdi. Anam-atam öldü, məni də qarğa gətirif bura çıxarıfdı. Bular sevinir. Bajıların gözdərinin içi təki sax-

lıyıllar. Gedəndə deyillər ki, bajı, biz gedirih, bura dev qismidi. Birdən nə badə biz gəlməmiş qapını kiməsə açasan, nə də bir yana çıxasan. Dev vilayətidi bura. Səni görəllər, götürər gedəllər.

Bu qızın da bir pişiyi olur. Bir gün qız ət doğruyanda pişih gəlir onun yanında o tərəfə, bu tərəfə gedir. Bir tikə götürəndə qız pişiyin burnunun üsdünə vurur ki, tikəni niyə götürürsən, hər qardaşıma bir tikədir. Bu pişiyə ajıx gedir. O vaxdı da yanacax yoxuymuş. Közü küllə basdırıf od saxlıyırdılar. O odnan üfürə-üfürə ojax yandırarmışdar. Külün içində bircə dənə köz varmış. Pişiyin ajığı tutur, gedir külü eşəliyir, közün üsdünə işiyir, közü söndürür. Qız gəlir ojağı qalamağ isdiyəndə görür köz sönüf. – "Ay Allah, neyniyim, nətər eliyim? Qardaşdarım gələjəh, aj qalajax. Közü hardan alım, ojağı nətər yandırım?" Durur o tərəf, bu tərəfə baxır. Görür ki, uzaxdan bir tüsdü gəlir. Deyir: "Hə, gedim qardaşdarım gəlməmiş o tüsdüdən bir od gətirim ki, qardaşdarım gəlincə ojağı yandırım, yeməyi bişirim".

Durur gedir, gedir, gedir. Gəlir görür ki, bura bir devin məkanıdı. Qapını açır, görür burda bir qız saçınnan asılıdı. Bu qızı açır, yerə qoyur. Deyir:

– Ay bajı, bu nədi?

Deyir:

– Ay bajı, sən hara, bura hara? Bura bir devin məkanıdı. Dev mənə zulum verir, qaş, burdan canını qurtar. Dev gəlsə, səni də mənim günümə salajax.

Deyir:

– Bajı, bəs mən gəlmişəm od aparam.

Deyəndə deyir:

– Vallah, bajı, dev közü sanıyır qoyur, mən onu verə bilmərəm. Get ordan bir balta gətir, o közün birin böyrünnən kəs götür. Da bütöy verə bilmərəm. Dev gəlif sanıyajax, köz kəm olsa, məni o köznən dağlıyajax ki, kim gəlif gedif.

Bu közdən bir az kəsir, qoyur əysinin arasına. Alır, üfürə-üfürə düşür yola. Qızın civində də bir ip yumağı olur. Qapıdan çıxanda ip yumağının uju ilişir qapının kandarına. Qapını örtür,

ipin uju qalır qapıda. Qız gedir, yumax çözələnir, qız gedir, yumax çözələnir. Tay gedir evə, ojağı yandırır, yemək bişirir.

Bu burda öz işində olmaxda olsun, görəh dev nağayrır? Dev gəlir bura, deyir:

– Burdan adam-badam iysi gəlir, yağlı badam iysi gəlir. Qız, de görüm, bura kim gəlif?

Qız deyir:

– A dev, sənin qorxunnan bura quş gəlsə, qanad salar, qatır gəlsə, dırnax salar.

Bu gedir, közü sanıyır, görür köz hamısı düzə-düzdü. Amma bir közün böyrünnən kəsilif. Deyif:

– Bura kim gəlif, de! Közün böyrünnən kəsilif.

Dev ora-bura baxanda görür qapıda ip yumağının uju. Bu yumağı alır əlinə, sarıya-sarıya gəlir. Gəlir bu yeddi qardaşın kahasına. Qapını döyür. Qapının yeri varmış. Qız burdan baxır ki, devdi. Deyir, ay dadi-bidad, qapını aşsam, dev məni yeyəjəh. Deyir ki, yox, qardaşım gəlmiyincə qapını aşmaram. Dev deyir ki, qız, qardaşdarınnan səə məytuf gəlif. Bax, bu üzüyü qardaşdarın sənin üçün göndərif. Barmağu çıxart, bu üzüyü taxım barmağuna, qardaşdarınnan nişanədi. Deyəndə qız barmağını qapının deşiyinnən çıxardanda dev bu qızın barmağın salır ağzına, o qədər çeyniyir, sorur, qızın bütün bədənin qanın sorur. Qız huşun itirir, yıxılır qalır burda.

Axşama qədər qız qalır elə heylə ölü vəziyyətdə. Axşam qardaşdarı gəlir, qapını açıf görüllər nə! Bajıları behuş halda yıxılıf bunnan ona. Ay Allah, nətər eliyəh, nejə eliyəh? Nəysə, bajılarını ayıldıllar.

– A bajı, sənə noldu?

Qız başına gələn əhvalatı qardaşdarına deyir. Deyir:

– Bajı, bəs sənə demədih bura dev məkanıdı, burdan sən heş yana çıxma?

Deyir:

– Qardaş, nə bilim, sizə qıymadım da. Gələrdiz, aj-susuz qalardız.

Deyəndə deyir ki, yaxşı, belə oldu, oldu. Evin içinnən bir quyu qazıllar. Bu quyunun içinə oxdan-qılışdan o qədər doldurullar ki, üsdünü də örtüllər, gəvəynən, xalıynan bəziyillər. Deyillər, devi qonax çağırax. Bu devi qonax çağırıllar. Ay burdan otur, ordan otur. Dev ayağını atan təki düşür quyuya. Bu quyuda nizələr batır bunun qarnına. Qılış bunu doğruyur, burda ölür. Devi burda basdırıllar. Deyillər ki, bajı, elə elə bu dev basdırılan yerə su damcısı düşməsin. Əgər bir damcı su düşsə, bu dev diriləjəhdi.

Nəysə, bu qız bir müddət burda ehtiyatnan işdiyir. Bir gün qız evə su çiliyəndə gedir dev basdırılan yerə iki damcı su düşür. Su düşəndə hər damcının yerinnən bir dənə qəşəh gül bitir. Bu gülləri qopardır, deyir: "Nə gözəl güldü, gələndə verərəm qardaşdarıma". Gətirir gülləri saxlıyır. Qardaşdarı gələndə deyir:

– Qardaş, burda hərrənirdim. Daşın divində qəşəh güllər bitmişdi.

Bunun hərəsin verir bir qardaşına. Birin böyüh qardaşına, birin kiçih qardaşına. Bular gülü alır, iyliyən təki bu gülün hərəsi çevrilir olur gözəl bir qız. Bajıları deyir ki, madəm qardaş, belədi, bu qızdarnan evlənin. Bu qardaşdar devdən əmələ gəlmə qızdarnan evlənillər.

Bular bir müddət belə dolananda həmən gəlinnər – dev cinsinnəndi axı, – başdıyıllar qıza düşmançılıx bəsləməyə. Neyniyəh, nejə eliyəh bu qıza? Bu qız da hər axşam mənim təki qurtum-qurtum su içərmiş. Bir gün bu gəlinnər qavda-qaşığda nə qədər su var hamısın boşaldıllar, qoymullar qavda su qala. Narxatın yatır. Gejə bərk susduyur.

– Susunnan dilim yanır, – deyəndə gəlinin biri deyir ki, Narxatın bajı, durum su gətirim saa. Deyir:

– Hə.

Durur gedir çömçəquyruxlu sudan qavı doldurur, gətirir verir. Narxatın içir. Bu qurbağalar gedir bunun qarnında böyüyür. Qarın şişir, eybəcər hal alır. Qardaşdarı deyir:

– Bajı, de görəh hamiləsən, nədi?

Bu and-aman eliyir ki, ay qardaş, vallah, mən dünyada sizdən başqa naməhrəm üzü görməmişəm. Heş mən hamilə də deyiləm. Nəysə, bu belə bir dərtdi. Bu arvatdar qardaşdarın başın yeyir. Bular da deyir:

– Bajımız onsuz da nə ölüdü, nə diri. Öldürə də bilmirih. Bunu götürəh aparax uzax bir yerə tulluyax, ölsə də, orda ölsün, gözümüz görməsin.

Nəysə, durullar, bu bajılarını qoyullar atın belinə, aparıllar. Yeddi yolun ayrıcında qoyullar yerə, deyillər:

– Bajı, sən otur burda, biz gedəh ovluyax-quşduyax, gətirəh.

Bular oraynan hərrənif qayıdıf gəlillər öz yerrərinə. Qız bir gün, iki gün qalır. Nəysə, bu yolnan bir çoban keçirmiş, qoyun otarırmış. Görür bir zarıltı gəlir. Elə belə hərrənəndə görür gözəl bir qızdı, bunun qarnı şişif oluf təpə. Bunun başı da təbabatdan çıxırmış. Qızı götürür gətirir, bunun qarnın yarır. Görür nə? Qızın qarnında ilan-qurbağa balalıyıf. Bu qızın qarnında nə var tamam boşaldır, təmizdiyir, dərmannıyır, tikir. Qızı sağaldır. Qız olur əvvəlki Narxatın. Qız burda tamam sağalır. Çoban ona deyir ki, Allah səni mənim qismətimə yetirif. Elə gəl mənnən evlən. Mənim də bu gen dünyada tək canımdı, bu qoyunnan, malnan günümü keçirirəm. Qız baxır görür ki, tay əlacı yoxdu, razılığ verir. Cobannan evlənir. Gəlir çobannan bunun bir dənə oğlu olur.

Qız bir gün çıxıf qəlvi yalda oturmuşmuş. Görür qardaşdarı odurana, yeddi atdı gedir ova. Deyir, hə, demək, mənim qardaşdarım bu səhralara gəlir. Uşax gəlif dörd yaşına çatmışmış. Bir gün bu, çobana deyir:

– O gedən atdılar kimdi?

Çoban deyir:

– Bu səmtdə yeddi qardaş yaşıyır. Həmişə gəlillər buralarda ceyran-cüyür ovluyuf gedillər.

Qavaxlarda uşaxlar aşıx-aşıx oynuyurdular. Bu, iki dənə aşıx qayırır, verir oğluna, deyir:

– Gedərsən o yeddi yol ayrıcında oturuf aşığ-aşığ oynuyarsan. O yeddi qardaş gələndə deynən, gəl aşığ-aşığ oynuyax. Oynuyanda deynən:

Aşığım, toxan dur,
Aşığım, toxan dur.
Yeddi dayının kimsəsiyəm,
Narxatının törəməsiyəm.

Bu sözü yadında saxla. Onda sənnən soruşajaxlar, deyərsən, mənim yeddi dayım var, Narxatın addı anam var. Olar görəh səə nə deyəjəhlər.

Nəysə, bu uşağı örgədir, yola salır. Uşax gedir yolun ortasında oturur, başdıyır aşığ-aşığ oynamağa. Yeddi qardaş da gələndə uşağa həvəsiyir.

– A oğul, kimin oğlusan, nə iş görürsən?

Deyir ki,

Aşığım, toxan dur,
Aşığım, toxan dur.
Yeddi dayının kimsəsiyəm,
Narxatının törəməsiyəm.

Deyəndə olar deyir:

– Ay oğul, onu bir də de görüm.

Bir də deyəndə deyillər:

– Bala, Narxatın kimdi, yeddi dayın kimdi?

Deyir:

– Mənim yeddi dayım olur, anamın başına bu müsibəti açıllar. Anam yaşıyır, bir çovannan evlidi, mən də onun oğluyam.

Bular deyir:

– Bizi anaan yanına götürərsənmi?

Bu deyir:

– Götürərəm.

Bu, dayılarını gətirir. Baxıf görüllər ki, həmən bajılarıdı, sappasağlam, nə şişi var, nə köpü. Bunnan hal-əhval tutullar. Qız başına gələni deyir. Deyir:

– Qardaş, bəs o güllər devin qavrında bitmiş güldü. O qızdar həmən güldən əmələ gəlif. O qızdar məə düşmançılıx elədi, məə qurbağa çəmi olan su verdilər. Onnan da qurbağa mənim qarnımda böyüdü, şişdi. Çovan gətdi qarnımı aperasiya elədi, təmizdədi, onnan da evlənmişəm, o da mənim oğlumdu, – deyəndə deyillər hə, demək, o devin duşmançılığı bizdən getmiyif də. Qardaşdar gəlif bu arvatdarın öldürüf aparıf kənar bir yerə tulluyullar. Bu qızdarın qanınnan dağa-daşa sıçrıyır. İzin alıf bajıların gətirillər. Bajı-qardaş burda başdıyıllar dolanmağa.

Yazın tayçıx vaxdıymış. Ot, pencər bitən vaxdında qız görür daşın divində bir topa göy pencər bitifdi. Yığır, deyir: "Allah haqqı, bunu aparıf bişirəjəm, qardaşdarım yesin. Nə gözəl pencərdi bu". Bu şomunu* yığır, gətirir bunu qəşəh doğruyur, qavırır, qoyur qardaşdarına. Az olur deyənə bunnan heş dilinə vırmır. Deyir, dəyməyim, qoy qardaşdarım yesin doysun, mən yavan çörəh də yeyərəm. Axşam olur, bunun qardaşdarı gəlir. Gəlir oturullar, gətirir buların qavağına qoyur. Bu pencərdən qardaşdarı yeyən təki hamısı dönür olur qoyun. Bu qız başdıyır ağlıya-ağlıya: "Ay dadi-bidad, bu devin qanı hələ burdan getmiyif". Günüz axşama qədər ağlıya-ağlıya bu qoyunnarı qatır qavağına, aparır otarır, axşam gətirir yığır kahaya. Bir müddət belə-belə. Bir gün də aparıf qoyunnarı otardığı yerdə bir nurani şəxs, başına döndühlərimdən, – hər vaxdı səması gözümüzə görüksün (söyləyici salavat çəkir – top.), – gəlir, buna deyir:

– A qızım, niyə ağlıyırsan?

Deyir:

– Bəs, ay ağa, Allahdan gizdi deyil, bəndədən nə gizdin. Bu yeddi qoyun mənim qardaşımdı. Bulara bir pencər bişirmişəm, yeyən təki hamısı oldu qoyun.

Deyir:

------------------------

* Şomu – ispanaq

– Qızım, dinmə, mən sənin qardaşdaru öz halına qaytarajam. Amma mən qardaşdarın hərəsin belinə bir agaj vurajam, sən qəti “uf” eləmə. “Uf” eləsən, olmuyajaxdı.

Ağacı götürüf bu qoyunnarın belinə vuran təki çörükür adam olullar. Ən balaja qardaşın o qədər çox isdiyirmiş ki, balaja qardaşın vuranda qız deyir:

– “Uf”, elə bil öz belimə dəydi, – deyəndə elə helə də qoyun qalır. Ağa qıza deyir:

– Gözu yum.

Qız gözün yumur, bunu ikinci dəfə bir də vurur. Bu yeddi oğlanın yeddisi də gənə heylə öz halına qayıdır. Bajıların da götürüf gəlillər öz ata yurtdarına.

Cəmi ata-ananın yurdunda Allah-taala oğul evladın yurdçu eləsin, sizi də öz ataza-anaza gözü dolusu versin mənim oğlannarımnan birlihdə. Allah heç atanın yurdun oğulsuz, heç ananın gorun qızsız eləməsin. Cəmi bəndənin evladın versin, taysızdarın tayın versin, paysızdarın payın versin. Ramazan ayı xatirinə, cəmi bəndələrin arzu-diləyin hasil eləsin, yol üsdündə olannarı yolların qəzasınnan qorusun, səfərə gedənnəri Allah-taala Museyi-Kazımın zamınına versin, qəriblikdəkiləri qərib İmam Rzanın zamınına versin, hamının urzasın bol, canın sağlam eləsin.

## HURİ QIZI

Bir gün bir vilayətdə kasıf bir oğlan varmış. Bu oğlanın da var-qərəl bircə anasıymış, bir özü. Bu oğlan da elə kasıf-mış... Bir daxalı varmış, qarğu daxal. Bura yüz sərçəni qısna-san biri qalmazmış. Hamısı uçux-söküh. Bircə dənə qırıx təh-nəsi, bir dənə də qara hisdi qazanı, bir-iki dənə kəfrəm* mitili varmış. Gün üzü gedif orda-burda kəndin keçisin, danasın ota-rırmış, bircə belə çörəh tapıf gətirif anasıynan yeyif-yatırmış.

Bir gün durur deyir:

– Ay ana, gedif mən də balıx tutum gətirim, qoy dişimizi dəyişəh.

Anası deyir:

– Yaxşı.

Bu gedir balıx tutanda görür çayda gözəl bir qız çimir. Bu qızın paltarın götürür gizdiyir. Qız çıxanda, gəzif paltarını tapmı-yanda deyir:

– Kimdi mənim paltarımı oğurruyan?

Oğlan çıxır deyir ki, sənin paltarını mən oğurramışam, nətər olur-olsun, mənnən evlənməlisən. Bu qız deyir:

–Mənnən sənə yar olmaz. Mən pəri qızıyam, mənnən əl çək.

Deyir:

– Yox ey. Mələk qızı olma, lap – əstafirillax, – Allahın qızı ol, sənnən əl çəkən deyiləm.

Bu qızın da paltarına naməhrəm əli dəydiyi üçün deyir:

– Mənim paltarıma sənin əlin dəyif, mənim əlacım yoxdu, heş yana gedə bilmərəm.

Qız razı olur bunnan evlənir. Gəlir görür nə? Ev dəyil bura. Qız evin uçux-söküyün palçıxnan, daşnan tutur, hisdi qazanı sürtür, pencərdən-əncərdən bişirir.

Bir az burda gün keçirillər. Bir müddətdən sohra bu oğlanın anası Allahın verdiyi ömrü bitirif ölür. Öləndə bu qız qaçır, taxça varmış, çıxır bu taxçanın üsdünə. Oğlan baxır:

--------------------

* Kəfrəm – yorğana, döşəyə salınan ilk üz

– Ay Allah, bu nətər olan şeydi! Mənim anam ölüf, arvadım taxdın belinə minif. Bu nətər şeydi?

Arvadın cinazasını yerdən qalxızanda bu qız bərkdən qaxqanax çəkif gülür. Güləndə bu oğlan lap pərt olur.

– Anam öldü, anamın meyidinə əl vurmadı, getdi taxdın üsdündə oturdu. İndi də anamın cinazası qalxır, əlini əlinə vuruf gülür. Gedim, qayıdıf gələndə bunun hesabın çəkəjəm.

Gedir nənəsin dəfn eliyir. Qayıdıf gələndə deyir:

– Gəl burda otur, görüm sən nəyə görə mənim nənəm öldü, taxdın belinə çıxdın? Mənim nənəmin cinazası qalxdı, niyə güldün?

Deyir:

– Oğlan, mən sənə dedim ki, sənnən mənimki tutan deyil. Mən mələk cinsiyəm. Sənin anan öləndə Azreyil o qədər əzab-əziyətnən onun canın aldı ki, onun qanı hər tərəfə çiləndi. Mən qaşdım qırağa durdum ku, onun qanı mənim üsdümə dəyməsin. Onun qanı sənin gözüvə görükmədi, mənim gözümə görükdü. Sənin nənən bir belə ömür sürüf, bir adama bir şey vermiyif. Tək bircə cüt köhnə çarıx dilənçiyə verif, bir də qonşuya bir dənə qırıx süpürgə kötüyü verif. Nənənin cinazası qalxanda o çarıxnan süpürgə gəldi sallaşdı onun cinazasınnan. Mən ona güldüm ki, bu adamın bir belə yaşında elədiyi yaxşılıx bir cüt çarıx oluf, bir də qırıx süpürgə.

Oğlan deyir:

– Düz deyirsən, nənəm əligöy* adam oluf.

Bir müddət belə ömür sürəndə qız deyir oğlana ki, hamı gedir alver eliyir, özü üçün bir bəlgə topluyur. Sən oturmusan burda, heş-zad yox. Sən də get bir qazaş gətir.

Bu deyir:

– Bəs səni tək qoyum?

Deyir:

– Mənnən niyaran olma, sən get.

--------------------------

*Əligöy – xəsis

Bu gedir bir yerdən sələmə pul götürür. Gəlir əmisi oğlannarına deyir ki, əmioğlu, məni də götürün, mən də gedim siznən qırağa alverə. Əmisi oğlannarı deyir: "Biz getmirih, ala atımızı verəh, sən get". Bu əmisi oğlannarının atın alır, azdan-çoxdan yüklüyür ata, çıxır gedir başqa bir ölkəyə qazaş dalınca.

Bu qız gedirmiş birinin paltarın yuyurmuş, birinin qapısın süpürürmüş, belə dolanırmış. Nəysə, günnərin bir günündə şər qarışan vaxdı, qız görür qapı döyülür. Qız qapını açanda görür nurani bir kişidi, tay qojalıxdan az qalır ağzı yerə dəyə. Deyir:

– Ay qızım, məni Allah qonağı...

Qız da o qədər ürəyi təmiz, Allaha yaxın bəndeymiş ki. Deyir:

– Ay baba, Allaha qurban olum, qonağına da. Amma özün bilirsən, bu kəndin camaatı bir cürədi. Evimdə kişi xeylağı yoxdu, evdə tək kadın mənəm. Səni qonax saxlasam, mənim adıma yüz şey deyəllər. Get, qonşuda ərimin əmisi uşaxları var, olarda qonax qal.

Deyir:

– Ay qızım, bütün şəhəri gəzmişəm, məni qonax saxlıyan yoxdu. Mən səə nağayranam? Varın-döylətin yoxdu, duram oğurruyuf aparam. Mən özüm nəyəm? Bir yerdə itələsən, beş yerdə başım yerə dəyər. Elə beyjəlih burda daldalanım, sabah ertə çıxıf gedəjəm.

Qız baxıf görür elə gerçəhdən də bunun nəyini oğurruyuf aparandı? Nə də ki bu kişidə nə hərəkət var, buna heş bir şey eliyən deyil. Deyir:

– Baba, nə deyirəm, gəl.

Bunu gətirir, evində olan kəfrəmnən-zaddan buna yaxşı yer düzəldir. Gün üzü işdiyif gətdiyi çörəyi gətirif bunun qavağına qoyur. Yeyir-içir, durur yer qayırır. Kişini rahat eliyir, kişi yatır. Qız da kəfrəmə bürünür, başını söyküyür divara elə burda bunu yuxu tutur, yatır. Gejənin bir aləmində görür ki, bu qoja əlini bunun üsdündə-başında gəzdirir. Qızın ürəyinə başqa şey gəlmir də. Deyir:

– Baba, nədi? Çölə getməh isdiyirsən, yolu tapmırsan?

Deyir:

– Hə, qızım, çölə getməh isdiyirəm, qarannıxdı, qapını tapmıram.

Qız durur bunun əlinnən tutur, aparır çölə. Haftafasını verir, deyir:

– Get, baba.

Bir azdan qızı bir də yuxu tutanda görür bir də.

– A baba, nədi, gəlmisən, yeru tapmırsan?

Deyir:

– Hə, qızım, gəlmişəm, qarannıxdı, yerimi tapbıram.

Qız durur bunu aparır yerində simsar eliyir, yatırdır gəlir.

Nəysə, sabah açılır. Qız tezdənnən durur gedir ojağın qalıyır, üsdünə haftafanı qoyur ki, qaynadım, bu kişiyə bir tikə çörəh verim, yol adamıdı. Bunun çöldə başı qarışanda – bu, Allah-taala tərəfinnən gəlmiş adamdı, – yox oluf gedir. Qız qayıdır görür ki, bu kişi yoxdu. Ay Allah, bu kişi hara getdi, buna çay qaynadırdım. Ay baba, nejoldun? Ora-bura, kişi yoxa çıxır. Bu gəlir evini-eşiyini yığışdırır. Yeri yığışdıranda görür bu kişinin başının altında bir belə kisə dolu qızıl qalıf. Durur bu kəndi qaçır bu tərəfə, o tərəfə: "Ay Allah, bu kişi yadınnan çıxdı qızılını qoydu, getdi". Görür kişi yoxdu. Deyir, qoy dursun, yadına düşüf qayıdıf gələrsə, verərəm.

Axşam olanda bu durur kişinin torbasın boşaldır, boş torbanı qoyur öz başının altına, yatır. Sabah ertə duruf yerin yığanda görür torba gənə doluf qızılnan. Deyir:

– Hə, bu məə urza verməyə gələnmiş. Bu elə-belə yolçu deyilmiş, başına döndühlərimdənmiş.

Bu qız hər axşam torbanı boşaldır başının altına qoyur, səhər ertə duruf götürəndə görür doluf qızılnan. Bu qız deyir, daa belədi, mən niyə bu qızılı sərf eləmirəm? Usda gətirir, imarat başdadır. Padşahlara layax imarat tikdirir, barı çəkdirir, darvaza asdırır. Nökər tutur, qulluxçu tutur. Daa şahlara layax güzaran yaradır.

Oğlanın əmisi oğlannarı başdıyır buna xayınnıx eləməyə. Bu qızı nə qədər pusullar, görələr bu qız nə yolnan bu pulu qazanır, bu qızda bir xəyanət görmüllər.

Vaxt gəlir, oğlan gələndə gəlir düşür, məsəlçün, Ağcabədidə. Ordan sifariş göndərir əmioğlannarına ki, at gətirin, gəlin məni aparın. Bunun əmisi oğlannarı qaşdı-qavaxlı gedəndə deyir:

– Əmioğlannarı, niyə beləsiniz?

Deyir:

– Əmioğlu, heş demə. Kaş elə öləydin qalaydın, gəlmiyəydin bu vilayətə. Belə bir hayasız, belə bir pozğun bir ləçər gətirif qoymusan. Sən gedənnən qırx lotuları yığır başına. Qırx lotunun puluynan belə imarət tikdirif, belə dəm-dəsgah yaradıf. Heş getmə ora.

Deyir:

– Mən inanmaram, mən ora gedəjəm, onu gözümnən görəjəm.

Gələndə baxır görür burda bir dəmdəsgah yaranıf, heş padşahlarda yoxdu. Qalır belə. Nətər eliyim? Daa qıza açıf demir. Əmisi oğlannarı da bunu gündə örgədir: "Əmioğlu, bu arvadı öldür, namusumuzu təmizdə". Bunun ta gejəsin-gündüzün qara eləmişdər. Bu, nəysə, gəlir bir gün qıza deyir:

– Neçə vaxdı getmişdim, yerimnən-yurdumnan ötrü çox darıxmışam. Bir gedəh gəzəh, dolaşax.

Qız deyir:

– Madam heylədi, nökər-nayib çağırım, dəsdə-tifağlı gedəh.

Deyir:

– Yox, bir sən, bir də mən getməliyih. Mənə heş kəs lazım deyil.

Qız deyir:

– Nətəri ürəyin isdiyir heylə.

Qız durur bunnan gəlir. Bir dərə varmış, bura Quru dərə deyirmişdər, bunun diviynən bir karvan yolu gedirmiş. Yara-

nannan bura su-zad görmüyən bir yer imiş. Gəlillər, bu dərənin döşündə oğlan deyir:

– Burda oturax.

Qız deyir:

– Ay oğlan, gözəl meşələr, gözəl bulaxlar qalıf, su yox, sel yox, quru torpağın üsdündə nə edəssən?

Deyir:

– Yox, nəysə buraları ürəyim çox isdiyir. Elə burda oturax.

Qız deyir:

– Sən nətər bilirsən, elə olsun.

Oturur burda. Yeyillər-içillər, ordan-burdan bir az söypət eliyənnən soora qız deyir:

– Yaman yoruldum, yuxum gəldi.

Deyir:

– Yuxun gəldi, yat, bir az dincəl, onnan sohra gedərih.

Qız başın qoyur oğlanın dizinin üsdünə, yatanda oğlan fürsəti vermir. Xançalını çıxardır, qızın ürəyinin başınnan vurur, öldürür. Deyir:

– Bunu öldürdüm, qayıdıf gedim, o vara-döylətə başımı söyküyüf yeyəjəm ömrümün axırına qədər.

Qayıdıf gəlir, görür nə? Lələ köçüf yurdu boşdu. Nejə gedəndə cırıx daxmanı qoymuşdu, qırıx təhnə, hisdi qazan, iki-üş də kəfrəm. Qalan hər şey yoxa çıxıf. Bir başına döyür, bir gözünə, gəlir.

– Ay əmioğlu, Allah tifağuzu dağıtsın. Bu nə iş idi? Mənim arvadım hüri idi, məni niyə şeytan təki yoldan çıxartduz? Mənim başıma nə oyun aşduz?

Da başına-gözünə döyməhdən nə çıxar? Gedən da getdi.

İndi görəh qızın başına nə oyun gəlir. Allah-taala tərəfinnən qızın ürəyinin başınnan, bu xançalın yerinnən su fəvvarə verir. Allahın hökmüynən burdan bir bulax açılır. Su dərəynən sel olur axır. Buz kimi sərin, dupduru bir su qaynıyır xançalın yerinnən. Yolnan da bir tacir ticarətə getmiş imiş.

Qayıdanda görür ə, bu dərədə su yox idi, indi bu dəreynən su axır. Qəflə-qatırı açır, bunun dəvəsi, qatırı, eşşəyi su içir. Nökərrərə bir qav verir, deyir:

– Biz gedənnən sohra kimsə burda quyu qazıfdı, su gəlif burdan axıfdı. Gedin bu suyun yuxarısına, görün bu suyun gözü hardadı, onnan doldurun gətirin. Özümüz də onnan içəh, düşəh yola.

Bu adamlar bir az yuxarı qalxır, belə keçəndə görür nə? Bulax nədi! Burda bir gözəl qızı öldürüflər, bu su da onun ürəyinin başınnan fəvvarə verif dünyanı götürüf. Bular mat-məətdəl qalıllar. Qızın gözəlliyinə tamaşa eliyillər. Bu gözdü-yür, bular gəlmiyəndə iki nəfər də göndərir:

– Ə, bular getdi, harda itdi-batdı? Gedin görəh bular nejoldu?

Bu adamlar gəlif bu vəziyyəti görəndə elə bular da quruyuf qalır. Axırda bu tacir deyir:

– Balam, bu olan iş deyil. Bu bulağın sahibi var, gedən ilişir qalır. Bir özüm gedim.

Tacir gəlir. Bir aşırım aşanda görür nə? Burda bir qızın ürəyinin başınnan bulax pıkqıldıyır qalxır. Tacir deyir:

– İlahi-pərvərdigara, çox şükür. Allah elə bunu bizdən ötrü yaradıf.

Bu sudan içillər, əllərin-üzdərin yuyullar, sərinniyillər. Bu qızın ürəyinin başına, suyun yerinə bir qapax qayırır tacir, qapıyır. Deyir:

– Elə bunu özümüznən götürəh. Harda susduyanda açarıx, malımız-heyvanımız, özümüz içərih, genə yolumuza davam edərih.

Nəysə, bu qızı da götürüllər, dəvənin üsdünə sarıyıf gəlillər çıxıllar bu tacirin vilayətinə. Tacir gedir həkim gətirir, deyir:

– De görüm, bu qızın yarasın sağalda bilərsənmi?

Həkim deyir:

– Mən sağalda bilərəm, amma bunu dirildə bilmərəm.

Gedir bir molla tapır gətirir. Deyir:

– Bu qızı sağaltsalar ruhunu bədəninə qaytara bilərsənmi?

Deyir:

– Hə, Quranda belə bir ayə var. Namaz qılıf oxusam, bunun ruhu bədəninə qayıdar.

Həkimi gətirir. Pul-zad verir, yarasın sağaldır. Molla oturur iki rükət namaz qılır, "Ayətül-kürsü" oxuyur, bu qızın üzünə üflüyən təki qız asqırır yerinnən qalxır. Tacir deyir:

– Qız, səni mən diriltmişəm, mənnən evləneyssən. Səni Allah mənim qismətimə gətirif.

Qız nə qədər eliyir:

– Ay tacir baba, mən sənin tayın deyiləm, tuşun deyiləm. Sən mənim atamsan. Ömrüm boyu da sən mənim atam ol, mən sənin qızın.

Deyir:

– Heylə şey yoxdu.

Qız baxır görür ki, bunnan canın qutaran deyil. Deyir:

– Yaxşı, onda get bir qazı tap gətir, kəbinimizi kəssin. Bir dənə də heyvan kəs, yüngülvarı süfrə açax, evlənəh. Nə deyirəm.

Tacir durur gedir şəhərdən qazı gətirməyə. Qız durur aranı xəlvət eliyir, qaçır. Tacir gəlir görür qız yoxdu, qaçıf. Atı minir, and içir səni harda tutsam, tikə-tikə doğruyajam, sən elə belə əməlin sahibisən ki, səni öldürüflər.

Qız piyada, tacir atdı, gəlir yeddi yolun ayrıcında bu qıza çatır. Qızı tutur yıxır yerə. Qızı doğruyur, qol-bud eliyir. Cəsədin qalaxlıyıf yeddi yolun ayrıcına, özü çıxır gedir.

Tacir getməhdə olsun, görəh qızın cəsədinin başına nə iş gəlir. Bu yolnan da üş nəfər gedirmiş. Biri paltar tikən maşınçı, biri dülgər, biri də molla yoldaş oluf gedirmiş. Gəlif bular çıxır bu qızın cəsədinə. Qızın cəsədinə baxıllar. Baxanda maşınçı deyir:

– Nə gözəl qız imiş. Əgər bu qızın əzaları sağalmış olsa, buna elə bir paltar tikərəm ki, geyinəndə əyninə kip durar.

Dülgər deyir:

– Əgər helədirsə, mən bu qızın əzaların elə yığaram, elə düzərəm, bunun əzasının biri birinnən sərpməz, – deyəndə molla deyir:

– Mən də bir “Ayətül-kürsü” namazın qılaram, oxuyaram, bu qızın ruhu bədəninə gələr.

Dülgər bu qızın bəntdərini düzür öz yerinə. Maşınçı da maşınını qurur, başdıyır buna paltar tikməyə. Molla da namazını qılır, “Ayətül-kürsü” oxuyur, qıza üfürür, qızın ruhu gəlir yerinə. Qız asqırır qalxır. Bu qızı geyindirillər-kejindirillər. İndi bular başdıyıllar mübahisəyə. Maşınçı deyir, bu qıza paltarı mən tikmişəm, qız mənimdi. Dülgər deyir, onu mən düzməseydim, sən nətər paltar tikərdin? Qız mənimdi. Molla deyir, lap düzmüsüz. Mən o qızı diriltməsəm, sizə nə düşərdi? Mənimdi. Bular başdıyır mübahisəyə. Qız baxır görür bulardan canını qutaran deyil, deyir:

– Dayanın. Mən siznən bir şərt kəsəjəm. Mənim şərtimi kim yerinə yetirsə, mən onunam.

Deyir:

– Nejə?

Qavaxda bir qəlbi yal varmış. Deyir:

– Siz gedin çıxın o dağın başına. O dağdan kim tez yüyürüf gəlif məə çatsa, mən onunam.

Bular yoxuş yuxarı qaranəfəs dizdəri yerə dəyə-dəyə dırmaşıllar dağın başına. Ayannan bəri özdərin buraxıllar yüyürüf qıza tez çatmaxdan ötrü. Birinin qılçası sınır, birinin qolu sınır, birinin başı dəyir yarılır. Qan götürür, huşun itirir. Daa buların heş biri gəlif bu qızın yanına çata bilmir. Qız duruf “Allah, Məhəmməd, ya Əli” – deyif burdan tərpənir.

Gəlir çıxır bir dənizin kənarına. Görür qoja nurani balıxçıdı. Balıxçı buna bir tikə çörəh verir, qız yeyir. Görür balıxçı ikicə dəfə tor atdı. Hər dəfə də bircə dənə balıx düşdü toruna. Buları götdü, qoydu qavına, durdu ulağın minə, gedə. Qız dedi:

– Ay baba, elə bu iki balıxdan ötrü gəlmişdin?

Deyir:

– Hə, qızım.

Deyir:

– Baba, bir də tor atginan, bəlkə biri də düşər.

Deyir:

– Qızım, yaranan günnən bəri qismətim bu iki balıxdı. Yüz dəfə də tor atsam, bu iki balıxdan başqa qismətim yoxdu. Bunun birini bazarda satıf çörəyə verirəm, birini də aparıf arvadnan bişirif çörəyimizə yavannıx eliyif yeyirih. Bax, yaşımız bura çatıf, bu iki balıxdan artıx məni zəhmətə salma. On dəfə yox, yüz dəfə tor atsam, qismətim yoxdu.

Qız deyir:

– Baba, onda bircə dəfə də mənim qismətimə at, bir balıx da mənim qismətimə düşər. Mən də gedərəm sizə, olaram sizin qızınız.

Deyir:

– Qızım, vallah, evladım yoxdu, gözüm üsdə. İntaası biz səni dolandıra bilmərih.

Deyir:

– Bircə dəfə də mənim qismətimə at.

Bu, bir dəfə toru atır. Ay Allah, toru çəkir ki, tor gəlməh nədi, tora o qədər balıx mıxlanıf ki. Qız da kömək eliyir, bir zornan toru çəkir qırağa. Kişinin əli üzündə məhətdəl qalır: "İlahi-pərvərdigara, çox şükür. Qızım, sən Allahın necə bəndəsisən ki, mən bu yaşa gəlmişəm, bura tor atmışam, bu dənizdə qızıl balıx olmazdı. İndi sənin baxdıva bu qədər balıx düşdü, özü də hamısı qızıl balıx".

Deyir:

– Baba, apar bu balığı sat, çörəhdən-yeməhdən al gətir.

Bu kişi durur bu qızın başına fırrana-fırranna: "Ay Allah, səni məə yetirən Allaha çox şükür". Gətirir bunu verir arvada. Deyir:

– Arvad, Allah-taala bizə bir evlad qismət eliyif.

Bu kişi hər gün gəlirmiş, iki dəfə öz talehlərinə atıf iki balıx tuturmuş, bir dəfə də bu qızın qismətinə atıf tor dolusu qızıl balıx çıxırmış. Aparırmış satırmış, ehtiyacların alıf gəlirmiş. Bu qız da hər axşam gənə torbanı qoyuf başının altına yatırmış. Bu qız qızıldan verir, deyir:

– Baba, sən elə gündəlih o bir yük balığı apar sat, kim soruşsa deynən balığın puluynan qayırmışam bu işi. Sənin sohrasıynan işin yoxdu.

Gətirir əvvəlkinnən də yaxşı imarat tikdirir. Bu qojalara geyim, yeməh-işməh, qulluxçu tutmax. Dünyaynan varı-döy-ləti. Bu qız bir gejə yatanda Allah-taala tərəfinnən buna agah olur ki, elə bir ajdıx olajax ki, insannar ajınnan bir-birinin ətin yeyəjəh. Sən də özün üçün bir illik azuqə yığ indidən. Qız durur anbarrar tikdirir boyu iyirmi metr, otuz metr. Ta dünyada taxıl demir, buğda demir, düyü demir, nə qədər azuqə var, yığır doldurur bu anbarrara. Anbarrarı doldurur, gözdüyür. Kişi də vərdişkar imiş, nejə mən hər axşam bir isdəkan suynan yaşıyan təki. Hər axşam bir belə başının altına çörəh qoydurarmış. Gejə ajırmış, oyananda bu bir loxma çörəyi yeyif yatarmış. Qıza agah olur ki, beyjə göydən yerə ajdıx endi, ta ruza qıtdaşdı. Nətər eliyim, bunu atama-anama nejə bildirim? Deyir:

– Ay ata, çörəh yoxdu.

Deyir:

– Qızım, çörəh yoxdu nədi? Vallah, mən bu gejə dayana bilmərəm. Birjə belə sajın üsdündə qayır, başımın altına qoy. Özün bilirsən ki, mən gejə oyandım, çörəh olmasa, mən dözə bilmərəm.

Qız durur gətirir. Özü qəsdən bunnar ajdığın yendiyini bilsin deyə arpanın cadınnan birjə belə fətir qayırır. Arpanın cadı necə olar? Torpax təki. O üzün, bu üzün təpidir, qoyur kişinin başının altına. Gejə kişi oyanır. Axı bilmir ajdıx gəldiyini. Bunnan yeyəndə görür bu çörəh o qədər daddıdı, o qədər şirindi, hələ ömründə belə çörəh yemiyif. Bu çörəhdən bir az kəsir, qoyur başının altına ki, sabah açılsın, deyəjəm qızım, bu çörəh

hansı taxıldandı, həmmişə bunnan bişir. Mən hələ belə daddı çörəh yeməmişəm. Bunu başının altına qoyur. Sabah ertə duruf götürəndə görür nə? Allaha ağır getməsin, bu çörəh deyil, elə bil kərpiş parçasıdır. Bunun qəlbi dolanır, deyir:

– Ay arvad, görürsənmi, bu bizim öz doğma qızımız olsaydı, belə eləməzdi. Gör bir belə dünya neməti qalıf burda, mənim başımın altına qoyduğuna bax. Bu nədi? Heş itə küt eliyif verməzdər, bu qız mənim başımın altına qoyur.

Arvad deyir:

– Əşi, əşi, əşi, qız eşidər, nə danışırsan? Allaha şükür eylə, dinmə.

Qıza agah imiş da. Qız girif içəri deyif:

– Baba, nədi?

Deyir:

– Ay qızım, Allahdan gizdin deyil, bəndədən nə gizdin. Çörəyə baxıram, nəysə qəlbim incidi ki, nəyə görə bir belə sarı buğdalar qalıf burda, arpanın cadını gərmə təki mənə qoymusan. Bunu insan yeyər?

Deyir:

– Baba, onu yedin, ağzında nə tam verdi?

Deyir:

– Qızım, o ağzımda elə tam verdi ki, hələ mən bir heylə şirin tamlı çörəh yeməmişdim. Elə ona görə də bu çörəyi qırdım saxladım ki, bunnan deyim bişir.

Deyir:

– Baba, mən özüm onu qəsdən heylə elədim. Onu bilə-siz ki, beyjə Allah-taalanın izniynən göy üzünnən yer üzünə ajdıx gəldi. Elə bir ajdıx olajax ki, insan bir-birinin ətin yeyə-jəh. Bir il başa gələnə qədər belə ajdıx olajax. Ona görə mən bunu belə elədim ki, sən də biləsən ki, göydən yerə ajdıx yendi, çörəh şirinnəşdi.

Arvad, kişi bunun əlinə-ayağına düşür:

– Ay bala, bizi bağışda, vallah bilmədih. Nəysə, qəlbimiz dolandı da.

Qız deyir:

– Baba, mən bunnan incimirəm.

Vaxt-vədə gəlir, bütün dünyaya ajdıx düşür. Ta kimin nəyi varsa köhnədən, təzədən yeyir. Ajdıx olur, insan insanın başın kəsir bir parça çörəhdən ötrü. Qız deyir hə, vaxt-vədə gəlif. Durur anbarrarın ağzın açır, gətirir qapan qoyur meydana. Deyir:

– Baba, elan verin, car çəkdirin bütün şəhərə, bəs taxıl paylıyıram. Hər aylə başına bir pud taxıl verəjəm, kim varsa, gəlsin.

Car çəkillər ki, filan balıxçının qızı taxıl paylıyır. Kimi gəlir, məsələn, mən beş aylıyəm, aylə başına bir pud buğda, bir pud apra, bir pud darı, bir pud düyü. Bütün dünyaya bunun sədası gedir. Ərinin vilayətinə də bunun sədası çatır ki, filan vilayətdə belə bir insan var, bəs taxıl paylıyır. Bular da deyir, durax gedəh, biz də bir şey alax gətirəh, aylәmizi dolandırax. Gedəndə qız baxır görür ki, əridi, bir də ərinin əmisi oğlannarı, budu heyvə-torbaları çiyinnərində gəldilər. Bu çağırır adamlarına deyir ki, o üş nəfəri saxlıyarsuz, bütün camaat gedənnən soora oların payını verəjəm. Bütün gələnin hamısın yola salıllar. Bular deyir:

– Ay qardaş, bizi də yola sal, verirsizsə verin, vermirsizsə, gün batdı, gedəh, yolumuz uzaxdı.

Deyir:

– Ağamız deyir ki, olara axırda artıx verəjəm, dayanın.

Deyillər da gəlmişih, gözdüyəh görəh. Tamam hamı gedənnən sohra buları çağırır. Qız deyir:

– Deyin görəh kimsiz?

Deyir bəs belə-belə, biz əmioğluyux. Deyir:

– Əmiiz oğlunun bir arvadı oluf. Deyin görüm o arvadın nə xəyanətini gördüz, bu əmiiz oğluna nə dediz? Onu düzgün dediz, sizin yüküzü polnu tutuf yola salajam, düzgün deməduz burda ölessiz.

Bular başına gələni deyir. Bu da kişi livasında oturuf orda.

– Vallah, biz o gəlinin nə bir naməhrəmnən kəlmə kəsdiyin gördüh, nə bir yerə çıxdığın. Elə onun varına-döylətinə xayınnıx elədih. Getdih əmimiz oğluna da dedih onu öldür, var-döylət sənə qalsın.

Deyir:

– Yaxşı, oğlan, əmin oğlannarı səni yoldan çıxartdı, neynədin arvadu?

Deyir:

– Bəs apardım Quru dərənənin kənarında öldürdüm.

Deyir:

– Yaxşı, öldürdün, qayıtdın nə gördün?

Deyir:

– Öldürdüm, qayıtdım gördüm o var-döylətdən heş bir əsər-əlamət yoxdu. Elə qoyuf getdiyim cındır çoustan, hisdi qazan, qırıx təhnə, bir-iki də kəfrəm.

Deyir:

– İndi sən bildinmi sənin arvadın mələk cinsinnəndi? Onnan evlənəndə səə demişdi, deməmişdi?

Deyir:

– Demişdi.

Deyir:

– Bəs sən şeytan sözünə niyə inandın?

Deyir:

– Vallah, nə bilim, çox peşman olmuşam. Da peşmançılıx bir fayda verməz. Neyniyim, əlacım nədi?

Deyir:

– İndi ki heylədi, həmən qız mənəm. Məni Allah öldürmədi. Allah o urzanı burda da mənə verdi. Həmən evim, həmən eşiyim, bir belə də taxıl-zad. Bunu mən yığmışam. Ölən günətən bu balıxçı mənim atamdı, arvadı mənim anamdı. Mən sizə elə cəza verərəm nətəri. Amma mən vermirəm: bir düzgün danışdığıza görə, bir də ərimin xatirinə. Mən ona söz vermişəm ki, sənnən ömür-gün çürüdəjəm. Onun xatirinə sizi öldürmürəm.

Buların yükün polnu tutur, yola salır. Oğlana da deyir:

– İndi madam ki peşmansan, buyünnən belə heş kəsin sözünə inanmadan mənnən ömür keçirməyə razısansa, qal yanımda.

Oğlan bunun əlinə-ayağına düşür, deyir:

– Peşman nədi, elə peşmanam ki. İsdiyirsən məni öldür, səni tərk etmərəm.

Qız bunu bağışdıyır. Yenidən kəbinnərin kəsdirir. Ömürrərinin axırınatan oturur burda, Allahın göndərdiyi ruzudan, nemətdən yeyif xoş ömür sürüf gün keçirillər. Olar yeyif yerə keçif mətləflərin hasil eliyif, muratdarına çatıllar. Siz də yeyin, devran sürün, muraduza çatın. Arzularuz yerinə yetsin. O bir qıza urza verən Allah-taala bizim də urzamızı heylə öz büdcəsinnən yetirsin. Şeytan əməlinnən Allah bizi qorusun. Heylə peyğəmbərlərin səmasını görməyi Allah-taala bizə də qismət eləsin (söyləyici salavat çəkir – top.). Nağılımız burda bitdi. Göydən üç alma düşdü. Biri mənim, biri Narışın, biri də nağıl danışanın. Yerdə qalanı sizin.

## TACİR OĞLU

İsfahan şəhərində bir tacir varmış. Tacir çox varrı-hallı tacir imiş. Bunun da var-qərəl tək bircə dənə evladı – oğlu varmış. Deyirmiş, gəzəjəm bütün dünyanı. Oğluma gərəh elə qız alım həm gözəl olsun, həmi də ağıllı. Gəzirmiş hər tərəfi. Nə qədər gəzirmiş, dolanırmış, rasdına belə bir qız çıxmırmış. Bir gün genə ticarətdən gələndə bir isdi gündə, susuzdux yerdə bərk sussuyur. Dili yanır, quruyur. Bu zonalarda su tapmır. Ayna-bayna baxır ki, harda bir şinnih tapa. Baxır görür ki, düzəngahın ortasında bir koma görükür. Bu, atın çaparaxlıyır gəlir ki, yağın o komada nəsə bir insan olar. Bura gəlir.

– Ay ev yiyəsi, ay ev yiyəsi, – deyəndə evdən bir dənə gözəl-göyçəh qız çıxır. Deyir:

– Ağa, nədi?

Deyir ki, qızım, bəs su olarmı, imam ehsanınnan?

Deyir:

– Olar.

Bu qız gedir evdən bir qavı doldurur suynan, gətirir. Gətirir bu tacirə uzadanda görür bu tacir elə isdilənif, elə pörtüf ki, tərriyif, suya batıf. Bu suyu alıf içən təki başına çıxajax, bunu eliyəjəh xəsdə. Qız əlinnən qavı salır, suyu tökür yerə. Deyir:

– Ağa, bağışda, qoy gedim birin də doldurum gətirim.

Deyir, bir də gedif gələnə qədər bunun təri soyuyar da. Bu gedir ikinci dəfə. Bir az ləngiyir. Qavı yuyur, dolduruf gəlincə bunun təri bir az soyuyur. Gətirif bir də verəndə görür ki, təri hələ tam soyumuyuf. Bir də əlinnən vuruf tökür yerə. Tacir deyir:

– Ay qızım, sənnən bir isdəkan su isdədim. Bunu verirsən ver, vermirsən bu nədi?

Deyir:

– Bağışda baba, həyəcannan əlimnən düşdü, bilmədim. Bu saat gətirərəm.

Qız gedir üçüncü dəfə. Suyu dolduruf gətirincə gəlir görür ki, tacirin tamam təri soyuyuf. Verir suyu, bu içir. Deyir:

– Qızım, mən bir işə şübhəli qaldım. Suyu sən qəsdən tökdün. Niyə tökdün? Məni bu sirrdən agah elə.

Deyir:

– Tacir baba, sən bura gələndə o qədər bərk susdamışdın ki, elə tərrəmişdin ki, o suyu mən səə versəydim, içən təki o sənin başıva çıxıf səni xəsdələndirəjəhdi. Mən onu yerə saldım ki, mən gedif ikinci dəfə gələnə qədər bir az sənin tərin soyusun, höfsələn genəlsin. İkinci dəfə gətirəndə gördüm hələ tərin tam soyumuyuf. Üçüncü dəfə gələndə gördüm hə, sənin tərin soyuyuf, o suyu nə qədər işsən də səə ziyan vermiyəjəh, – deyəndə tacir deyir: "Ey dadi-bidad, axtardığımı tapmışam. Elə bunu mən alajam oğluma".

Deyir:

– Qızım, burda sən təhcə qalırsan?

Deyir:

– Yox. Atam gündə gedir dənizdən bir yük balıx tutur, aparır şəhərdə satır, gəlir. Mən də burda oturuf atamın çayını-çörəyini qayırıram. Atam satır, çörəh alır, şəhərdən də içməli su gətirir.

Nəysə, bunnan hal-əhval oluf gedir. Gəlir çıxır elinə-obasına. Oğlunu çağırır, deyir:

– Bəs filan yerdə qız tapmışam, ona elçi düşüf sənə alajam.

Bir dəvə yükü də qızıldan, puldan, paltardan yüklüyür, tacirbaşçısı varmış, buna verir, deyir:

– Apar bunu, o qıza elçi düş, al gətir.

Tacirbaşı qızın atasınnan Allahın əmriynən, peyğəmbərin qanunuynan qızı alır, götürür qoyur dəvənin belinə. Bu varı-döyləti də verir bu qızın atasına, çıxır gəlir.

Gətirir elində, ovasında yaxşı toy eliyir. Da bu qız ağlıynan, kamalıynan, fərasətiynən bu İsfahan şəhərində ad alır, san çıxardır. O qədər mərhəmətdi, təmiz qəlbli olur, tay nə

forma. Bu oğlan da arvadını o qədər isdiyirmiş ki, bir çətinniyə düşəndə arvadının başına and içirmiş.

Bir gün bunu atası çağırır ki, ay oğul, mən qojalmışam, yaşım keçir. İsfahanda ən böyüh tacir mənəm. Yanıma bütün camaat gəlir, belə getsə, bütün varımız-döylətimiz əlimizdən çıxajax. Gəl bir qəflə-qatır hazırrıyım. Mən tay qojalmışam, gücüm çatmır, uzax yol gedə bilmirəm. Tacirbaşını da qoşum sənin yanuva, get Misirdə sat, sav, gəl. Camaat gəlir, əliboş qayıdır.

Deyir:

– Yaxşı, nə deyirəm, ata.

Bu gəlir arvadıynan halallaşır, hümbətləşir, bir qəfləqatır hazırrıyır. Durur tacirbaşını da alır yanına, gəlir. Gəlir çıxır bir şəhərə, onu satır, bunu alır.

Nəysə, bu şəhərdə bir qırxlotu başçısı varmış. Bu qırxlotu başçısı gəlir, nəysə bir şey danışdırır:

– Qardaş, bunun qiyməti nədi?

Deyir, bu qədər. Bunun üsdündə sözdəri çəpləşir. O deyir, qiyməti budu, bu deyir, bu deyil. Deyəndə bu oğlan qayıdır deyir ki, qardaş, arvadımın başı üçün bunun qiyməti budu. Bu qiymətə alınıf, bu qiymətə satılır.

Deyir:

– Əşi, bu nətər arvatdı, sən onun başına and içirsən?

Deyir:

– Mənim arvadım belə ağıllıdı.

Deyir:

– İndi ki belədi, gəl mərc gələh. Sənin arvadıynan mən ünsiyət qurdum, onu gördüm ələ aldım, sənin nəyin var – bu qəflə-qatırın, varın-döylətin hamısı mənim. Özün də ömrünün axırınatan qalıf mənim yanımda nökərçilih eliyəssən. Yox, əgər heyləsə, qırx ildi yığdığım varım-döylətim sənin, özüm də ömrümün axırınatan sənin nökərin olajam.

Belə bunuynan şərtdəşir. Yazıllar, imzalıyıllar. Barmaxbasdı olurmuş o vaxdı. Barmaxların basıllar, sənəd imzalanır. Qırxlotu başçısı gəlir bir xurcun da qızıldan-gümüşdən,

puldan-zaddan götürür, aşırır atın belinə, tərpənir İsfahan şəhərinə. Gəlir çıxır bu oğlanın olduğu şəhərə. Kimi dindirirsə, bu gəlinnən söypət açıllar. Ay bu gəlin heş yerə getməz, heş kim onu görməz. Bu qalır mat-məhətdəl. Üş gün burda hərrənir, bu gəlinə səmt düşə bilmir. Buna qonax olmağ isdiyir. Bunun barısınnan qıraxda qonax yerrəri varmış. Qonax burda rahat olsun deyə tikdirmişdər.

Məlil-müşkül gəzəndə görür bir küpəgirən qarı, Allahın nəhlətinə gəlsin, küpəsinin belində yumalana-yumalana gedir. Kəsir bunun qavağını. Deyir, bir şey çıxsa, bu qarılardan çıxajax. Deyir:

– Ay qarı nənə, bəs mənim dərdimə əlac.

Deyir:

– Nədi?

Deyir:

– Bəs filan tacirin gəlinin görməliyəm.

Deyir:

– Ay oğul, nə danışırsan, o gəlinin üzün bu şəhərdə hələ görən yoxdu. O gəlinin səmtinə düşməh olmaz. Qəti o fikirdən daşın. Dünyanı verəsən, o gəlinə yaxın dura bilməzsən. Üzün görməh nədi, heş barısınnan içəri keçə bilməzsən. Onun bir belə qoruxçuları var.

Deyir:

– Yox ey, gəl.

Arvadın ətəyinə bir xısma qızıl tökəndə arvad imanın əldən verir. Deyir:

– Onda mən sənə bir yol gösdərəjəm. Gedərsən dülgərin yanına, özün boyda bir sandıx bağlatdır, kilidin də içəridən qoydurarsan. Mən səni aparajam qoyajam o qızın evinə. Onu görə bilsən, heylə görəssən, yoxsa başqa cür o qızın səmtinə düşə bilməzsən.

Bu deyir, yaxşı. Durur arvada puldan-paradan verir. Arvad gedir, bunun biçimində bir sandıx qayıtdırır gətirir. Bu girir sandığa, ağzını içəridən kilitdiyir. Qızıl-gümüşü də tökür qarının

ətəyinə. Qarı iki dənə hambal tutur. Bunu yüklüyür hambalın belinə. Ha-ha-haynan gəlir.

– Ay qızım, qapını aç, qapını aç.

Bu qız deyir ki, gedim görüm qarının dərdi nədi. Deyir ki, beyjə quldurrar gəldi, çaldı-taladı, nəyim vardı varımı-yoxumu apardılar. Bircə qalan bu sandıxdı, bunun da üsdünə yıxıldım. Qızımın cehizi, olanım-olmazım budu. Mən gedif bir yer-yurd tapana qədər bu sandığı gərəh sən gizdiyəsən.

Qız deyir:

– Ay qarı nənə, gətmisən, o tikililərin arasına qoy. Bu həndəvərə heş kəs gəlməz.

Deyir:

– Yox ey, olmaz. Bunu aparıf sənin yatağ otağa qoymasam, ürəyim rahat olmaz. Əgər yiyə deyilsənsə, aparım gedim.

Qız buna nə qədər eliyir: “Ay nənə, barının içinə qoy”. Deyir:

– Yox ey, olmaz. Öz yatağ otağa qoymasan, qızımın ceri-cehizi hamısı bunun içindədi, getmərəm.

Qızın əlacı kəsilir, deyir:

– Dəymiyin, qoyun gətirsin.

Qarı nəhlətdəmə bunu qoyur qızın yataq otağına, çıxır gedir. Axşam olur. Görür ki, ay Allah, qızın başında qırx dənə əli qılışlı qaroolçu var. Gejəni sabaha qədər qız yatdı, bular yatmadı. Sabahı dik aşdılar. Buna mümkün olmadı. Bir gün, iki gün. Üçüncü gün artıx vaxt-vədə tamamdı. Gəlif qarı bunu aparasıdı. Ay Allah, neyniyim, nejə eliyim, məə bir imdad. Qız sabah ertə tezdənnən bu kənizdərə deyir ki, durun, ərimin gəlməh vaxdı yaxınnaşıfdı. Bu günnəri çarhovuza çimməyə gedəjəm. Gəlif yeməh-işməh hazırrıyajam, bəs yoldaşım gələjəh. Bunu bu eşidir. Deyir, hə, Allah mənimkini düzəltdi. Qız durur bilərziyini açır, qoyur yatağ otağına, qızıl boyunbağısın da açır qoyur bura, gedir çarhovuza qızdarnan çimməyə. Bu ayna gedən təki sandığı içəridən açır, çıxır. Pəncərədən baxır, görür pəncərə düz houza açılır. Qız qızdarnan burda çimir. Qızın başdan-ayağa

bütün əzasını gözdən keçirir. Bu qızın da anadangəlmə sol budunda şir şəklində xalı varmış. Bunu da tamam yerbəyer eliyir. Qızın bazubəndini də, boyunbağısını da, yaylığını da götürür, qayıdır girir sandığa, qapısın kilitdiyir. Qız qayıdır gəlir, görür bazubəndi yoxdu.

– Ay qızdar, bazubəndim hanı?

Qulluxçular deyir:

– Ay xanım, sənin otağa kim girər, kim aparar? Yağın yerin dəyişih salmısan, axtarıf taparıx.

Qız daa fikir vermir. Deyir harasa yağın qoymuşam da. Bir də görür qarı budu hambalları götdü gətdi. Gətirif o sandığı götürür, gedir. Sandığı açır, deyir:

– Hə, oğlum, nə gördün, nə götdün, bir şey əldə eliyə bildinmi?

Deyir:

– Hə, qarı nənə, hər bir şeyini örgəndim. Ala, bu xurcundakı qızıl-gümüş də sənin, mən getdim.

Minir atın, tərpənir gəlir Misirə. Oğlan görür gəlir.

– Ə nədi, sənin tərifli arvadın belə imiş? Bir həftədir onnan kefdəyəm, belə qonaxlıx, belə yeməh, belə işməh. Ay sənin tərifli arvadın buymuş?

Oğlan deyir:

– İnanmaram.

Deyif:

– İnanmazsan, ala, bu bazubənd sənin arvadınındımı, bu boyunbağı arvadınındımı, bu yaylıx arvadınındımı? Buları da məə verifdi ki, ayağın nə vaxdı bu tərəfə düşsə, sorğu-sualsız mənim yanıma gəl. Hələ bunnan qane olmasan, arvadının sol budunda bir dənə şir şəklində xalı var. Buna sözün nədi?

Bu oğlanın nə qədər varı-döyləti var, əlinnən alır, oğlanı da yanında nökər eliyir. Bu da sefillənir* ki, Allah, neyniyim, necə eliyim? Oğlan tacirbaşına deyir ki, tacirbaşı, sən get bir ordan əh-

------------------------------
* Sefillənmək – veyillənmək

val bil, görəh bu nə işdi? Mənim güvəndiyim arvadım niyə bu işi elədi? Əgər helədirsə, gedif atama deyərsən, onu mən gələnə qədər tikə-tikə doğruyar, hər şəhər darvazasınnan bir tikəsini asdırar.

Bu deyir:

– Yaxşı, gedim.

Bu gəlir. Qızın da gözü yollarda imiş. Hər yola bir keşikçi qoydurmuşdu ki, ərim gələjəh, onun pişvazına çıxım. Qız bir də baxır görür ki, axşamçağı budu ha sefillənə-sefillənə piyada bir adam gəlir. Gəlhagəl görür bu tacirbaşı. Nökərrərə deyir:

– Gedin tacirbaşını yanıma gətirin, görüm bu nə işdi, bu nə gəlişdi.

Bunu gətirəndə qızın yanına, deyir:

– Cəhənnəm ol, mən getmirəm. Onun üzünə baxmaram, o hayasızın, o ləçərin. O, bizim başımıza nə oyun aşdı.

Qız deyir:

– Ay tacirbaşı, bu nə olan işdi? Niyə belə deyirsən? Bəs sənin ağan hanı, qəflə-qaturuz hanı?

Deyir:

– Ay səni öleydin, vay xəbərin gedərdi, biz bu xabarnan gəlmiyərdih.

Mən dediyim təki əhvalatı buna deyəndə qız qalır matməətdəl. Deyir:

– Hə, demək mənim başıma nə gəldisə, o sandıxdan gəldi. Gedin o qarını tapın gətirin.

Gedillər bu qarını tapıf gətirillər. Deyir:

– Qarı, düzünü de görüm, o sandıxda nə əmma vardı?

Qarı bir az ayna-bayna eliyir, bir xışma qarının ətəyinə qızıl tökən təki qarı imanını əldən verir. Əhvalatı açır danışır. Deyir:

– O, bir qırxlotu başçısı idi. Sənin əriynən bir sözdəşməsi olmuşdu. Sən çarhovuza çimməyə gedəndə o, pəncərədən səni görüf.

Deyir:

– İndi tacirbaşı, inandın?

Deyir:

– Hə, inandım. İndi nağayrax, onu ordan nətər qutarax?

Deyir:

– Sən dinmə, mən deyənə əməl elə. Dur pul götür, get zərgərin, dəmirçinin yanına, Misir padşahına layax bir dənə tac qayırtdır gətir mənə, bir də Misir padşahının adı yazılmış qılınc-qalxan qayırtdır gətir.

Bu gedir, puldan aparır verir, Misir padşahının adı üsdündə həkk olunan tac bağlatdırır, qılınc-qalxan bağlatdırır gətirir. Deyir:

– Tacirbaşı, dur məni apar həmən vilayətə.

Hərəsi bir at minir, gəlir Misirə. Şəhərin kənarında dayanıllar. Deyir:

– Gedərsən padşaha xəvər verərsən ki, İsfahan padşahının oğlu buralara səyahətə gəlif, sənin şəhərivə qonax gəlməh isdiyir.

İsfahan padşahı da bu devlətdərin içində addı-sannı padşah imiş də. Bütün padşahlar onnan qorxarmış. Bu adam naməni gətirif Misir padşahına verəndə padşah əl-ayağa düşür. Ay neyniyim, nejə eliyim? Qoşun-ləşkər göndərir, gedin onun pişvazına çıxın. Özü durur pişvazına. Bunu gətirir qonaxlıx verir. Deyir:

– Bizim üçün nə qulluğun?

Deyir:

– Mən bir iş üçün gəlmişəm. Üşcə günnüyə şəhəru bütün ixdiyarın verəssən məə. Bütün əhalini səqirdən kəbirə topalıyassan bu meydana. Burda mənim bir görüləsi işim var. O işi görüf, sənin vilayatuva ziyan vuran deyiləm, çıxıf gedəjəm.

Bu deyir:

– Bütün ölkəm, canım, taxdım-tacım hamısı sənin qulluğunda hazırdı. Nə isdiyirsən, eliyərsən.

Bu car çəkdirir. Bütün ölkədə qadınnan kişiyə nə qədər adam var, yığdırır meydana. Qız baxır, görür ki, budaha, qırxlotu başçısı da gəldi, əri də sail kökündə, sakqal basıf, gəldi məclisin bir tərəfində durdu. Qız özüynən gətdiyi qızılı-gümüşü aja-kasıba paylıya-paylıya gəlir. Hamı çıxıf gedir, qalır axırda bular. Deyir:

– Padşah, sən sorğu-suala bax. Lotubaşçısı İsfahan tacirinin gəlnini nə qayda gedif görüf bu camaatın içində özü aşsın desin. Deməsə, onun cəzasın mən verəjəm.

Padşah əmr eliyir. Gətirillər dar ağacının divinə. Deyir, de görüm, İsfahan mahalında filan tacirin gəlninə necə yaxınnaşmısan, onnan nətəri görüşmüsən, onnan bazubəndi nə yolnan almısan. Bu, mən sizə dediyim təki hamısın açır nağıl eliyir: "Mən onu dolayı yolla ələ keçirdim. Heç o qızın üzünü də görə bilmədim. Axırdan-axıra çarhovuzda çiməndə mən onda onu görmüşəm. O bazubəndi də oğurruyuf gətmişəm".

Deyir:

– Camaat, inanduz?

Oğlana deyir:

– İnandın?

Oğlan deyir:

– Mən inanmışdım, arvadımda heylə şey olmaz. İntaası əsas oldu, qaldım belə.

Qız deyir:

– Padşah, bunun cəzasın mən yox, sən ver.

Padşah qırxlotunun qırx ildə yığdığı var-döyləti də alır, verir oğlana, oğlanın öz var-döylətin də özünə qaytarır. Qız deyir:

– Bunu mən özümnən aparmıyajam. Öz elində ən qəddar bir adama nökər verərsən ki, gündə bircə öynə çörəh verər, bir isdəkan da duzdu su verər, gündə də yüz qamçı vurar. Bu, ömrünün axırına qədər orda heylə zulum çəkər.

Qız ərini də götürür, var-döylətnən qayıdır ölkəsinə. Şadxürrəm ömürrərinin axırınatan gün keçirillər, yeyillər, yerə keçillər. Siz də yeyin dövran sürün, muradınıza çatın. Arzularuzu Allah hasil eləsin. Heylə şərdən, böhtannan Allah qorusun. Heylə şeytan əməlinnən Allah uzax saxlasın bizi. Düzgün əməlimiznən, düzgün əqidəmiznən Allah-taalanın hüzuruna qavuşax. Nağılımız burda bitdi. Göydən üç alma düşdü. Biri nənənin, biri Narışın, biri nağıl danışanın. Yerdə qalanı da sizin. Da nətər bölürsüz, özüz bilərsiz.

## ŞAH ABBASLA MƏLEYKƏ

Şah Abbas bir dəfə gedir ki, bir cinnən bir məleykə mübahisə eliyillər. Məleykə düzün tərəfidi, cin də əyrinin. Bir dalda yerdə gejə cəhləşirdilər. Şah Abbas da getdi çıxdı bunnarın üsdünə. Məleykə dedi ki, tərpənmə, Şah Abbas gəldi, şərtimizi kəsəjəh. Görəh sənin sözün düzdü, yoxsa mənim sözüm. Gəldi çıxdı. Görüşdülər-elədilər. Dedi:

– Şah Abbas.

Dedi:

– Hə.

Cin gözəgörünməyən bir şeydi dana. Şah Abbasın girdi qəlbinə, dedi ki, ayə, mənim sözümü de, qorxma, mənim sözümü de. Harda dara düşsən, orda sənin yanındayam. O söz nədisə, cəhli çəkirdilər. Məleykə dedi ki, Şah Abbas, mənim sözüm düzdü, bunun sözü düzdü? Dedi:

– Cinin sözü düzdü.

Cin, axı, bunun qəlbinə girif. Cinin sözü düzdü deyəndə bu məleykə atıldı düşdü: "Ə, mənim düz sözümü qoyuf gedif cinin tərəfini saxlıyırsan?" Dedi:

– Şah Abbas, madam ki cinin sözünü dedin, and olsun Allaha, gündə bir dənə erkəh, bir tikəsi də kəsilmiyəjəh ha, tiyanda qızartdırıf, şəhərin başında çinar ağacı var, o çinardan asdırıf gedərsən. Elədin, canın qutardı, eləmədin, sənə cəza verəjəm.

– Ə, – dedi, – heylə şeyə nə var, hasand şeydi.

Bunnar aralaşdılar. Cin gəldi Şah Abbasın yanına. Dedi ki, qorxuf eləmə, harda çətinniyin olsa, bax, belə tükü-tükə vuran kimi yanında hazıram.

Getdilər. Şah Abbas tapşırmışdı poverə, gündə bir heyvanı qızardıf aparıf asıf gəlirdi. Bu poverin də bir oğlu vardı, xəsdə idi. Heş-zad yemirdi, eləmirdi. Pover əti qızardırdı, aparıf gündə asırdı, gəlirdi. İndi bir gün də qızardanda bunun oğlu gəldi çıxdı bura. Dedi:

– Ata, onnan bir tikə kəs ver maa.

Dedi:

– Bala, onu verə bilmərəm. Şahın tapşırığıdı, onun tikəsi kəsilməli döylü.

– Əşi, – dedi, – bir belə tikə kəs ver maa, nola, tamırım* gedir ona.

Dedi:

– Yox, verəmmərəm.

Nə qədər elədi, vermədi.

– Ə, – dedi, – bu ətdərdən tulluyum bura qızarsın, ye da.

Dedi:

– Yox ey, onnan ver.

Xəsdənin tamehi pis olar da, atalar deyif. Vermədi. Gedə durdu aralıda, gözdədi. Dedi:

– Qoy görüm atam onu neynir.

Baxırdı. Gördü qızartdı, qəşəh saldı meşoğa, aldı dalına, şəhərin ortasıynan getdi. Bu da düşdü bunun dalına, getdi. Dedi: "Onu hara aparıf qoysa, onnan bir tikə yeyəjəm". Kişi apardı bunu asdı çinardan, çıxdı gəldi. Tapşırıx heylə idi. Gələn kimi mələykə gəldi ordan götdü. Gedə əlini atırdı belə, mələykə götdü. Sallana-sallana getdi. Gedə də düşdü meşoğun dalına. Yavaş-yavaş, yavaş-yavaş, axşama getdi bir cəzirədə bir evə çıxdı ki, mələykələr burda yaşıyır. Meşoğu addatdılar içəri. Axşam idi. Gedə də getdi kəsdi darvazanı. Döydü, döydü, döydü, mələykənin biri gəldi ki, bir oğlandı. Xəsdə oğlandı, sapsarı saralıf.

– Nədi, qardaş, nə isdiyirsən?

Dedi:

– Vallah, mənim qalmağa yerim yoxdu, gejədi, məni beyjəlih qonax saxlıyın.

Dedi:

– Qoy gedim baş mələykəyə deyim, gəlim.

-----------------------------

* Tamırım – tamahım

Getdi dedi. Dedi:

– Hə, göt gəl, çöldə qalmıyajax ki.

Bunu apardılar. Baş məleykə buna dedi ki, oğlan, biz məleykə cinsiyik. Bizdə söz üş dəfə olar, üşdən artıx demərih. Onnan soora onun cəzası nədi, onu verərih. Bu ətdən də gətdilər qoydular buna. Yaxşı yedi, nəfsi sındı. Söypət-zad da elədi, ayan-bəri. Bu ona dedi ki, oğlum, dur ayaxlaş, yer qayırsınnar, get yat. Bu durmadı utandığınnan. Bunnar hamısı qızdı dana. Nəysə, iki dəfə, üş dəfə, durmadı. Məleykənin ikisinə dedi ki, bunu alın qənədinizə, aparın Şah Abbasın arvadının yanına qoyun, gəlin.

Məleykələr bunu aldılar qənətdərinə, Şah Abbasnan arvadı yatmışdı dana, gətdilər qoydular arvadın yanına. Heş nə gədənin xəbəri oldu, nə arvadın xəbəri oldu. Yatdı burda sabahatan. Sabah kəniz gəldi ki, sən öl, xanımın yanında bir oğlan yatıf. – "Ə, bu hardan gəlif girif bura? Şah bilsə, məni dara çəkəjəh". Oyanmıllar. Nə arvad oyanır, nə bu oyanır. Yuxu tutuf yatıflar. Kəniz dedi ki, mən bunu şaha deməsəm, olmuyajax. Desəm də, mana sual-cavaf, hardan gəlif girif bura. Mən nə bilim hardan gəlif. Dedi ki, deyim da. Deməyim yaxşıdı.

Getdi şaha dedi ki, hal-qəziyə belə-belə. Şah sağ olsun, xanımın yanında bir oğlan yatıf, amma bilmirəm hardan gəlif, nətər gəlif. Elə səhər duruf görürəm ki, ordadı. Dedi:

– Get çağır, durğuz gətir yanıma.

Gəldi bunu durğuzdu. Dedi:

– Gəl gedəh, şah səni çağırır.

Gətdi Şah Abbasın yanına. Dedi ki, ə, oğlan, sən ora hardan gəlif girmisən. Bu gedə başına gələni nağıl elədi Şah Abbasa ki, gəldim atamın yanına, ətdən isdədim, vermədi. Apardı çinardan asdı. Onu da, vallah, məleykələr apardı. Mən də getdim, orda maa üş dəfə dedi dur, yeri qayırsınnar, mən də durmadım. Daa onnan soora huşum başımda olmadı.

Hə, Şah Abbas bildi ki, bu məleykənin əngəlidi.

– Əyə, onnarın olajağı hansı tərəfdədi?

Gədə yerin dedi. Şah Abbas bir gün atı mindi getdi. Dedi, gedim bir onnan görüşüm, görüm nətərdi. Amma aşbaz cəmdəyi gündə aparıf çinardan asırdı. Getdi axşama çıxdı ora. Darvazada durdu döydü, gəldi məleykə. Dedi ki, məni bu axşam qonağ eliyin. Bunu qonağ elədilər. Bu məleykəni tanımadı, amma məleykə bunu görən kimi tanıdı da. Nəysə, çörəhdən, sudan soora bu məleykə getdi otdu mənim kimi bekaf-bekaf. Dedi:

– Şah Abbas, məni üş dəfə danışdırassan. Əgər danışdırdın, canıı qutardın. Danışdırmadın, cəmdəyin birin də artırassan, iki cəmdək eliyəssən.

Dedi:

– Yaxşı, nə olar. Onda icazə ver çölə çıxım, gəlim.

Çıxdı, evin böyründə – tük dəsmalın arasında idi, – tükü tükə vuran kimi cin hazır oldu.

– Şah Abbas, nədi?

Dedi:

– Ə, bu məleykə görmürsən mənnən əl çəkmir. Deyir ki, gərəh məni üş dəfə dindirəsən.

Dedi:

– Ə, o hasantdı, onun dərdin çəkmə sən.

Dedi:

– Nətər hasantdı. Bekaf-bekaf oturuf, mən nə deyim ki, o dinsin?

Dedi ki, sən get otur. Mən qavaxca girəjəm stolun üsdündəyi lampaya, soora girəjəm sımavara, soora da girəjəm sənəyə. Oturanda denən: “Ay lampa”. Mən hay verəjəm saa. Denən görürsən da, bu məleykə mənnən əl çəkmir, deyir, gərəh məni danışdırasan.

Lampa dedi:

– Şah Abbas, mən bir söypət eliyəjəm, sən eşit.

Dedi:

– Nədi?

Dedi ki, bir kişi vardı, vaxdı tamam idi. Kişinin üç oğlu vardı. Kişinin də üş yüz tümən pulu vardı. Oğlannarın çağırdı yanına, dedi: "Bala, mən öləjəm, alın hərənizə yüz tümən pul verim. Mənnən soora elə bir şey alın evinizdə yadigar qalsın mənnən". Kişinin də bir qardaşı vardı, onun da yaxşı bir qızı vardı. Gədələrə vermədi qızını. Götdü getdi İrana.

Nəysə, bu kişi öldü, bunu götdülər kəfin-dəfin elədilər. Balaca qardaş bir az cüvəltarax idi, dedi: "Ə, atamızın vəsiyyətin yerinə yetirəh da. Gedəh alax". Böyüh qardaşa dedi: "Qavaxca sən get al". Böyüh qardaş getdi çıxdı bazara. Hərrəndi, hərrəndi, baxdı ki, bir xalça satıllar. – "Bu nağarır?" Dedi ki, bu, üç aylıx yolu üş günə aparır. Bunun dilin-sirrin də buna örgədillər. Bu, alır yüz tümənə, götürür gəlir. İndi ortancıl qardaşa deyir ki, sən get. Bu da gedir hərrənir, hərrənir, görür bir bədənnəmə güzgüdü, bunu satıllar yüz tümənə. – "Bu nağarajax?" Dedi: "Duanı oxuyassan, isdədiyin qohumunu, evladını saa gösdərəjəh". Bunu da bu alır gətirir. Soora balaca qardaş gedir. Bayax dediyim kimi, aftafa-ləyən olur, onda gülab suyu olur, nə olur, insanı dirildir. Bu da yüz tümən olur, bu da bunu alır gətirir. Gətirillər evə. Ortancıl qardaşa deyir ki, güzgünü gətir, ayəsini oxu, görəh həmin qız dururmu. Bu gətirir ayəsini oxuyur, baxıllar ki, əmisi qızı ölüf, təzə ölüf. Böyüh qardaşı deyif ki, sən bilirsən da dilini, gəl gedək. Bu da aftafa-ləyənin götürür, oturullar xalçaya, yallah. Gedillər ki, yuada götürüllər. Görüşüf eliyillər. Əmisinə deyir ki, əmi. Deyir: "Hə". Deyir: "Əmi, bunu sağ vaxdı bizə vermədin, indi bunun ölüsün də bizə vermiyəssən?" Kişi də elə bilir meyidi götürməyə-zada deyir. Deyir: "A bala, niyə vermirəm, nətər isdiyirsiniz götürün". Bu balaca qardaş çıxardır hamını çölə. Bilirdi da dilin-sirrin. Ayəsin oxuyur, bu sudan car eliyir, qız axsırıf qalxır.

Cin Şah Abbasdan soruşur ki, indi qız qardaşdarın hansına çatajax. Şah Abbas deyir ki, ortancıl qardaşa çatajax. Deyəndə məleykə ordan dillənir, – axı ortancıl qardaş onu diriltmiyif, balaca qardaş dirildif, – deyir:

– Niyə ortancıl qardaşa çatsın? Qızı dirildən balaca qardaşdı, ona çatmalıdı.

Deyir:

– Hər kimə çatır çatsın, əsas odu dindirdimmi səni?

Məleykənin bərk ajığı tutur, deyir:

– İkinci dəfə də dindir.

Gənə üzünü çöyürür sımavara:

– Ay sımavar, Allahın hökmüynən mənnən danış. Bu məleykə mənnən ağzın əyif.

Sımavar deyir ki, Şah Abbas sağ olsun, iki qardaş vardı. Biri evli idi, biri subaydı. Bu evli qardaş o birini çox dannıyırdı, işdəmirdi-eləmirdi. Bir günnəri dalaşdılar iki qardaş. Dalaşanda böyüh qardaş yıxdı balaca qardaşın başın kəsdi. Başın kəsənnən soora bu, öz-özünə qəhərrəndi ki, dalımın arxası idi gənə, mən niyə onun başını kəsdim. Fikirrəşir, fikirrəşir, öz başını da kəsir. Dedi: "Da bunnan soora niyə yaşıyıram".

Böyüh qardaşın arvadı da duruf baxırdı. Baş ayna düşür, bədən də burda. Gəlin gördü ki, iki siçan, köhnə ev idi, ordan çıxdı, dalaşdılar, biri o birinin başın üzdü. Baş burda qaldı, bədən orda qaldı. Siçan getdi. Bir azdan soora gördü ki, siçan ağzında nəsə çiyniyir – otdu. Nə otudursa, çiynədi, çiynədi, çiynədi, yumuşaltdı, gətdi qoydu bədənə, başı ora qoyan kimi yapışdı, dirildi. Qız da həmin qayda ilə qardaşdarının başını bədəninə yapışdırdı. Amma tələsdiyinnən ərinin başını qaynının bədəninə, qaynının başını ərinin bədəninə qoydu.

Sımavar soruşdu ki, indi qadın hansına çatajax? Şah Abbas dedi ki, bədənə çatajax. Məleykə dedi ki, yox, baş hardadısa, ona çatmalıdı, baş bədənin padşahıdı. Bu dəfə də məleykəni dindirdi.

Məleykənin indi lap ajığı tutdu, peşman-peşman otdu. Qayıtdı sənəyə dedi ki, ay sənəh, Allahın hökmüynən mənnən danış. Cin indi sənəhdən danışır. Deyir ki, Şah Abbas sağ olsun, bir dülgər vardı, bir dərzi vardı, bir də bir molla. Üçü ticarət eliyirdilər. Yükə qaroul çəkmək üçün gejəni üş yerə böl-

müşdülər. Qaroul çəkirdilər. Axırıncı gejə idi. İndi qavaxcan dülgər qaroul çəkdi. Bekaf dayana bilmədi da. Götdü bir kadın fiquru düzəltdi taxdadan. Düzəltdi söykədi yükə. Gəldi dərzini durğuzdu: “Dur, vaxt tamamdı”. Dərzi durdu. Gördü ə, yükə bir adam söykənif. Qarannıx gejədi dana. Getdi əlini vurdu, gördü taxdadan düzəldilif. Bildi ki, bunu dülgər düzəldif. Bu da maşını qoydu qavağına, bir dəst qəşəh kadın paltarı tikdi, geydirdi buna. Söykədi yükə, gəldi mollanı durğuzdu. Daa sabah açılırdı, sübh namazı idi. Molla durdu, səni öl, bir kadındı. Gəldi əlini vurdu, gördü taxdadı. Gördü ki, sənətkarrar öz sənətini isbat eliyiflər də. Namazın qıldı, üzün çöyürdü Allaha ki, Xudavəndi-xalıq, onnar öz sənətdərin sübut eliyiflər. Buna bir can ver, mən bunnarın yanında xəjalətli olmuyum. Allah mollanın sözüynən ona can verdi.

İndi bunnar üçü də qalxdılar, savaxdı. Dülgər dedi mənimdi, dərzi dedi mənimdi, molla dedi mənimdi. Ay Şah Abbas, hansına çatajax?

Dedi:

– Dülgərə, – deyən kimi məleykə ordan dilləndi. Düzün tərəfinədi axı. Dedi:

– Ə, quru taxtaya nə çatır? Quru taxtadan qayırıf qoyuf ora da. Buna can verən var axı. Mollaya çatmalıdı.

Dedi:

– Əşi, hər kimə çatır çatsın, dindirdimmi səni üş dəfə? Qutardıxmı sənnən da?

Dedi:

– Hə, Şah Abbas, get. Sən Şah Abbassan ki, Şah Abbassan. İsdəmirəm o heyvanı, daa gətirmə.

Ordaca Şah Abbas durur atını minir, çıxır gəlir.

# ÜÇ QIZ

Bir kişi olur. Kişinin də arvadı ölür, üç qızı qalır. Gedir bir ayrı arvad alır gətirir. Arvad qızdarnan dolanmır, gündə dalaşıllar. Qızdar da yekə qızdardı. Arvad kişiyə deyir ki, a kişi, ya bu qızdarını birtəri elə, ya mənim kağızımı ver, çıxım gedim. Dolanmıram da, gündə dava, gündə dava. Kişi də görür ki, vallah, arvadsız dolana bilmədi, getdi arvad aldı. Fikirrəşdi ki, elə yaxşısı budu bu qızdarı azdır, çıxsın getsinnər hara gedillər.

Qoz bağı vardı, çox böyüh bağ idi. Bir tərəfi gedirdi Şah Abbasın vilayətinə dirənirdi, mal toolasının dalına dirənirdi. Qızdara dedi:

– A bala, dağarı, toxmağı götürün, gedəh qozduğa. Mən çıxım çırpım, siz də yığın, gətirəh.

Dağarı, toxmağı götdülər, getdilər. Kişi çıxdı ağaca, çırpdı, qızdar da yığdı. Qoz da adamı susdadan olur. Bir az yeyənnən soora dedi:

– Ata, susunnan yandıx, buralarda su var?

Kişi yalannan buları azdırmax üçün dedi:

– A bala, buraynan belə gedin, qabağınıza çıxajax su.

Su varıdı qabağına çıxa? Qızdar qoşuldu bir-birinə meşənin içiynən gedən kimi kişi dağarı, toxmağı asdı ordan. Küləh vuranda toxmağ dağara dəyif tıkqıldıyırdı. Qızdar elə bilirdi atası orda qoz çırpır. Kişi düşdü qaşdı, çıxdı gəldi.

Çöl görməmiş qız uşağı, nə qədər getdilər tapmadılar. Qayıtdılar gəldilər həmin ağacın divinə. Gördülər ki, ə, atası nə gəzir, atası yoxdu. Otdular ağacın divində. Bir az ağlaşdılar. Tanımırdılar heç haranı. Qız uşağıdı dana, çıxmıyıflar çölə-bayıra. Gejə düşdü, qaldılar elə ağacın divində. Sabahatan qaldılar ağacın divində. Sabah açılanda – balaca bacıları bir az bijəltərəh idi, – dedi:

– Ay bajı, burda oturmaxnan bizi kim gəlif aparajax? Gəlin elə meşəynən çıxax gedəh, bir tərəfə çıxajeyih də.

Düşdülər meşəyə, ağzı yuxarı gethaget, gethaget, gethaget, gəldilər çıxdılar Şah Abbasın mal toolasına. Baxdılar ki, yaxşı tooladı. Düşdülər külfənin ağzına. Axşam idi. Şah Abbas da gəlmişdi mala baxsın. Gördü ə, külfənin ağzınnan səs gəlir. Gəldi külfəyə yaxınnaşdı, qulağın dirədi ora, gördü əyə, kadın səsidi. Dinşədi-elədi, gördü üş nəfərdilər. İndi böyüh bajı Allahdan arzu eliyir ki, Allahın altında elə məni vəzirin oğlu aleydi, günüm yaxşı keçeydi da, çörəyim, suyum oleydi. Ortancıl da dedi ki, Allahın altda məni vəkilin oğlu aleydi, bajı, elə bu şəhərdə yaşıyeydih bir yerdə. Mənim də varım-halım oleydi. Bu balaca qız da dedi ki, a bajı, siz onu arzuladınız, mən də bir şey arzuluyajam.

– Nə arzuluyassan?

Dedi:

– Allahın altda o qədər varım oleydi ki, Şah Abbas mənim paltarımı aleydi qoluna, apardı hamama, gətirərdi.

Gör Şah Abbasdan nə qədər yuxarı isdiyir ey. Şah Abbas bunun üçün də eşitdi. Gəldi evə. Adam göndərdi, dedi:

– Ə, orda üş nəfər zənən var, gedin onu gətirin.

Getdilər gətdilər. Baxdı ki, üş dənə qız uşağıdı. Dedi:

– Qızım, külfənin ağzında Allahdan nə arzu eliyirdiniz, onu bir də burda deyin görüm.

Bunnar bir az qorxdu. Axı pis alqış eliyif balaca qız. Dirəndi üsdərinə. Böyüh qız dedi ki, Şah Abbas sağ olsun, söz idi da danışdıx orda. Dedim ki, Allahın altda məni vəzirin oğlu aleydi, günüm yaxşı keçeydi, çörəyim, suyum oleydi.

Dedi:

– Bala, bəs sən nə arzuluyurdun?

O da dedi:

– Mən dedim ki, məni vəkilin oğlu aleydi, elə bajımnan bir şəhərdə oleydim.

Çağırdı vəziri, vəkili. Dedi:

– Bunu sən öz oğluna alessən, bunu da sən alessən.

Ağzı nədi almıya, şahdı. Balaca qıza dedi ki, qızım, sən nə arzuladın? O da bir az qorxdu. Dedi:

– Qorxunnan ölmə ey, nədən qorxursan? Sənə heş kim bir söz deyə bilməz, Allahdan arzuluyursan.

Dedi:

– Vallah, Şah Abbas sağ olsun, söz idi dana, danışırdım. Dedim ki, o qədər varım oleydi, Şah Abbas məni hamama aparıf-gətireydi, – deyəndə Şah Abbas dedi:

– Hə, lap yaxşı arzuluyursan.

Çağırdı vəziri, vəkili, bu qızdarı verdi onnarın oğluna. Kiçih qıza dedi:

– Bala, vallah, sənin arzunu mən yerinə yetirə bilmərəm. Sənin gərəh mənim varımnan çox varın ola ki, mən sənin paltarını hamama aparam. Ona mənim güjüm çatmır, get, Allah versin.

Bu düşdü yolun ağına: ağlıya-ağlıya, qız uşağı. Gethaget, gethaget, getdi bir düzdə gördü bir bina var, ev var. Getdi bir çökəh yer vardı, burdan keşdi içəri:

– Ay ev yiyəsi, ay ev yiyəsi.

Axşam düşür. Nə qədər çağırdı, gördü hay verən yoxdu. Getdi qapıya. Qapını basan kimi qapı açıldı. Girdi gəzdi, gördü heş kəs yoxdu, amma ev doludu, nə isdəsən var. – Kişiyə gərəh Allah verə ey, yüyürməhnən döylü. – Gördü hər şey var, özü də ajmışdı. Sımavarı doldurdu, qaynatdı. Bişmiş bişirdi, yedi, qarnın doyurdu, gəldi otdu, görə indi axırı nolajax, kim gələjəh? Buranın da yiyəsinin adı Məhəmməd idi. Bu da tilsimkar idi. Günüz olanda ilan donuna düşürdü, gedirdi. Axşam olanda gəlirdi donun dəyişirdi, olurdu oğlan. Məhəmməd ilan donunu dəyişdi gəldi ki, bir qızdı oturuf.

–Ağız, sən hardan gəlmisən bura?

Dedi:

– Hal-qəziyə belə-belə.

Dedi:

– Hə, yaxşı eləmisən. Elə Allah səni maa yetirif, məni də sənə. Görürsən bu evlər hamısı doludu. Qızıldı, gümüşdü, nə bilim var-döylət. Sən gördün ki, mən ilan donunda gəldim. Tilsimkaram. Mənim sirrimi heş kəsə vermiyəssən. Əyəm mənim sirrimi aşsan, elə burdaja quru yurtda qalassan. Bular hamısı tilsimdən düzəlmə şeydi.

Dedi:

– Vermiyəssən ki?

Dedi:

– Yox.

Başdadılar burda dolanmağa. Bir gün bir dənə dərviş gəldi, qəsidə deyirdi bunun qapısında. Bu apardı dərvişə bir kisə qızıl verdi. Dərviş sevinə-sevinə götdü, hərrəndi gəldi Şah Abbasın qapısına. Şah Abbas arvada dedi ki, ay arvad, dərviş gəlif, apar ona qəpih ver. Qara qəpihlər olurdu. Arvad aparıf bu qəpihdən verəndə dərviş dedi ki, buna bax ey, sən Allah, Şah Abbasın adı dünyanı götürüf, bir qız xeylağı maa bir kisə qızıl verdi, Şah Abbas da maa qara qəpih verir. Bunu arvad getdi dedi Şah Abbasa. Dedi:

– Vallah, verdim, heş götürməh isdəmirdi. Dedi ki, bir qız xeylağı maa bir kisə qızıl verdi, Şah Abbas maa qəpih verir.

– Ay arvad, yüyür, onu saxlat.

Çağırdı saxlatdı. Dedi:

– Ə, o kim idi sana bir kisə qızıl verif? Dərvişə, sayıla bir kisə qızıl verəllərmi?

Dedi:

– Şah Abbas sağ olsun, verdi da o. Qəsidə dedim qapısında, gətdi bir kisə qızıl tulladı.

Bu, məhətdəl qaldı ki, bir kisə qızıl verəllər sayıla? Dedi:

– Onun evi-eşiyi hardadı?

Bu, yerin dedi. Şah Abbas bir gün durdu, atını mindi, dedi:

– Gedim görüm o nətər adamdı. Nə qədər varı var ki onun, dərvişə qızıl verir.

Durdu gəldi, axşama çatdı ora. Qapını döyən kimi qız gəldi. Amma aradan çox keçifdi. Şah Abbas qızı tanımadı, qız Şah Abbası tanıdı.

– A bala, məni beyjəlih qonağ eliyə bilərsənmi?

Dedi:

– Niyə eləmirih, düş gəl.

Amma qız da elə elədi ki, guya Şah Abbası tanımır. Apardı buna yaxşı yeməh-işməh. Yedilər, işdilər. Bir qız idi, bir də Şah Abbas, Məhəmməd hələ gəlmiyif. Dedi ki, dayı, mən hamama getməliyəm, isdiyirsən burda otur, isdiyirsən mənnən gəl, hamamın yanında oturarsan. Şah Abbas da dedi: "Ə, məni burda kimdi tanıyan". Qız paltarını yığanda dedi:

– Bala, paltarı ver maa, mən götürüm.

Qız paltarını tulladı bunun qucağına, getdilər. Allahdan arzu eləmişdi axı. Gör Allah bunun arzusun nətər yetirir? Götdü apardı. Qız getdi girdi hamama çimməyə, bu da qapıda gözdüyür. Şah Abbas kimi adam qızı gözdüyür. Çimdi-elədi, yaş paltarını da genə Şah Abbas aldı qoltuğuna, gəldilər. Qız hələ özünü tanıtmır. İndi başdadılar söypətə. Axı bunun əri gələsidi. Məhəmməd gəldi ordan baxdı ki, bir kişidi oturuf. Çıxmadı. Evdə adam olanda üzə çıxmırdı ki, tilsimini bilələr. Gejə bunnar yatdılar. Sabah duruf gedəndə qız dedi ki, buna bildirim da. Dedi ki, Şah Abbas, məni tanımadın?

Dedi:

– Yox.

– Kimsən, a bala, sən?

Dedi:

– O bajılarımı ki verdin vəzirin oğluna, vəkilin oğluna, maa dedin ki, get, sənkini Allah versin. Bax, həmən qız mənəm. Mənim o qədər varım var, Allah verif.

Dedi:

– Hə, saa dedim ki, get, sənkin Allah versin, mənim gücüm çatmır. Lap yaxşı. Gedim bajılarına deyim yerini-yurdunu, gəlsin görüşün.

Gəldi Şah Abbas bunun bajılarına dedi ki, bajınızın varı o qədərdi ki, təpəsinnən yuxarıdı. Gedin görüşün, filan yerdədi. Bunnarın uşaxları da olmuşdu. İki bajı ikisi də qoşuldu bir-birinə, gəldi bunun evinə. Qapını aşdı ki, bajılarıdı. Görüşdülər-elədilər, gəldi otdular. Bular baxdılar ki, bura ayrı adam gəlmir. Dedilər ki, ay bajı, heş bura adam gəlmir. Sən kimnən olursan ki burda?

Dedi:

– Ay bajı, nəyinizə lazımdı, tək oluram. Bu ev mənim, eşih mənim. Əyəm varınız yoxdusa, nə isdiyirsiniz götürün, çıxın gedin. Mən kimnən oluram, nətər oluram, ona qarışmıyın.

Üş gün qaldılar burda. Yedilər, işdilər, danışdılar. Məhəmməd gəlirdi, görürdü bular burdadı, çıxmırdı, qayıdıf gedirdi. Üç günnən soora bular gedəsi oldu. Böyüh bajısı əl çəkmədi ki, sən kimnən olursan, gərəh bizə deyəsən. Nətəər biz bajıyıx? Dərdini maa demiyəssən, kimə deyəssən? Bu boynu qırılmış da aşdı dedi. Dedi:

– Ərim belə tilsimkardı. İlan donunda gedir, gələndə bax burdan çıxır.

Çıxdığı yeri gösdərir. Deyir, bajı bajının altına it küçüyü qoyur, yalan döyül ey. Heylələri var. Bunnar gedəndə böyüh bajı həmən deşiyin ağzına almaz tulluyur. Almazı tulluyur, çıxır gedir. Məhəmməd ilan donunda gəlirdi. Gələndə almaz onun burasınnan tutdu. Kəsdi, qanadı. Başını çıxartdı belə, arvadına dedi ki, mənim sirrimi saa demədim vermə. Niyə verdin mənim sirrimi? Mən getdim, qaldın düzün ortasında. Çıxdı getdi. Tilsimdən düzəlmiş şeydi. Qızı da yuxu tutdu, yatdı. Bir vaxt qalxdı ki, gün günorta olufdu, ev nə gəzir, eşih nə gəzir. Hamısı tilsimdən olan şeydi, yoxa çıxıf. Bir başına vurdu, bir g…nə vurdu. Ağladı, sızdadı, nolajeydi.

Ağlıya-ağlıya durdu düşdü yolun ağına. Yolnan gedirdi bir meşənin içiynən. Məhəmməd çıxdı bunun qabağına. Dedi:

– Aaz, niyə ağlıyırsan?

Yıxıldı bunun əlinə-ayağına, üzünnən öpdü, gözünnən öpdü. Səni and verirəm Allaha, imana, məni tərk etmə. Dedi:

– Saa demədim mənim sirrimi vermə, niyə verdin?

Dedi:

– Qanmamışam, bilməmişəm. Bir də verməréəm.

Təzdənnən Məhəmməd buna tilsimnən bir ev tikdi, yığdı içinə. Aradan bir az keçəndə bajıları dedi ki, aaz, gedəh bir də bajımıza dəyəh. Deyilənə görə, gəlif qapını açanda görüf bajılarıdı, ağajı götürüf qavıf. Deyif:

– Gedin, sizin kimi bajı mənə lazım döyül.

Bajılarını da qavdı. Məhəmmədnən otdu burda ömürrüh.

## ZƏRGƏRİN NAĞILI

Şahın zərgarrarı olur. Bir gün şah vəzirin çağırır, deyir:

– Vəzir, zərgarrarın birin çağır, xəzinədən qızıl burax, bir dənə qoç fiquru zakaz verdir.

Deyir:

– Baş üstə.

Çağırır zərgarı. Deyir ki, gəl xəzinədən qoç fiquru düzəltmək üçün qızıl götür, şaha bir qoç düzəldəjəhsən. Bu gedir on kilo qızıl götürür. Gətirir elə bir qoç düzəldir ki... Amma qızıldan bir az özü üçün götürür. Elə bir metal qatıb qarışdırır ki, patcah neçə zərgar çağırtdırır ki, yoxlayın görək buna ayrı metal qarışmıyıf. Heş kim baş tapmır. Patcah qoç fiqurunu görəndə çox şövqə gəlir, o qədər dil-ağız eliyir ki. Zərgar deyir:

– Patcah aləm sağ olsun, bu mənim sənətimdi. Bir belə dil-ağız eləməyə dəyməz. Maldı, vermisən, mən də düzəltmişəm.

Deyir:

– Bir xoruz da düzəldə bilərsənmi?

Deyir:

– Baş üstə.

Genə çəkiynən qızıldan verir, bir xoruz düzəldir. Çəkiynən də xoruzu bunnan götürür. Zərgər xoruzun da materialınnan bir az götürür, amma aparmır evə.

Deyir:

– Bunu apardım evə, arvad bilsə, bir gün bu açılajax, patcah məni qılınca çəkəjəh, nəslimizi kəsəjəh.

Fikirrəşir ki, mən nətər eliyim, bunu harda gizdiyim, kimə verim. Deyir, yox ey. Bu sirri heş kimə verə bilmərəm. Bu sirri gərək bir mən biləm, bir də Allah bilə. Öz dəzgahının altında bir metr yer qazır, dəmirdən qəşəh bir mücrü düzəldir ora qoyur, durbanı da ordan çıxardır çölə. Durbadan qızılları bir-bir buraxır qutunun içinə. Elə düzəldir ki, kim nə bilər o dəzgahın altında nə var.

Bir gün belə, iki gün belə. Zərgara material verən vəzirin könlünnən keçir ki, mən də şahın vəziriyəm da. Bir fiqur da mənə olmalıdı. Bu dizin bərkidir gedir patcahın yanına. Deyir ki, patcah-aləm sağ olsun, belə bir fikrə düşmüşəm. Xəzinədi da, icaza ver mən də bir dənə qoç, bir dənə xoruz düzəltdirim özümə.

Deyir:

– Get apar.

Aparır çəkiynən bir xoruzun materialın, bir qoçun materialın verir zərgara. Zərgar düzəldir. Vəzir gəlir aparır, baxır ki, eyni material versə də, bu qoçun patcahın qoçuna oxşarı yoxdu. Patcahın qoçunda olan gözəllik vəzirə düzəltdiyi qoçda yoxdu. Vəzir gedir zərgara sual verir ki, ay zərgar, axı bunun materialı birdi, amma bunların bir-birinə oxşarı yoxdu.

Deyir:

– Bilirsən o nədi?

Deyir:

– Nədi?

Deyir:

– Sana düzəltdiyim qoç patcaha düzəltdiyim qoç kimi eyni olsaydı, onda sənnən patcaha nə tafotu vardı? Mən sizin fərqinizi qoymuşam.

Vəzir ürəyində xayanatçılığ eliyir ki, ay zargar, bu hayfı sənnən çıxaram. Çox fikirrəşir, mən nətər eliyim ki, bu hayfı zərgardan alım. Da gejə yatanda, günüz gəzəndə bu fikirdə gəzir. Bir gün vəzir fikirrəşir ki, belə açılmıyan düyünnəri köhnə qarılar həll eliyər. Yeddi sort qarı var. Qarı var iman quran nəsibi, qarı var, ilan-qurbağa nəsibi, qarı var, ləpək qarı, qarı var, köpək qarı. Hər cür qarı var. Vəzir şəhəri ələk-vələk eliyir, köhnə dünyagörmüş bir qarının yanına özünü yetirir. Deyir:

– Qarı nənə, sənə yaman işim düşüf.

Deyir:

– Oğul, Allah-taala xeyir işdən uzağ eyləsin, şər iş olsa mənim ovcumun içində yumuludu, belə açajam, həll olunajaxdı. De görüm nədi?

Deyir:

– Bax belə bir iş var. Sən o zargarın elə bir ləkəli işin, bir nöksanın tapıf mənə desən, səni dünya malınnan qane eliyəjəm.

Dedi:

– Sən o zərgarın adın, familyasın, evinin nömrəsin, məhləsin mana tuşut, sənin işin olmasın. Qarı nənənin əlində nə şeydi?

Göstərdi. Qarı bir gün tumanın balağın çəkə-çəkə getdi, zərgarın evin tapdı. Darvazanı döydü. İndi darvazalar bağlı olur, o vaxdı hamısı açıx olurdu. Zərgar özü işdə idi, amma yoldaşı evdə idi.

Dedi:

– İcaza olar evə gəlməyə?

Dedi:

– Qarı nənə, niyə olmur? Ev sənindi, gir içəri, ağbirçək arvadsan.

Yer görsətdi, oturdu. Qarı eşdi tökdü köhnəni, təzəni, qatdı bir-birinə.

Dedi:

– Ay qızım, sən bajım qızısan. Soraxlamışam ordan-burdan. Vaxt belə gəldi, bir az qat-qarışıxlığ oldu, bajımın adı yadımnan çıxıfdı.

Qız dedi ki, anamın adı filankəsdi. Dedi:

– Gör naxantara mən sizdən soyumuşam, siz mənnən soyumusuz, aralaşmışıx ki, bajımın da adı yadımnan çıxıfdı.

Qarı bir az üzün-gözün yolmacladı, axşam çıxıf getdi. Dedi:

– İndi elə belə səni tapdım, Allah qoysa, genə gələjəm.

Vəzir bir-iki gün araya saldı qarını tapdı.

– Qarı nənə, neynədin?

Dedi:

– Kələfin ujun tapmışam. – Axı qadınnar ipi alır, ujun tapır, yavaş-yavaş yumağı sarıyır. – İnşallah yaxşı olar.

Vəzir çıxartdı bir dənə onnux qızıl qarının ovcuna basdı, dedi:

– Hələ bunun dalı var, sən işi düzəlt.

Dedi:

– Mənim gözüm üstə, bu nə işdi ki. Ta ki belə işdərdən yüzü olsun, iki yüzü olsun.

Qarı zərgarın uşaqların da görmüşdü, bu qızılnan hərəsinin boyunun ölçüsündə paltar aldı, gəlinə aldı. Mer-meyvədən yığdı gənə getdi. Darvazanı döydü, girdi içəri. Gəlin baxdı ki, xalası – indi xala oldu ha, – elə bir şələynən gəlir ki, güjü çatmır. Tez özün çatdırdı:

– Ay xala, bu nə əziyyətdi?

– Baa, bajı qızı, biz təzə tapışmışıq. Hələ bu azdı, bunun dalı da olajax. Gələjəm, gedəjəm.

Qarı aşdı gətdiyini. Gəlin götürdü ayana-bayana. Dedi ki, ay bajı qızı, sənin bu yoldaşın zərgardı. Özü də eşitmişəm ki, bu şəhərdə onun kimi qabiliyyətdi zərgar yoxdu. Axı onun nişanalarınnan səndə yoxdu. Nə yaxanda yoxdu, nə barmağında yoxdu, nə qulağında yoxdu. Bə bunun qazandığı haraya gedir? Bajısı qızı deyir ki, ay xala, vallah, kasıb adamıx. Elə gündəlik gətirdiyidi, ancax uşağı dolandırır. Deyir:

– Yox, heylə deyil. Bu qazandığın harayasa buraxır.

Qarı durur gedir öz işinin dalınca. Axşam zərgar gəlir evə. Gəlir baxır ki, uşaqların əynindəki libas həmişəki libas deyil. Yoldaşınnan soruşur ki, bu nədi, pulu hardan aldın? Dedi:

– Bir xalam tapılıfdı. Gəzə-gəzə gəlif məni tapıfdı. Siftə gələndə sənə demədim. Dedim, bu qarı xala olmaz, siyasət olar, başıma bəla olar. Amma özgə adam bir belə gətirməz. Bu qarı xalamdı ki, bir belə gətirifdi.

Zərgar da bir az fikrə gedir, deyir, ola bilər da. Zərgar yoldaşıynan danışanda baxdı ki, burun-damağ eliyir, qabaxkı kadın deyil. Dedi:

– Sən niyə belə dəyişilmisən?

Dedi:

– Mən dəyişilmiyim, neyniyim? Sən bu boyda şəhərin qadınnarının kiminə bilərzik, kiminə yaxalıx, kiminə sırğa düzəlt-

misən. Axı onlardan mənim üstümdə bir nişana yoxdu. Baxan heç bilmir ki, mən zərgar yoldaşıyam, ya fəhlə yoldaşıyam.

Zərgar əlbəəl başa düşdü ki, qarı bunu azdırıfdı. Yoldaşına dedi:

– Fikirrəşmə, o da düzələr.

Qarı çıxdı getdi. Vəzir dedi:

– Qarı nənə, neynəmisən?

Dedi:

– Yavaş-yavaş.

Çıxartdı bir ovuc qızıl tökdü cibinə. Dedi:

– Qarı nənə, gözdüyürəm səni.

Dedi:

– Arxayın ol, iş düzələjək.

On-on beş günmü, iyirmi günmü araya saldı, qarı genə bir ağır xələtnən getdi bajısı qızının evinə. Genə baxdı ki, dünyanı yığıf gətirif. Bu da fikirrəşdi ki, axı yad adam belə hörməti eləməz. Dedi ki, gör neynirsən. Dedi:

– Arxayın ol, məlumat verəjəm, gələrsən.

Genə axşam zərgar gələndə yoldaşı çay da tökmədi, çörək də qoymadı, çox naz elədi. Zərgar yoldaşına dedi:

– Sən dərdini de, görax sən niyə belə eliyirsən?

Dedi:

– Sən mana denən görax sən qazancını haraya axıdırsan?

Dedi:

– Ay arvad, qazancımı haraya axıdajam? Verirəm çaya, çörəyə, qəndə. Ancax əysiklikdi.

Dedi:

– Yox, mana deməsən, bu sənin uşağın, bu da sən. Mən çıxıram gedəm.

Xülasə. Dedi ki, arvad, aramızda qalsın. Bir mən bilim, bir sən bilginən. Dedi:

– O nə sözdü, sənin sirrini yayajam şəhərə?

Dedi:

– Məndə qızıl var.

Dedi:

– Bə harda saxlıyırsan?

Dedi ki, onu soruşmasan yaxşıdı da. Bir gün gətirif tökəjəm istolun üstünə, lap sənə qızıldan başmax da tikəjəm, ayağında parıldasın. Dedi:

– Yox ey, mana nağdı de görax kim saxlıyır?

Dedi:

– Ay arvad, aramızda qalsın, onu öz tükanımda dəzgahımın altında (bayax danışdığım kimi) quyuda saxlıyıram.

Gəlin bildimi qızılın yerini? Genə zərgar getdi özü işinə. Ara bir az çəkəndə qarı bir də gəldi.

– Neylədin? Yoldaşın sənin əyninə o bəzəkdən, düzəkdən söz verifdi?

Dedi:

– Söz verifdi, hələ gərək bir az gözdüyəm.

Deyir:

– Bə ələ gətirdiyin harda saxlıyır?

Deyir:

– Filan yerdə.

Qarı yükün yığdımı təpəyə. Özün çatdırdı evə. Vəzir özün çatdırdı:

– Qarı nənə, neyləmisən?

Dedi:

– Hal-nağrı belə.

Vəzir getdi şahın yanına. Dedi:

– Şah, mana kəmisyə ver, mən zərgarrarın tükünnarın yoxlatdırım. Çoxdan bəri yoxlamamışıx: kimin artığı var, əysiyi var, üzə çıxmır. Hər kəs öz bildığın eliyir.

Deyir:

– Kimi ürəyin istiyirsə, götür get.

İki dənə polis yanına alır, gedir zərgarın tükanının ağzına. Deyir ki, şah bizi yolluyuf, tükanını yoxlamalıyam. Deyir:

– Buyur.

Gedir o küncə dəyir, nə var ki. Gəlir bu küncə dəyir, nə var ki. Gəlir ayağın dəzgahın yanında vurur yerə, polislərə deyir ki, buranı qazın. Zərgar o saat duyur ki, arvad bu sirri aşdı xalasına, xalası da məni satıfdı vəzirə. Qazdılar, qızıllar çıxdımı, mücrü çıxdımı? Vəzir apardı qoydu şahın qabağına. Dedi:

– O vaxdı bizim fiqurları düzəldəndə götdüyü qızıllardı.

Şah baxdı ki, doğrudan da, öz peçatı olan qızıllardı.

Dedi:

– Zərgarı çağırın buraya.

Zərgarı çağırdı. Zərgar bunu dana bilməz, əldədi hər şey. Çağırdı cəlladları, dedi aparın bunu dar ağajının divində ortadan bölün, yarsın bu tərəfdən, yarsın o tərəfdən asın. Üstünə də yazın ki, şaha xayanatçılıx eliyif. Şahın bir ağıllı vəziri vardı, adın qoymuşdular Sirri-Sübhan vəzir. Hamısı onun sözün eşidirdi. Özün irəli verdi, dedi:

– Şah, bu cavandı, yaxşı da sənətkardı. Heç qanın şəhərə tökmə.

Dedi:

– Bə neyliyağ?

Dedi:

– Verginən cəllatdarın ixtiyarına, aparsınnar kənarda öldürsünnər.

Həmən bu vəzir ki, fiqurların yaxşı düzəltmiyif, özün verdi qabağa, dedi:

– Şah sağ olsun, ver mana, bunun cəzasın mən verim.

Dedi:

– Verdim, apar.

Şəhərdən bir xeyli kənarda qırx mərtəbədən də qəlbi bir bina vardı. Ora getmək, gəlmək elə-belə şey deyil. Gərək pillakan qoyasan, çıxasan, düşəsən. Vəzir fikirrəşdi, dedi ki, şah sağ olsun, bunu aparajam o binanın üstünə qoyajam. Orda günnən gün vursun, yağışdan yağış vursun. Elə o binanın üstündə də dünyasın dəyişsin, qarğa-quş ətin, qanın ordan götürsün aparsın, heç şəhərə də düşməsin. Şah fikirrəşdi ki, yaxşı məsləhətdi. Dedi:

– Apar, verdim sana.

Apardı. Çağırdı vəziri-vəkili, cəllatdarı, köməkçini. Zərgarı qaldırdılar qırx mərtəbənin üstünə, pilləkəni çəkdi. Vəzir dedi:

– Sən bilmirdin o fiqurları belə düzəldəndə o hayıf səndə qalmıyajax. Di orda qalginan. Günnən gün vursun, yağışdan yağış vursun, qarğa-quş ətini aparajaxdı.

Bunu dedi, qayıtdı. Axı zərgar iki-üş gündü evə getmir. Yoldaşı fikirrəşdi ki, elə xalam düz deyirmiş, – bilmir axı ərini tutuflar, – o kimə uyufmuşsa, elə gedif orda qalır. Başı alovlu qaçır şahın yanına. Şah deyir ki, xeyirdimi, nə gəzirsən? Deyir:

– Belə-belə. İki axşamdı yoldaşım gəlmir evə.

Deyir:

– Bəxtəvərin qızı, yoldaşını şah tutufdu, filan binanın başındadı. Böyünə-sabahadı. Günnən gün, yağışdan yağış vurur, orda bir heylə dözə bilməz, öləjəhdi. Cinayat eliyifdi.

Bu düz getdi imarətin dibinə. Binanın dibinnən çağırdı zərgarı. Dedi:

– Nə deyirsən?

Dedi:

– Sənin evin yıxılmasın, sən nətər çıxmısan oraya?

Deyir ki, heç orasın soruşma. İndi sən mənim yanıma çıxmax isdiyirsən, yoxsa mənim ölümümü istiyirsən? Dedi:

– Mən sənnən ötrü ölürəm. And belə, müsət belə, mən sənnən qabax özümün ölümün isdiyirəm.

Deyir:

– Onda mənim dediklərimi elə, səni çıxardajam yanıma. Mən düşəjəm, sonra da səni endirəjəm.

Dedi:

– Bə neyniyim?

Dedi:

– Getginən yüz metirrik xayati sap[1] al, sonra getginən əlli-altmış metr şirit kəndir al, sonra bir yoğun kəndir al, bir də mana

[1] Xayati sap – tük kimi nazik sap

yemək. Üş gün, dörd gün burda aj-susuz qalmışam. Sonra bir uzun qarğını elə eləginən – axı qarğıların arasında buğum olur, – onu içdən-içə deş, bir az uzun olsun. Bir dənə də get malda hərrənir ey göygöyün – biri var balaca, biri də var mozalan sarılı, alalı, adamın böyrünnən keçəndə vıjıltıynan keçir, mal da onun səsinnən qaçır, – birin də onnan tut, ipişkada gətir binanın ayağına. Binanın da işıxlığı var da. Binanın ayağına gətirəndə xayatı sapı bağla mozalağın ayağına, altdan qarğının ayağınnan burax, qarğını da dik tut. O işığa çıxajax. Yanımnan keçəndə mən onu tutajam, xayatını onu ayağınnan açajam.

Gedir gətirir, heylə də eliyir. Çıxanda tutur. Sapı açır, mozalanı buraxır. Elə açır ki, mozalanı əzmir ki, bu məni ölümdən xilas eliyif. Arvada deyir ki, şirit kəndiri bağla sapın ayağına. Onu da çəkir çıxardır yanına. Deyir:

– İndi yoğun kəndiri bağla.

Onu da yanına çıxardır. Deyir, indi bağlaginan xurcuna. Axı iki gözündə su da var, yemək də var. Onu da çıxardır. Arvada deyir:

– Binanın ayağında sən bir neçə gün nəfəs al, mən neçə gündü ajam. Mən bir az su içim, əl-üzümü yuyum, çörəyimi yeyim, tokqamın altını bərkidim, səni çıxardajam yanıma.

Bu yeyir tokqanın altını bərkidir. Deyir:

– Kəndiri bağla ortana, möhkəm yapış.

Zərgar çəkir, arvad da bir az çəkidən yumuluymuş da, dartadart, dartadart çıxardır yanına. Zərgarnan görüşür. Zərgar buna üzün də turşutmur ki, bu heş zaddan şübhələnməsin. Dedi, şah mənim əlimdə əyrilik tapdı, məni qaldırdı bura. İndi mən kəndiri ortama bağlıyajam. Sən bu binanın qırağınnan möhkəm tut, bu gətdiyin xurcunu qoy bura, bu daş kəndiri kəsməsin. Sən burdan ipi burax, mən yerə enənnən sonra səni endirməyə nə var ki. Yoldaşı da fikirrəşir ki, bu məni çıxartdı buraya, bu əməlin yiyəsi məni düşürdər də. İpi bağladı ortasına, ha-ha-ha yendirdi. Zərgarın ayağı yerə çatanda qəflətən çəkdi kəndiri, yoldaşının əlinnən çıxdı. Dedi:

– Ay belə şülənin qızı, ora sənin yerindi, mənim yerim deyil. Mən getdim, sən salamat qal.

Zərgar qoyur üstünə. Haraya getdiyin bilmir. Qorxulu-qorxulu qaçır da. Qadın orda qalır sızıldıya-sızıldıya. Vəzir deyir ki, şah sağ olsun, bir adam apardıx qoydux sənin göstərişiynən. İcaza verirsən bir gedim görax ölüfdü, qalıfdı. Deyir ki, get.

Səhər tezdən vəzir gedir. Gedir görür ki, orda bir nəfər ağlıyır, kadın səsidi. Bu bir az gözdüyür, deyir gedif deyərəm ordakı kadındı, şah boynumu vurdurar ki, sən zərgarı buraxmısan, oraya kadın çıxartmısan. Bir az gözdüyür, baxır ki, həqqi də kadındı. Saç sallanıf, özün döyür, ağlıyır. Kadına heç-zad demir vəzir. Vəzir qayıdır şahın yanına. Deyir:

– Şah sağ olsun, bir söz sana demək istiyirəm, amma çəkinirəm. Qəzəbin tutmasa, deyərəm.

Deyir:

– De.

Deyir:

– Apardığın zərgar orda kadın olufdu.

– Ə, nə danışırsan?

Deyir:

– Vijdan haqqı?

– Nətər kadındı?

Deyir:

– Saşdı, bayatı deyif ağlıyır.

Şah əmr verir, vəzir-vəkil pilləkəni aparıllar, baxıllar ki, kadındı. Qaldırıllar pilləkəni, düşürüllər. Deyillər ki, kimsən sən, buraya nətər çıxmısan? Deyir:

– Mən zərgarın ayləsiyəm.

Deyir:

– Biz onu çıxartmışdıq buraya, sən necə çıxdın, o necə düşdü?

Mən sizə danışdığım kimi danışır ki, bunları dedi, mən də gətdim elədim. Kəndiri çəkdi, mən qaldım burda. Haraya getdiyin bilmirəm. Şah deyir ki, aparın bunu evinə qoyun, bir

az da puldan, yeməkdən verin uşaxların saxlasın, görək zərgarı nətər tapırıx.

Zərgar okqədər gedir ki, patcahın torpağınnan çıxır. Baxır ki, böyük bir bağ var. Elə bir bağdı ki, ürəyin istiyən meyvə ağacı hamısı var. Öz-özünə fikirrəşir ki, mən özümü verim bağın yiyəsinin yanına, burda məni heç kim tapmaz. Heylə də gedir salam verir ədəb-ərkannan.

– Oğul, kimsən?

Deyir:

– Vallah, kimliyimi neynirsən. Mənə bir iş lazımdı ki, gündəlik yeməyim ola. Aylə yox, uşax yox, öz başımı dolandırım.

Kişi fikirrəşir ki, mana bir köməkçi lazımdı, elə bunu bağda işdədim. Bağmanın adı Əhməddi. Deyir:

– Əhməd kişi, soruşan ola-eliyə, nəbadə məni deyəsən.

Əhməd kişi fikirrəşir ki, bunun mana ziyanı nədi? İşdiyajax, bağımı düzəldəjax, mana köməkdarrıx eliyəjax.

Bir gün şah baxıcını, vəziri-vəkili yığır ki, zərgarı nətər tapax. Sirri-Sübhan vəzir gəlir, baxıcılar gəlir. Heş kim bir yana çıxarda bilmir. Sirri-Sübhan vəzir deyir ki, şah sağ olsun, bunun ayrı çarəsi yoxdu. Mən sana bir məsləhət verim, o məsləhəti eləsən, zərgarı tapmax olar. Deyir:

– Neyliyim?

Deyir:

– Sən əmr ver, torpağında nəkqədər kişi var, hamısı yığılsın bura. Onnan sonra mən deyəjəm.

Əmr verir. Qabax raykom deyirdilər, indi başçıdı. Həmin əmri başçılara verir, o tərəfə, bu tərəfə paylıyıllar. Səhər hərə bir at minir gedir şahın qəbuluna. Deyir:

– İndi neyliyim?

Deyir:

– Denən ki, qayıdın evinizə. Sabah hərəniz bir dənə quzu gətirərsiz. Quzunu gətirin, qalanını onda deyəjəm.

Şah əmridi, səhər hərə bir quzu götürür gedir. Zərgar da bağda çalışır. Əhməd kişinin də evdə həddi-buluğa çatan qızı var. Deyir, yaxşı olar da bu qıznan bağda işdiyəllər, tutarsa, qızımı da verərəm buna, baş-başa verif dolanarıx.

Quzunu aparıllar. Şah Sirri-Sübhan vəzirə deyir ki, bə indi? Deyir:

– İndi də sən qapan gətir qurdur, bu quzuları çək. Hər kəsin öz quzusun siyahıynan ver. Denən bir aydan sonra quzunu siyahıynan qaytarın gətirin. Bu quzular nə arıqlasın, nə kökəlsin. Hansı çəkidə vermişəmsə, o çəkidə də gətirin maa təhvil verin.

Bunlar dağılışır. Nətər olur, ot vermiyəjax arıxlıyajax, verəjək kökələjax. O cümlədən Əhməd kişi quzu qujağında boynu düşür da. Şah da əmr verir ki, vay o adamın halına, ya ağır gələ, ya əysik gələ. Ağır gələnin də boynun vurajam, əysik gələnin də. Bax bu çəkdiyim çəkini versin. Bunu kim eliyə bilər.

Zərgar baxdı ki, Əhməd kişi çox peşmandı. Dedi:

– Baba, bu nə gündü, bu nə saatdı? Sən dəyişilmisən.

Dedi:

– Bala, hal-nağıl belə. Ay tamam olanda nəkqədər kişi varsa, patcah boynun vurajax.

Deyir:

– Niyə?

Danışdığım kimi. Deyir, quzunu çəkifdi, gəlif iyirmi kilo. Bir aydan sonra aparajax hamı, iyirmi kilo gəlməsə, boynun vurajaxdı. Zərgar gülür. Deyir:

– Baba, bu nə şeydi sən bunnan ötrü qəmginsən. O mənim əlimdədi, yummuşam, açajam, düzələjəh.

Deyir:

– Nətər?

Deyir ki, böyün bağın hər yerin gəzmişik qızınnan. Lap o ujqarda... Sən neçə ildi bu bağdasan, bəlkə də oranı heç bilmirsən. Orda canavar deşiyi var. Orda iki-üç dənə küçük vardı, oynuyurdu bir-biriynən. Gedif onun birin tutajağıx, qəşəh ona

səbət hörəjağıx. Quzunu gətirəjəyik, gündə üşcə dəfə canavar balası onun üstünə atılajax, qatajağıx yerinə. Sən südün də ver, arpasın da ver, yemin də, xamın da ver. O nə kökəlmiyəjək, nə də arıxlamıyajax. Nətər çəkmisən, heylə də durajax. Deyir, bə onun adı nə olajax? Deyir, bilirsən nədi, ay baba. Mənim bilməyimə görə mənə Minəsaz adını veriflər. Minəsaz da çox bilən deməkdi. Əgər quzunu apardılar çəkdilər, düz gəlsə, mənim adımı demə ha. Mənim adımı deyən kimi şah boynumu vurajaxdı. Məndə ağır cinayətlər olufdu. Belə deyəndə Əhməd qorxuya düşür. Deyir, indi eliyim da, görək nə nəticə verir.

Ay gəlir, vaxt tamam olanda bunlar aparıllar. Çəkillər, biri ağır gəlir, biri yumul gəlir. Ağırı o tərəfə yığır, yüngülü bu tərəfə. Ağır gələn deyir, bizi öldürəjəh. Yüngül gələn deyir ki, bizim boynumuzu vurajax. Yüngül gələnnər ağır gələnnərə deyir ki, sizinki kökəlif sizi öldürməz. Xəta bizdədi, bizimki verdiyi çəkidən də az gəlif. Onnan sonrasına Əhmədin quzusunu çəkəndə çəkini ki düz verir, Sirri-Sübhan vəzir deyir:

– Şah sağ olsun, buraxma.

Saxlıyır bunu. Deyir, görürsən bunun quzusu iyirmi kiloydu, elə iyirmi kilo da gəldi. Denən, bunu sənə kim örgədif.

Nə qədər döyüllər boynuna almır. Da görür kü, öldürəjəhlər, dar ayağıdı. Deyir:

– Şah sağ olsun, əlinizi saxlayın, mən deyim.

Deyir:

– Qara yolnan bağa belə bir adam gəldi, bax o örgədifdi mana.

Deyir:

– Bəs onun adı? Bir aydı sənin evində olur, sən örgənməmisən?

Deyir:

– Niyə, örgənmişəm. Deyir ki, mənim adım Minəsazdı.

Hər şeyi örgəndimi. Vəzir cəllatdardan qoşdu. Əhmədin yanında getdilər, bunu qandaxladılar, qaytardılar şahın hüzuruna. Şah dedi ki, indi sən mana denən görüm sən nəyə görə

mənim materialımı götdün? Sənin tutulmağının səbəbi nədi? Arvadı nətər çıxartdın ora? Sən nətər düşdün? Bunun hamısını danışdırannan sonra zərgar deyir ki, vəziri çağır bura gəlsin, onda mən danışajam. Çağırtdırır, oturullar üz-üzə. Deyir ki, şah sağ olsun, bax məni bu işə salan, bu oyunu başıma açan sənin vəzirindi. Deyir:

– Niyə?

Deyir:

– Mən sənə düzəltdiyim qoçdan birini də ona düzəltdim axı. Material bir olsa da, onunkun bir az çirkin düzəltdim. O da mana sual verdi ki, material eynidi, amma bunlar bir-birinə oxşamır axı. Mən də dedim ki, vəzir, mən onu eyni düzəltsəm, onda sənnən şaha fərq olmur. Gərək aranızda fərq ola. Mən aranızın fərqin qoymuşam. Vəzir də mənnən əydi, bax bu oyunu başıma gətirən sənin o vəzirin oldu. Yoldaşım gəldi ora, onu bu vəziyyətdə çıxartdım ora. Yoldaşımı da bir qarı gəlif razdarrıx[2] eliyif ki, xalanam, filanam.

Deyir:

– Qarını da gətirin.

Həmən günnən şah vəzirə deyir ki, səni öldürmürəm, get. Vəzirriyi verir zərgara. Deyir:

– Zərgar, həm zərgarrığı eliyirsən, həm də mənim sıkladçım olursan. Xəzinənin ixtiyarın verirəm sənə.

Cəllatdara da deyir ki, qarını da aparın bir dənə həfkir[3] qatır var, bağlıyın qatırın quyruğuna, buraxın qaratikannığa. Qatır bilər, qarı bilər. Bunun da cəzasın belə verir.

Söz tamama yetir. Sağ olun. Allah canınızı sağ eləsin. Həmişə gəlif belə bal qabağında, çay qabağında olan stollarda oturarsız. O vaxdan bizdə bir məsəl var. Deyirlər, Minəsazın quzusu kimi nə kökəlirsən, nə arıxlıyırsan.

---

[2] Razdarrıq – şpiyonluq etmək, ara vurmaq

[3] Həfkir – ürkək

## HALAL QAZANC

Keşmiş zamanlarda bir kişi varmış. Çox kasıf, uçux bir daxmada yaşıyırmış. Bir arvadı, yeddi qızı varmış. Bu kişi gündə bir şələ qaratikan gətirif, satıf bir kısmat çörək almaxdan daa bezer. Bir gün Allaha, bəndəyə ajığ eliyir, başını götürüf eldən çıxer. Deyir, başımı götürüf gederəm, harda tapajam, orda yijəm. Bu qızdar, bu arvad da harda öləllər – öləllər, qalallar – qalallar.

Bu, az geder, çox geder, geder bir şəhərə çıxer. Şəhərdə geder bir bazarın qırağında – o vaxdı qullar dururmuş, – bu da o qulların yanında duruf burda gözdüyür. Bir kişi gəler, deyir ki, kim nökər işdəmək isdiyirsə, mana qul olmax isdiyirsə, ortaya çıxsın. Bu kişi çıxer, deyir:

– O mən.

Deyir:

– De görüm mənnən nə alarsan? Bir ildə min manat haram pulamı nökər olarsan, bir ildə bir abbası halal pulamı?

Bu fikirrəşmədən tez muna cavab verir ki, bir ildə mən bir abbası halal pula nökər olaram. Kişi deyir:

– Gəl.

Kişi yanına saler, aparer öyünə. Arvadına, ayləsinə deyir ki, bu adama yemək verin, çörək verin. Muna çay-çörək verellər, dincəler, savahdan başdıyır işə. Bir il sərasər munun qapısında qulluğ eliyir, nökərçiliy eliyir, işdiyir. Bir ili tamam olanda bu, xazeyninə deyir ki, başına dönüm, mənim bir abbasımı ver, mən bazara çıxajam, görüm bazardan nə aleram uşaxlarıma.

Bazara çıxanda örör kü, bir balaca cavan oğlan uşağıdı. Əlində bir yaşik, yaşikin içində gözəl-göyçək, yaraşıxlı bir pişik. Deyir: “Pişik sateram, pişik sateram”. Bu oğlana yaxınnaşer:

– A bala, bu pişiyi neçəyə verersən?

Deyir:

– Əmi, bir abbasıya.

Deyir:

– Mənim kiçik qızım var, yaman pişik sevəndi. Pişik görəndə ürəyi geder, az qaler ki, üzünnən-gözünnən öpsün. Elə bu pişiyi alıf ona göndərəjəm. Onsuz da mənim bir qazancım yoxdu.

Bir abbasıyı verer, bu pişiyi aler. Yaşikin içinə qoyor, bu pişiyin altına, üstünə, nəvilim, kağızdan-kuğuzdan, anrıdan-bəridən tökör, ağzını mismarrıyır, gətirer bunu verer karvana. Bir karvan var imiş. Bu karvan həmişə buların yanınnan keçif gedermiş. Gəler karvanın yanına. Karvanbaşıyı taper. Deyir:

– Karvanbaşı sağ olsun, mənim bir əmanətim var. Filan yerdən, filan kənddən, filan şəhərdən keçəndə onu verərsənmi?

Deyir:

– Nolar.

Bu yaşiki verer, deyir:

– Allah amanatı, bizim öyün yanında çağırarsan, bizim uşağa verərsən munu.

Karvanbaşı karvanını götürör, gəler. Az gəler, çox gəler, bir mənzil gələnnən sonra bular yorulor, bir yerdə dincələsi olollar. Dincəldikləri yerdə də həmişə bu şəhərin böyüyünə – patcahına bular xonça aparıf, muna ənam verif, munun yanına getməliymiş. Bular xonçanı götürör, munun yanına gedəndə – patcahnan bu dost imiş – patcah deyir ki, yanındakı qulluxçularınnan bir yerdə hamınız axşam mənim qonağımsınız.

Deyir:

– Yaxşı.

Bular dəvələrini, yüklərini yerrəşdirif rahatdıyannan sonra bu kişinin evinə qonax gəlellər. Qonax gələndə patcah həyat yoldaşına deyir ki, arvad, bir puloy pişir, qonaxdı də, qoy bir bizim puloyumuzu yisin. Arvad deyir ki, ay kişi, puloyu pişirəjəm, xəjalət qalajam. Deyir:

– Yox, sən pişir.

Arvad gətirer Əkülə düyüsünnən, Səbzə kişmişinnən puloyu pişirer, dəmleer, hazır eliyəndə gözü kişinin üzündə qaler. Yanı bu xörəyi necə çəkmək lazımdı. Kişi deyir ki,

başına dönüm, Allahdan gizdin olmuyan bəndədən nə gizdin. Sizə bir sirr açajam. Xörək çəkiləjək, hər küşdə[4] məcməyisini götürüf öz sinəsinə sıxıf sinəsində yijək. Deyir:

– O niyə helə olur?

Deyir:

– Bizim bu ölkədə bir siçannar diyarı var. Daa siçanın əlinnən biz ojağa xörək asıf ağzımıza çörək apara bilmerik, əlaxüsus da düyü xörəyini görəndə bu siçannarın qoşunu gəler.

Deyir ki, bir görək. Bu arvad xörəyi çəkəndə görör kü, ilahi, bir qavın içinə yüz siçan töküldü. Bütün düyünü göyə çəkdilər, yeyif qutardılar. Kişi beləcə məhətdəl qaler.

Deyir:

– İndi bilersən nə var?

Deyir:

– Nə var?

Deyir:

– İndi bizim düyüynən, bizim kişmişnən, bizim yağnan o puloyu təzdənnən pişirin. İndi mən bilerəm onun dərdini.

Deyir:

– Onsuz da siçannar qoymor, ayrı yimək hazırrıyax.

Deyir:

– Yox.

Puloyu bir də gətirer, düyüyü, yağı hazırrıyıllar, pişirellər. Məcməyilər, xörəhlər çəkilməyə az qalmış, yaşiki gətirer. Yaşikin ağzını açer, pişiyin başını-gözünü sığalleer, birdən pişiyi ortaya tulloor. Pişiyi ortaya tulluyanda siçanın birini burda, ikisini orda, beşini orda. Boğduğunu boğur, boğmadığı qorxusunnan qaçer gizdəner. Bu xörəklərin heç birinə siçan girmer, xörəklər məcməyilərdə qaler. Bular oturor rahat xörəyini-çörəyini yiyir. Şah muna deyir ki, sana qurvan olsun mənim canım, ay qardaş. Nə isdiyirsən verim, bu pişiyi mana ver.

Deyir:

[4] Hər küşdə – hər kəs

– Yox, bu Allah amanatıdı, munu başqa adam göndərif evinə. Əmanətdi, mən munu verə bilmərəm.

Deyir:

– Ə, nə əmanət? Əmanət bir manatdıx, beş manatdıxsa, mən muna yeddi dəvə yükü qızıl verərəm. Bunu mana ver, bu pişik məndə qalsın.

Karvanbaşı fikirrəşer, öz-özünə deyir: "Dediyinə görə, o da kasıv adamdı. Bu qızılı alım aparım, öyünün yanınnan keçəndə munun aylәsinə verim". Yeddi dəveyi yüklöör, gətirer munun karvanına qoşollar. Bu yolu gəler. Az gəlir, çox dayaner, çox gəler, az dayaner. Gəler həmən kişinin öyünün yanına çater. Çatanda görör bir uçux dam, bir qara dam, xarabalıx yerdi. Çağırer:

– Öy yiyəsi, öy yiyəsi.

İçəridən bir qadın səsi gəler.

Deyir:

– Ay bajı, eşiyə çıx, mən vəzirganam, yük apareram. Sənin həyat yoldaşın – ərin əmanət göndərif, onu götürgünən.

Deyir:

– Qardaş, Allahdan gizdin olmuyan bəndədən nə gizdin. Mənim əynim çılpaxdı, əynimdə fitə[5] yoxdu, mən eşiyə çıxa bilmərəm.

Deyir:

– Ay bajı, mən çuxamı soyunuf sənin qapıyın ağzına qoyuram, özüm də öydən bir az aralaneram. O çuxoyu geyin, lijbi[6] sana əmanəti özüm verməliyəm əlimnən.

Deyir:

– Yaxşı.

Bu, çuxoyu soyunur qoyur, burdan aralaner. Arvad bu çuxoyu geyiner bürünör, eşiyə çıxer. Deyir:

– Nədi, qadan alem?

Deyir:

---

[5] Fitə – bürünmək üçün nazik mələfə və ya hamam dəsmalı

[6] Lijbi – təki

– Bax, bu yeddi dəvə yükü ərin göndərif sana.

Deyir:

– Allah sənin köməyin olsun.

Dəvələri aparer arvad içəriyə. Yükü düşürör, bu arvadın gözü kəlləsinə çıxer. Baxır ki, qızıldı hamısı. Buları tez gizdədir, üsdünə cırdan-cırıxdan, öydəki çuldan-kilimdən tökör. Birini çıxarder uşağın əlinə verer ki, get filan maqazinə. Maqazinçiyə denən ki, bizə çörək versin, bir də çitdən-bezdən bizə versin, əynimizə bir fitə tikək. Bu çuxoyu da qıza geyindirif göndərir.

Qız geder bu arvadın dediyi kimi maqazinçiyə deyir. Maqazinçi baxır ki, vallah, bu bir qızıldı, heç maqazinin hamısını versə də, qutarmaz. Deyir, əşi, zərəl yox. Yeməhdən, işməhdən xurcuna dolduror, üstünə də paltardan-palazdan, çitdən-mitdən, iynədən-sapdan qoyur, deyir:

– Apar get.

Qız söyünə-söyünə gəler, verer anasına. Anası yeməkdən-zaddan pişirer-düşürör, uşağının qarnını doyduror. Bu çitdən-zaddan, pardan-paltardan uşağın əyninə-başına taxer, qızılın bir-ikisin də civinə qoyur, çıxer bazara:

– Ay bənna.

Bənnalar, ustalar başına tökülör. Deyir:

– Sizdən xayiş eliyirəm, şahın sarayınnan gözəl bir saray mənim qapımda qurmalısınız.

Bir-ikisi lağ eliyəndə deyir:

– Ay qardaş, hər şey pulnan başa əlmermi? Sənin nəyinə lazımdı? Gəl gedək işini gör.

Beş-on nəfər bənna burdan yığıler, gəlellər arvadın qapısına. Arvad deyir:

– Şahın sarayınnan gözəl mənim qapımda saray tikilməlidi.

Arvad qızıldan verer, daş gəler, ağac gəler, usta gəler, işçi gəler, kəntçi gəler, qum gəler. Bir il munun qapısında işdiyillər. Arvad da bulara yimək, işmək, qulluğ eləmək.

Burda dam tikilif hazırranmaxda olsun, sana söylüyüm kişidən. Kişi gənə xazeynin qapısında nökər işdiyir. İli tamam olanda deyir:

– Başına dönüm, mənim bir abbası halal pulumu ver, mən bazara çıxajam.

Bir abbası halal pul aler, civinə qoyur, çıxer bazara. Bazarın bu başınnan o başına, o başınnan bu başına hərrənəndə görör bir uşaq qavağına qoyuf üş dənə gülöyşə narı, sater.

– A bala, bu narı neçəyə verersən?

Deyir:

– Əmi, bir abbasıya vererəm.

Deyir:

– Bir abbasım var, elə bunu mana ver.

Abbasıyı verer, narları aler. Bir yaşikə qoyur, ağzını gülmuxluyur. Deyir: "Mənim bir balaca qızım var – o pişik göndərdiyim qız, yaman nar yiyəndi. Elə bu narı da ona göndərirəm. Aylədə onu çox isdeerəm". Gəler həmən vəzirganı taper. Deyir:

– Sana canım qurvan olsun, vəzirgan! Bunu gənə bizim öyün yanından keçəndə verərsən mənim qızıma.

Deyir:

– Yaxşı.

Kişi yaşiki götürör, gəler. Bir ölkəyə çatanda karvansaraya düşöllər. Göröllər ki, şəhər qara geyinif. Soruşanda deyillər ki, patcahın gözünün ağı-qarası bir oğlu var. O, uzun zamandı xəstədir. Həkim deyif ki, əgər üç günə kimi buna gülöyşə narı gətirməsələr, oğlan öləjək. Vəzirgan bunu eşidəndə fikirrəşir ki, kişinin öz uşaxlarına göndərdiyi gülöyşə narını bu oğlana verim, əvəzində də verilən bəxşeyişi aparım onun uşaxlarına verim. Patcah yeddi dəvə yükü qızılı verif narı aler, oğlu suyunu içif sağaler.

Vəzirgan öyün yanınnan keçəndə görör kü, ay Allah, bu uçux binanın yerində bir imarət var, bir dam var, bir gəlin-qız var, bir cah-cəlal var, gəl görəsən. Tərəddüd eliyir ki, görəsən, düz gəlif, ya yox. Deyir, yox, çağırajam soruşajam, görüm

budumu. Xanım bu vəzirganı görən kimi tanıyır, tez munun qavağına gəler. Salam verer. Deyir ki, məni olmuya tanımadın? Deyir ki, sən filan kişinin arvadı döyülsənmi?

Deyir:

– Bəli.

Deyir:

– Bu yeddi dəveyi gənə yoldaşın göndərif.

Uşaxlarını çağırer, qulluxçusunu çağırer, yeddi dəvəni aparıf yerbəyer eliyir. Bu kişi də karvanını aparer geder öz işində, öz bazarında olor.

Aradan yenə bir il keçer. İki ili keşdi, indi üçüncü ilidi. Üçüncü ili gənə xazeyinnən bir abbası halal pul aler, bazara çıxer. Bazara çıxanda örör, bir balaca uşax var yeddi yaşında, əlində bir nar çöpüdü. – "Ay nar çöpü alan, ay nar çöpü alan, ay gülöyşə narının çöpünü alan" – deyir.

Bu kişi deyir:

– A bala, çöpü neçəyə verersən?

Deyir:

– Bir abbasıya.

Deyir:

– Onu mana ver.

Gətirer, deyir:

– Əmi, sana bir söz deyim. Bu gülöyşə narı üç günün, beş günün içində açer, çiçəkleer, narı yekələndirer, böyüdör. Ölümcül xəstə munun suyunnan bir qurtum ağzına alıf içən kimi dirilif sağalmalıdı. Gərək munu elə yerdə gizdin saxlıyasan, bejərəsən, munu heç kəs bilmiyə.

Deyir:

– Eləmi?

Deyir:

– Elə.

Deyir:

– Yaxşı.

Bu narın çöpünü aler, bir yaşikin içinə qoyur. Gəler öyündə nökər olduğu şəxsnən də halallaşer, “tfu” deyir davanına, çıxer gəler öyünə. Kəndinə gəlir, evinə gəlif baxanda görör kü, ay Allah, munun evinin yerində başqa imarət var, gəlin var, qız var, qoşun var, dəvə var. Bu deyir ki, haa, mənim öyüm yıxıldı. Kim bilir qızdarım, arvadım harda öldü, harda itdi-batdı, yurduma da kimlər yiyə durdu. Bir az hərrəner oanda-buanda, geder damın bir kölgəsində bürüşör. Deyir, acca burda dincəlim, sonra duruf gedərəm. Burda bürüşüf dincəlməkdə olsun, bu kişinin gözünə yuxu geder.

Yuxunun içində yatmaxda olsun, sana söylüyüm arvatdan. Arvad hayatdan baxerdı. Küləfirəngidən çıxıf baxanda görör kü, birinci mərtəbənin qapısında bir qaraltı var. Buna dikqətnən baxer, baxer, baxer. Görör bu bəni-insandı. Tez nökərin birini göndərer. Nökər gəler baxer, deyir: “Xanım, bir kişi xaylağıdı, burda yater”. Özü düşör gəler. Gəlib baxanda örör bu munun əri. Arvad tanıyır, kişi tanımer.

– Ay kişi, ay kişi, dur görüm.

Bu qalxer, deyir:

– Xanım, başına dönüm, məni öldürmüyün, bir qələtdi eləmişəm. Nolar, yol adamıyam, burdan keçirdim, yorulmuşdum, burda kölgədə bir az dincəldim. Nəyinizi oğurramışam, neynəmişəm? Məni öldürmüyün, sizi and verirəm bu and, o anda.

Deyir:

– Ay kişi, öldürmək nədi? Sən bu evin yiyəsisən, mənim yoldaşımsan. Belə, filan.

Deyir:

– Xanım, başına dönüm, məni al dilə tutma. Qadan alem, dərdin alem, mən çıxıf gederəm, məni burax.

Bu, nökərrərinə, qullarına deyir ki, tez olun munu hamama aparın. Munu hamama aparıf çimizdirellər, əyninə paltar geyindirellər, gətirer otaxda oturdollar. Munun qavağına çörək qoyollar, bu bir-iki kısmat yiyir, axlı başına əler, gözünə işığ gələndə görör kü, bu munun arvadı, uşağıdı.

– Arvad, bu nə sirdi?

Deyir:

– Özün göndərdiyin qızıllarnan tikdirif başa gətirmişəm. A kişi, göndərdiyini bilmersənmi? Yeddi dəvə bir, yeddi dəvə bir dolu qızıl göndərifsən. Hələ onun heç üçdə birini işdətməmişəm mən. Göndərdiyinin xeyli hissəsini saxlamışam.

Deyir:

– Beləmi?

Deyir:

– Belə.

Barmağını dişdeer, deyir:

– Haa, ay mənim halal bir abbasım, halal pulum. Gör başıma nələr gəlif.

Yaxşı, bu, öyündə-eşiyində... Xəlvətcə zirzəmiyə düşör. Zirzəminin ora-burasını düzəlder, qara torpax tökör, bu narın çöpünü gətirer burda basırer. Divinə su tökör, muna qulluğ eliyir oğruncax, arvad-uşağ, heş kəs bilmer. Büyün keçer, savah baxanda örör çiçəkliyif. Bürsüyün baxer ki, başında nar. Üçüncü günü geder narrarı dərer. Yeddi dənə nar dərer. Narı dərer, qoyur bir səvətin içinə, alır əlinə, çıxer bazara.

– Ay gülöyşə narı alan?

Bu bazarın da böyüyü, bazarkomu bir cuhud imiş. Bu cuhud baxer ki, bir kişi buruya gülöyşə narı gətirif. Deyir: "Ayə, o tərəfə üç ay yol gedəsən, bu tərəfə üç ay yol gələsən, bu gülöyşə narını gətirəmməzsən. Bu kişi nə canı cinnidi, bunu hardan alıf?"

Deyir:

– A qardaş, narı neçəyə satersan?

Deyir:

– Birini yüz manata.

Yeddi yüz manatı verer, bu yeddi narı aler da, qavqarer[7] qavına. Kişi gəler. Cuhudun da şəhərində patcahın oğlu ağır

[7] Qavqarer – yığır

xəsteymiş. Şəhər qara geyinif, oğlan ölüm ayağındadı. Deyiflər buna gülöyşə narı çatdırın, onnan bir qurtum muna içirtsən oğlun sağalajax, yoxsa büyün, ya savah oğlun getdi. Cuhud deyir: "Allahım verif, gedif mən də ordan var-döölət qazanıf yığajam". Gətirer bu narın birini bulara verer. Bu narı kəser, narın bir-iki dənəsini yidirdellər, suyunnan sıxer bu oğlana içirdellər. Oğlan axsırer, öhsürör, götü üstə qalxır oturor, deyir:

– Mana çay verin, çörək verin, mən nə yaman çox yatmışam.

Deyir ki, yaxşı. Muna çay verellər, çörək verellər, yiyir. Daa bu nar məşhur olor. Cuhud da deyir, mənim Allahım verif, elə bu narı alıf həmişə satajam. Aradan üş gün keçer. Göröllər, həmin kişi yenə yeddi dənə narı gətdi, gəldi bazara. Bu cuhud deyir: "Vallah, burda bir sirr var, bu sirri mən örgənməliyəm". Bu kişiyi yanına çağırer, deyir:

– Ay qardaş, sən gəl bu sirri mana de, görüm bu narı sən hardan alıfsan? Munun ağacının kökünün yerini bizə də de.

Deyir:

– Mənim vəzirgan dostum var, o gətirer mana verer, mən də sateram. Mənim narım-zadım yoxdu.

Deyir:

– Yaxşı.

Cuhud gəler evinə. Çox fikirdən sonra bir küpəgirən qarı taper. – O qarının imanı heç kamil olmasın. – Qarıyı tapır, deyir:

– Qarı nənə, səni dünya malınnan qəni elijəm, sən gərək bu sirri örgənif mana deyəsən.

Deyir:

– O məndə.

Qarı "tfu" deyif davanına, tumanın balağını əlinə aler, gəler bu kişinin evinə.

– Salaməlöyküm.

– Əlöyküməsalam.

Deyir:

– Ay gəlin, ay arvad, sən yaxşı arvad döyülsən. Yalannan deyirsən ərim məni çox isdiyir, belə eliyir, elə eliyir. Ərin səni çox istəsə, sana sirrini verər. Bu ərin nətər adamdı kı, sirrini sana demir?

Deyir:

– Aaz, noluf mənim ərimə? Yaxşı-yaman danışma, çıx burdan cəhənnəm ol.

Deyir:

– Yox, qızım, mən sana bir sirr açajam. Mən sənin qoja nənənəm. Səni istiyif gəlmişəm, istəməsəm gəlmərəm. İndi gör sənin ərin nələr eliyif.

Deyir:

– Neyliyif?

Deyir:

– Sənin ərin üş günnən bir bazara yeddi gülöyşə narı aparer.

Deyir:

– Nə? Elə şey olmaz.

Deyir:

– Bəli. İnanmersan savah vaxtıdı, savah genə narları aparajax. Özün bazara çıx, ərini müşayət elə, gör. Munu örgən, görək bu harda bitif, hardan aler, harda sater.

Deyir:

– Yaxşı.

Arvatdarın başına daş düşsün, içi də mən qarışıx. Başı milcəh olsa da, divi qılcaxdı. Arvad gəler qaşını-qavağını tökör, irəngini turşalder-pursalder, hıkqıldeer-zıkqıldeer. Kişi öyə əler.

– Arvad, niyə elə eliyirsən?

Deyir:

– Niyə eləmiyim? Sən mənim nəyimsən? Mənim ərim olsan, mən sənin arvadın olsam, biz halal olsax, bir öydə olsax, məni çox istəsən mana da deyərsən. Sənin sirrin var, mana demiyifsən.

– Arvad, nə sirrim var, nağarmışam, neynəmişəm?

Deyir:

– Sən o gülöyşə narrarını hardan alıfsan, yerini mana demirsən, örgətmersən, bildirmersən. Elə də şey olarmı bir ərin, bir arvadın arasında sirr ola?

Kişi görör bu xına o xınadan döy. Naəlaş qalıf deyir:

– Arvad, gəl.

Arvadı aparer saler zirzəmiyə, narrarı göstərer, deyir:

– Amma bu şərtə ki, qapıyı sən açma, nara baxma, yoxsa qeyb oluf uçajax.

Deyir:

– Yaxşı.

Kişi gənə narrarı dərif bazara aparanda arvad bunun dalınnan geder. Arvad görör kişi o qaydada apardı narları yeddi yüz manata verdi, çıxdı gəldi. Kişi deyir:

– Arvad, pisdikmi eliyirəm? Pulumuzun üstünə pul gəler, varımıza var gəler. Day da yaxşı.

Deyir:

– Yaxşı.

Arvad öydə şam kimi oturordu, bir də gördü qarı gəler, şıllaxlanmış.

– A qızım, nooldu?

Deyir:

– Örgəndim. Sən deyirsən ərin səni çox istəmer. Ərim məni çox isteer, hələ varınnan, hər şeydən üsdün məni isteer.

Deyir:

– Nədi?

Deyir:

– Belə-belə. Narın yerini örgəndim.

Deyir:

– Hardadı?

Deyir ki, bizim öyümüzün padvalında narı özü yetişdirir. Üç günə narımız yetişer. Deyir:

– Eləmi?

Deyir:

– Elə.

Arvad burdan “tfu” deyir, davanına tüpürmüş düz bazara – cuhudun yanına. Deyir:

– Ay cuhud, ay bazarkom, bax, bunun belə bir sirri var. Sirrini örgəndim, indi sən bilersən.

Bu cuhud munu çağırer, deyir:

– A kişi, bu nar səndədi, özün bitirersən, özün yetişdirersən. Munun çöpünnən bizə də ver, yerini bizə də de. Ya məni özünə yoldaş elə, yoldaş olax, filan-bəsməkan.

Deyir:

– Yox.

Bu deyir, o deyir, axırı cuhud deyir ki, gəl mərcə girək. Əgər bu narın kökü səndə olsa, ağacı səndə olsa, səndə bitsə, mən deyən olajax. Yox, olmasa, onda sən deyən olajax. Kişi bununla razılaşır. Cuhud deyir:

– Gedək sənin öyünü axtarax. Sənin öyündə tapıldı, onda sənin öyün, varın-döylətin, arvadın-uşağın – hamısı mənimdi. Sən əlini üzünə tutub, bircə kastyumunu çiyninə salıf öydən çıxmalısan. Arvadın, uşağın da mənim qulum, kənizimdi. Yox, olmadı, onda mənim bu bazarım, bazarrığım, bütün varım-döylətim, arvadım, uşağım – hər şeyim sənindi.

Camaat tamaşa eliyirdi. Müqavileyi yazellar, qol çəkellər, əllərini basellar, hərəsi birini civinə qoyur. Beş-on nəfər də munun başına yığışıf, gəlellər. Gəlellər kişinin öyünə. Girellər zirzəmiyə, baxanda öröllər narın ağacı zirzəmidədi. Kişi nə desin? Daa müqaviləyə qol çəkif, başınnan cavabdehdi. Deyir:

– Qardaş, sənindi hər şey.

Hər şeyi əlinnən çıxannan sonra bu ağlıyır, gözünün yaşın tökör. Deyir: “Ay Allah, mən sana neyləmişdim mənim başıma bu işi gətdin? Mən bu ölkədən çıxıf gederəm Allahtaaleyi gəzməyə”.

Əyağına geyinir bir dəmir çarıx, əlinə alır bir polad hasa, yola rəvan olor. Az gedif çox dayanır, çox gedif az dayanır. Həkdən düşör, haldan düşör, bir cazeyranın düzündə bir abidə rast gəler.

– Salaməlöyküm.

– Əleykümə salam.

– Abid qardaş, məni beyjə qonaq eliyərsənmi?

Deyir:

– Qonağ Allah qonağıdı.

Munun yanında əyləşir.

– Oturmağ olarmı?

Deyir:

– Olar.

Abidin yanında oturor. Axşam yemək vaxtıydı. Bunun yanında oturuf bir az söhbət eləmişdi ki, Allah-taaladan iki qav xörək gəler. Sürfə açıler, xörək gəler, çörək gəler. Ustolun üstünə qoyulanda abid deyir ki, fidah olduğumun harasa səfəri var, savah məni görəmmijək, indidən mənim xörəyimi göndərif iki qav. Birinin ağzını örtör anrı qoyur, birini qavağına çəker yiyir. Bu kişiyə nə vermer, nə təklif eləmer. Bu yazıx da köksünü ötürör, aj-susuz qarnını qucaxlıyır burda bir təhər quru yerdə oturor. Bir az keçənnən sonra iki dəs yaxşı palaz gəler, yorğan-döşək. Abid deyir: "Allaha qurvan olum, beyjə donatdıx[8] olajax, külək, tufan olajax. Yəqin mən soyuxdan donajam deyə iki dəst göndərif". Palazdarı üst-üstə saler, əynini soyunur, qu tükü yorğan-döşəyin içinə girer, mısıra-mısır başdıyır burda yatmağa, yuxusu şirin olmamış. Bu yazıq kişi qalır düzün düzəngahında. Abid savah deyir:

– İndi yola irəvan oluf gedersənmi?

Deyir:

– Gederəm.

Deyir ki, Allah-taalayı tapsan denən, ey Allah-taala, filan yerdə – cazeyrənin düzündə bir abid var. Deyir, alnımı möhür aparıf, dizimi yer aparıf, qırx ildi ona qulluğ eliyirəm. Soruş görək mən cənnətin hansı küncündə yatajam.

Deyir:

[8] Donatdıx – şaxta, donuşluq

– Yaxşı.

Bu, yola rəvan oluf geder. Az geder, çox dayaner, çox geder, az dayaner, taqətdən düşör. Əlini gözünün üstə qoyuf belə boylananda görör kü, bir qalın meşənin ortasınnan tüstü çıxer. Deyir, Allah haqqı, ölsəm də, ölüm-zülüm özümü oroya salajam, orda bəni-insan var ki, ordan tüsdü çıxer. Ojağı insan qalıyar, heyvannar ojax qalıyammaz.

Az geder, çox geder, qalaçaya çatanda görör kü, burdan toy səsi gəler, dəf, zurna, balaman səsi gəler. Yavaş-yavaş, yavaş-yavaş gedib aynanın ağzınnan baxanda görör ki, içəridə qırx lotu yiyif içir, çalıf çağırır, çapqıntıdan gəliflər. Birdən biri munu görür. Munu görəndə deyir:

– Əyə, qoymuyun, tutun, bəni-insan gəlif. Aynadan baxdı, qayıtdı.

Bulardan beş-onu eşiyə çıxer. Nolojax, hay-huy, qomarer bu kişiyi tutollar. Kişinin dodağı quruyur, çatdeer, rəngibaşı ağavazdıyanda deyir:

– A kişi, qorxma. Səni nə döymörük, nə söymörük, nə öldürmörük. Səni aparıf qonağ elijeyik. Qonağ Allah qonağıdı. Niyə qaçersan?

Munu aparıf bir otağa salellar, otaxda stolun üstünə yiməklər gəler. Munun qavağını doldurollar, qaynar çaydan-çörəkdən munu yidirdellər, içirdellər. Kişi neçə gündü aj, susuz, yornux. Bir-iki kısmat yiyir, deyir:

– Başına dönüm, qadan alem, bəsdi.

Kişi başdıyır mürgüləməyə. Deyir:

– Ay kişi, mürgüləmə.

Kişiyi salellar hamama. Hamamda çimizdirellər, əyninə paltar geyindirellər, bir otaxda bir yer açellar. Deyillər, a kişi, burda rahatdan yat savağa kimi. Arxeyincə, əlini qulağıyın divinə qoy, yat.

Bu kişi yatmaxda olsun, bular da öz işində, yiyif-içif, çalıf-çağırmaxda. Savah durollar. Duranda deyir ki, a kişi, haraya gedersən? Deyir, Allah-taaleyi gəzməyə, başıma belə

bir müsibət gəlif. Allah mənə var-döylət verdi, tez də başıma vurdu, əlimnən aldı. Deyir:

– Sənin qadan alem, Allah-taaleyi tapsan denən ki, filan yerdə qırx lotu var. Deyir ki, elə arvad var ki, bircə sarı keçisi var. O sarı keçiyi sağer, qatıx çaler. Uşağına boz aladan yığer, pencər bişirer, axşam o qatığı onun üstə töküf o uşağına yedizdirer ki, zəhərrənif ölməsin. Eləsi də var, varrı, milyaner bir adamdı. İndi biz onun hamısını çaler, çaper, gətirif burda yiyif-içirik. Cəhənnəmin hansı küncündə yanajeyih, hansı tərəfinə vasil olojoyux, bizi də gənəş.

Deyir:

– Yaxşı.

Buna da bir heyvə çörək, xörək doldurollar xarav olmuyannan-filannan, kişinin çiyninnən aşırellar.

– A kişi, get, Allaha pənah.

Kişi yola rəvan olor. Az geder çox dayaner, çox geder az dayaner. Görör çörək də qutarer. Fidah olduğum Allah-taalaya agah idi. Deyir:

– Ya Cənab Cəbrayıl, dərviş libasında en qavağına.

Dərviş libasında, insan sufatında Cənab Cəbrayıl ener qavağına.

– Salamməleykim.

– Əleykiməsalam.

– Ay qardaş, kimsən, nəçisən, hara edersən?

Deyir:

– Dərdin alem, mənim dərdimə dərman eliyən döysən. Hər kiməm, yolçuyam, qoy yolumnan gedim.

Deyir:

– Yox, dərdini mana deməmiş səni buraxan döyüləm.

Deyir:

– Başıma belə bir müsibət gəlif, bir qəzavü-qədər gəlif, gederəm Allahı gəzməyə.

Deyir:

– Allahın ən əziz, ən mömin, ən yaxın adamı mənəm. Məni sana köməyə göndərif. İndi sən dayan burda, mən sana deyim.

Deyir:

– Nədi?

Deyir:

– Gedirsən həmin şəhərə. Şəhərə çatanda gedersən bazara, axtarıf tapersan o cuhudu. Deyirsən ki, ay cuhut, bilersən nə var? Mən bir iş görə bilərəm. Mana Allah-taala təzə bir qismət verif. Sənnən soruşajax, nə qismət. Denən gün doğannan günü batırram, gün batannan günü doğuzdurram. Camaat sana əl vuruf güləjəh, hüyuxma[9], zərəl yoxdu.

Deyir:

– Başına dönüm, mən yerinə yeti...

Deyir:

– A kişi, sənin nəyinə lazım. Mən deyirəm, səni mən göndərerəm.

Bu deyir:

– Yaxşı.

Sonra deyir:

–Qadan alem, filan yerdə bir abid mana rasd oldu, belə dedi.

Deyir:

– Abidə denən ki, onun yeri cəhənnəmdə qır qazanının içindədi.

Deyir:

–Qadan alem, filan yerdə də qırx lotu var idi, mana belə dedi.

Deyir:

– Denən behişdin küncündə güllü, çiçəkli bağın içində almalar olardan ötrü saplağınnan asılıf. Olar gəvələrin üsdündə yatajax.

Deyir:

– Yaxşı.

[9] Hüyuxma – narahat olma

Bir də isdiyir ki, bir söz soruşa. Cəbrayıl deyir:

– O adam sizin adamdımı?

Bu belə baxer, çöörülüf belə baxanda görör fidah olduğum yoxdu. – “Əstafrullah, hələbi və tövlü, sana şəkkə nəhlət” eliyir, yönünü çöyürör gəler.

Az gəler, çox gəler, gənə həmin lotulara qonağ olor. Lotular munu yaxşı qarşılıyır, heyvan kəser. Aparer yedirder, içirder, bir otax verellər. Yater, savah da yeyillər, içellər. Deyir, tafdınmı? Deyir, tafdım. Deyir, soruşdunmu? Deyir, soruşdum. Deyir, nə dedi? Deyir, Allah-taala dedi ki, behişdəki almalar olardan ötəridi. Behişdin birinci küçəsi olarındı, amma bu şərtə ki, “əstafrullah” eləsinnər, tövbə desinnər. Hamısı bu kişinin yanında tövbə deyir, and içer, “Quran”a əl baser. Bütün tuluxları cırellar, şərab qavlarını qırellar, dağıdellar buruyu. Deyillər, innən sonra gedif itayət elijeyik Allahın yolunda. Yazığımız gələjəh, aja, yalavaca kömək elijeyik. Çapıf gətirdiyimiz qızıllardan paylıjeyih, özümüz də Allah yolunda oturuf ibadət elijeyik.

Buların yanınnan kişi çıxer, gəler abidin yanına.

– Salaməleykim.

– Əleykiməsalam.

Yenə abidin yanında qonax qaler, həmən qaydaynan abid munu qarşılıyır. Nə yemək verer, nə palaz verer. Savah duruf yola düşəndə deyir:

– Qardaş, tafdınmı?

Deyir:

– Tafdım.

– Nə dedi?

Deyir:

– Dedi ki, qır qazanı onnan ötəri qaynıyır, qır qazanında qaynıjaxsan.

Deyir:

– Kül başına, məni ki belə eliyir, innən sonra nə qulluğ elijəm, nə dizimi yerə aparajam, nə alnımı möhürə. Mən qırx lotulara qoşuluf çapqınçılığ elijəm, çalıf-çapajam.

Deyir:

– Özün bilərsən.

Bu, yolu əlinə aler, irəvan olor, gəler çıxer özünün şəhərinə. Şəhərin qırağınnan, böyrünnən, başınnan düz gəler bazara. Bazarda bir-iki adam munu tanıyır, bir-iki adam da tanımer.

– Salaməleykim.

– Əleykiməsalam.

Cuhut muna deyir:

– Sən burda nəəzirsən? Sən burdan sürgün olufsan, buruya gəlməməlisən. De görüm nəəzirsən?

Deyir:

– Ay səni öləsən, mən Allah-taalaynan danışıf gəlmişəm.

Deyir:

– Ə, Allah-taala səni başına çöyürsün, nə danışıfsan?

Deyir:

– Mən Allah-taalaynan danışmışam, gündoğannan günü batırajam, mana izin verif, günbatannan günü doğuzdurajam.

Cuhud əlini əlinə vuruf gülür. Deyir:

– Ay camaat, munun başına hava əlif. Varı-döyləti, öyü-eşiyi, arvad-uşağı – hər şeyi əldən gedif deyə bu havalanıf.

Deyir:

– Mən havalanmamışam, havalanan sənsən. Gəl müqavilə bağlıyax, eliyim mən.

Yanındakı camaatın bir-ikisi deyir ki, olar, bir-ikisi deyir olmaz. Deyir, yaxşı. Bu qeyrətdəner, gətirer müqavileyi bağlıyıllar, yazellar, qol çəkellər. Peçat basıler, hamısı əlini baser. Bir surəti onun civində, bir surəti munun civində. Deyir, beyjə yatın-yatmıyın, özünüz bilərsiniz, savah saat beşdə gözdüyün.

Saat beşdə hamı duror, göyün üzünə baxer. Göröllər ki, günbatan tərəfdən göyün üzü qızardı, gün şualarını salıf gəler. Hamı bir-birinə dəyir ki, İlahi-Pərvərdigarə, kişinin dediyi gerçəkdi. Deyir, bəli, bəli, gerçəkdi, mən yalan danışmeram. Ajan çörək yiyir, su içən su içer, yorulan öyünə geder, yorulmuyan elə göyün üzündə gözdəri qalıf. Axşamı gözdööllər,

göröllər günbatannan gün doğmuşdu, gündoğannan da gün batdı. – "Düzdümü?" – "Düzdü". – "Müqavilə təsdiq oldumu?" – "Oldu". – "Öy-eşik mənimdimi?" – "Mənimdi". Deyir:

– İndi bu cuhudu, bu insana oxşamazı bağlıyın bir dəli qatırın quyruğuna.

Bir dəli qatırın quyruğuna bağlatdırer, munu buraxer bərribiyavana. Qatır munu sürüyür burda-orda. Cəzaynan bu ölməkdə olsun, indi sana söylüyüm kişidən. Kişi gəler öyə. Deyir:

– Ay camaat, indi mana nə deyirsiniz?

Deyir:

– Qardaş, əyağını yerdən üzsən, sana nozənbillah, ikinci Allah deyərik.

Deyir:

– İndi mən nağayrem, mən bu arvadı öldürömmü?

Bir-iki ağsakqal qayıdır deyir ki, yox, öldürmə, qadın xaylağıdı. Qadın xaylağına, irax sizdən, it hürmür, o qala öldürmək ola. Deyir:

– Bə nağarem?

Deyir:

– Uşaxlarıyın anasıdı, uşaxlarına süd verif. Onu sal zirzəmiyə, zirzəmidə o çörəyin qırınnan-qırıntısınnan, sürfeyin qırınnan-qırığınnan tök qavağına, yisin, ölənətən orda yatsın. Allahın xoşuna getməz, uşaxlarına süd verif, o südə bağışla.

Kişi yanıf tökülüfmüş, arvad ona o qədər dağ çəkifmiş. Gətirir munu zirzəmiyə saler. Nökərə, naibə əmr eliyir ki, muna çörəyin qırığınnan-quruğunnan verməsinnər. Uşaxlarına da deyir, ona yaxın getmiyin, o sizin ananız döy. Ananız olsa, sizin çörəyinizə vais olmazdı. Onnan sonra bu arvad burda yaşamaxda, kişi də burda yaşamaxda olsun, cuhut da ölməkdə. Nağılımız burda bitdi. Göydən yeddi alma düşdü. Yeddi almanın biri mənim, biri sənin, biri nağıl danışanın, biri qulax asannarın, üç-dördü də sənin iş yoldaşdarıyın, olara apar. Siz sağ, mən salamat. Siz yüz yaşıyın, mən iki əlli. Hansı çoxdu, siz götürün, hansı azdı, mənim olsun.

## KOR DİLƏNÇİ, DƏMİRÇİ VƏ BALIQÇI

Günün birində Şah Təhməz oğlu Şah Abbas cənnətməkan ginə də adəti üzrə vilayəti gəzməy, camaatın güzaranınnan, dolanışığınnan hal-əhval tutmax qərarına gəlir. Odu ki, Vəzir Allahverdi xanı çağırıb deyir, ay vəzir, nə vaxtdı vilayəti gəzməmişəm, camaatın gün-güzaranınnan xəbərim yoxdu. Get hazırran, sabah obaşdannan vilayəti gəzməyə çıxacoğ. Vəzir "baş üstə" deyib gedir.

Bəli, gecəni yatıllar, sabah alaqarannığdan durub təğyirlibas olub, hərəsi bir dərviş paltarı geyib saraydan çıxıllar. Üz qoyullar vilayəti gəzməyə. O kənd səən, bu kənd məən, o vilayət səən, bu vilayət məən. İndi bılar çalışıllar ki, adam çox olan yerrərdə olsunnar, baxsınnar, görsünnər camaat nəynən məşğuldu, nətəər dolanır, nədən razı, nədən narazıdı. Oydu ki, Şah Abbas bı qərara gəlir ki, helə birinci vilayətin bazarınnan başdasın.

Bılar gəzə-gəzə gəlib yetişillər vilayətin bazarına. Bəli, bazardı dənə, mal satan kim, mal alan kim, elan verən kim, iş axtaran kim, işçi axtaran kim. Şah Abbasnan Vəzir Allahverdi xan bazarı gəzə-gəzə gəlib çıxıllar bazarın girəcəy qapısının ağzına. Birdən Şah Abbasın dikqətini bir dilənçi cəlb eliyir. Bəlkə də bı adi dilənçi olsaydı, Şah Abbasın dikqətinə gəlməzdi. Ancax bı dilənçi bir az qəribə dilənçiydi. Şah Abbas da axı çox dikqətcil adamıydı. Şah gördü ki, bı dilənçinin gözzəri kordı. Helə otırıb bazarın girəcəy qapısının ağzında, əlini açıb. Kim mıın əlinə pıl atır, bı dilənçi tez pılı tulleer yerə, durıb əliynən həmin adamın başını yoxleer. Hə, yoxleer, soora bekaf halda qayıdıb otırır yerində. Ginə əlini açıb durır. Bir dəfə, iki dəfə... Şah Abbas fikirrəşir ki, yox, sən öl, bırda nəsə var. Nəsə bir sirr var bırda. Şah o saat dönür Vəzir Allahverdi xana, deer:

– Ayə, vəzir!

Vəzir cavab verir:

– Bəli, şahım!

Şah Abbas deer:

– Vəzir, çıxart o dəfdərüyü, yaz bı dilənçini.

Vəzir “baş üstə, şahım” deeb, tez dəfdərini çıxardıb yazır ki, filan yerdə belə bir dilənçi. Bəli, vəzir bı dilənçini yazannan soora bılar bazardan çıxıllar, ginə başdeellar vilayəti gəzməyə.

Bazardan xeylağ aralıda sıraynan dəmirçixanalar varıydı. Bu dəmirçixanaların yanıynan gedirdilər. Birdən bı dəmirçixanalardakı dəmirçilərdən biri Şah Abbasın dikqətini cəlb elədi. Şah gördü ki, bı dəmirçinin çox maraqlı bir şakəri var. Bı dəmirçi dəmiri salır köriyə, gözzeer, gözzeer, dəmirin döyülməy məqamı çatanda helə dəmiri köriydən çıxardır, qoyır zindanın üstünə. İsteer ki, döysin, birdən mıın gözü sataşır dəmirçixananın qabağındakı bıdağa. Baxır-baxır, huş mıyı aparır. Hannan-hana özünə gəlir, isteer ki, dəmiri döysün, görur ayə, dəmir haçandı soyeeb. Təzədən dəmiri qoyır köriyin içinə ki, qızsın. Ginə də gözzeer, gözzeer, dəmir qızır. Döyulməy məqamı çatanda dəmiri çıxardır qoyır zindanın üstünə. Çəkişi qaldırır, isteer ki, dəmiri döysün, ginə də gözü sataşır dəmirçixananın qabağındakı həmin ağacın bıdağına. Baxır, baxır, huş mıyı aparır. Hannan-hana özünə gəlir, isteer ki, dəmiri döysin, ginə görir ayə, dəmir haçağdı soyeeb.

Bəli, bir dəfə, iki dəfə... Bı hadisə bir neçə dəfə təkrar olannan soora Şah Abbasın dikqətini cəlb eleer. Şah Abbas öz-özünə deer: “Yox, sən öl, bırda nəsə bir sirr var. Bı dəmirçi helə-belə yerə özünü belə aparmaz”. Oydı ki, Şah Abbas üzünü çevirdi Vəzir Allahverdi xana:

– Ayə, vəzir!

Vəzir Allahverdi xan cavab verir:

– Bəli, şahım!

Şah Abbas dedi:

– Vəzir, bı dəmirçini də yaz o dəfdərə.

Vəzir Allahverdi xan şaha “baş üstə” deyib, tez dəfdərini çıxartdı, bını da qeyd elədi ora.

Ginə bılar bı dəmirçixanalardan uzağlaşıb getməyin binasını qoydılar. Ginə də bı kənd səən, o kənd məən, bı oba səən, o oba məən, gəzdilər-gəzdilər, axırda gəlib çıxdılar vilayətin lap kutaracağınnan keçən bir çayın qırağına. Şah Abbas gördi sən ölmiyəsən, bı çayın qırağında bir dənə balığçı var. Bı balığçı xususi bir tor düzəldib. Bı torı atır çaya, zalım oğlının yaxşı baxtı var. Qol boyda çəkilər düşür mıın torına. Hə, torı çaydan çıxardır. Tez dəli kimi balığları tordan çıxardıb torın dibinə baxır, torın dibini yoxlıyannan soora görür balığlardan başqa heç zad yoxdı torda, tamam yazığlaşır. Təzədən o tutdığı balığları qaytarıb tökür çaya, ginə tor atır. Ginə də torı çıxardır, qol boyda çəkiləri çıxardıb atır, torın dibini yoxleer, ginə də təzədən o tutdığı balığları qaytarıb tökür çaya.

Bəli, bir dəfə belə, iki dəfə belə... Şah Abbas öz-özünə deyir: “Yox, sən öl, bırda da nəsə bir sirr var. Yoxsa bı balığçı elə-belə yerə eləməz”. Çörikir Vəzir Allahverdi xana tərəf, deer:

– Vəzir, bı balığçını da yazgınan o dəfdərə.

Vəzir “baş üstə” deeb tez dəfdərini çıxardır, bı balığçını da qeyd eleer.

Tay hava qaralmağ üzreydi. Şahnan vəzir tamam yorılmışdılar. Tay yeriməyə taqətdəri yoxıydı. Oydı kı, Şah Abbas Vəzir Allahverdi xana çörilib dedi:

– Vəzir, büyünniy bəsdi ey, tay gəl yavaş-yavaş qayıdağ saraya.

Vəzir də həddinnən artıx yorılmışdı, ona göra da o saat razılaşdı. Həm də ki, tay Şah Abbasın sözü hökm iydi dənə. Oa göra da hər ikisi başdadılar geri qayıtmağa. Tay axşamçağı gəlib çıxdılar saraya.

Bəli, sarayda ginə də Şah Təhməz oğlı Şah Abbas cənnətməkan dərviş paltarını soyınıb özünün şahlıq libasını geydi. Tay o ki var yorılmışdılar, oydı kı, şah öz otağına getdi, vəzir

də öz yerinə. Gecəni yatdılar. Sabah tezzən Şah Abbas durdu, çay-çörəyini yeeb-içənnən soora fərraşı çağırıb əmr elədi:

– Gedün o Vəzir Allahverdi xanı çağırun hüzuruma.

Fərraş:

– Baş üstə, şahım, – deyib getdi vəziri çağırmağa.

Bəli, fərraş Vəzir Allahverdi xanı çağırdı. Tay vəzir də öz işini bilirdi, oydı ki, hazırraşmışdı. Fərraş gəlib deyən kimi Vəzir Allahverdi xan şahın hüzuruna təşrif gətirdi. Şahın hüzuruna gəlib dedi:

– Şah sağ olsun, çağırmısuz məyi?

Şah Abbas dedi:

– Hə, vəzir, çağırmışam. Vəzir, dünənki hadisələri yazmışdun dəfdərüə?

Vəzir dedi:

– Bəli, şah sağ olsun, hamısını yazmışam.

Şah Abbas üzünü vəzirə tutub dedi:

– Vəzir, gəl otır, aç o dəfdərüyü, görəy nə yazılıb orda.

Vəzir:

– Baş üstə, – deyib, dəfdəri açıb oxumağa başladı:

– Şah sağ olsun, vilayətimizin mərkəzi bazarı var e?

Şah dedi:

– Hə, var, nolsun ki?

Vəzir dedi:

– Hə, şah sağ olsun, həmin o bazarın girəcəy qapısının ağzında bir kor dilənçi otırıb.

Şah dedi:

– Hə, nolsun ki, vəzir, bazarda dilənçi olar dənə. Dilənçi tək məən vilayətimdə yoxdı ki, hər yerdə var dənə?!

Vəzir dedi:

– Elədi, şah sağ olsun, dilənçi hər yerdə var, amma bı dilənçi, belə bir az bitəər dilənçidi ey!

Şah dedi:

– Necə yanı bitəər?

Vəzir cavab verdi:

– Şah sağ olsun, bı dilənçinin hər iki gözü kordu. Helə otırıb bazarın girəcəy qapısının ağzında, əlin açıb durub. Kim gəlib mıın oocına pıl atır, dilənçi tez dəli kimi durub əliynən həmin adamın başını yoxleer. Hə, başını yoxleer, soora kor-peşman halda təzədən qayıdıb otırır həminki yerində. Soora ginə...

Şah Abbas deer:

– Hə, hə, yadıma düşdü. Vəzir, səə iki saat vaxt verirəm. Həmin o dilənçini nətəər, hansı yolnan tapırsan, tap. İki saada dilənçi məən hüzurumda olmalıdı. Vəzir şaha "baş üstə" deeb çıxır.

Tay vəzir də əvvəldən öz işini bilirdi dənə. Çöldə hazır çaparrar saxlatdırmışdı. Çıxır çölə, çaparrara əmr eleer ki, iki saada filan yerdəki dilənçi şahın hüzuruna gətirilməlidi. Çaparrar da helə o daağa çapırlar vilayətin bazarına. Gəlillər bazarın girəcəy qapısının ağzına. Görillər hə, həmin kor dilənçi otırıb bırda. Tez mıyı qamarreeb qoyıllar atın belinə. Helə dilənçi bircə oyı deyə bilir ki, ay bala, bı nə işdi, nə olıb, hara aparırsuz məyi, mən nə günahın sahibiyəm? Çaparrar cavab verillər ki, bəs sən Şah Abbassın hüzuruna gedirsən.

Kişi deer:

– Ay oğıl, Şah Abbas hara, mən hara?

Deellər:

– Oyı orda bilərsən.

Nəysə, gətirillər bı dilənçini şahın hüzuruna. Şah deer, a kişi, heç nədən qorxıb, çəkinib eləmə. Səyi bıra bir məsələynən əlaqədər çağırtdırmışam. Mənə xəbər çatıb ki, sən vilayətin bazarının girəcəy qapısının ağzında dayanıb dilənçiliy eleersən. De gorüm, bu düzdü? Dilənçi cavab verir ki, bəli, şahım, düzdü. Şah deer:

– Ancax məə çatdırıblar ki, səən çox qəribə bir adətün var. Bazarın girəcəy qapısının ağzında dayanıb, əlüyü açırsan, kim səən əlüə pıl atsa, tez pılı yerə atıb ayağa durursan, həmin o səən əlüə pıl atan adamın əlüynən başını yoxleersan.

Helə şah belə diyəndə dilənçi başıynan oon dediyini təsdiq eleer. Şah deer:

– Elədi? Düz çatdırıblar mənə?

Dilənçi deer:

– Elədi, şah sağ olsun, tamam düz çatdırıblar sizə.

Şah deer:

– Onda sənnən xayiş eleerəm, mənə de görüm, bu nə sirdi? Bax, belə səyi bıra çağırtdırmağda məqsədim budu. Mıyı soruşmağ isteerdim sənnən. İsteersən, de. Yox, istəmeersən, demə.

Dilənçi deer:

– Yox, şah sağ olsun, niyə? İsteersüz, mən də diyərəm. Allah eləməsin ki, mən sizin istəyüzün əleyhinə çıxım. Ancax şah sağ olsun, bu əhvalat bir az uzun əhvalatdı ey. Deeb sizin vaxtuzu almağ istəmeerəm.

Şah Abbas deer:

– Mən heç hara tələsmeerəm.

Mınnan soora şah üzünü fərraşdara çevirib deer:

– Çay, yeməy-içməy gətirün.

Bəli, çay-çörəy, mer-meyvə, yeməy-içməy gətirib düzüllər. Şah deer:

– A kişi, utanma, çəkinib-eləmə. Ye, iç, soora başda söhbətüyü. Özü də sənə bir şey də deyim. Mən başa düşürəm, sən dilənçisən, çörəyün bınnan çıxır. Arxayın ol, səyi nə qədər bırda saxleeramsa, oon pılın beş qat artıxlamasıynan ödiyəcəm.

Dilənçinin qorxısınnan matı-qutu qurumuşdu. Yeməy-işməy düşürdü yadına? Ancax tay çarəsiz qalıb bir az meyvədən-zaddan yedi, çay işdi. Soora şah əmr elədi, surfa yığışdırıldı. Mınnan soora Şah Abbas dedi:

– Hə, kişi, indi başda söhbətüyü, görüm bu nə qəziyədi.

Dilənçi bir az özünə gəlib dedi:

– Şah sağ olsun, mən helə anadan olanda kor doğılmışam. Bı azıymış kimi, bir az keçməmiş atam Allahın rəhmətinə

getdi. Onnan bir müddət keçənnən soora anam da öldi. Tay kor uşağ, nağayracağdım? Məcbur oldum gedib bazarda dilənçiliy eləməyə. Helə hər gün sabah tezzənnən gedib durardum o bazarın girəcəy qapısının ağzında, əlimi açırdım. Kimin ki könlünə Allah insaf salırdı, gətirib qəpiydən-quruşdan verirdi, oynan da bitəər dolanırdım. Uzun müddətiydi ki, dilənçiliynən məşğulıydım. Günün birində ginə də səhər tezzənnən gəldim həmin bazara. Ginə də bazarın girəcəy qapısının ağzında dayanıb əlimi aşdım. Helə bı dəmdə bir kişi gətirib oocuma pıl atdı. Mən də başdadım mına dua eləməyə. Kişi qayıtdı məə ki, a kişi, de görüm səən aton-anon varmı? Dedim ki, yox, mən kimsəsizəm. Kişi qayıtdı ki, de görüm gözün anadangəlmə kordu? Dedim, bəli, mən helə anadangəlmə koram. Dedi, de görüm, səən gözüyü açsam, mənə nə verərsən? Dedim, dünyada nə istəsön verərəm sənə. Kişi dedi, dur, gəl dalımcan. Səynən bir şərtim var, istəsön qəbul eliyərsən, istəsön qəbul eləməzsən.

Kişi mıyı deeb, düşdü qabağa, mən də daldan tutdum mıın ətəyinnən. Bı getdi, mən getdim. Bı getdi, mən getdim. Gəlib lap vilayətin qutaracağında bir yerə çıxduğ. Həmin yerdə dayanduğ. Bı kişi dodağının altında nə dedisə, yerin altına bir yol əmələ gəldi. Pilləkannar varıydı. Bı pilləkannarnan başdaduğ aşağı düşməyə. Hə, düşdüy, soora ginə bı kişi dodağının altında nə dedisə, pilləkannar yox oldu, yer bağlandı. Bı kişi dodağının altında nəsə diyə-diyə üş dəfə əlini çəkdi məən gözzərimin üssinnən. O saat gözzərim açıldı. Elə bil, heç kor döyiləmmiş. Baxdım kı, məən gözzərimi açan qoca bir kişidi, ağ saşdı, ağ sakqallı bir kişi. Hə, bı kişi mənə dedi: "Oğıl, indi qulağ as, sənə şərtimi deyim. Özün görürsən ki, mən bir qoca kişiyəm. Bu gördüyün varidat hamısı məəndi". Baxdım ki, doğurdan da, bıra elə bil cənnətin bir guşəsidi: bağ-bağat bir tərəfdə, imarət bir tərəfdə, gül-gülü çağırır, bül-bülbülü çağırır. Helə cənnətin özüdü ki, var. Kişi sözünə davam elədi: "Hə, oğıl, məən də gözümün ağı-qarası

bir dənə qızım var. Yaxşı-yaxşı fikirrəş. Mən səə təklif eleerəm ki, gəl qızımı verim sənə, sən də ol mənə kürəkən. Bu gördüyün varidat, bağ-bağat, imarat olsun səən. Mən də gecə-gündüz otırıb fikirrəşirəm ki, ay Allah, görəsən, mən ölənnən soora bı varidatım kimə qalacağ? Özün görürsən ki, mən tay qocalmışam, büyün varam, sabah yox. Bax, məən səə təklifim mınnan ibarətdi, yaxşı-yaxşı fikirrəş. Əgər məən təklifimə razısansa, qal burda yaşa, qızımı verim səə, bütün gördüyün varidat da olsun səən. Yox, əgər istəmeersənsə, onda heç narahat olub eləmə, səyi necə gətirmişəmsə, elə də qaytarıb apara bilərəm öz dünyaa".

Mən də fikirrəşdim ki, tay mınnan yaxşı nə arzulamağ olar? Belə bir işə razı olmamağ mümkündümü? Kişiyə cavab verdim ki, hə, razıyam. Oyı da deem ki, bı kişinin başının düz ortasında bir dənə ur[10] varıydı. Kişi də məən bı cavabımnan çox sevindi. Məyi gətirdi qızının yanına. Baxdım ki, İlahi, bı qız elə bil insan döyir, bir dənə mələkdi. Tay gözəlliydə bı qıza tay-bərabər ola bilməz. Sevincim bir az da artdı. Bı qıznan evləndim. Soora şad-firavan yaşamağa başdaduğ.

Bəli, günnər keşdi. Tay fikirrəşirdim ki, əgər bu dünyada bircə dənə xoşbəxt adam varsa, o da mənəm. Gah bağlığda gəzirdim, gah hoozda çimirdim, gah ucu-bucağı görünməyən imarətimdə gəzirdim.

Günün birində şeytan məyi yolumnan azdırdı. Taarıma[11] təpiy atmağa başdadım. Pis-pis fikirrər doldu başıma kı, bəs məən öz dünyam varıydı. Öz dünyamı qoyıb, bırda nə gəzirəm? Əvvəl-əvvəl özümü o yerə qoymadım. Fikirrəşdim ki, yox, o yetim-yesir, dilənçi, özü də kor kökünnən gör gəlib indi kim olmuşam? Bı məən imarətim, bı bağ-bağatım, bı ayləm, evim-eşiyim. Ancax gördüm, yox ey, get-gedə güjdənir

[10] Ur – şiş
[11] Taarı – tanrı

bı fikir. Bu tərəfdən də kişiynən kəsdiyim şərt gəlib durdu gözümün qabağında.

Hay bir gün belə, beş gün belə... Yox e, axırı bu fikir güc gəldi məə. Şeytanın fitvasına uydum. Getdim dirəndim o qocanın üsdinə ki, bəs məyi nətəər bura gətirmisən, elə də qaytar, apar öz yerimə. Kişi əvvəl-əvvəl məə inanmadı, elə bildi zarafat eleerəm. Soora gördü yox, bı məən həqiqi sözümdü. Dedi, ay oğıl, birincisi, axı biz o vaxt səynən şərt kəsdüy, sən şərtimizə əməl eləməmisən. İkincisi də ki, vallah, oğıl, şeytan səyi azdırır düz yoldan. Bəs bı səən aylön, bı evin-eşiyün. Burda səən nəyün çatmeer ki, getməy isteersən? Bir kor, kimsəsiz dilənçiydin. Amma indi gör kimsən? Şeytan səyi azdırmasın, oğıl, Tanruya təpiy atma. Dedim, yox ey, a kişi, nə səən qızın lazımdı mənə, nə də bu varidatın, bu bağ-bağatun. Sənnən xayiş eleerəm, tez ol, məyi nətəər bura gətirmisən, eləcə də qaytar apar öz dünyama.

Bəli, kişi çox dedi, mən az eşitdim, kişi çox dedi, mən az eşitdim, axırda kişi dedi, yaxşı, səynən razıyam, qaytarıb apararam səyi öz yerinə, ancaq məə qırx gün möhlət verginən. Razılaşdım. O qırx günü çox böyüy bir əziyətnən dözdüm, qırxıncı gün ginə də getdim qocanın yanına ki, bəs qırx gün demişdün, bu da qırx günün tamamı. İndi nə deersən, aparırsan məni, ya yox? Kişi təəccübnən mənə baxıb dedi, oğıl, səyi şeytan düz yoldan azdırıb. Sən şeytanın fitvasıynan belə eleersən. Ancax mən sənnən ona görə qırx gün vaxt isdədim ki, dedim bəlkə sən bı qırx günün ərzində şeytanı özünnən uzağlaşdırasan, fikrünnən dönəsən. Ancağ indi görürəm ki, yox, sən düz yola qayıtmağ istəmeersən. Hə, ona göra da mən məcburam səən dediyü eleem. Ancax soora peşman olassan, onda çox gec olacağ". Dedim: "Eybi yoxdu, sən məyi apar, nə gələcəy, məən başıma gələcəy dənə".

Həmin qoca kişi məyi gətirdi o pilləkannı quyunun yanına, bir ovsun oxıdı, quyu açıldı. Kişi məni pilləkannarnan çıxartdı çölə, dedi: "Get, bala, amma soora peşman olassan".

Mıyı deyib, kişi ginə bir əfsun oxıdı, quyu bağlandı, kişi də qaldı içəridə. Helə o saat da gözzərim ginə də əvvəlki kimi tutuldu. Əvvəllər özümü o yerə qoymadım. Dedim, yəqin ginə açılacağ. Əvvəl-əvvəl çox söyündüm. Başdadım gəzməyə, o yana, bu yana. Bir-iki gün keçənnən soora yavaş-yavaş ayılmağa başdadım ki, ayə, mən nə elədim? Soora günnər keçdiycən yavaş-yavaş annamağa başdadım ki, hə, sən öl, səyf elədim, şeytanın fitvasına allandım. Helə fikirrəşirdim ki, yox, o kişi ginə qayıdacax, gözzərimi açacağ. Amma gün keçdiycən yavaş-yavaş annadım ki, yox, kişi hara gəlir? Tay mən şərti pozdum dənə.

Soora bilmədim nağayram. Tay kor adamam, yeməy-içməy, dolanışığ lazımdı axı. Fikirrəşdim ki, nağayrım-nağayrım, tay əlimnən nə gəlirdi ki? Ginə də kor-peşman gəzə-gəzə gəlib həmin o vilayətin bazarına çıxdım. Helə o bazarın girəcəy qapısının ağzında durub əlimi aşdım. Hər gün o ümidnən gəlirdim ki, həmin o başında ur olan kişi ginə gələcəy, məyi götürüb aparacağ. Ancax günnər keçirdi, o kişi gəlmirdi. İndi şah sağ olsun, o vaxtdan illər keçib. Hər gün tezzənnən axşamacan gedib dururam həmin o yerdə, əlimi açıram. Kim oocuma pıl atırsa, tez durub əlimnən oon başını yoxleeram ki, görüm həmin o başında ur olan kişidi, yoxsa yox. Amma şah sağ olsun, o vaxtdan uzun illər keçməsinə baxmayarağ, o kişi gəlmeer ki, gəlmeer. Məən şah sağ olsun, o bazarın girəcəy qapısının ağzında elə eləməyimin səbəbi bıydı.

Hə, dilənçi danışdı qutardı... Şah Abbas dərin bir fikrə getdi. Fikirrəşdi, fikirrəşdi, hannan-hana dilləndi:

– A kişi, sən böyüy bir günah işdəmisən. Səən günahun onnan ibarətdi ki, sən yaxşı günün qədrini bilməmisən.

Soora fərraşlardan birini çağırıb dedi, aparun bu kişiyə xəzinədən bir-iki dənə qızıl verin, ötürün, çıxsın getsin. Bı yaxşı günün qədrini bilmeeb.

Bəli, dilənçi getdi. Şah bir az fikirrəşib, soora fərraşlara əmr elədi ki, Vəzir Allahverdi xanı hüzuruna çağırsınnar.

Vəzir də öz işini bilirdi, oydu ki, helə qapının dalında durub gözzeerdi. Fərraş deyən kimi tez içəri girib əmrə müntəzir dayandı. Şah dedi:

– Vəzir, aç o dəfdərüyü, görəy daha nə yazılıb orda.

Vəzir:

– Baş üstə, – deyib dəfdəri aşdı. Dedi:

– Şah sağ olsun, filan dəmirçixanada bir dəmirçi var.

Vəzir belə diyəndə, şah oon sözünü kəsib dedi:

– Bu nə sözdü, vəzir, tay dəmirçixanada dəmirçi olar dənə.

Vəzir dedi:

– Elədi, şah sağ olsun. Ancax bu dəmirçi bir az qəribə dəmirçidi ey.

Şah dedi:

– Necə yanı qəribə?

Vəzir dedi:

– Şah sağ olsun, bı dəmirçinin çox qəribə bir adəti var. Dəmiri qızmağçun qoyır körüyə. Gözzeer, gözzeer, dəmirçi o qızmağ məqamı çatanda, helə dəmiri köriydən çıxardır, zindanın üstinə qoyır, çəkişi qaldırır ki, döysün, birdən helə əli havada qalır. Gözi sataşır dəmirçixananın qabağındakı ağacın bıdağına, baxır-baxır, huş mıyı aparır. Hannan-hana özünə gəlir, isteer ki, dəmiri döysün, görür, dəmir haçandı soyeeb. Təzədən dəmiri qoyır körüyə qızmağa. Ginə də...

Vəzir belə diyəndə, Şah Abbas onu saxleeb deer:

– Hə, hə, yadıma düşdü. Vəzir, sənə iki saat vaxt verirəm. O dəmirçi harda olır-olsun, oyı iki saat ərzində məən hüzuruma gətirirsən.

Vəzir:

– Baş üstə, – deyib çıxır. Qapının ağzında hazır dayanmış çaparrarı göndərir həmin dəmirçinin dalıycan. Çaparrar bir göz qırpımında gəlillər, həmin dəmirçini dəmirçixanadan götirib qoyıllar atın belinə, gətirillər saraya. Dəmirçi deyir:

– Ayə, bir dayanun, a başuza dönüm, məyi hara aparırsuz belə?

Çaparrar cavab verillər ki, bəs Şah Təhməz oğlı Şah Abbas cənnətməkanın hüzuruna gedirsən. Dəmirçinin canına vəlvələ düşür ki, ay Allah, mən hara, Şah Abbas hara? Görəsən neyneer məyi Şah Abbas?

Bəli, dəmirçini gətirillər şahın hüzuruna. Şah Abbas deer:

– A kişi, de görüm fılan dəmirçixanada dəmirçiliy eliyən sənsənmi?

Kişi cavab verir ki, hə, mənəm, şah sağ olsun.

Şah deer:

– Bəri başdan səə deem ki, heç nədən qorxub eləmə. Səyi bura çağırmaxda bir məqsədim var. Bir söz sorışacam sənnən, desön də sağ ol, deməsön də.

Kişi qayıdır ki, şah sağ olsun, o nə sözdü, deyün, əgər bildiyim sözdürsə, cavab verərəm. Şah Abbas deer:

– Mənə xəbər çatdırıblar ki, səən qəribə bir adətin var. Dəmiri qoyırsan köriyə, gözzeersən, gözzeersən, döyilməy məqamı çatanda köriydən çıxardıb zindanın üstinə qoyıb isteersən ki, döyəsən, helə bı vaxtı gözün sataşır dəmirçixananın qabağındakı ağacın bıdağına, baxırsan, baxırsan, huş səyi aparır.

Şah Abbas belə diyəndə, dəmirçi başıynan təsdiqleer. Şah deer:

– Elədi? Düz çatdırıblar məə?

Kişi deer:

– Elədi, şah sağ olsun. Tamam düz çatdırıblar sizə.

Şah deer:

– Bax, helə məyi marağlandıran bu məsələdi. Sənnən xayiş eleerəm, əgər sirr döyirsə, bıın səbəbin aç de mənə.

Dəmirçi deer:

– Şah sağ olsun, vallah, bu çox uzun məsələdi. Deeb sizin vaxtuzu almağ istəmeerəm.

Şah Abbas deer:

– Mən heç hara tələsmeerəm.

Soora şah əmr eleer fərraşdara: "Çay gətirin". Bəli, ortaya surfa salınır, çay-çörəy gətirilir. Şah deer:

– A kişi, heç nədən qorxıb eləmədən ye, iç. Özi də sənə bir şeyi də deem. Mən bilirəm ki, sən dəmirçi adamsan, çörəyin bınnan çıxır. Arxayın ol, səyi nə qədər bırda saxleeramsa, oon pılın beş qat artığlamasıycan ödiyəcəm.

Bəli, dəmirçi qorxa-qorxa çaydan-çörəydən yeeb-içir, surfa yığışılır. Soora şah deer:

– Hə, kişi, indi başda görəy nə sirdi bı.

Dəmirçi söhbətə başdeer:

– Şah sağ olsun, mən helə dədədən, babadan dəmirçiyəm. İrəhmətdiy dədəm də, oon dədəsi də dəmirçi olıb. Helə bı sənətnən bir təər başımızı saxlamışuğ, dolanmışuğ. Günin birində ginə də dəmirçixanada dəmirçiliynən məşğulıydım. Helə dəmiri qoydım körüyə, dəmir qızdı. Körüydən çıxardıb qoydım zindanın üstinə ki, döyüm. Helə çəkişi qaldırdım havaya, istədim ki, dəmiri döyim, bı dəmdə gördüm ki, dəmirçixananın qabağındakı ağacın bıdağına bir quş qondı. Çəkişi havada yellədim ki, quş uçsun, quş uçmadı, helə dayandı əvvəlki yerində. Məyi marağ bürüdü ki, görəsən nə quşdu bı? Çəkişi yerə atıb istədim bı quşu tutam. Helə əlim quşa dəyən kimi quş məyi də götirib qalxdı havaya. Bir xeylağ uçannan soora tay yer görinməz oldı. Bı quş məyi gətirib bir başqa dünyaya çıxartdı. Gördim ilahi, bıra elə bir yerdi ki, gəl-görəsən. Gül bülbülü çağırır, bülbül gülü çağırır. Tay cənnət deyilən yer varsa, o da bıradı.

Həmin bı quş dönib oldı bir dənə məleykə, mənə dedi: "A kişi, mən göydən baxırdım, səən nətəər əziyyətnən işdədüyü görirdim. Hə, indi səyi götirib bıra gətirdim ki, tay canun bı əziyyətdən qutarsın. İndi məən səə bir təklifim var. İsteersən, ömirriy qal bırda, bı gördüyün şeylər də hamısı olsun səən. Yox, əgər istəmeersənsə, səyi nətəər gətirmişəm, elə də qaytarım, aparım öz dəmirçixanana". Mən heç fikirrəşib eləmədən dedim ki, razıyam, ömirriy qalıram bırda.

Hə, bı məleykəynən danışduğ, başdadım bırda şad-firavan yaşamağa. Mıın üstinnən bir neçə il keçmişdi. Günün

birində şeytan məyi öz yolımdan azzırdı. Başdadım fikirrəşməyə ki, mən nəşə razı oldım bırda yaşamağa. Məən öz dünyam, öz dəmirçixanam var axı. İlk vaxtdar çalışdım bı fikri özimnən uzağlaşdıram. Bir gün, iki gün, axırda gəldim həmin məleykənin yanına ki, sənnən xayiş eleerəm, məyi necə gətirmisən, elə də apar bırdan öz dəmirçixanama.

Bəli, məleykə çox dedi, mən az eşitdim, axırda məleykə razılaşmağa məcbur oldı. Dedi, ay kişi, deersən məyi apar, mən də aparıram, ancax soora peşman olassan ha.

Nəysə, mıın sözinə qulağ asmadım, məleykə o saat dönib oldı ginə də bir quş, məyi qanadına alıb gətirib atdı düz öz dəmirçixanamın yanına. İlk vaxtdar çox xoşhalıydım. Amma bir-iki gün keçənnən soora annadım ki, səyfə yol vermişəm, şeytanın fitvasına uymışam. Əvvəl-əvvəl özimi o yerə qoymadım. Fikirrəşdim ki, o məleykə ginə də gəlib məyi aparacağ ora. Amma şah sağ olsun, hər gün gedirəm o dəmirçixanaya, helə dəmiri köriydən çıxardıb qoyıram zindanın üstinə, isteerəm ki, çəkişi qaldırıb döyəm, helə çəkiş havada qalır. Gözüm sataşır o ağacın bıdağına, o hadisə yadıma düşür, huş məyi aparır, bir də ayılıram ki, dəmir haçağdı soyeeb. Şah sağ olsun, məən o dəmirçixanadakı hərəkətimin sirri bıyıydı.

Şah Abbas ginə bir xeylağ fikrə gedir, hannan-hana özinə gəlib fərraşı çağırır. Deer:

– Gedün o xəzinədən bı kişiyə bir-iki dənə qızıl verib yola salun, getsin. Bı da yaxşı günün qədrini bilmeeb.

Bəli, bı da gedir, Şah Abbas ginə də Vəzir Allahverdi xanı yanına çağırtdırıb deer:

– Vəzir, aç o dəfdərüyü, görəy daha nə var orda.

Vəzir:

– Baş üstə, – deeb, tez dəfdəri açıb oxımağa başdeer:

– Şah sağ olsun, vilayətin kənarınnan keçən çayın qırağında bir balığçı var.

Şah deer:

– Bı nə sözdü, vəzir, çayın qırağında balığçı olar dəə.

Vəzir deer:

– Elədi, şah sağ olsun, ancaq bı balığçı bir az qəribə balığçıdı. Torı atır çaya, soora çaydan çıxardıb tordakı bütün balığları atır çaya, dəli kimi torın dibin yoxleer.

Vəzir belə diyəndə, Şah Abbas deer:

– Hə, hə, yadıma düşdü. Vəzir, sənə iki saat vaxt verirəm. O balığçını tap gətir məən hüzuruma.

Bəli, vəzirin çaparrarı tez gedib balığçını tapıb gətirillər. Şah deer:

– A kişi, heç nədən qorxıb-eləmə, səyi bıra çağırtdırmışam ki, bir söz sorışım. İstəsən, cavab verərsən, istəməzsən, verməzsən.

Balığçı deer:

– Şah sağ olsun, soruşun, bildiyim şeydisə, cavab verərəm.

Şah deer:

– Mənə çatdırıblar ki, sən fılan çayın qırağında balığçılığ eleersən. Bı düzdü?

Balığçı başını yelleer ki, həə, düzdü. Şah deer:

– Deellər səən çox qəribə bir adətün var. Torı çaydan çıxardırsan, tordakı qol boyda balığları təzədən qaytarıb tökürsən çaya, dəli kimi torın dibini yoxleersan, soora ginə...

Helə şah belə diyəndə, balığçı deer:

– Elədi, şah sağ olsun, tamam düz çatdırıblar sizə.

Şah deer:

– Onda əgər sirr döyirsə, bı məsələdən məyi də agah elə.

Bəli, ortalığa surfa sərilir, yeməy-içməy gəlir, balığçı qorxa-qorxa bir az yeeb-içənnən soora söhbətə başdeer:

– Şah sağ olsun, mən lap uşağ vaxdarımnan bı balığçılığnan məşğul olmışam. Helə bı sənətnən bir təər özümü dolandırırdım. Günün birində ginə gəldim çaya balığ tutmağa. Torı atdım, çəkəndə gördüm ağır gəlir. Bir təər çəkib çıxartdım, gördüm torda bir sandığ var. Sandığı açıb gördüm ki, bı sandığın içində bir dənə gözəl qız saçına bürünüb yatıb. Bı qız mənə dedi: “Al bu daşı, apar bazarda sat, pılınnan mənə

bir dəst paltar al gətir”. Demiyəsən, bı daş çox qiymətdi bir daşıymış. Apardım bazara, bir zərgərə görkəzdim. Zərgər dedi, bı çox qiymətdi daşdı, mıyı heç bir zərgər tək ala bilməz. Gözzə, mən şəhərin bütün zərgərrərini yığım bir yerə, bəlkə birrəşib bı daşı ala bildüy.

Hə, gözzədim, bı zərgərrər yığışıb bı daşı aldılar. Pıldan bir az götirib qızçun bir dəsd paltar aldım gətirdim. Qız bı paltarı geyib, sandığdan çıxdı və məə dedi: “Ay kişi, məyi sən bı çaydan çıxartmısan. İndi sən nə desən, mən eləməyə hazıram”. Mən də qıza bildirdim ki, onu almağ istirəm. Qız razılaşdı. Amma dedi ki, bı fikrimnən heç vaxt vaz keçməməliyəm.

Bəli, bı qıznan evləndüy. Qız bir sehir oxeeb məən o köhnə qamış daxmamın yerində misli-bərabəri olmıyan bir imarət yaratdı. Bı qıznan başdaduğ şad-firavan yaşamağa.

Mıın üstinnən bir neçə il keşmişdi. Tay dünyada bir dənə xoşbəxt adam varıydısa, o da məniydim. Ancax şeytan imkan vermədi.

Günün birində qonşılığımızdakı çobanın qızını gördüm, vırıldım bı qıza. Qız da dedi ki, əgər öz arvaduyu boşasan, səə gələrəm. Evə gəlib qıza dedim ki, boşeeram səyi. Qız çox dedi ki, a bədbəxt, səyi şeytan öz yolunnan azdırıb. Mıın hamısın eliyən o qonşı çobanın qızıdı. O qız sənə yox, səən bı imarətə, var-döölətə vırılıb. Ancax mən arvadımın dediylərinə fikir vermədim. Axırda qız dedi, yaxşı, onda sənnən xayiş eleerəm ki, məyi nətəər çaydan çıxartmısan, elə də qoy sandığa, apar at çaya. Mən də söyindim ki, nə yaxşı, belə hasandca qutardım bı qızdan. Tez o köhnə sandığı tapıb gətirdim. Çayın qırağında qız paltarını soyınıb ginə də öz saçına bürünüb, girdi sandığın içinə. Mən də tez sandığın ağzını bağleeb atdım çaya. Qayıtdım kəndə. Gördüm, ayə, o gözəl kəndin yerində ginə əvvəlki xarabalığa oxşıyan kəntdi. Özimi o yerə qoymadım, dedim, eybi yox, imarətimin canı sağ olsun. Gəldim qapıya, gördim, ayə, imarət nə gəzir? İmarətin yerində ginə də o uçığ-sökiy

qamış daxma var. Ginə də özimi o yerə qoymadım. Dedim eybi yox, çobanın qızının canı sağ olsun. Getdim çobanın qızının yanına, dedim, hə, gözəlim, nə deersən, arvadımı sandığa qoyıb apardım atdım çaya. İndi mənə gəlirsən? Çobanın qızı dedi, əşi, ged öz tayuyu tap. Sən kasıbın birisən, səyi neyneerəm?! Başa düşdüm ki, həə, səyfə yol verdim. O günnən hər gün gəlib tezzənnən axşamacan bı çayda tor atıram ki, bəlkə o sandığı ginə tuta bildim, bəlkə o qızı ginə qaytara bildim. Əəm qaytarsam, düşərəm oon ayağlarına ki, bağışda məyi, bir də belə şey eləmərəm. Ancax şah sağ olsın, o vaxtdan uzun illər keçib, o sandığı tutıb, o qızı qaytara bilmeerəm ki, bilmeerəm. Həə, şah sağ olsın, məən o çayın qırağında elə eləməyimin səbəbi, sirri mınnan ibarətdi.

Şah üçüncü dəfə dərin bir fikrə gedir. Hannan-hana özinə gəlib, deer:

– A kişi, səən də bədbaxlığun onnan ibarətdi ki, sən də yaxşı günün qədrin bilməmisən.

Soora şah əmr eleer xəzinədara ki, aparun mına da o xəzinədən bir-iki dənə qızıl verib yola salun, getsün.

Mınnan soora Şah Abbas Şah Təhməz oğlı cənnətməkan Vəzir Allahverdi xanı yanına çağırıb deer:

– Vəzir, o dəfdərüyü aç, ora yazginan ki, insan pis güni görməsə, yaxşı günün qədrin bilməz.

Bıynan da nağıl qutardı.

## BƏHLULDAN ƏYAL İSTƏYƏN KİŞİ

Günün birində bir kişi gəldi Bəhlul Danəndənin yanına. Dedi:

– Bəhlul Danəndə baba!

Dedi:

– Bəli!

Kişi dedi:

– Əşi, məən əyalım ölüb, dünyadan gedib, çox qum-qazancda bir şəxsəm. Yığıram, gətirrəm, nə qədər qazannam, görürsən ki, qohum-qonşu dağıdır-eleer. Mən bir əyaldan örti gəlmişəm, məə bir əyal al ver.

Dedi:

– Hə, bala, at dayanmeer, yaman dəyməmiş. Getginən, özündə olsa, özünnən, özündə olmasa, özgədən beş yüz dinar borc elə, pıl al gətir, gəl bura, gəzzirim səyi. Tez gəl.

Bı kişi getdi. Getdi qonşudan beş yüz dinar pıl aldı gətdi, bağladı dəsmala.

– Gəldün bala?

Dedi:

– Gəldim.

Dedi:

– Gəl dalımcan!

Bəhlul sürdü atı, bu da piyada düşdi mın dalına, gəldilər düz dənizin qırağına. Qolı getdiycən Bəhlul tulladı bı pılı suya.

Kişi dedi:

– Ay Bəhlul Danəndə baba, mən oyı borc almışdım.

Dedi:

– Arvatdan ötri almamuşdun oyı?

Dedi:

– Bəli.

Dedi:

– Mənnən arvad istə də, sən neynirsən oyı dənizə atacam, hara atacam. Bu yolu görürsən?

Dedi:

– Bəli.

Dedi:

– Bı yolnan pıramoy getginən, yolun kutaracağında məqamua çatacaxsan sən.

Kişi getdi, getdi, çox getdi, axırda çıxdı bir şəərə. Cibində də pılı varıydı. Acmışdı da. Getdi girdi şəərə. Saat iki-üş radələriydi. Gördü ki, çörək alıb gətirillər belədən. Bu da acıb, cibində də pılı var. Birinnən sorışdı ki, qardaş, bırda çörəgi hardan alursuz?

Dedi:

– İrəlidə – ode orda tükan var, ordan.

Getdi girdi içəri, gördü hə, çörəy var, alıb çıxıllar. Bı da pıl çıxartdı cibinnən, dedi:

– Qardaş, məə çörəy ver.

Bı çörəy verən baxdı mına, gördi bıra adamı döyir. Dedi:

– Əşi, bırda çörəy pılnan döyir, pıl işdəmeer.

Dedi:

– Bəs nəynəndi?

Dedi:

– Salavatnandı. O adamların arasıynan ged, orda bir otaq var, bir dənə də adam otırıb. Orda salavat çəkib, o adamnan da bir kağız alıb gətirərsən ki, həqiqətən, salavat çəkdün, soora çörəyü alarsan.

Kişi getdi mıın göstərdiyi səmtə. Axtardı, axtardı, nəysə, tapa bilmədi oranı. Yorğınnığ bir tərəfdən, acdığ da bir tərəfdən. Hirslənib tamam özünnən çıxdı ki, ayə, mən öldim, arvad alan deyildim, məən başıma nə oyın gəldi?! Bırdan acığlandı, çıxdı, indi deyinə-deyinə gedir. Getdi, çıxdı şəərdən. Şəərin kənarıynan gedirdi, gördü bir qoca nurani kişi alma yeyir. Gəldi, mıın böörünnən keçəndə dedi:

– Salamməleyküm.

Qoca dedi:

– Əleykümsalam.

Bı qoca baxdı mıın təər-töörünə, dedi:

– Ay oğul, nə bikef gedirsən? Hardan gəlib, hara gedirsən? – qoca soruşdu mınnan. Dedi:

– Ay qoca, dərdimə əlac eliyən deyilsən, neyneersən e, hardan gəlirəm, hara gedirəm?

Qoca dedi:

– Ay oğul, gəl otır bırda, bir az yorğınnığun çıxsın bir görim. Hardan gəlib, hara gedirsən, kimsən, nəçisən? Helə məən də öyim bırdadı. Hələ lazım olsa, qalıb qonağım da ola bilərsən.

Helə danışa-danışa qoca çıxartdı cibinnən bir alma verdi mına. Bı başdadı almanı yeməyə. Ac adamıydı dənə. Gördi, ayə, bı, o almalardan döyir! Tay bırız eləmədi[12]. Dedi:

– Oğıl, sən Allah, doğırdan, hardan gəlib, hara gedirsən?

Dedi:

– Qoca, vallah, Allahdan gizzi olmıyan bəndədən nə gizzi olacaq? Bəhlul Danəndədən məsləhət issədim, o da mənə belə dedi. Mən də düşdüm yola, gəlib çıxdım bı şəərə.

Xüləs, hamısını danışdı mına. Qoca dedi:

– Əşi, səyi bı dəəğa orda – çörəy satılan yerdə gəzillər e, görəsən o şəxs necoldu? Qayıt getginən sən bı saat, orda hamı tökülüb səyi axtarır. Sənə çörəy də verəcəylər. Çörəgüyü al, gəlginən bıra. Məən də öyim bırdadı, yaxındadı, gedəy qonaq ol mənə.

Helə bı kişi bir az yaxınnaşmışdı o çörəy satılan yerə, gördülər mıyı:

– Əşi, sən hara getdün, ay qardaş? Bəs səən salavatun möhürrəndi.

Dedi:

– Nə salavat, nə möhir?!

Dedilər:

– Əşi, bıra gəl.

Gətirdilər mıyı həmin otağa. Bı kişi yarım manqur[13] salavat çəkdi, çıxartdılar mıa bir dənə çörəy verdilər, qayıtdı gəldi qocanın yanına. Qoca dedi:

---

[12] Bırız eləmək – büruzə verməmək

– Gəldün əşi?
Dedi:
– Bəli.
Dedi:
– O çarhoozu görürsən qayanın altında?
Dedi:
– Hə.
Dedi:
– O böyürdə, o qırağda bir gizzin yer var ha...
Dedi:
– Hə.
Dedi:
– Gələ bu almanı, gizzinnən get, oturginən orda. Görəcəysən ki, məşgi[14] əlində, qızzar dəstəsi pıkqapıknan gəlib o çaydan su doldurub aparacaxlar. Ollar da büküydə[15] səyi görmiyəcəylər, amma sən görəcəysən olları. Baxginən, görginan, fikirrəşginən, hansı qəlbüə yatır, bı almanı at, dəysin ona. Dəyəndə, o tərəfdəki yarğanı görürsən, qayadan çıxır?
Dedi:
– Hə.
Dedi:
– Ordan çıxıb gedərsən, tay arxoa baxmazsan, işün yoxdu.
Belənçiy almanı aldı. Bı getdi oturdu qocanın göstərdiyi yerdə. Qızzar dəstəynən, pıkqapıknan gəldilər, bəli, su doldırmağa. Bı kişi o qədər utandı ki, bılara baxa bilmədi xəcalətinnən. Ona görə helə də durdu, çıxdı gəldi. Qoca dedi:
– Əşi, nooldu?
Dedi:
– Belə-belə, qoca, vallah, utandığımnan heç başımı qaldırıb baxa da bilmədim.

---
[13] Manqur – pul vahidi
[14] Məşg – səhəng
[15] Büküy – künc

Qoca dedi:

– Hə, sən dulsan, olar qızdı, ona görə rəva döyir Allahdan. Ona görə utanmısan. Ged otır. İndi sənə münasiblər gələcəylər, gedib qayıtmışlar gələcəylər. Get ginə əyləş dediyim yerdə. Mən necə demişəm, elə də eliyərsən.

Bı getdi əyləşdi. Aradan bir az keçmişdi, gördi quba qazı kimi, eyzan gəlinnərdi hamısı, bax, bı oyı oyana itəleer, bı mıyı biyana itəleer, kefdədilər. Hər kəsən gəldi, səhəngin, güyümin, məşgin doldurdu, yuyundular-elədilər. Bı kişi fikir verdi, gördi hə, biri qəlbinə yatır. Almanı atdı, mına dəydi – gəlinə. Dəydi, kişi həmən durdu, o tərəfdəki yoldan çıxdı, dəbərdi. Qayanın başına çatmışdı, Allahdan hököm oldu Cənabı Cəbrayıla – dumanın mələyinə ki, elə duman elə ki, qəddey duman. Qəddey duman oldi, kişi hara getdiyin bilmeerdi, ancağ helə yereerdi. Gördi daldan bir arvad deer, yeri əşi, yeri. Əşi, yeri e, yeri. Qayıdıb dala baxmaq isseer kişi ki, görüm bı kimdi dənə, məə belə deer? Bı aman vermeer, əşi, yeri, yeri, yeri. Bı da dumannan yeriyə bilmeer axı.

Xülasey-kalam, bı arvad mıyı bı dumanın arasınnan itəliyə-itəliyə, itəliyə-itəliyə, getdilər bılar bir dənə darvazıya vadar oldılar. Kişi dirəndi bı darvazıya. Darvazanın da ağzı kilitdi. Arvad dedi, əşi, belə dur. Kişi çəkildi kənara. Arvad haçarı çıxartdı cibinnən, darvazanı açdı.

– Əşi, keç içəri!

Kişi keçdi içəri, arvad da mıın dalıycan. Gördi bir binadı. Arvad ginə də "yeri əşi, yeri" tay heç mıyı baxmağa qoymeer ki, bı kişi görsün kimdi bı. Bir də evə girənnən soora arvad çörükdi bına tərəf. Dedi:

– Əşi, bilirsən nə var?

Kişi dedi:

– Yox!

Dedi:

– Allah-taala məyi sənə puta verdi, səyi də mənə kişi. Bı bina da bizimdi. Amma bax, üç şərt var. O şərtdər gərəy səən

yadunnan çıxmasun! Çıxsa, sən bırda çörəy yiyə bilmiyəcəysən, yaşıya bilmiyəcəysən. Çıxmasa, yaşıyassan. İndi gəl şərtdəri deyim, yadunda qalsun.

Kişi dedi:

– Denən, amma axı bırda qazannan, yatacaxdan, ayınnan-oyınan hessad yoxdu, bəs bırda biz nəynən inkişaf eliyə biləcöy?

Dedi:

– Heç bir şey lazım döyir. Helə biz yatan vaxtı yerimiz salınacax qəyyumi-dəryadan, səyi də bırdan göndərəcəm, gedəcəysən bazara, bazarnan da bı öyün arası on iki kilometirdi. İki yüz qram ət alacaxcan, iki yüz bir qram olsa, yox. İki yüz qram əti bişirməy üçün nə qədər soğan lazımdı, oyı alacaxcan. Tay başqa şey lazım döyir. İki adamın da çörəgini alacaxsan, gətirəcəysən bıra. Tezzən nahar bişirəcəm mən bırda, iki qab çəkəcəm, yarısın sən yiyəssən, yarısın mən. Günortanı ginə göndərəcəm. Ginə gedəcəysən, ginə elə, axşamı ginə helə. Deməli, otuz altı kilometir yol gedib gələcəysən gündə. Şərtin biri budu: demək ki, əgər bir qram artıq ət alson, şərt pozılır. Başa düşdün bı şərti?

Kişi dedi:

– Hə, başa düşdüm.

– Yaxşı. İkinci şərt budu ki, mən öydar qadın olacağam, öydə hərrənəcəm, sən çıxassan çölə. İçəri girəndə mən sənnən sorışacam: “Əşi, çöl-bayırda hava necədi?” Tay başqa söz demədən diyərsən: “Ay arvad, hakim öz işindədi”. Üçüncü şərt: Sən mənnən xəbər alson ki, arvad, bəs səən bı şəhərdə heç bir varənsaalun[16] yoxdu? Deyəcəm, əşi, atam, anam, qohum-əqrabam gələllər. Vaxt olacağ, olar qonağ gələcəylər bizə. Mən bu iki yüz qram əti gətirəcəm, bişirəcəm olara, yiyəcəylər-içəcəylər – atam, anam, əmim, dayım, hamısı... Surfanı mən yığışdıranda tay başqa bir söz danışıb-eləmə. Əgər danışson, şərt pozulacax! Heç bir şey danışmazsan”.

[16] Varənsaal – qohum-əqrəba

Bəli, gündə bı gedir, ordan – Saatdıdan, bir kilometirdən alırdı, gətirirdi, arvad bişirirdi, yeerdilər. Bir qədər belənçi yaşeellar. Günün birində yolda bir ədalı-qəbalı şəxs – alim rast olır bu kişiyə. Bı da şeytandı – alim cildinə girmişdi. Bu şəxs gəldi bı kişinin yanına, dedi:

– Sən poçtalyon döyirsən ki?

Dedi:

– Xeyir.

Bı da bilmeer axı bı şeytandı, deer əbalı-qəbalı alimdi dənə. Dedi:

– Gündə üş dəfə gəlirsən, gedirsən, ona görə dedim.

Alim dedi:

– Vallah, hə, düz deersən, gündə üş dəfə gəlib-gedirəm. Öydə yoldaşım mənə tapşırıb ki, gündə iki yüz qram ət al, artıq alma. İki yüz bir qram olsa, şərtimiz var, o şərt pozular, dolanışığımız pozular, pis olar.

Şeytan dedi:

– Əşi, sən nə danışırsan, şərt nədi, filan nədi? Ay benəva oğlı, benəva, on iki kilometir evüynən mıın arası, sən gündə otuz altı kilometir yol gedib-gəlirsən. Sən iki adamsan, əşi getginən o cəmdəyin birin al, denən, ayə, qardaş, bu neçəyədi? Deyəcəy yarım manqur salavata. Hacabbasqulunun erkəyinin biri odaha, asılıb ordan, azı əlli kilo var. Alginan, soğan elə, qartof elə, ged üç ayun urzusun yığginən başuun altına, qutarsın getsin. Yoxsa sən gündə üş dəfə bu yolu gəl-get... yazığsan, fağırsan.

Kişi dedi:

– Ayə, bir erkəyi neçiyə verirsən?

Dedi:

– Qardaş, yarım manqur salavata.

– Ayə, ver bayana.

Bəli, erkəyi aldı. Qartofı elə, soğanı elə, hamısın salavatına aldı.

– Ayə, hambal.

Hambal gəldi, baxdı yükə, dedi, qardaş, mən bı yükü tək apara bilmərəm, gücüm çatmaz. Onda qoy özümə bir yoldaş tapım. Kişi dedi:

– Tap.

Tapdı. Onun da salavatını verdi, mıın da. İki hambal çatdı bu şeyləri, gətirdilər, gəldilər öyə. Öyünün qabağında bir hovuz var idi, kişi döndü ora, yüngül pəşoya, hamballar keçdi qapıya. Arvad durmuşdu məəcərdə. Gördü sən ölmiyəsən, kişi azıb.

– Mən buna demişdim, iki yüz qramdan bir qram artığ olmaz, bı hambalnan gəlir qapıya? Bı nə deməydi?!

Hamballar issədi balxuna qoysınnar, arvad dedi, yox, yox, elə yerdən qoyın. Qoydılar yerə. Kişi gəldi, gördü ayın-oyun yerdədi. Dedi:

– Arvad, nəşə qoymeersən ayın-oynu yuxarı?

Arvad dedi:

– Əşi, şərtin biri getdi. Bəs mən səə deməmişdim ki, iki yüz bir qram olsa, lazım dögül? Bu nədi, sən bu qədər əti qatmısan bı camaata? Bı hamballara nə qədər salavat vermisən bura gəlməyinə, bi belə salavat ver mıa, qayıtsınnar. Soora getginən, bu şeyləri almısan, hamısını qaytar, salavatuyu al geri. İki yüz qram da ət al gəti!

Kişi dedi:

– Arvad, səyf eləmişəm, tay bir də eləmərəm.

Arvad dedi:

– Yox e, tay biri getdi, qaldı ikisi.

Müxtəsər, aradan bir qədər keçənnən soora bir gün kişi çıxmışdı çölə, küləy götürmüşdü hər yeri başına. Kişi qayıdıb evə gələndə arvad dedi:

– Əşi, çöl-bayır necədi?

Kişi dedi:

– Allah dağıtsın mıyı.

Dedi:

– Əşi, əşi, kəs, əşi! Əşi, şərtin biri də getdi. Sən bu gedişnən, deyəsən, çörəy yeyə bilmiyəssən.

Kişi dedi:
– Arvad, bilmədim, filan...
Arvad dedi:
– Əşi, nə danışırsan? Getdi ey, tay bular artığ söz-söhbətdi.
Aradan bir qədər də keçdi. Bir gün kişi dedi:
– Arvad, bəs səən heç qohumnan, əqrabannan yoxdu?
Arvad dedi:
– Əşi, var. Nəşə yoxdu?
Kişi:
– Bəs hanı, hardadı?
Arvad dedi:
– Əşi, bu gün qonağ çağırmışam, hamısı gələcəylər.
Axşam bılar gəldilər, arvadın əmisi, bibisi, xalası, bacısı, qardaşı – hamısı yığışdı bılara. Gətirdi arvad bu iki yüz qram əti bişirdi, hamısın yola verdi. İndi bı kişi yeznələridi axı bıların, durub ayağ üstə bıların qulluğunda. Bılar yedilər, işdilər, əlhəmdülillah. Bı kişi qayıtdı, dedi:
– Vallah, tay bı sizə layağ dögildi, mən sizə gərəy erkəy kəseydim.
Bir vaxt gördü ki, bunu bir an elə atıblar ki, həmin qapıdan çöldədi, dumanın içində durub, arvad da içəridə. Dedi:
– Arvad, bı nədi?
Arvad dedi:
– Əşi, sən burda çörəy yiyə bilməzsən, yeri get! Sənə qismət olmadı, get!
Kişi nə qədər and-aman elədi. Dedi:
– Yox e, bı da ürüşvətnən döyir, bir şey döyir, hökm qətidi.
Kişi dedi:
– Arvad, yaxşı, mən gedirəm, düz deersən, yeyə bilmədim, ancağ sən Allah, mıın mənasın mənə deynən.
Arvad dedi:
– Mənası budur ki, sənə mən dedim iki yüz qram ət al gətir, sən getdün əlli kilo ət aldun. Bu əlli kilonu əlli adam

alacaxdı. Bıların aylələrini də çəksöy, gör sən nə qədər adamın çörəyinə maneçiliy eleeb alıb gətiribsən.

Kişi dedi:

– Düzdü.

Arvad dedi:

– İkinci şərt də oyıydı ki, mən sənə diyəndə ki, əşi, çöl-bayır necədi, sən deməliydün hakim öz işindədi. Sən isə deersən "Allah dağıtsın mıyı". Hakim də Allahdır dənə, bu da getdi belə. Bir də ki, Allah əzizdi. Onun yaratdığı bütün nə qədər tamlar var, o da əzizdi. Yanı ki, Allah əzizdi, tamı da əzizdi. Məən atam, anam, qohum-əqrabam hamı gəlib, bizim evimizdədi. Mən surfanı yığışdıranda deyirsən "bağışdıyın e, bı sizə layağ dögildi". Allah özü də əzizdi, tamı da əzizdi. Ona görə də sən səyf danuşdun. Burda çörəy yemək səə qismət olmadı, yeyə bilmədün, a kişi!

Elənçiy kişi kor-peşman qayıtdı, çıxdı getdi. Tapdı Bəhlul Danəndəni. Dedi:

– Ay Bəhlul baba, bəs hal-qəziyə belə-belə. Elə bir yerə düşmüşdüm ki, getməy, yatmağ, durmağ – hamısı salavatnanıydı. Öyüm, eşiyim, əyalım da durmuşdu qulluğumda, ancağ qismət olmadı, şərti pozdum, qooladılar məyi.

Bəhlul Danəndə dedi:

– A bala, tay orda sən çörəy yeyə bilmədün, yeri get, bir adam tap də öyüə. Tay oranı bir də tapa bilməzsən, oyı çıxartdun əldən.

# İBRAHİM ƏJDƏR

Məhəmməd salavatullahın başının ağrısı tutmışdı. Mıın da Həbib addı bir qulamı varıydı. Dedi:

– Həbib.

Dedi:

– Bəli.

Dedi:

– Həbib, get gəz, məə bir yaşdı adam tap, dünyagörmiş olsın, o söhbət eləsin, mən oa qulağ asım, bəlkə məən başımın ağrısı keçə.

Həbib getdi. İbrahim Əjdər mıa rast gəldi. Rast gələndə gördi ki, bı qoca kişidi dənə. Salam-kalamdan soora dedi ki, ya İbrahim Əjdər, səyi peyğəmbər cağırır. Gəldi, salam-kalam, əyləşdi. Peyğəmbər salavatullah uzanmışdı. Dedi:

– Ya peyğəmbər, səə qurban olum, məə yetər qulluğun?

Dedi:

– İbrahim Əjdər, məən başım çox ağreer, gəl məə bir söhbət elə, mən qulağ asım, bəlkə başımın ağrısı keçib gedə. Şirin söhbət olsın, amma qeybət olmasın. Şirin söhbət yaxşı şeydi.

Dedi:

– Ağa, səə qurban olım. Mən nə söhbət eliyəcəm, nədən danışacam, kasıb, qoca kişiyəm.

Peyğəmbər deer ki, cavannığunnan-zadunnan, gördüyünnən, bildüyünnən məə söhbət elə, mən oa qulağ asacam.

Dedi:

– Ağa, onda cavannığımnan danışım.

Dedi:

– Bəli.

Dedi:

– Mən Malik Əjdərin oğlı İbrahim Əjdərəm. Mən at mindim, getdim çıxdım çöllərə, gəzdim, dolandım, ov ovladım, quş quşdadım, qayıdanda gəldim imarətin qarşısınnan

keçəndə gördüm imarətdən bir qız baxır. Allah elə bil onu qüdrətinnən yaradıb. Ürəyim mıyı o qədənə tutdu ki, həddinnən artıx. Dedim, ya ölməliyəm, ya o qızı almalıyam. Oydı ki, ya peyğəmbər, səə qurban olım.

Dedi:

– Söhbət elə.

– Gəldim nə dədəmə deyə bildim, nə anama deyə bildim, heç kəsə deyə bilmədim. Düşdüm yorğan-döşəyə bı qızın dərdinnən. Həbib-təbib gətirdilər, bir insan dərdimi bilə bilmədi. Mıyı yoldaşdarım ki eşidib mən azarramışam, atama deellər ki, səən işün yoxdı, biz oon dərdini biləcök. Gördüm yoldaşdarımdan beş-altısı gəldi, otdılar, yedilər-işdilər, keşdilər söhbətə. Bəli, başdadı biri dedi ki, mən filankəsin qızını isteerəm, nətəər olsa, oyı alacam. Bu birisi dedi, belə. Nööbə məə çatdı. Deer, dedim ki, uşağlar, indi ki belədi, məən nə azarım var, nə bir şeyim. Mən padşahın qızına aşiq olmışam. Oyı almasam, məən ayılmağım getdi. Ya peyğəmbər, o saat bı yoldaşdarım qalxdılar atama dedilər ki, İbrahim Əjdərin dərdini tapduğ. Atam dedi ki, a bala, biz kasıb adam, o da padşah, bizə qız verməzzər. Deer, dedim ki, ata, indi ki belədi, öldi var, döndi yoxdı. Ya ölməliyəm, ya oyı almalıyam. Anam çox yalvardı, atam durdu getdi padşahın qapısına, otdu müəyyən yer varıydı, elçi daşı deellər adına, oon üstündə. Padşaha xəbər getdi ki, elçi daşının üstündə bir dənə kişi var. Padşah adam göndərdi ki, bıraxun gəlsin. Getdim, girdim içəri. Salam-kalamdan soora padşah dedi: "Hə, nədi, nədən ötrü gəlmisən? Çörəkdən, sudan nəyə ehtiyacın var?" Dedim, məən bir dənə oğlım var, səən qızua aşiq olıb, əyər o olmasa, oğlım əldən gedir. Padşah, deer, durdu, dedi: "Verərəm, ancaq bı şərtnən ki, mənə bir ləl gətirərsən ki, o ləlin yeddi başı olsun, hər başının üstündə yüz min tümən qiyməti olsun".

Ya peyğəmbər, atam, gördim, – mən də yol gözzeerəm, – bıdı, gəlir. Anam xəbər aldı: "A kişi, noldı?" Dedi ki, haliqəziyə belədi. Atam dedi, a bala, məən heç zadım yoxdı. Bir

yayım var, bir oxum. Əəmləri[17] mıa eleersə, apar sat, oyı al, aparım verim, qızı alım.

Ya peyğəmbər, sıçradım qalxdım ayağa. Dedim, ata, mən səən silahuyu satıb oynan aylə qura bilmərəm. Əyər mən mənəmsə, ya öləcəm, ya da o ləli tapacam, özüm alacam. Səən yayuyu, oxuyu satıb mən aylə qurmıyacam. Durdum ayağa, ya peyğəmbər (peyğəmbərə söhbət eleer ha İbrahim Əjdər), atamın yayın, oxun, qılıncun götürdüm, atı mindim. "Ata, xudahafiz", düşdüm yola.

Bəli, bı şəhərdən o şəhərə, o şəhərdən bı şəhərə, gəzirəm, dolanıram. Elə oldı ki, indi ayrı şəhərə getməli idim meşənin içiynən, gördüm bir cığra yol var. Bı yolnan at sürdüm, ya peyğəmbər. Peyğəmbər də qulağ asır. Bı yolnan getdim, getdim, bir qalaçaya çatdım. Gördim bir qalaçadı. Bırda adam yaşeer, amma heç kəs yoxdı. Səsləndim "ay öy yiyəsi, ay bu qalanın yiyəsi". Onda gördim qəvi pəhlivan kimi bir oğlandı, çıxdı. Salam-kalamdan soorasına dedim ki, mən yol adamıyam, acam, susuzam, məə imkan varsa, çörəy ver, su ver. Dedi, nə çörəy, nə su? Nə qoyub, nə axtarırsan? Bıra yolu düşən döölət də qoyıb gedir, baş da qoyıb gedir. Onda qalmışdı çörəy, su ola.

Mən də atın üstündəyəm, bı həmlə elədi məən üstümə. Yapışduğ yaxa-yaxaya. Bı məə, mən mıa. Mən axırda "ya Allah" dedim (İbrahim Əjdər nağıl eleer ha bax mıyı peyğəmbərə), mıın arxasını qoydım yerə, çıxartdım qılıncı başını kəsməyə. Orda da adət bıydı ki, kim kimi yıxseydı, başını kəsməliydi. Başdadı bı ağlamağa. Deer, dedim ki, əşi, bir qətrə qanınnan ötrü nəyşə ağleersan? Özün qoyduğun, dediyün sözdü. Deer, dedi, xeyr, oa görə ağlameeram. Mən neçə ildi bırdayam, nə qədər bırdan sarvan-karvan, tacirrər, tüccarrar gedir, oon hamısını talıyıb, soyub yığıram bı qalaçıya. Özümə söz ver-

[17] Əəmləri – əgərləri

mişdim ki, kim mənə qalib gəlsə, mən oynan qardaş olıb dost olacam, bı döölətimi də oa verəcəm. İndi sən məə qalib gəldün.

Ya peyğəmbər, tutdum oğlanın yaxasınnan, qoydum ayağı üstə. Qucaqlaşduğ, öpüşdüy, məyi apardı qalaçıya. Baxdım gördüm ki, ay bı qalaçada nələr yoxdı, nələr yoxdı? Cahıcəlala baxırsan... Allah verdiyinnən yedüy-içdüy. Başdaduğ mıynan söhbətə ki, nətəər olub sən gəlib düşmüsən bıra, bı meşənin içinə? Bı qalaçada bı var, bı döölət, özünnən də başqa heç kəs yox.

Ya peyğəmbər, başdadı bı məynən söhbətə. Dedi, qardaş, mən filan şəhərin padşahının oğlı idim, cavan bir oğlan idim, əmim qızını məə adaxlamışdılar. Bı adaxlanmağda, toy vaxtına az qalmış, atam getdi rəhmətə, camaat yığışdı məyi atamın yerinə taxta qoymağa. Deer, dedim, hələ məən yaşım düşmeer, çox cavanam. Bir yaşdaşım, özümə toy eliyənnən soora atamın taxtında oturacam. Atamın taxtında əmimi qoyıram. Əmim otıracağ, toy eliyənnən soora özüm oturacam atamın taxtında.

Ya peyğəmbər, həmən oğlan məə dedi ki, altı ay cavannığımı sürdüm. Gəzdim, dolandım, axırda adam göndərdim ki, əmimə deyin, icazə versin, toyu eliyək. Deer, dedi, nə? Min qızım ola, birini verməræm, özü də məən bı şəhərimdən çıxsın, çıxmasa, oyu tutduracam. Gəldilər, oyu məə dedilər. Əlim hara çatacağ, oydı atı mindim, gəldim bax bı meşədə məskən saldım, bax muyu, bı qalaçanı onda tikdim. Bı qalaçanı yerin altında özümə qayırmışam. Nə qədərə gəlib-gedən vardısa, oon hamısının qabağını kəsirəm, soyuram hamısını, yığıram bax bıra. Görüm kim məə qalib gələcəy, kimdən məə kömək olacağ. İndi sən məə qalib gəldün. Mən səynən oldum qardaş. Sən gəl, məə, – bı oğlan deer, – köməy elə. Soora soruşdu ki, səən dərdün nədi? Deer, dedim ki, məən elə dərdim bax bıdı. Sizə nağıl elədiyim kimi buna da danışdım.

Oturduğumuz yerdən qalxduq. Gördüm padşah deyən ləldən bırda nə qədər desön var. Deer, dedi, qardaş, onnan bırda nə qədər desön, var. Yığ neçəsini isteersən, yüklə apar,

ancax bı şərtnən: mən bıranı tapşırmağa bir dənə ehtibarrı adam gəzirdim. Otur bırda, mən o əmim qızının dalıycan gedirəm. Ya gətməliyəm, ya əmimi öldürməliyəm. Dörd gün gözziyərsən məyi, əyər çəm tapdım əmim qızını gətdim, bı dööləti də yığaruğ, bir kərəmə[18] gedərüy səən atoun vilayətinə. Yox, gördün gəlmədim, bil onda məən başım əldə döyül. Halal xoşun olsun. Nə qədərə yığarsan bı var-döölətdən götür apar". Deer, dedim: "Mən də gedim səynən". Dedi: "Yox, sən getmə".

Ya peyğəmbər, – indi İbrahim Əjdər nağıl eleer, – bı oğlan mindi atını, qılıncını götürdü, üz qoydu öz vilayətlərinə. Bı, ora çatanda görür əmisi qızını veriblər, qırx hərəm başında hərənin oucuna bir qızıl qoya-qoya hamama gedir. Sabah da qızın toyudu. Məcburi atası verib bir başqasına. Xəbər aldım ki, bı nə yığıncağdı? Deer, dedilər ki, hali-qəziyə belənçikdi. Getdim mən də oturdum lap küncdə. Gördüm qız başında qırx hərəm bıdı, gəldi hərənin oucuna bir qızıl qoya-qoya. Gəldi, axırda məən oucuma qızılı qoyanda əl atdım mıın biləyinnən tutdum. Dedim, əmiqızı, tanıdun məyi? Dedi, əmioğlu, amandı, məyi bıraxma.

İndi bı oğlan issiyir özün ata çatdırsın ki, qızı götürüb çıxsın aradan, oğlanı tutullar. Bı qızı götürüb qaçanda deeb ki, əmiqızı, İbrahim Əjdər addı məən bir dostum var, bir qardaşım var. Əgər o gəlsə, məyi bırdan qutarar. Qız çiynində qaça-qaça mıyı qıza deeb ki, oa qoşul, çıx getginən. Hə-hü eleeb bı ata çatınca qızı tutublar.

Bəli, qızı gənə gətiriblər öz otağına, oğlanı otağdan bir az aralıda salıblar zindana. O zindana salıblar ki, ağzındakı daşı qırx qəvi pəhlivan götürürmüş. Gündə də para çörəy atıllarmış.

Bəli, üç gün mən, ya peyğəmbər, gözzədim. Bı qardaşdığım gəlmədi. Durdum ayağa ki, bı vardan-döölətdən yükli-

---

[18] Bir kərəmə – bir dəfəlik, həmişəlik

yəm, üz qoyam öz vilayətimizə. Deer, dedim, yox, o ki məə ehtibar elədi, qəti mən getmərəm.

Ya peyğəmbər, qalaçanın ağzını basdırdım, durdum atımı mindim. Mıın iziynən get gedə bildiycən. Nəysə, hava qaralmışdı, atın rəddiynən getdim, həmən şəhərə çatdım. Cibimə də o döölətdən, vardan bir az yığmışdım. Gördüm üş-dörd dənə uşağdı, oyneellar. Çağırdım bıları. Deer, dedim, bı şəhərdə nə var, nə yox? Deer, dedilər ki, heç bir şey yoxdı. Allah öyünü yıxsın mərdimazarın. Bu gün mağıl[19] yeyəcəydüy, acduğ. Biri çıxdı böördən, padşahın da qızı belə pıl paylıya-paylıya gedirdi, mıyı götürüb qaçdığı yerdə tutdular, saldılar zindana. Qızı da apardılar qoydılar otağa. Toy yatdı.

Bının birini çağırdım. Deer, dedim ki, gələ bı qızılı tök cibüvə, gedəy o qızın oldığı otağı, mənzili məə göstər. Bı tullana-tullana düşdü məən qanşarıma, dedi: “Dalımcan gəl”. O qədər getdüy mıynan, axırda dedi ki, bax, bı qalaça oondı, bı imarət oondı, o qızındı.

Hə, ya peyğəmbər. Deer, dedim, bı keçəl gedər şəhərə hay verər ki, belənçik-belənçik nabələd adam gəlmişdi. Keçəlin başını belə atdım, leşini belə. Atdım, gəldim gördüm bağlıdı bıra. Qaroolçunu da öldürdüm, girdim darvazadan içəri. Girdim içəri, başdadım pilləkannan qalxmağa. O dəmdə yetişdim ki, gördüm qız saçdarını töküb yanına, üzünü çörüb qıblıya: “Ey bir olan Allah, yerdə də olsa, göydə də olsa, harda olsa, İbrahim Əjdəri məə yetirginən”. Bı dəmdə, deer, qapını tıkqıllatdım. – “Kimdi qapını tıkqılladan?” Deer, dedim, çağırduğun İbrahim Əjdərəm. Qız, deer, tez qapını aşdı: – “Gəl qardaş, başua dönüm”. Deer, dedim, sən məyi hardan tanıdun, nətəər? Qız başdadı əmisi oğlunun mıa dediyin məə söylədi, belə-belə: “Əmim oğlu məyi götürüb qaçanda dedi ki, qardaşım var, İbrahim Əjdər. Elə bilirəm ki, o gələr. Mən demişdim gəlmə, bəlkə güman var ki, gələ. Gəlsə, məyi də,

---

[19] Mağıl – heç olmasa

səyi də bırdan qutarar. Oydı Allaha daxıl düşmüşdüm[20]. Deer, dedim, hardadı məən o qardaşım? Deer, dedi, məən imarətimdən görsənir. Özü də düşdü məynən. Deer, dedi, o bir zindandadı ki, qırx pəhlivan o daşı qoyur, götürür. Deer, dedim, sən məə göstər, işün yoxdu.

Getdim, gördüm, deer, quyunun üstündə qaroulçu var. Ya peyğəmbər, qaroulçunu vırdım öldürdüm. Ya Allah, var qüvvəmnən həmən daşı sürüdüm atdım o yana, qapını aşdım: – "Qardaş, bırdasan?" Dedi, İbrahim Əjdər, sənsən? Dedim, bəli, mənəm. Deer, dedi, qardaş, sən nəşə gəldün?

Kəmənd salladım, ip salladım, deer, dedim, ipi bağla belüə, çəkəcəm. İpi bağladı belinə, qardaşımı çəkdim ordan, gətirdim qızın imarətinə. Bəli, orda yedüy-işdüy möhkəm, qılıncımızı, qalxanımızı, oxumuzu götürdüy. Qardaşımın atı da ordeydi. Bı qıznan gedə mindi ata, mən də öz atımı. Pilləkənnən düşəndə, deer, dedim, siz dalda durun. Nə qədər ki, o küçələrdə işığ var idi, hamısını bircə-bircə söndürdüm. Söndürdüm, deer, dedim, hə, siz gedün, mən də sizin daluzcan. Bılar getməydə olsun, mən də dalnan, qoşun-zad gəlsə, qabağına durmağa.

Nəysə, gəldüy çatduğ həmən qalaçıya. Gəldük çatduğ qalaçıya, orda düşdük. Qız, deer, dedi, İbrahim Əjdər, mənim atam qoşun göndərəcəy, ehtiyatdı ol. Deer, dedim, siz yorğunsuz, siz yatun, mən durub qaroul çəkəcəm.

Bəli, bılar başını yerə qoymaqda olsun, ya peyğəmbər, mən yatmamışdım. Bir onda gördüm ki, atın rəddiynən qoşun elə gəlir, elə bilginən ki, nədi. Deməynən bı qızın özünün bir qılıncı varmış, zəhərnən sulanıbmış, kimə dəyseymiş, oynan da qutardı. Həmi də dəyəndə bı cingildeerdi. Tez oyatdım bıları. Deer, dedim, qoşun gəlir, qoşun gəlir. Qız da qalxdı. Deer, dedim, yox, otu burda. Dedi, xeyir. Deməynən bı qızın özü də qüvvəli bir qızmış. Hərəmiz bir tərəfdən düşdük qoşunun qabağına, gələni qırduğ, gələni biçdüy. O qədər "ya Allah"

---

[20] Daxıl düşmək – yalvarmaq

deeb qılınc çaluruğ. Qız özünü, nətəərsə, vırır qarannığa. Qılıncı vıranda görür ki, cingildədi. Deer, sən öləsən, bı dosta dəyən qılıncdı, dosta dəyəndə cingildeermiş. Bı, ya əmim oğluna dəydi, ya da İbrahim Əjdərə. Qılınc cingildədi.

Bı qoşunnan qırdığımızı qırdıx, qalanı qaşdı, davam gətirə bilmədi. Onda gördüm ki, qız çağırır. Qız çağıranda mən hay verdim. Dedi, İbrahim Əjdər, sağsan? Dedim, bəli. Deer, dedi, İbrahim Əjdər, əmim oğlunu öldürdüm. Dedim, elə şey ola bilməz. Dedi, filan səmtdə qılıncımı çalanda qılınc cingildədi. Dedim ya sənsən, ya əmim oğlu.

Gördüy, ya peyğəmbər, qılınc nətəər dəyibsə, elə oğlanın orda da canı çıxıb. Mıyı götürüb gəldüy bı qalaçıya. Qoşun qayıtdı. Bəli, bı qıznan mını yuduğ, dəfn elədüy, bükdüy irahladuğ. Qız dedi, İbrahim Əjdər, axirət dünya sən məən qardaşım, mən səən bacun. Mən ata vilayətinə getmiyəcəm. Sən hara getsön, mən də ora gedəcəm.

Bı oğlanı gətdüy, qazduğ, basdıranda gördüm ki, bir ağac var. Yarıyacan yanıb kömür kimidi, yarısı quru ağacdı. Deer, dedim ki, bı kömürrü ağacın altında basdıracam, mıa baş ağacı qoyacam. Bir də işdi qayıdıb gələndə oynan mıın qəbrini tapam.

Ya peyğəmbər, kömür çürüməz, o kömürrü tərəfi qoydum aşağa, bir az qaldı yuxarıda. Bı ağacı bıra başağacı qoydum. Bı ləldən, cəvahirdən yüklədüy, indi vilayətə gedürüy. Deer, dedi, İbrahim Əjdər, axır ayrılığdı. Sən yavaş-yavaş bı atı da al tərkə, get. Gedüm əmim oğluna ağleem, onnan ayrılım, tay axır ayrılığdı.

Mən yavaş-yavaş atı dalımca çəkdim. Gözzədim, qız gəlmədi. Gözzədim, gəlmədi. Getdim gördüm həmən qılıncın tiyəsini, dəstəyini qoyub qəbrə, ağzı üssə yıxılıb qəbrin üstünə. Ordan batıb gedib çıxıb bırdan. Elə ordaca da canı çıxıb. Ya peyğəmbər, sənə qurban olum, tay nağayrım. Həmən qəbri aşdım, həmən qızı da qoydum oon böörünə, üstünü torpağladım. O ləl-cəvahiri götürdüm, üz qoydum atamın vilayətinə. Gəldim çıxdım. Həmən atam onnan neçəsini apardı padşaha.

Padşah dedi ki, yüz dənə elənçiyin gətirəsən, genə mən qız vermərəm. Oyu mən səə bəhanə üçün demişəm. Sən kimsən ki, mən səə qız verəm. Oyu vermədi. Vermiyəndə qız da məyi isteerdi. Deer, dedim, bı and məynən olsun, dünyada nə qədər ömrüm var, mən evlənmiyəcəm. Həmən qızı da neçə yerdən padşahlar istədi, deeb: "Ata, bı and məynən olsun, nə qədər ömrüm var, mən ərə getmiyəcəm". Nə o padşah o qızı məə vermədi, nə o qız getmədi, nə də mən evlənmədim. Ya peyğəmbər, mənim cavannığım bıdı. Həmən o padşah sağdı. O qız da bax mən yaşdadı da, qocadı. O, orda qaldı, mən də belənçik. Qocalmışam, ayləm yox, bir şeyim yox.

Peyğəmbər deer:

– İbrahim Əjdər, həmən qəbri tanıyarsan?

Dedi:

– Ya peyğəmbər, kömür basdırmışam, oynan tanıyaram.

Gör neçə il keçib aradan. Çağırdı əmisi oğlunu, Əlini:

– Ya Əli, bıra gəl.

Dedi:

– Ya Əli, götür İbrahim Əjdəri də, Qəmbəri də. İbrahim Əjdərnən gedərsüz ora.

Mıyı də götürdü, gəldi. Gördülər, deer, kösöy elə bir ağac olub, hər tərəfə əlli metrə qol-qanad açıb, amma dibdən kömürdü. İbrahim Əjdər deer:

– Ya Əli, bax bı həmən mən basdırdığım ağacdı. Yanan ağac göyərsin, o da Allahın hökmünnəndi. Ancax bax, mən qoyduğum ağac bıdı, qəbir bıdı.

Orda deeb:

– Hə, indi aç qəbri, açun o qəbri.

Qəmbərnən İbrahim Əjdər qəbri açdılar. Gördülər ki, neçə il keçib aradan, elə bil bı meyitdəri indicə qoyubsan bıra. Əmirəlmömin bı meyitdəri götüzdürdü Qəmbərə. Peyğəmbərin əbasını sərdi yerə, iki rükət hacət namazını qıldı (səfərə gedəndə Əmirəlmömin oyu qılırdı). Əl götürdü:

– Xudavəndi-aləm, and verirəm peyğəmbərin hörmətinə, məyi bıra peyğəmbər göndərib.

Elə bı dəmdə, deer, qıznan oğlan askırağ vırdı, qalxdı ayağa. Yıxıldılar:

– Ağa, ya Əli, səə qurban olum.

Deer, dedi ki, nə bildüz mən Əliyəm? Deer, dedi ki, ya Əli, əmim qızı gəldi məən yanıma, boynunda mıın mıncığı var idi. Mıncığı qırıldı. Elə axırıncı mıncığıydı əlimizdə, dedilər səyi Əli çağırır. Belə baxduğ, sizi gördük. Oynan Əmirəlmömin bı qızın kəbinini həmin oğlana kəsdi. Əmisi qızının əlini qoydu mıın oocuna, götürdü mıyı apardı öz vilayətinə. Həmən atasının yerinə oğlanı padşah qoydı. Onu da camaata tanıtdı ki, filan padşahın oğlıdı.

İstədi qayıda, İbrahim Əjdər bir ah cəkdi. Ah cəkəndə Əmirəlmömin dedi:

– İbrahim Əjdər, nə dərdli ah cəkdün?

Dedi:

– Ya Əli, olar öz arzularına çatdılar, amma mən yox.

Ordan da Əmirəlmömin gəldi həmən qızı, həmən bı İbrahim Əjdəri Allahın hökmünnən, peyğəmbərin adıynan bılara nə zad elədisə, bılar da cavan oldular. Həmən qızı da verdi İbrahim Əjdərə. Olar əhdi-peymannarına çatdılar.

# MUSA PEYĞƏMBƏR VƏ QARA QUL

Musa peyğəmbərin oğul-uşağı yoxuydu. Amma onun minik xalçası vardı. Xalçanı minirdi, səyahət eliyirdi. Ömrünün yaşlı vaxtlarında Allah-taala buna bir qız bəxş elədi. Mamaçalar gəldi, peyğəmbərdən ənam istədi ki, bir qızın oluf. Oğul da, qız da züryətdi. Verən Allahdı, amma oğul qızdan bir az şərafətdi olur da. Peyğəmbər xalçanı mindi, çıxdı göy aləminə. Dənizin ortasıynan gedirdi. Gördü dənizin ortasında bir balaca tala var, talada minarə görükür. Dedi: "Mən buranı görməmişəm indiyə qədər, nətər bura gözümə dəymiyif?" Xalçanın puçun burdu, yönəltdi həmən imarətin yanına. Düşdü getdi imarətə ki, bir cavan qız başı aşağı yazır. Salam verdi. Qız başın işdən ayırmadan əleykət salam aldı. Buyurdu ki, ya peyğəmbər, xoş gəldin. Dedi ki, qızım, sənə maşat eliyirəm?

Dedi:

– Yox, ay peyğəmbər, söylə. Niyə maşat eliyirsən.

Dedi ki, bir söz soruşum. Sən kimsən?

Dedi:

– Mən yazıları yazanam, qismətləri yazanam.

Dedi:

– Saa qurban olum, elə onda yaxşı oldu, mənim bir aş bişirimi – bunnan qabax vaxt aş bişirimiynən gedirdi – bir qızım olufdu. Örgənmağ istiyirəm ki, o qızın talehi nejə olajehdi, kimə yazırsan? Elə olsun, özümə uyğun, sözümə uyğun adam olsun.

Nəysə, dedi ki, qızının qismətini yazdım evində bir qulluxçu var qırx beş yaşında – Qara qul, ona. Dedi:

– Ay qız, dəli eləmə məni. Bu uşax təzə olufdu, sirdən-sifətdən göyçək adama yazsan, ayrı şeydi. Bu Qara qula mən razı deyiləm.

Dedi:

– Ya peyğəmbər, razı olsan da, olmasan da, yazıya pozu, təqdirə tədbir yoxdu.

Dedi:

– Yox, mən Allahıma gedif deyəjəm ki, mənim qızım ona qismət olmasın.

Gəldi evə. Hirssəndi. Arvad bildi ki, kişinin qəlbində nəysə toxunmalı söz var. Bir az ara verdi, soruşdu ki, ay kişi, nolar qız olanda. Niyə nuruzunu[21] sallamısan? Dedi:

– Qız olmağına qızdı ey. Mən çıxmışdım səyahətə, yazı yazannarı gördüm. Qızın yazısını evdə bizə qulluğ eliyən Qara qula yazıfdı. Qız indi anadan olur, bunun da qırx beş yaşı var.

Dedi:

– Ay kişi, həfsələ elə, Allahdan kömək dilə. Onda belə elə. O Turi-səna dağına gedif çıxannar bəlaya düçar olur, gün yandırır. Bir namə yaz, möhürü də vur, ver qula. Getsin, orda gün onu yandırsın. Nə sən pis ol, nə də mən. İlahi qüdrətinnən məhv oluf gedəjəh, qız da irilənəndə bir başqasına gedər.

Dedi:

– Sən düz deyirsən.

Aləmi-röyada hər təbəqənin bir hökmdarı var. Peyğəmbər gətirdi Günnər padşahına bir namə yazdı. Nə yazdı özü bilir, bu məxvi qaldı. Naməni verdi Qara qula və tapşırdı ki, mənnən çörək kəsmisən bir yerdə. Oğlum, naməni götür. Harda bərkə düşsən, mənim möhrümü qabağa göstər. Çünki bu möhürü görən sənə xələl yetirməz. Amma mütlax naməni yiyəsinə çatdır. Söylədi, yaxşı.

Həmin şəxs yol aldı getdi. Bir meşənin cəzirəsində qarannıx yerdə gedəndə gördü ki, bir maral yıxılıfdı, inildiyir. Döşdəri də süd doludu. Yaxınnaşdı buna, gördü ki, qaçmır.

Dedi:

– Ay Allahın heyvanı, dil ol danış, görax sənin dərdin nədi?

---

[21] Nuruzunu – sifətini

Dedi ki, mən cavan ovçuları allatdım, çox bərk qaçırdım. İndi ayağıma bir qələmə girif irinniyif, ayağ üstə dura bilmirəm. Sən haraya gedirsən?

Dedi:

– Mən gedirəm Günnər padşahının yanına, ağamnan namə var.

Dedi:

– Sən Allah, gedirsən, mənim də dərdimi de görax Allahıma, mən neynəmişəm? Öz canımı qaçırmışam da. Bu qələməni ayağıma batırıf məni niyə şikəst eliyifdi?

Bu koramıxı çəkdi, yerinə əlinnən gələnnən sarıdı, bağladı. Dedi:

– Deyərəm, Allah-taala nə buyursa, onu eliyarıx.

Getdi bir dəryanın kənarına çatanda gördü ki, yox, bu dərya çox böyükdü, burdan keşmək mümkün döyül. Sağa-sola fikirrəşdi, çıxartdı dəstərxanın. Dəstərxanı aşdı çörək yedi, birdən dərya təlatümə gəldi. Su qalxdı qabarma nəticəsində, bir dənə nərə balığı ayannan hüjum çəkdi bunun üstünə. Ləpə bunu alanda naməni çıxartdı göstərdi. Dedi:

– Ey Allahın heyvanı, mən Musa peyğəmbərin elçisiyəm.

Balığ geri qayıtdı, çırpındı və dedi:

– Səni and verirəm, Allahın allahlığına və peyğəmbərin vəxtinə. Kimsən, haraya gedirsən, mənnən daldalanma.

Dedi ki, mən bu naməni aparıram Günnər padşahına. Deyir:

– Gedirsən, o Allahına de ki, ayda bir, həftədə bir başımdan bir ağrı tutur, bu dəryanı alıram başıma, qatıram, qatışdırıram, neçə balıx leşgər varsa, hamısın təlatümə gətirirəm. Amma birdən də yaxşı olur, səbbim alınır, gəlif sərbəst öz yerimi tuturam.

Deyir:

– Məni quyruğunun üstünə al, bu dəryadan o taya addat, gələndə mən bu sözü sənə deyəjəm.

Balıx lələyinin üstündə buna yer verdi. Çıxdı üstündə uzandı. Dedi:

– Bərk tut mənnən.

Süzdü dəryanı eninə, keçirtdi o taya. Bir az getmişdi, gördü ki, bir dəyirman var, bunun püştəsinin üstündə bir çinar var, onun kölgəsində üş dənə qoja oturuf söhbət eliyillər. Salam verdi.

– Əleykət-salam.

Soruşdular:

– Oğlum, hardansan? Qərib adama oxşuyursan.

Dedi ki, baba, mən filan şəhərdənəm. Şamnan gəlif məkana gedirəm. Günnər padşahına namə aparıram. Dedi:

– Oğlum, ora ölüm yeridi. Oraya gedif çıxmax çətindi. Sənə yol göstərərıx, onu eliyərsən, amma bizim də bir dərdimiz var. Allahdan xayiş elə ki, bizim də dərdimizə əlac eləsin.

Dedi:

– Nə dərdidi?

Dedi:

– Üç qardaşıx. Atamızdan qalma bu torpağı üç yerə bölmüşux. Bu su da gəlir dəyirmanın püştəsinnən gedir, həmi dəyirmanımız işdiyir, həmi də sahəni suvarırıx. Meyvəcat, əkin-biçin yetişən məqamı çatanda quruyuf hamısı məhv olur. İndi yeri dəyişirik, o mənim yerimi əkir, mən onun yerini, yenə əmələ gəlmir. Allahımıza de, bu qismət niyə bizdən uzax gəzir? Gələndə burdan gəl. Qaldı sənin oraya getmağın, gəl sana bir söhbət eliyax. Gün gəlir günorta namazında bir dəyqə, iki dəyqə göydələndə durur. Günün duran vəxti deyillər. Onda sən yeri qaz. O ağacın putaxlarınnan qır onun üstünü döşə, içəri kölgə olsun. Sən gir o ağacın altında qəbrə. Naməni çıxart göstər, orda səs-səda gələjəh sənnən sorğu-sual eliyə. Nə desələr, ona əməl elə, yoxsa günün altında dursan, səni yandırıf külə döndərəjəh.

Oğlan işıqlaşanda çatdı həmən məkana. Tez bir yer qazdı, özünə bir yer düzəltdi ağac qırıntılarınnan. Nəfəsin

alanda Gün çıxdı. Gün gəldi günorta məqamına çatanda səda gəldi:

– Ey qul, xoş gəlif səfa gətirmisən. Nə ərzin var?

Bu altdan naməni çıxartdı bir balaca yerdən tulladı çölə ki, Şahı Musadan sizə namə gətirmişəm. Naməni tulladı çölə. Səda gəldi ki, çıxma çölə, səni şüam yandırar. Musaya deyərsən, yaradan nə lazımdı ona verifdi, qismətin, ruzusun verifdi. Ayrı sözün?

Deyir:

– Vallah, gələndə bir maral yaralıydı, ayağına tikan batmışdı. Çıxartdım. Sim eliyif qıçını, yerimağa imkanı yoxdu.

Gün deyir ki, cavan qəlbini o qədər qırıf, cavannarı alladıf, onların qarğışı tutuf. Cavan qarğışı pis olar. Get denən bir də heylə iş görməsin. Quyudan çıxanda bu ağacın yarpaxlarınnan yığ bir dəstə bağlaginən. Apar onu məhləm elə, sıx suyunu çıxart, onun yaralarına, qıçına vur. O həmən günü olajax sapbasağ. Ayrı dərdin?

Deyir:

– Bir də gələndə Ağ dənizdə belə bir balıx çıxdı qarşıma.

Deyir:

– Onun burnunda bir ləl var. Qırx dənə padşahın varidatı onu ödəmir. O ləl yerindən tərpənəndə nejə öd kisəsində daş tərpənə, o təlatümə gəlir, dəryanı qatır bir-birinə. Bu tayda yox, sən onu allat o taya keç. Özü səni düşürtmağ üçün bir az çıxajeh qırağa. Desə ki, dərdim nədi? Yumruğunnan burnuna möhkəm vur. Pısqırajeh, ləl sıçrıyajeh qırağa. Onda ləli götür, qırağa qaç. İstiyəjəh ki, səni sorsun, onda naməni çıxart, ona göstər. Onda qayıdajeh. O ləl sənə ömürrük bəsdi. Onun başının ağrısı odu. Onnan da ağrıdan qutarajeh.

Dedi:

– Bəs o üç qardaşa nə deyim?

Dedi:

– O qardaşdarın yanında beş dənə xum[22] var. Onlar bir-birinə bağlıdı. O dəyirmanın püştəsindəki su gəlir o qızılın içinnən axır. O su şəfayətin itirir. Onun çölləri sulamağa, şirə vermağa ixtiyarı yoxdu. Ona görə qazıf o püşdədəki qızılı çıxartsınnar, su sərbəst axsın sahəyə. Quru torpax suyu sorajeh, məhsul verəjəh. Bunların da varı budu.

Onnan sonra dedi:

– Qisməti Allah versin. Sənin də qisməti vermişıx. Yerinnən çıxmazsan, ancax gün qürub eliyəndə yerinnən çıxarsan.

Eləjə də oğlan günbatanı gözlədi. Gün batanda durdu dağdan dığırrandı, gəldi yendi dəyirmana ki, həmin kişilər həmən yerdə bunu gözdüyüllər. Gəldi bunlarnan öpüşdü, görüşdü. Əl-üzün yudu, bunlarnan çörək kəsdi, yedi. Dedi:

– Oğlum, indi dərdini de da, səhər açılır. Allaha bizim dərdimizi dedinmi? Nə dedi, bizə bildir.

Dedi:

– Baba, bu su gəlif ki püştədən axır, bu hörgünün altında beş dənə xum var. Bu su o qızıla dəyir, sürtünür gedir dəyirmana, ordan da çıxır sahəyə. Siz adam tutun, yeri qazın, qızılları götürün. Suyun qızılnan əlaqəsi kəsilsin, onnan sonra sərbəst işizi görün.

Dedi:

– Qal biznən, qazax çıxardax, yarı bölax da.

Dedi:

– Yox, maa Allah nə verifsə, odu. Mən nə şələ götürən döyüləm, nə də qızıl aparan.

Bir əl xəşdığı buna verdilər, oğlan yola düşdü. Gəldi həmin dəryanın qırağına. Çağırdı, balıx gəldi bunun qabağına. Dedi ki, ey balıx, məni o taya addat, onda sana deyəjəm. Dedi:

– Burda de da nolur, ürəyim darıxır.

Dedi:

– Yox. Maa tapşırıflar ki, o tayda deyim.

---

[22] Xum – çəllək

Balıx lələyin çevirdi, oğlan çıxdı lələyin üstə. Balıx süzdü gəldi bu taya. Bu tayda yerə düşdü. Çırpdı, üst-başın düzəldəndə dedi:

– Yaxın gəl.

Balıx bir xeylax çıxdı torpağa. Dedi ki, sənin başının ağrısı... Yumruğun cəmlədi vurdu balığın burnuna, bax bu burnundakındadı. Burnuna vuran kimi balıx pısqırdı, ləl sıçradı getdi. Balıx qıvrıldı, suya təlatüm elədi, su köpükləndi. Buna hücum çəkəndə naməni tez çıxartdı buna qənşər tutdu. Balıx xof elədi, qayıtdı. Dedi:

– Ey insan, o ləli qaytar mana ver, nə istiyirsənsə, gətirim sana verim. Dənizin altınnan mərcannar gətirim verim.

Dedi:

– Yox, mənə çatan çatıf. Mənə elə o ləl bəsdi. Səni ağrıdan, dəryanı təlatümə salan, ömrünü gödək eliyən bu ləldi.

Balıx sakitləşdi, getdi. Bu ləli qoydu qoltuğuna gəldi, çıxdı maralın yanına. Maralın yanında baxdı ki, şişif qıçdar əndazadan çıxıf. Bir qab tapdı, yarpaxları əzdi, suyun tökdü qabın içinə. Suyunnan yaralara tökdü. Qalan yarpaxları əzdi məlhəm qayırdı. Köynəyinin bir qolun çıxartdı, kəsdi, bunu sarıdı. Bir az istirahət elədi. Özü də yatdı, maral da yatdı. Günün də saralan vaxtıydı. Maral oyandı ki, qıçası sapbasağdı. Dedi ki, ay maral, sən cahılları allatmısan. Cahıl qəlbini qırmax çox günahdı. Onların da duasıynan sən belə zarıncı olmusan. Bir də belə eləmə.

Dedi:

– Ay bəni-insan, sən ki mana bu hörməti elədin, mən insannardan kənar qaçırdım, indi qaçmıyajam. Amma indi gəl min mənim belimə, səni aparajam o gölə ki, Yusif peğəmbərnən Züleyxa o göldə çimif.

Axı Züleyxanın qırx səkgiz, əlli yaşı varıydı, Yusifin də iyirmi-iyirmi iki yaşı. O vaxtı onlar o çayda çimif on beş yaşında qız-oğlan oluflar. Apardı o gölə atdı. Oğlan bir az çimdi, yuyundu-elədi. Baxdı ki, belə şafaqda bir gözəl oğlan

buna baxır, adamın xoşu gəlir. Da bayaxkı qara quldan bir əsər-əlamət yoxdu. Oluf on beş yaşında cavan bir oğlan.

Ordan hərrəndi gəldi həmin şəhərə ki, Musa peyğəmbər şəhərdə hərəkətdə, qız da irilif, uje həddi-buluğa çatıf. Nəysə, tacirlərnən müqavilə bağladı ki, hissə-hissə ləlin xırdasın gətirsinnər. Ləli tacirlər götürdü Şam, Bəsrə, Macarıstan, Tatarıstan – hər yanı gəzdirif xırdalıyıllar. Hissə-hissə xırdalıyıllar. Tükan malı gətirillər: qırmızı xara, məndulə, küçə mənə dar gəlir, qonşu çatdadan, bağır yaran parçalar gətirillər. Bu da tükanda topaynan satır. Səs yayılır hər tərəfə ki, bir cavan tacir yaranıfdı Şam şəhərində, əvəzi olmayan tükan malı satılır.

Bir gün Musa peyğəmbərin qızı padruqalarıynan gəlif burdan keçəndə qırmızı xaradan paltarlığı görəndə yaxınnaşdılar. Oğlanı görəndə xara yaddan çıxdı, xaranı görəndə oğlan. Aşığ oldu oğlana. Nə alajam, nə almıyajam. Bunu göstərdi, onu göstərdi, gözü oğlandaydı. Axırı qıznan çıxdılar gəldilər. Dedi:

– Ay qız, get anana de, hansı parçanı istiyirsə, gəl de onnan verim.

Qız evə gələndə parça yadınnan çıxdı. Dedi:

– Bir oğlan yaranıf burda, onsuz bir gün nəfəs ala bilmərəm.

Axırı arvad durdu, bunnan gəldi tükana baxdı ki, doğurdan da, bu, bura adamı deyil, amma gözəl, paki-müntəzər, Yusifin şiklindədi. Burdan gəldi kişini yavaş-yavaş yavaşıtdı. Dedi:

– Kişi, bilirsən nə var?

Dedi:

– Nədi arvad, genə yaxınnaşırsan mana?

Dedi ki, şəhərdə bir tacir əmələ gəlif. O Qara quldu, kimdi, o gəlməmiş dur qızı apar orda parça almağa, özün də bax, qızı ver o tacirə. Dedi:

– Arvad, kartof xijikidi[23] aparıf pay verəm?

Dedi:

– Bax gör də, bir evə təhlif elə.

Nəysə, getdi.

– Salam.

– Əlöykət-salam.

Görüşdülər.

– Oğlum, xoş gəlmisən bizim şəhərə.

Bunun Qara qul olduğun bilmir. Sifət, iqlim tamam dəyişilif. Amma oğlan peyğəmbəri tanıyır. Dedi:

– Baba, burda otur.

Çay gətirtdi. Tükanda çay işdilər. Qızın da çağırdı. Dedi:

– Get ananı da gətir, hansı parçadan deyirsən, sana paltarrıx alım.

Yaşıl xaradan, qırmızı xaradan hərəsinnən bir donnux aldı, arvadnan qıza verdi ki, siz aparın evə, bir qonax tədarükü də görün tacirnən evə gedəjeyih. Tacir dedi ki, əbo, sən get, evin yerin mana de, mən axşam inşallah gələrəm. Sən burda oturuf niyə əziyyət çəkirsən.

Dedi:

– Bu gözəl sözdü, oğul. Evimiz filan yerdə, filan döngədədi.

Eləysə, bu gəldi qonaxlıx tədarükünü görəndə tacir bir sini də daş-qaş, ləli-gövhər yığdı, həmən naməni də qoydu örtüyün altına. Qoydu bir qulun başına, özü də yanında, tacir libasında getdi peyğəmbərin evinə. Salam, əleykət-salam. Xoş-beşdən sonra oturdular. Bunnan iki qul-qarabaş gəlmişdi, gətirdikləri ləvazimatı döşəməyə qoydular. Peyğəmbər baxdı ki, qiymətsiz hədiyyələri var və öz möhürüynən imzalanmış məktub burdadı. Belə baxdı, ayna baxdı, arvada baxdı. Arvad dedi:

– Gözüü niyə döyürsən?

Dedi:

---

[23] Xijik – balaca kartof

– Arvad, o məktubu götür görüm, o mənim möhürümdü deyəsən.

Dedi:

– Kül başına, gör harda qarıxmısan. Möhürünü tanımırsan?

Dedi:

– Aç oxu görüm.

Qızı çağırdılar ki, bunu aç oxu görax. Qız açdı ki, yazılıb yazıya pozu, təqdirə tədbir yoxdu. Dedi:

– Oğlum, sən kimsən? Bu naməni mən bizim evdə yaşayan Qara qula vermişdim.

Dedi:

– Ya peyğəmbər, həmən Qara qul mənəm. Verdin, getdim ölümə. Qismət dəyişdirdi, gəldim varrandım, tacir oldum. İndi gəlmişəm, sənin qarşında acizəm. Ya oğulluğa götür, ya qızını ver mana, qohum olax.

Dedi:

– Oğul, ilahinin dedığıdı. Yazıya pozu, təqdirə tədbir yoxdu.

Onnan sonra qızını verdi həmən tacirə. Allah hamının subaylarına toy qismət eləsin, sizin də istəyinizi yerinə yetirsin. Cəmi eşidənlər, oxuyanlar, ərsəyə gətirənlərdən də Allah razı olsun, onların da marağın artıq eləsin siznən bir yerdə.

# QARAÇUXASINI YATIRAN ŞƏXS

Bir padşah olur, yaxşı padşah olur. Qonağı çox olur. Vəzirə deyir:

– Vəzir.

Deyir:

– Hə.

Deyir:

– Vəzir, gəzirsən da bu şəhəri. Maa elə bir adam tap savatdı olsun, söypət-zad bilən olsun, mənim qonağımı yola salsın. Daa mən bezmişəm danışmaxdan. Heylə bir adam tap gətir maa. Yeməh-işməyini də, xaşdamağını da burdan aparar.

Vəzir də yerin bilirdi. Bir savatdı hajı vardı. Haja gedif gəlmişdi. Getdi bunun yanına. Dedi:

– Hal-qəziyə belə-belə, padşaha belə bir adam lazımdı. Mən elə səni məsləhət bilirəm da. Savatdısan, Haja gedif gəlmisən. Ehtiyacın olan nədisə padşahdan gətirərsən.

Dedi:

– Qardaş, mənim ehtiyacım yoxdu. Bir arvadımdı, bir özüm. Nökərim var, qoyunum var, yaxşı malım var. Heş nəyə ehtiyacım yoxdu.

Dedi:

– Yoxdu, yoxdu da. Gəl orda padşahnan axşamatan otur, danış, ye-iç, axşam da çıx get.

Bunu götdü getdi padşahın yanına. Padşah buna dedi:

– Hər gün gəl mənim yanıma. Amma elə gələssən ki, sabah çörəyimi də sənnən yeyəjəm, axşam gedəndə də çörəyimi sənnən yeyəjəm, gedəssən. Daa mən sənnən bir yerdə olajam.

Bu da dedi ki, yaxşı. Padşah da dedi ki, nəyə ehtiyacın olsa – pul, mal, nə isdəsən apararsan. Dedi:

– Heş-zad maa lazım döylü.

Bu, gündə tezdənnən gəlirdi, padşahnan bir yerdə çörəh yeyirdi, gələn qonaxnan danışırdı, söypət eliyirdi, axşam da çörəh yeyif gedirdi. Bir dəfə də padşahın qonağı gəldi. Bir az

tez oldu, gejəyə qalmadı. Çörəh-zad yedilər-elədilər. Padşaha dedi ki, padşah sağ olsun, da innən belə çörəh yemiyəjeyih ha. Axşam çörəyini yedih da qonağnan. Mən bir az tez gedim. Dedi:

– Nolar, get, amma sabah tez gəl.

Bu durdu gəldi. Darvazasın döyəndə arvad gəldi. Uşağı yox idi. Elə bir arvad idi.

– Kimsən?

Dedi:

– Aaz, mənəm, qapını aç.

Dedi:

– Sən həmişə bu vaxdı gəlmirdin axı, indi nətər oldu bu vaxdı gəlmisən?

Dedi:

– Qonax-zad oldu da, çörəh yedih, daa bir də çörəh yemiyəjeydih, onçün gəlmişəm.

Dedi:

– Onda qaş get maa bir dənə qoyun başı al gətir qəssabdan, onnan soora qapını açım, gəl.

Bu da dedi:

– Bizim sürümüz var. Mən gedif qəssabın qapısında durum ki, maa qoyun başı ver? Qoy axşam qoyun gəlsin, birin kəsəh, ətin də ye, başın da ye.

Dedi:

– Yox ey, gərəh qəssab kəsən ola.

Allahın işinə bax. Bu da dedi ki, da vaxt keçifdi, sabah tezdən gedif alıf gətirəjəm. Dedi:

– And iç.

Dedi:

– Baş üsdə.

Qapını aşdı, gəldi. Yedilər, danışdılar, yatdılar. Bu sabah tezdən durdu. Saat səkgizdə gedif orda padşahnan çörəh yeyəjəhdi, ora getməlidi. Bu tezdən durdu getdi ki, gedim alım gətirim, verim, gedim. Getdi ki, bağlıdı qapı. Bir az gözdədi, qəssab gəldi. Dedi:

– Qardaş, mənə bir qoyun başı ver.

Dedi:

– Vallah, dünənnən qalmıyıf, bir azca gözdə, qoyun gəlsin, kəsim verim.

İndi bu arrandı da, varrı adamdı, gəlif burda qəssabın yanında durmağına. Şəhərin qırağı belə meşə idi, bizim meşə kimi. Dedi, gedif bir az orda hərrənim, onnan soora qayıdıf gəlim da. Onatan hazır olar.

Bu getdi. Haja gedif gəlmişdi, yaxşı da bilihli idi. Getdi, habelə meşəyə çıxanda gördü ki, bir dəsdə adamdı, qumun içində təpih döyür saldat təpih döyən kimi. Bulanıflar toza. Bir dəsdəsi də yatıf qumun içində. Bir dəsdə də qəşəh belə geyimli-kejimli, papaxlı oturuflar göy çiməndə, söypət eliyillər. Öz-özünə məhətdəl qaldı ki, ə, bu nətər işdi? Getdi o papaxlıların yanına. Dedi:

– Olar, sizə bir sual verim?

Dedi:

– Nədi?

Dedi:

– Niyə siz burda kef eliyirsiniz geyimli-kejimli, onnar da təpih döyür qumun içində, bir dəsdə də orda yatışır?

Dedi:

– A kişi, biz insannarın baxdıyıx, qaraçuxasıyıx. Görürsənmi bizim geyimimizi? Biz o bəylərin, padşahların qaraçuxasıyıx. Daa onnar var-döylətə möhtac döylü, ona görə burda kef eliyirih.

Dedi:

– Bəs o yatannar?

Dedi:

– Onnar da zır kasıblardı. Çörəh tapmır da yeməyə, yatıflar, qaraçuxası yatıf.

– Bəs o saldatdar?

Dedi:

– Onnar da orta, varrı adamlarınkıdı.

Dedi:

– Mənim qaraçuxam harda olar?

Dedi:

– Varın nə qədərdi?

Dedi:

– Bir belə qoyunum var, bir belə malım var.

Dedi:

– O təpih döyənnərin içindədi. Get çağır, gələjəhdi.

Getdi qıraxda durdu belə. Bunnar da bulanıfdı toza. İsdi gün. Çağırdı. Çağıranda bir oğlan çıxdı gəldi bunnarın içinnən. Xoş-beş. Baxdı ki, toza-torpağa bulanıf da, biyavır vəziyətdədi. Dedi:

– Ə, özünü niyə bu hala salmısan?

Dedi:

– Bə neyniyim? Mən bu hala düşməsəm, axı sənin heşzadın olmaz.

– Ə, – dedi, – mənim sürüynən qoyunum var, malım var. Özünü niyə bu kökə qoymusan, ə? Ə, bəri gəl, bəri gəl.

Bunun qolunnan tutuf apardı yatannarın yanına. Dedi:

– Yat burda, dincini al, dincəl, ölürsən.

Dedi:

– Ayə, məni yatırtma. İşin ağır keçəjəh, məni yatırtma.

Dedi:

– Heş-zad olmaz mənə. Varım var, özüm də padşahnan yeyirəm, içirəm, kef eliyirəm.

Dedi:

– Nə deyirəm.

Bunun qolunnan özü tutdu, gətdi yatırtdı orda. Burdan qutardı gəldi ki, başı alsın, götürsün gəlsin. Gəldi ki, hazırdımı? Dedi:

– Hazırdı.

Başı götdü əbanın altına belə qoydu, gəldi. Deməli, bu gejikif. Padşah bunu gözdüyür çörəhdən ötəri, çörəh yemir.

Yasoullardı, iki-üş dəfə gəlif, bunu tapmıyıflar. İndi bu darvazaya çatanda yasoullar çatdı bura.

– Ə, sən sabahdan hardasan? Sənin dalınca üş dəfə gəlmişih. Padşah ajınnan ölür orda, səni gözdüyür.

Dedi ki, gəlirəm, bu saat evə dəyif gəlirəm. İsdiyirdi başı arvada verə, gələ da. Bunnar bir-birin tanıyırdı dana, orda olmuşdular. Deyəndə bunun qolunnan tutdular, dedi:

– Bu nədi? Bunnan bizə də ver da.

Baş, budey, domba duruf burda.

– Ə, yox, heş bir şey döylü, bu saat gəlirəm.

Qoymadılar getməyə. Tutdular, bunun burasını (söyləyici əynindəki paltarın ətəyini göstərir – top.) qaldırdılar ki, bir insan başıdı. Dedi:

– Ə, sən sabahdan elə bunnan ötəri gəlmirsən?

Deməli, bu padşah başqa padşahın vilayətinnən torpağ almışdı, orda qoşunu vardı, həm də qoşun başçısı vardı. Bu həmən sərkərdənin başıdı. Tanıyıllar dana.

– Ə, elə bunnan ötəri gəlmirdin?

Bunun qolunu daldan burdular, bağladılar, apardılar. Dedi:

– Padşah sağ olsun, sabahdan üş dəfə getmişih. Gedif sərkərdəni öldürüf, başın götürüf gəlif.

– Ə, nə danışırsan?

Dedi:

– Vallah.

– Ə, mənim orda qoşunum var, mən oranı ona tapşırmışam.

Gətdilər başı qoydular padşahın qabağına, bunun da gözünə heylə görükdü. Ə, bunu verin dar ağacına. Bu da neçə ildi bunnan çörəh yeyirdi. Nə qədər yalvardı-elədi, dedi:

– Yox, sən xəyanət eləmisən mənə, ölməlisən.

Dedi ki, padşah sağ olsun, mana ikicə dəyqə, üşcə dəyqə vaxt ver, gedim-gəlim. Əgər inanmırsan mənim gəlməyimə, yasoullardan qoy mənnən getsin.

Nəysə, iki yasoulu buna qoşdu, dedi:

– Ə, yalvarır, iki dəyqəyə bu hara gedəjəh, bunnan gedin gəlin.

Bu ordan qopan pramoy ora, meşəyə. Özü yatırdıf axı qara-çuxasını. Gəldi ki, yatıf da orda. Getdi tez onun qolunnan tutdu:

– Ə, başına dönüm, qalx ayağa, padşah məni öldürür.

Dedi:

– Ə, hara qalxıram, özün məni məjburi yatırtmadın? Sən öl, qalxmaram.

Yalvardı, yapışdı, öpdü, neynədi, nağardısa, bunu durğuzdu. Qoşdu bu təpih döyənnərə, qayıtdı gəldi.

– Gəldin?

– Hə, gəldim.

– Ə, bunu verin kəndirə.

Dar ağacının divinə gedəndə baxdılar ki, həmən o sərkərdə belədən gəlir: atdı gəlir, indi padşahnan nə işi varsa. O, bu dedi ki, ə, gəldi çıxdı bu. Bəs deyillər bunun başı kəsilif. Apardılar padşahın yanına. Gördü ki, həmən adamdı. Dedi:

– Ə, bu nətər olur? O başı bura gətirin görüm.

Gətdilər başı qoydular padşahın qabağına. Baxdı ki, qoyun başıdı.

– Bıy, ə, bu nətəri işdi? Deyək, mən kor oldum, bəs bu camaat necə. Hamı kor olmadı ki?

Dedi ki, padşah sağ olsun, mən axı heylə iş eləmərəm. Mənim güjüm çatmaz sərkərdəni gedəm öldürəm. Neçə ildi sənnən bir yerdə çörəh yeyirəm, səni ona and verdim, məni bağışdamadın. Da sənnən qutardım, get özünə ayrı adam tap.

– Ə, saa zarafat eliyirdim.

Dedi:

– Yox ey, nə zarafat, ə. Dar ağacının divində kəndiri də boğazıma saldırmışdın.

Nə mümkün elədi, olmadı. Padşahdan aralaşdı, çıxdı getdi. Dedi:

– Arvad, Allah üsdünə od töhsün, bir başdan ötəri getmişdim.

# QARAÇUXASINI AXTARAN KİŞİ

Bir kişi varmış. Bir arvadı, iki uşağı varmış. Nə qədər işdiyirmiş, keçinə bilmirmiş. Cəmi bir dənə keçiləri varmış. Bir cındır damda yaşıyırmış. Odun daşıyırmış ayləni dolandırmağa, heş nəynən ödəyə bilmirdi. O qədər əlləşir, əlləşir, bir gün deyir:

– Ay arvad, mən dözə bilmirəm, gedirəm.

Deyir:

– Hara gedirsən?

Deyir:

– Gedim yatmış qaraçuxamı oyadım da.

Deyir:

– Yaxşı get.

Arpa cadı, quru çörək götürür yola düşür. Görür bir palıd ağacıdı, dibinnən şırhaşır su axır, qupquru quruyuf bu ağac. Yalannan ağacın kölgəsində oturur. Sudan içir, əl-üzün yuyur. Deyir:

– Allah, sənə şükür. Bu boyda ağacın divinnən su axır, bu qup-quru quruyuf.

Bu duruf gedəndə palıt dilə gəlir. Deyir:

– Qardaş, hara gedirsən?

Deyir:

– Gedirəm Allah dərgahına.

Deyir:

– Allahdan soruş mənim dərdim nədi ki, bu boyda su dibimnən axır, onnan bir damcı gəlif mənə çatmır?

Sora bir dəryadan keçməli olur. Deyir:

– Ay Allah, mən bu dəryadan nətər keçim? Bir şey ola mən bu dəryanı keçəm.

Görür bir balıx gəldi, yekə, cannı balıxdı. Deyir:

– A kişi, hara gedirsən?

Deyir:

– Allahın yanına gedirəm.

Deyir:

– Nəyə gedirsən?

Deyir:

– Qaraçuxam yatıf, gedirəm görüm onu oyada bilərəmmi?

Deyir:

– Qardaş, bu dəryanı görürsən, mənim sərəncamımdadı. Mənim başımda bir ağrı var, bir ağrı var, nə qədər eliyirik sağalmır. Allah-taalaya deynən bu padşahlıx nədi vermisən mənə, bu baş ağrısı nədi vermisən? Maa bir əncam.

Deyir:

– Yaxşı.

Xeyli gedir, gedir, çıxır Allahın dərgahına. Görür and olsun Allaha, bir düzü biyabandı, biri əkir, biri səpir, biri də o tərəfdən biçir. Balaca-balaca inasannardı qarışqa kimi çalışır. Bu görür kü, kolun divində biri yatıfdı. Hamı işdiyir, bu yatıf. Deyir:

– Bu niyə burda yatır, ə?

Ağacnan birin gupuyur buna. Deyir:

– Niyə yatmısan? Camahat işdiyir, dur sən də işdə dana.

Durur başdıyır işdəməyə. Bu da gedir Allahın dərgahına. Deyir:

– Nəyə gəlmisən?

Deyir:

– Vallah, belə-belə, gecə-gündüz çalışıram, iki övladı, bir arvadı dolandıra bilmirəm, xəcalət çəkirəm. Gəlmişəm görəm mənim taleyim niyə belədi? Camahatdan çox işdiyirəm. Camahat altı saat, yeddi saat işdiyir, mən on dörd-on beş saat işdiyirəm. Gecəm yoxdu, gündüzüm yoxdu. Camahat oyanmamışdan mən gedif şələmi şəlliyif dalıma gəlirəm ki, odun satıf ayləmi dolandırım.

Deyir:

– Get, sən qaraçuxanı oyatdın.

Deyir:

– Nətər oyatdım?

Deyir:

– O kolun dibində yatan sənin qaraçuxan idi, sən özün oyatdın.

Deyir:

– Sənə qurban olum, gələndə mənim başıma belə bir iş gəlifdi. Bir palıt ağacı var, o maa belə dedi. Onun dibinnən su axır, ona bir damcı getmir. Bir də bir balıx məni dəryadan addatdı. Dedi, ağana denən ki, dəryada padşahlığı vermək nədi, başağrısı nədi. Mənim dərdimə çarə.

Deyir:

– Gedərsən balığı çağırarsan. Gələjəh dəryanın qırağına. Səni addadajax dəryanın o qırağına. Addadan kimi ağajnan bir dənə onun başına vurarsan. Onun beyninə gedən yolda bir üzük var, Süleyman peyğəmbərin üzüyü ilişif ora. Üzük çıxan kimi götürərsən, dünyanın varı-döölətiynən yarıdı. Başının ağrısı onnan da gedəjəhdi. Palıdın da divin qazarsan, orda böyük bir küpə var. O qoymur ki, ora su gedə. Teyxa* ləl-cəvahirdi. Onu da götürüf gedərsən, o da sənin var-döölətin.

Deyir:

– Yaxşı.

Dəryanın qırağına gəlir. Balığı səsliyir, balığ gəlir. Deyir:

– Addat o tərəfə dərdinin dərmanını tapmışam.

Sahilə çıxanda ağacnan təpəsinə nətər vurursa, pırt eliyif üzük düşür ora. Deyir:

– Get, sənin başının ağrısı bu üzükdən idi. Balıx görür başının ağrısı keşdi, gözünə işıx gəldi.

"Çox sağ ol" deyif gedir. Üzüyü götürüf qoyur cibinə, gəlir. Gəlir palıdın divin eşəliyir, eşəliyir, görür küpədi, içi doludu ləl-cəvahir. Çıxardır çölə. Su elə bil birdən-birə hopur palıdın canına, palıd cana gəlir, yarpaxlanır. Ağac buna təşəkkür eliyir. Doldurur qızılı xurcuna, gəlir kəndə. Oranı axtarır, buranı axtarır, evinnən əsər-əlamət yoxdu. Soruşur ki, burda belə bir kişi vardı. Deyillər:

------------------------

Teyxa – büsbütün

– O kişi çoxdan gedif. O gedənnən sora o dey o imarəti görürsən, o kişinin imarətidi.

Kişi deyir:

– Nətər yanı? Mən bir keçi qoyuf getmişəm, bu imarət hardandı?

Nəysə, gedif çağırtdırır. Görür qul-qarabaş işdiyir burda. Çağırıf deyir:

– Bura kimin evidi?

Deyillər:

– Filankəsin.

Arvad yuxarıdan baxır, geyinif-kejinif xanım kimi. Bu da xurcun çiynində, köhnə çındır paltarda. Deyir:

– O kimdi?

Deyillər ki, deyir mən filankəsin əriyəm. Deyir:

– Deyin rədd ol ged ayna, sən gedənnən Allah üzümüzə baxıf. Sənin ayağında çörəy yoxuymuş. Onu qovun getsin.

– Ağız, mənəm ey, sənin ərin.

– Sən Allah, güjnən gün tapmışıx.

Deyir:

– Nolufdu?

Deyir:

– Qırğın düşdü, kəntdə bütün mal-qara qırıldı, bir dənə bizim keçimiz qaldı. Padşah da can verirdi, dedilər, buna ancax keçi əti lazımdı. Mən də dedim bizim varımız-döölə-timiz, uşaxlarımın, özümün də yeməyim budu. Mən neyniyim bəs? Aşdı xəzinənin ağzını, dedi nə qədər isdiyirsən, götür, keçini ver bizə. Keçini verdim. Dedim, maa ev tik. Ev tikdi, qul-qarabaş verdi.

Dedi:

– Arvad, heylə döylü ey.

Başına gələnnəri danışır. Çıxardır xurcunu da qoyur ora. Deyir:

– Qaraçuxamızı oyatmışam, bu var-dövlət onnandı. Yoxsa padşah saa qızıl verən idi? Qaraçuxam oyanıf.

# ŞAH TƏHMASİB

İranın İsfahan şəhərində Təhmasib adlı bir padşah olub. Ədalətli padşah olur. Bir gün gecə yatır, yuxu görür. Görər ki, bının qapısından bir gün çıxdı, şöləsi bütün İranı əhatə elədi, dünyanı əhatə elədi. Yuxunu gizli saxlayıb heç kəsə deməz. Bir tək vəzirə deyər ki, vəzir, sənnən mən ikimiz bir yerdə çıxacayıq gəzməyə.

Bınnar ikisi bir yerdə çıxallar gəzməyə. Gedəllər, kənddən, şəhərdən kənar bir yerdə meşəyə rast gələllər. Gedəllər bir çeşmə tapallar meşənin içində. Aclıq əl verər. Oturarlar, çörək yeyəllər, çeşmənin suyunnan içəllər. Suya gedəndə görəllər ki, çeşmənin içində bir qız əksi var. Belə diqqətinən baxar ki, çeşmədədi. Çeşmənin içinə əlin salar ki, heç bir şey yoxdur. Belə yuxarı baxar ki, ağacın üstdə oturub. Deyir, ağacın üstdə oturduğunu görəndə Təhmasib səslənər ki, düş yerə.

– Oy, baba dərviş, görürəm dərvişsiniz, dərviş paltarı geymisiz. Əma mənim ismətim tökülüb, paltarlarım cırılıb, salamatı yoxdu. Xahiş eləyirəm, biriz əbanızı qoyun yerə, çəkilin kənara. Mən düşüm əbaya bürünüm, gəlin, görüm nə deyirsiz.

Təhmasib özü bu hərəkəti görər, əbasın çıxardıb qoyar, çəkilər kənara. Bı qız düşər əbanı atar çiyninə, bürünər. Bınnar gələr.

– Bala, sən kimsən? Haralısan? Meşə hara, sən hara? Bıra hardan düşmüsən?

Qız deyir:

– Kəndimizdən bir neçə dəstə ziyarətə gedirdi. Burda bizi bir boran tutdu. Məni atam aparırdı, anam aparırdı, gedirdik ziyarətə. Ziyarətə gedəndə bırda boranda neçə gün qaldıx. Ama çıxırdıx, gəzirdik, dolanırdıx, gəlirdik. Mənim üzüm düşdü bu tərəfə, axtarıb bıranı tapdım. Atam-anam necə olub, hara gedibdir bilmirəm. Dörd-beş aydı ki, bırdayam.

Təhmasib deyir ki, səni aparsam, gedərsən mənnən?

Deyir:

– Meşədə qalıb qurd-quş yeyincə, hara isdiyirsiz, aparın da.

Bını qoyar öz atının tərkinə, gətirər evə. İçəri girəndə qız görər ki, bıra şahlıxdı. Şah dəmdəsgahınnan atdan düşüllər ki, bu qadına bir yaxşı yer verin, mənzil düzəldin. Qabağından bir cavan keçər ha! Qəti qadağan olsun. Şah bı hərəkəti tapşırar. Bı bırda neçə müddət qalar.

Bir gün şah keçəndə bını pəncərədə görər. Görər, doğurdan da, bı elə bir gözəldi ki, ta olmuyan kimi. Təhmasib elçi göndərər ki, görun o qız maa gələrsə, mən onu alaram. Elçi gedər qızın yanına. Qız da fikirrəşir ki, ata yox, ana yox. Bınnan artıq kişiyə getməyəcəm ki. Deyir:

– Gedərəm.

Həmin dövrdən Təhmasib qıznan evlənir. Bı qızın boynuna uşaq düşər. Bı uşaq dünyaya gələr. Şah bının adın qoyar Əbbas. Hindistandan bir yahudi, Şəndin adlı bir yahudi bərk elmlidir, savaddan güclüdür, sehrdən də xəbəri var. Gələr bı İsfahan şəhərinə. Rəml atar, rəmnən təyin edər ki, qızı bırdadır. O rəmi atar, düşər şahlığa. Bı həyətə daxil olmaq üçün çox götür-qoy edər ki, gecə oğurluq eləsin, bəlkə şah oğrunu tapmax üçün bir sehrbaz kimi, münəccim kimi onu istəyə. Bir gecə oğurluq eliyər, bazar yarar. Bir gün də gələr vəzirin evin, xəzinəsin yarar. Aparar bını səhərin kənarındakı qəbirstanlığa qoyar, qayıdar gələr. Vəzir xəbər verər səhər ki, şah sağ olsun, böyün gecə mənim xəzinəmi yarıb aparıblar. Sabah da səninkini yaracaqlar. Biz bı haqda ölçü götürə bilmirik. Bı oğrunu tapammırıx. Şah əmr verir ki, münəccimləri yığın. Özünün 40-a qədər yanında münəccimi var. Hamısını yığdı yanına, dedi:

– Tapın oğrunu görüm. Vəzirin evi gedib.

Bınnar nə qədər vırar eninə, uzununa, bir ay tapmazlar.

– Ay vəzir, bəlkə şəhərdə-zadda görərsən? Təzə dərviş gəlib, çox qəribə adamdı. Bir onnan örgənin.

Adam göndərirlər, bını tapıb gətirirlər.

– Ə, sənin münəccimlikdən xəbərin var?

Dedi:

– Qəşəng.

Dedi:

– Onda vəzirin evi gedib, bını bir axtar görüm, hardadı tap görüm, tapa bilərsənmi?

Bı gətirər bir kitab açar, eninə, uzununa bir firrar, görər. Dedi:

– Şah sağ olsun, səhərə yaxın olub, malı apara bilməyiblər. Sizin günbatan tərəfdə bir qəbirstanlığınız var?

Dedi:

– Hə?

Dedi:

– Həmin qəbirstanlıxda malı quyluyublar. Gedəyin malı gətirin.

Axşam gəzər elə, gəzər belə, guya kitab açar. Gələr durar o qəbrin üstündə ki, bı qanqalları, tikanları götürün, bıranı eşin. Şah aparar bını öz imarətinə. O birisi münəccimləri rədd eliyər, ta bını saxlıyar yanında ki, tək bir nəfər maa hamıdan irəlidi. Bı qədəri neynirəm saxlayıram? Bını saxlayır öz yanında. Gəzər, dolanar, bı gedər qızı pəncərədən görər. Tanıyar ki, öz qızıdı. Bir neçə müddət keçər aradan, gecə fürsətdiyər ki, gəlsin qızının mənzilinə. Gələr ki, oğlu qolunun üstündə yatıb. Oğlunu götürər, çəkər kənarda başını kəsər. Gətirər qoyar döşəyin arasına. Çıxar ordan gedər.

Səhər kənizdər ayılar ki, bay, oğlunun başın kəsiblər. Ay havar, ay dad. Hamısı tökülər ki, bı nə hadisədi. Şaha xəbər verərlər. Təhmasib adam göndərər ki, münəccimi gətirin bıra. Lənətdini gətirirlər. Bı kitab açar, rəm atar, kitabı bükər.

– Belə şey olmaz. Bı necə hadisədir.

Şah dedi:

– Axı nə oldu?

Dedi:

– Şah, elə şey görsətdi ki, bına mən heç özüm inana bilmirəm.

Dedi:

– De görüm?

Dedi:

– Yox, deyəmmərəm. Aç bir de.

Açdı bir də kitabı. Genə:

– Belə şey ola bilməz.

Şah səsləndi:

– Ə, bıra bax, mənim var yoxum bir oğlumdur. Hələ sən bırda oturub oyun çıxardırsan? De görüm nədi?

Dedi:

– Şah sağ olsun, kitab bınnan üçüncü dəfədir göstərir ki, uşağın başın öz anası kəsib, bıçağı da qoyub döşəyin içinə.

– Ədə, axtarın.

Gəldilər bıcağı döşəyin içindən çıxartdılar. Əmr verdi ki, dar ağacı qurun. Arvadı gətirin bıra, asacıyam. Uşağın niyə başın kəsib? Dedi:

– Bı neillaşdıxdan saa gedib. Saa getmək niyyəti yoxmuş. Buna görə də belə hərəkət eliyib.

Deyir, əmr verdi ki, dar ağacın qurun. Nələti deyir ki, şah sağ olsun, bizim dinimizdə qəti qadağandır ki, kişi qadına əl qaldıra, qadını öldürə. Şah dedi:

– Neynəmək lazımdı?

Deyir:

– Mən hər yeri gəzirəm. Sizin territoryada elə bir yer var ki,  orda vəhşi heyvanın hesabı yoxdu. Aparram ötürrəm ora. Vəhşi heyvan yesin, qoy günah sənnən də götürülsün, sənin əlinnən də olmasın.

– Ora necə getməy?

Dedi:

– Ora mən aparram. Məndə sehir var. Vəhşi heyvan mənə yaxın gələ bilməz. Aparıb ötürrəm ora, qayıdıb gəlləm.

Qadın ordan səsləndi ki, şah, indi ki bı hadisəni mənim boynuma qoydu, öz uşağımın ölüsün də, başın da verin özümə. Mən hara gedirəm, qoy uşağım da mənnən getsin.

Uşağı da verəllər. Alar dalına, başın da qoyar qucağına. Qatar bı lənəti qabağına. Bını gətirər o meşəyə ki, ordan Təhmasib qızı tapmışdır. Yaxınlaşdıqda əlin atar saqqalın-zadın qopardar. Qayırma saqqalıydı. Deyir, dedi ki, hə, indi nətəhər qızım? Mənim dediyimə qulaq asırsan. Səni aparım gedəy yaşayaq. Qız döndü ki, atasıdır.

Dedi:

– Allah saa nələt eləsin. Sən elə nanəcibsən ki! Necə qıydın mənim uşağımın başın kəsdin? Allah saa nələt eləsin.

Dedi:

– Gəl insaf elə, bax, səni bınnan pis günə qoyacam.

Dedi:

– Müsəlmanların Həzrət Abbası saa qənim olsun.

Nələti soruşur.

– Həzrət Abbasi tanıyırsan?

Dedi:

– Mənim sağ canım, bütün nəslim ona qurban olsun.

Dedi:

– İndi ki, tanıyırsan, Həzrət Abbas yolunda sağ qolunu ver kəsim.

Deyir, qadın üzün döndərdi belə, əlin uzatdı.

– Allah saa nələt eləsin, gəl.

Dirseydən qadının qolun kəsdi, saldı yerə, dedi:

– İndi qolunun o birini qızıldan qeyitdirərəm, bilirsən ki, dövlətimin hesabı yoxdu, bir qollu da qəbul eliyirəm. Denən hə.

Deyir, dedi:

– Allah saa nələt eləsin. Həzrət Abbas mənim bı qisasımı səndə qoymasın.

Dedi:

– Gənə Həzrət Abbasdan dedin?

Dedi:

– Bəli.

Dedi:

– Onda sol qolunu ver kəsim Həzrət Abbas yolunda.

Qadın qolunu belə uzatdı, dedi:

– Nələti, sol qolumu da kəs.

Sol qolunu da kəsdi. Bının bir şeyə gücü çatmaz. Elə həylə qan aparıb orda qalır.

Bir züvvər gəlib Kərbalaya ziyarətə gedirmiş. O züvvər Kərbəlaya getmək niyyətində həmin yerdən keçəndə orda bir boran-tufan olar: Yelə qarışıb bınnar çıxallar qabağa. Çıxallar ki, həmən yaxınlıqdakı kol-kosun içində kimsə zarıldayır. Deyir, dedi ki, çavuş, bırda bir səs var. Deyəsən, bir zarıltı var. Çavuş gedər qulaq asar ki, doğurdan da, bırda bir zarıltı var. Dedi:

– Deyəsən, bı heyvandı, çalıya-zada keçib zarıldayır. Axdarın bı heyvanat da olsa, azad eliyin.

Axdarallar, gəlib qadını tapallar. Görüllər, bir oğlan uşağını kəsiblər, bir də qadındı, qolların kəsiblər. Bu halində qadın huşa gələr. Elə bil ki, qulağı eşidirmiş. Deyir, görəsən bı yazığa nə bədbəxtlik üz verib? Bını kim belə eliyib? Deyir, bir nəfər kənardan səsləndi ki, çavuş ağa, salamat qadını da belə eliyəllər? Yəqin salamat deyil, belə eliyiblər də. Bu halda qadın eşidər. Deyir, başını qaldıra bilməsə də, elə bil səslənir ki, sizi and verirəm o getdiyiniz ağaya ki, çavuş adı çəkdiniz, mən o qapının kəniziyəm. Məni bırda qoymayın. Mən ağam Həzrət Abbasın kəniziyəm, məni aparın onun qapısına. Deyir:

Çavuş yaxşı adam olar. Əmr verər, atın birin boşaldın. Bu qadını qaldırıb qoyallar atın üstünə, uşağın da başı qucağında. Möhkəm ata sarıyallar, cilovdan da biri yapışar, cərgədə bını aparallar. Keçmiş adət beləydi ki, sübh namazına çatasan. Bınnar gecəni çox çalışıllar, sübh vaxtı çatallar. Müşdəhid qapıları bağlatdırır ki, içəri girmək qəti qadağandır. Ağa maa xəbər verdi ki, belə bir qadın gələcək, onnan qabaxca bı qapıya heş kim daxil olmamalıdır. Bı qadını qəbul eliyin içəri, sora qoyun camaat gəlsin. Çavuş car çəkir. Çağırır ki, açın qapı-

ları, namaz vaxtımızdı, çatax. Deyir, içəridən cavab verillər ki, mümkün deyil. İcazə yoxdu, bir qadın var, o qadın içəri daxil olmuyub. Bınnar sevindilər ki, bay, bını elə biz gətmişik ki.

– Hanı?

– Bırdadı.

Acar yapışar atın cilovunnan, qadını birinci çağırar qapıya. Camaat dalınca dolar. Çağırallar müşdəhidin qapısına aparallar. Müşdəhid gedər üş-dörd nəfər qadın çağırar. Bı qadını endirəllər, aparallar evə. Bı qadının əl-ayağına dava-dərman qoyallar, bı huşa gələr. Müşdəhid soruşar ki, bala, qızım, bura gəlməkdə məqsədin nədir? Deyir:

– Ağa, mən Həzrət Abbasın kəniziyəm. Onun qapısına gəlmişəm. Onun yolunda da məni bı günə qoyublar. Gərək gedəm ağadan diləyimi diləyəm. Axı onun yolunda mənə əzab veriblər.

Deyir, müştəhid tapşırdı ki, azan vaxdı qapıları bağlayın, başqa adamlar getməsin, qalsın günüzə. Bı qadını qoyun rövzənin qabağına. Özünün niyyəti nədi, özü bilər. Həmin qadını qoyallar rövzənin qabağına. Qadın başın qaldırar, rövzəyə baxar. Səslənər ki, ağa, ya Abbas, sənin yolunda maa bı əzabı verdilər. Sənin qapına gəlib çatmışam. Oğlumu da, özümü də sənnən sağ salamat istiyirəm. Mənə şəfa ver. O şəxslər ki, mənə o əzabı veriblər, ona da gərək gözümün qabağında əziyyət verəsən. Səsləndi ikinci dəfə:

– Bala, uşağın salamatdı, dur, uşağı əmizdir.

Belə deyəndə qadın yerdən qalxdı. Qalxanda uşax ağladı. Allah tərəfinnən şəfa verildi uşağa, qoyuldu başı yerinə. İkinci dəfə uşağ ağlayanda anadı da, üzü üstə yıxıldı yerə, şiddətinnən qəşş elədi. İkinci dəfə bı qadın ayıldı. Bala, qalx ayağa, uşağı əmizdir.

Səsləndi:

– Xanım, saa qurban olum, uşağım ağladısa da, ozümün qollarım yoxdu, əllərimi kəsiblər.

Deyir, səsləndi:

– Bala, əllərin yerindədi, qalx ayağa.

Əllərin yerindədi deyəndə, qalxdı, elə belə uşağı basdı bağrına, şiddətnən ağladı. Çox keçmədi səhər açıldı, uşağın əmzirdirdi, Müştəhidin yanına getdi. Müştəhid səsləndi ki, bala təmannan nədi, de. Deyir ki, ağa, saa mənim heç sözüm yoxdu. Mən əhd eləmişəm ölən günə qədər Abbasın qapısında işləyəciyəm. Getmiyəciyəm heç yerə. Müştəhid əmr verdi, ona ev düzəltdilər, koma düzəltdilər. Ona nə lazımdı – pal-paltar, ev, qab-qacaq, bir sözlə nə lazımdır, tapdılar. Qadın hər gün səhər gedib o qapıları süpürür, gəlib uşağıynan bərabər yaşayır. Vaxt o vaxt oldu ki, uşax yeddi yaşına çatdı. Yeddi yaşına çatanda bir gün uşağınnan bərabər Abbasın rövzəsinnən gəlirdi. Mədrəsə mollasınnan qabaxlaşdı. Qadının qəlbinnən keşdi ki, görəsən bı mənim uşağımı oxudar? Deyir ki, molla əmi, icazə olar, sənnən bir söz soruşam? Deyir, dedi:

– Bala, buyur.

Hamı da bını möcüzə kimi tanıyır. Dedi:

– Molla əmi, mümkün olsa, əyər nökərinə dərs verərsən, oxusun, bir elm sahibi ola?

Deyir, dedi:

– Bala, uşağın adı nədir?

Dedi:

– Abbas.

Dedi:

– Səhər yapış əlinnən, gətir qoy mədrəsənin qapısına. Hər gün gəlsin. Ona heç bir şey lazım deyil. Nə lazım olsa, özüm alıb verəciyəm. Gəlsin oxusun.

Əbbası apardı mədrəsəyə. Yeddi gün Əbbasa molla dərs dedi. Səkgizinci günü Əbbas yerinnən durdu səhər. Heybəsini götdü ki, mədrəsəyə getsin. Allah yerin damarın çəkib, bının üzünü saldı Bəbr qəbirstanlığına. Mədinədə Bəbr qəbirstanlığında altıncı imamın qəbri var. Getdi o qəbri şaqqaladı. İmam səsləndi: Bala, Əbbas, yen aşağı. Əbbas yendi aşağa. Kitabın açdı. Dərsini altıncı imam verdi. Bı dərsi alıb qayıdanda Allah

yerin damarını çəkib bının yolun yaxınlaşdırdı. On dördüncü, onbeşinci gündü, anasıynan molla bir də qabaxlaşdı. Anası dedi ki, molla, bağışda, uşax heç hərfdən-zaddan öyrənə bilib?

Dedi:

– Bala, Əbbas bir həftədi dərsə gəlmir.

– Molla əmi hər gün gedir axı.

Dedi:

– Yox, gəlmir. Nə olub, bilmirəm.

Ana dedi:

– Yaxşı, baxım görüm.

Anası qeyitdi evə axşam. Heç bir şeyin üstünü vırmadı ki, səhər izdərəm, görüm mənim uşağım dərsə getmir, hara gedir. Qonşudan bir örtük alar, atar başına. Əbbası eşiyə ötürənnən sora düşər dalına.

Əbbas heybəsi çiynində düz özün yetirər qəbrin üstünə. Ana da bının dalınca. Qəbir açılır, çağırır:

– Gir, bala.

Düşər aşağı. Başdıyar orda dərs almağa. Ana addım-addım belə gəlib boylanar. Görər ki, qabaxda altıncı imam Cəfər Sadiq oturub, Əbbas da oturub oxuyur. Ana fikirrəşir ki, bınnan artıq məllim dərs demiyəcək? Lazim olan budu a. Yaxşı da dərs deyir. Qayıdar, heç üstünü vırmaz. Ana gələr evə. Axşam Əbbas dərsdən çıxar. Çıxanda ağa deyər ki, ala, daha gəlmə, sirrimiz açıldı. Dedi:

– Ağa, mənim ağzımnan çıxmayıb, mən heç kəsə deməmişəm.

Dedi:

– Yox, sən demisən. Anan sənin dalınca gəlmişdi. Gəldi bizi gördü. Elə bı dərs bəsindi.

Əbbas səkkiz gün də ağadan dərs aldı. Axşam evə gələndə anası nə qədər bını xoş sifətinən dindirdisə də, heç cavab vermədi. Axırı soruşdu:

– Ay bala, bə saa nolub?

Əbbas şiddətinnən ağladı.

– Ana, niyə mənim dərsimi yarımçıq qoydun? Ana niyə mənim dalımca gəldin? Sirri açıldı, ağa da maa dedi, dərsə gəlmə.

Dedi:

– Ay oğul, mən nə biləydim belə hadisə var. Bilsəydim belə hadisə var, heç gəlməzdim.

Əbbas hərrəndi, fırrandı, günorta azanın vaxtıdı, minarəyə molla qalxır. Əbbas getdi durdu aşağıda. Molla qalxdı minarəyə. Günorta azanın vaxtıdı. Yerə düşüb gedəndə Əbbas yaxınnaşdı. Molla əmi döndü ki, bı, möcüzədən olan uşaxdı. Dedi:

– Nədi, bala?

Dedi:

– Molla əmi, icazə ver, sabah günorta azanını mən deyim də.

Dedi:

– Bala, Əbbas, sənin yaşın azdı. Sənin səsin bı şəhəri götürməz, camaat eşitməz, namaza yubanallar. Günahkar olaram axı.

Dedi:

– Molla əmi, icazə ver bir üç-beş dəyqə sənnən qabax azanı deyim. Deyə bilərəm, deyərəm. Deyəmmərəmsə, sən qalxıb ikinci dəfə deyərsən. Nə olar mənim xətrimə də.

Möcüzədən olan uşax olduğuna görə molla bının xətrin sındırmadı. Dedi:

– Bala, sabah gəl.

Səhər Əbbas getdi minarənin qabağına. Günorta azanına vardı bir neçə dəyqə, qalxdı yuxarı. Allah bına bir səs verdi, əlin qoydu qulağının dibinə, necə bir ucadan Allahu-Əkbər çağırdı, elə bir təsvirnən çağırdı ki, hamı üz tutdu məçidə tərəf. Məçidə gedənnər qayıtdılar görsünnər ki, molla təzədi? Belə qomardılar. Əbbas ordan yenəndə gördülər ki, möcüzədən olan uşaxdı. Bını aldılar başdarına əhali – namaza gedənnər, oynada-oynada apardılar müşdəhidin qapısına. Deyir, daxil oldular içəri.

– Ağa, azan deyən bınnan sora həmişə bı olacaq. Xahiş edirəm, belə bir uşaxdı.

– O nə azan idi, o nə səs idi? Onu bir çağırın bıra görüm.

Dedilər:

– Gətimişiy də, bıdı, Əbbasdı.

– Ə, bı başı kəsilən uşaxdı?

Dedi:

– Bəli.

Dedi:

– Bala, azanı sən deyirdin?

Dedi:

– Bəli.

Dedi:

– Bala, azanı böyünnən sən deyəcəksən.

Əbbas azan verməyə başladı.

Təhmasib gecə yatdı, yuxuda gördü ki, İmam Hüseyn durub bının başının üstündə. Səsləndi ki, ə, Təhmasib, deyəsən dünya malı səni aldadıb. Yeddi-səkkiz ildi sən ziyarətə gəlmirsən. Yanı dünya malı o qədər şirindi ki, sən allanıbsan? Təhmasib səhər ayılar, bay, doğurdan da, bu neçə ildi getmiyib ziyarətə. Təhmasib əmr verdi: "Hazırranın, səhər ziyarətə gedəciyik". Bı İrannan, İsfahan şəhərinnən qırx nəfər adam götürər, bir də özü – qırx bir. Həmən nələti münəccim də yannarında gedəllər ziyarətə. Bınnar o gecəni çalışallar sübh namazına çatsınnar. Nə qədər çalışarsa, çatammazdar, namaz keçər. Namazdarın kənarda qılıb, şəhərə daxil olallar. Günorta azanında adətən camahat minarəyə tərəf axışar, azan qurtarmıyınca namaza dönmürlər. Təhmasib dəstəynən gəlirdi. Əbbas qalxdı minarəyə, elə bir şiddətnən "Allahu Əkbər" dedi ki, dördüncü Allahu-Əkbər səsi gələndə Təhmasib dizi üstə çökdü yerə. – "İlahi, bı nə səsdi? Kaş bı azan deyən oğlan kimdisə, onnan bir sırfada çörəy yeyib, onnan bir söhbət eliyəydim". Bırda bala məhəbbəti də var. Allah bı məhəbbəti

elə saldı ki, Təhmasibin ta aralaşmağa halı olmadı. O qədər gözdədi ki, Əbbas yendi. Dedi ki, bala, azanı verən səniydin?

Dedi:

– Bəli.

Dedi ki, xahiş eliyirəm, günortaya mənə qonaq olasan.

Dedi:

– Yox, oləmmənəm. Anam icazə verərsə olaram, verməzsə, yox.

– Bə mən necə bilim ki, anan saa icazə verər, ya yox.

Dedi ki, sabah günorta deyərəm. Haman günü keşdi. Axşam anasına deyər. Anası da bınnar qapıdan şəhərə daxil olanda görüb ki, əridi, qırx nəfər də dalınca. Deyir, dedi ki, bala, nə olar cavan olanda, saa bir sual verəcəyəm. Deyir, dedi, bala, ev sahibi qonağa qonaq olsa, yaxşıdı, ya qonaq ev sahibinə qonaq olsa, yaxşıdı? Deyir, dedi:

– Ana, həlbət ki, qonaq ev sahibinə qonağ olsa.

Dedi:

– Bala, onnar yersizdi, qonaxdı. Sənin evin var, sən ev sahibisən. Sən onu qonaq elə də. Hə?

Dedi:

– Bəli.

Təhmasib:

– Bala, maa qonaxsan.

Dedi:

– Kalbayi, məni bağışda, sən maa qonaxsan.

Dedi:

– Bala, biz çoxuq, görürsən qırx nəfərik.

Dedi:

– Kalbayi, mən saa icazə almışam. Səhər anamnan örgənim, necə məsləhətdi deyərəm.

Axşam gəldi evə, anasına dedi. Anası dedi:

– Bala, qonağı saymazdar ki. Qonax qonaxdı da. Bir, ya beş, fərqi yoxdur. Deyərsən, siz maa qonaxsız. Denən, əvvəla bir toyuğumuz var, bir batman da unumuz var.

Dedi:

– Ana, bınnan bir şəhəri yola salmaq olar. Şükür Allaha.

Abbas bir ayə oxudu, belə əlin çəkdi qazanın üstünə. Dedi:

– As, qoy, bişsin. Nə qədər qonaq olsa, hərənin qabına bir bud qoyarsan.

Dedi:

– Bala, bir toyuğun iki budu var. Nətəhər qoyum?

Dedi:

– Ana, inşallah olacaq, sən də qoyassan qonağın yanında. Qonağın hamısını bir gözdə görmək lazımdı.

Deyir, dedi ki, surfanı gətir, unu gəti, bıra su gəti. Bir ayə də oxuyub, çilədi üstünə. Dedi:

– Ana, götürün yapın, böyün günortaya qonaxlarımız gələcək. Evi də düzəldin.

Ana qonşulardan çağırar bir qədər adam. Çörəyi yapdırar. Nə qədər bı yaparsa, çörəyi də tezlənər. Belə hesabı yox. Xörəyi də böyük qazanda bişirər. Hər şey hazır olar. Evi düzəldər. İndi bının evi balacadı, bir komadı iki adam üçün.

Bı evin bucağına ana belə bir pərdə çəkər orda xörəyizadı cəkməyə, yerdə xalça düzəldər ki, gələn qonaxlar otursun.

Günorta azanını dedi. Düşəndə yerə Təhmasib səsləndi ki, bala, əhdinə vəfa. Dedi:

– Kəlbayı, gəlin günorta namazın qılın, buyurun bizə.

Gəldilər namaza. Namazdarı qılıb çıxdılar. Qabaxda Əbbasnan Təhmasib qoşa gedir, bının dalınca qırx nəfər gəlir. Gəlib qapıya çatanda dedi:

– Eviniz hansıdır?

Dedi:

– Kəlbayi, evimiz bıdı.

Baxdı ki, iki nəfərlik balaca bir evdi. Dedi:

– Bala, yaxşı olardı ki, paltar salaydız, eşikdə oturaq. Orda yerimiz bəlkə də dar olar.

Dedi:

– Kəlbayi, siz qırx nəfərsiz, səhvini düzəlt. Xahiş eliyirəm, içəri girən salavatın çevirsin, girsin içəri. Evimiz gendi.

Bınnar salavatların çevirib daxil oldular içəri, əyləşdilər. Təhmasib belə bir nəzərdən keçirtdi ki, hələ evdən bir az da boş qalıb. İçəri nə qədər böyükdü. Deyir, sırfa açıldı, xörəklər düzüldü, hazır oldu. Elə ki, çörəyləri qoydular, xörəyləri çəkdilər. Xörəyləri Əbbasın özü payladı. Ana xörəyi çəkəndə gördü bir qaba iki bud düşdü. Budun birin götdü saldı qazana ki, əlavə götürsün. İkinci dəfə qablara çəkəndə genə iki bud düşdü. Götdü qoydu kənara. Üçüncü dəfə qoyanda gördü ki, genə iki bud düşdü. Dedi:

– İnşallah, qonax yanında xəcalətdə qalmarıx.

Bı qırx bir nəfərə bı xörəyi çatdırdı. Aşbaz xörəyləri payladı. O iki bud olanı qoydu Təhmasibin qabağına ki, bınnarın ağsaqqalıdı. Təhmasib yanında bir boş yer saxlayıb. Abbas belə baxdı ki, yemək hazırdı, hər sey öz qaydasındadı. Deyir ki, durun, yeməkləri soyutmayın da, buyurun. Təhmasib dedi:

– Bala, mən əhd eləmişəm ki, sənnən bir qabda xörək yeyəm. Otu mənim yanımda.

Dedi ki, axi mən təkəm, mən yaşda olmaz ki, sənnən əyləşim. Xahiş eliyirəm, siz çörəyinizi yeyin.

Dedi:

– Yox, mən əhd eləmişəm ki, sənnən bir süfrədə bir tikə çörəyə əl vuram.

Dedi:

– Mən təkəm, icazə verin Əbbas da mənnən yesin, mən tək çörək yemiyim. Deyir, dedi ki, bala, mən Əbbasnan çörək yeməyə gəlmişəm, olmasa, əlimi sirfaya uzatmaram. Deyir, dedi, bala, mən əhd eləmişəm ki, sənnən bir süfrədə bir tikə çörəyə əl vuram. Deyir, dedi ki, indi isdiyirsən Əbbas sənnən çörək yesin. Eybi yoxdu. Ancaq sizin içinizdə bəlkə bir elmli adam var? Dedi, var, elmli, savadlı qızımız var.

Dedi:

– Onda mən bir yuxu görmüşəm. Xahiş eliyirəm yuxunu yozasan. Dedi ki, Kəlbəyilər, mən yuxuda gördüm ki, Hindistanda müsəlman məhləsində bir yahudi var. Adına Şəndin deyillər. Gördüm ki, o Şəndinin bir qızı var. Altı-yeddi yaşına çatanda anası öldü. Onu dəfn elədilər. Anası vəsiyyət elədi ki, mənim gəlinlik paltarımı, ayaqqabımnan tutmuş bütün paltarımı gəzərsən, mənnən sora hər kimin əyninə olsa, onnan evlənərsən. Barı mənim paltarım elə bil onun əynində olsun, qızım onu görəndə elə bil anasın görsün. Deyir, qızın anası ölənnən sora o Şəndinin qızı bir neçə il gözdədi, nə qədər anasının gəlinlik paltarı var. Hara, kimə apardısa, kiminə ayaqqabı oldu, paltar olmadı. Geyim düz gəlmədi. Çatdı on yeddi-on səkkiz yaşına. Qız böyüdü. Müsəlman məhləsində olduğuna bı islam uşaxlarınnan oturub durduğuna, küçədə oynadığına dili örgəndi. Həzrət Abbası hamıdan çox isdiyirdi yəhudinin qızı. Həzrət Abbasa bı o qədər aşiqiydi. Deyir, bir gün müsəlman adətinnən Novruz bayramı kimi evi töküb yığışdırıllar. Bı qız da gəldi öz evlərini tökdü, təmizdədi qurtardı. Anasının paltarın günə verdi, təmizdədi, sərdi, gəldi oturdu evdə. Fikirləşdi ki, anamın paltarın geyim, görüm hələ. Baxım aynaya, görüm anama oxşuyuram? Geyib paltarı durdu aynanın qabağında, baxdı üzü aynaya tərəf. Bu halidə atası girdi içəri, gördü ki, arvad dirilib. Arvad, bı nədi? Belə dönəndə gördü ki, qızıdı. Nələti, deyir, belə fikirləşdi ki, hə, demə, arvadım bına görə vəsiyyət eliyib ki, mənim paltarım qızımın əyninə olanda evlənərsən ki, dövlətimiz başqa adama niyə qalsın? Kəlbayılar, yuxu bir az uzundu, məni bağışlayın. Bı yuxunu başa çatdırmaq üçün gərək yaxşı qulaq asasız. Bı hadisəni deyəndə Şəndin deyir:

– Hə, bala, indi bildim ki, anan vəsiyyət eləyib ki, sənnən evlənim.

Qız dedi, ata, sən mənim atamsan. Heç tarixdə belə bir şey olub? Dedi, qızım, heç elə şey yoxdur. Qız gördü ki, atası üç-dörd gün bına əziyyət verir. Qız deyir, get müsəlmanların

məçidinə, onların mollası nə desə, gəl maa de, mən onların dediyinə razı qalasıyam.

– Yəqin?

Dedi:

– Hə.

Nələtə getdi mollanın yanına, Şeyxin yanına. Şeyx dedi:

– Ayə, Şəndin məçidə girib.

Dedi:

– Ya Şeyx, bir sualım var sənə.

Dedi:

– De.

Dedi:

– Ya Şeyx, mənə cavab ver görüm, bir nuzəni salasan, nuzə hasilə gələ. O yetişən dövrü onu özün yesən yaxşı olar, ya özgəsinə versən, yaxşı olar? Deyir dedi ki, Şəndin, nuzə var özün yesən, yaxşıdı, nuzə var, özgəsi yesə, halaldı. Sözün, mətləbin nədi, açıq de. Dedi, mənim övrətim belə vəsiyyət eliyib, o paltar da on səkkiz ildi məndədi. İndi qızımın əyninə olub. Deməy vəsiyyət də bını eliyib. Deyirəm, mən onnan evlənim. Olar, olmaz? Deyir, Şeyx baxdı ki, yox da desə, bı nələti gedib bı hərəkəti eliyəcək. Yaxşı olar ki, bını qorxudum.

– Kim deyir ki, olmaz? Yalan deyir, düz demiyib, olar.

– Nətəhər olar?

– Elmdə bütün qanunlarda belə bir adət var. Ağa qızıynan o vaxt evlənər ki, bir qarış başdan kəs, bir qarış da ayağınnan kəs, kənarı, ortası saa halaldı.

Bu da elə söz dedi ki, bir qəriş başdan kəssə, yanı bı öldü. Bının neyinə lazımdır? Belə dedi ki, bəlkə əl çəkə. Dedi, hə. Durdu qapıdan çıxdı. Bı uzun dabannı ayqqabını da birinci dəfə dünyaya o gətirdi. Bınnarın ikisini qayıtdırar, bükər kağıza, gətirər evə. Dedi, qızım, razı qaldılar.

– Nətəhər?

Dedi:

– Bəli.

– Bəs ata, mənim bir qəriş başımdan kəssən, mən öləciyəm. Mənim ölümü neyliyirsən?

Dedi:

– İndi biləssən.

Aşdı papağı, qoydu qızın başına. Xəncərinnən bir qarış başınnan vırdı saldı, ayaqqabını geydirdi ayağına, vırdı dabanların saldı. Dedi:

– Aha, bax, bı da bir qarış.

Qız gördü ki, lənəti əl çəkəsi deyil. Dedi, ata, indi ki belə oldu, gəlginən şəhərin kənarında dəniz var, dövlətin çoxdu, o dənizdə bir minarə ucalt, pilləkəni ipdən elətdir. On illik azuqə götür, gedək çıxaq ora, orda yaşayaq. Heç düşməyək, heç kim görməsin. Bir az da onnan qabax ehsan ver camaata ki, mən gedirəm İrana, bir neçə ildən sora gələciyəm. On il orda yaşayaq. Mənin uşağım olar, uşax da böyüyər, fikrim dəyişər. Bı barı bizim adımıza tarixə düşməsin. On ildən sora məni də götü, qayıt şəhərə. Desələr, qızın hanı? Deyərsən, İranda verdim ərə. Bınnan da evləndik, götdüm gəldim, vəssalam. Bınnan da batar gedər. Dedi:

– Yaxşı.

Lənəti aldandı. Dedi, hə, bı lap yaxşı. Hər şeyi pul həll eliyir. Bı pilləkəni qoydurdu ipdən. On illik azuqəni yığdılar. Axırıncı lodkaynan aparıb azuqəni qoyannan sora, deyir, qız dedi ki, ata, bir şey yadımdan çıxdı. Nə?

Dedi:

– Ata, bir o şey yadımızdan çıxdı ki, duz gətirməmişəm. İnsan duzsuz yaşıya bilməz. Duz gəti, qayıt gəl. Ta biz onsuz da düşmüyəciyik. Ata gedər, qız pilləkanı çəkər qoyar yanına. Duzu götürər qayıdar. Nə qədər çağırar... Qız başın çıxardar eşiyə. – "Nə var?" Pilləkanı sal, duz gətdim. Dedi: "Allah saa nələt eləsin, müsəlmanların Həzrət Abbası saa divan eləsin. Elə mənim yerim bıradı, səninki də oradı". Camaat deyir bu yuxudu ha. Uzundu düzdü, amma tələsməyin, görək bunun axırı necə olacaq. Mən belə təəccüb eliyirəm bu şeyə. Deyir,

qız orda qaldı. Bı neçə gün yalvardısa da, qız pilləkanı salmadı. Nələti getdi çəkic-zad, baltaynan gündə bir əl yeri özünə qəyirə-qəyirə pəncərəyə tərəf gündə birin ikisin belə qayırar. Qız paltar götürdü ki, paltar şişsin lotka kimi bunun suyun üzündə saxlasın, özün suya atdı, Nuh vırdı getdi. İran torpağına çatanda Təhmasib vəziriynən yuxu görmüşdü. Bı çıxar seyrə. Gələr meşəyə, haman qadını meşədə tapar. Aparar evinə, onnan evlənər, onnan bir oğlan olar. Bı lənəti sehrinən gəzə-gəzə gələr çıxar İrana – İsfahan şəhərinə. Ordan gələr şahlığa. Gecə oğurluq eliyər, gündüz də gələr tapar. Şahın gözünə girər, şah bını aparar öz yanında saxlar. Gecə fürsət salar, gələr uşağın başını kəsər, səhər də atar anasının boynuna. Anasını padşah öldürmək istər. Lənəti qoymaz anasını öldürəllər. Orda ad qoyar ki, ananı, qadını öldürmək şaha layiq deyil. Azad elə getsin. Aparım ötürüm bir meşəyə, getsin heyvannar yesin. Bını gətirər ötürər yırtıcı heyvannarın yanına. Orda saqqalın-zadın qoparar, deyər, indi nə deyirsən? Mənnən evlənirsən, ya yox? Qız baxar ki, öz atasıdı. Deyir, Allah saa lənət eləsin. Məni bədbəxt sən elədin? Həzrəti Abbasa and verər. Şəmdin onun sağ qolun kəsər, sol qolun kəsər Həzrət Abbas yolunda. Bı qalar orda. Bir züvvar gəlib keçəndə züvvara rast gələr. Züvvara yalvarar ki, məni apar ağamın qəsrinə. Gətirərlər Kərbəlaya, Həzrət Abbasın rövzəsinin qabağına qoyallar. Bı möcuzədən bı uşaq da, bı da sağalar. Vaxt olar o uşaq qalxar azan verməyə.

Deyir, Təhmasib dözəmmədi, yerindən dik qalxdı.

– Hanı o Abbas?

Dedi ki, Abbası axtarmaq isdiyirsən? Dedi:

– Bəli.

Çıxdı eşiyə. Rübəndi üzünnən götdü, səsləndi:

– Abbas o yanındakıdı elə.

– Abbas, Abbas.

Özünnən getdi qəşş elədi. Deyir, bir nəfər bı lənətini aparıb cəhənnəmə vasil elədi. Cəhənnəmə vasil eliyənnən

sora gəldi ki, Təhmasib özünə gəlmiyib. Hannan hana özünə gəlib yalvardı ki, indiyə kimi nə oldu, hər şey aşkar oldu. Səni aparacıyam, övrətimsən. Dedi ki, mən getmiyəcəm. Mən əhd eləmişəm necə ki canım var, Abbasın süpürgəçisiyəm. Onun qapısını süpürəciyəm. Deyir, Təhmasib getdi müşdəhidin yanına. Nə qədər yalvardısa, müşdəhid dedi:

– Onun işinə mən qarışammaram. Onun bircə əlacı var. Bir belə məktub yaz, rövzədən sal içəri. Səhər getginən onun cavabını götür. Nə olsa, onnan da hərəkət elə.

Təhmasib bir namə yazar, Həzrəti Abbasın rövzəsinə salar. Səhər gedər rövzədən bı məktubu götürər. Məktubun cavabında yazılıb ki, bala, qızım, mən səni bağışdıyıram mənim yolumda çəkdiyin əziyyətə görə. Niyyətinə çatdın. Səni də gördüm, düşməni də gördüm. İcazəni verirəm özünə. Qalarsan da yaxşı, gedərsən də yaxşı. Özün bilərsən, məsləhət sənindi. Mən bağışdıyıram.

Təhmasib həmən vaxtdan uşağı da, anasın da götürər qayıdar İran şəhərinə. Şah oğlu şah Abbas cənnətməkan həmən bı cavan oğlan olar.

## ŞAHA BEL BAĞLAMA

Bəhlul külü komalamışdı belə, satırdı. Allahverdi xan vəzirnən də Şah Abbas hamama gedirdi. Vəzir gəldi bunun yanına. Bildi ki, bunda bir əngəl var dana, külü komalıyıf oturuf böyründə. Dedi:

– A Bəhlul, o nədi?

Dedi:

– Küldü, satıram yüz tümənə.

Vəzir savatdı adam idi, çıxartdı verdi. Dedi:

– De görüm, bax bu kül nə olajax?

Dedi:

– Bu kül o adamın başına ki, şaha ehtibar eliyə.

– Bəs bu?

– Bu kül də o adamın başına ki, arvada sirr verə. Kişi olan sirrini gərəh arvada vermiyə.

– Bəs bu?

Dedi:

– Bu kül də o adamın başına ki, öz qohum-əqrabasını qoyuf yadı irəli çəkə, vəzifəyə qoya.

İndi bu gəlir Şah Abbasın yanına. Deyir:

– Ə, o dəliynən nə danışırdın?

Dedi :

– Əşi, heş-zad, elə-belə.

Daa bir söz demədi Şah Abbas buna. Gəldilər. İndi bu kül alıf axı. Üş yüz tümən pul verif. Fikirrəşdi ki, mən bunu nətər sınıyım. Vəzir idi da. Şahın da bir sevimli qoçu vardı, əl qoçu idi, elə qapıda-bajada hərrənirdi. Fikirrəşdi ki, şahın qoçunu gətirim, görəh şah bir qoşdan ötəri maa nağarajax. Neçə ildi buna vəzirrih eliyirəm. Həm də gətirəjəm, arvada deyəjəm ki, şahın qoçudu, arvad, birdən ağzınnan çıxar ha. Kəsəjəm yeyəh.

Axşam işdən çıxanda bir az gej çıxdı, qarannıx düşdü. Qoş elə orda hərrənirdi da. Buynuzunnan tutdu gətdi. Yolda

heş yadına düşmüyən bir qohumu vardı. Heş yadına düşmüyüf. Bu, bunun qavağına çıxdı. Dedi:

– Ə, bir dayan.

Dayandı. Dedi:

– Ə, bu qoçu verirəm sana, şahın qoçudu, apar. Şah bunnan ötəri bilirəm məni asdırajax. Gördün ki, məni asıllar, onda get qoçu gət, burax camaatın içinə.

Gəldi özünün heyvanı çox idi dana. Birini kəsdi, arvada dedi ki, bu şahın qoçudu ha, arvad. Elə tamehim keşdi buna, gətdim kəsdim. Birdən ağzınnan çıxa, deyərsən qonuma-qonşuya.

Dedi:

– Əşi, deməræm, niyə deyirəm, dəli deyiləm ha.

Bir-iki axşam keçənnən sora... Bu da gündə saraya gedir dana. Şahın qoçu yoxa çıxıf. Ora qoç, bura qoç, tapılmadı. Allahverdi xan vəzir axşam gəldi evə. Bir keçi bulantısı elədi, arvadı möhkəm döydü. Dedi, görüm açır sirri? Möhkəm ey, belə ustatdan gəlmə döydü. Ayannan arvad qayıtdı ki, bu da o döyül şahın qoçunu gətirif kəsif, yeyif, qızıf düşəsən mənim canıma. Bunu qonşu eşitdimi? Şah da qoçu gəzir. Xəbər çatdı ki, bəs qoçu Allahverdi xan vəzir oğurruyuf. Vəziri çağırdı, dedi:

– Ə, qoçu sən aparmısan? Mən burda üş gündü qoç gəzirəm. Mənim qoçumu niyə aparmısan?

Dedi:

– Şah sağ olsun, vallah, gedəndə qavağıma çıxdı, dedim heyvandı dana, apardım kəsdim. Mən kəsmişəm.

– Ə, sən dəlisən, nəsən? Cəllad, cəllad!

– Əşi, bir heyvannan ötəri məni asdırmıyassan ha. İkisin verim dana.

Dedi:

– Əşi, sən mana xəyanət eləmisən ey. Sabah da ayrı cür xəyanət eliyəssən mana. Sənin boynunu vurdurmalıyam.

Bunu çəkdilər dar ağacının yanına. Kəndiri tulladı xirtdəyinə. Can şirindi dana. Axı tapşırmışdı məni asanda gətir. Tez bu da getdi erkəyi gətdi buraxdı camaatın içinə. O dedi: "Ə,

padşahın erkəyi burdadı”. Bu dedi: “Ə, padşahın erkəyi burdadı”. Bunu saldılar aşağı. Erkəh gəldi çıxdı dana, bunu öldürmədi. Şah çağırdı yanına. Dedi ki, ə, zarafat eliyirdim ey, elə bilirdin səni öldürərəm? Sən mənim vəzirimsən.

Dedi:

– Əşi, ölmüşdüm dana. Kəndir buramda döylüydü? Da öldürürdün da məni. Neçə ildi burda yoldaşıx. Xeyrinə, şərinə, camaatına xeyir verən mənəm. Məni niyə öldürürsən bir toğludan ötəri?

– Ə, yox, belə, filan.

Dedi:

– Yox ey, mən sənnən qutardım. Sənə vəzirrih eləmirəm.

Nə qədər şah elədi, bu, vəzirriyi götürmədi. Yaxşı qoyunu, malı var idi. Dağıtdı hamısını yadına düşmüyən qohumlarına. Ona bir-iki inək, buna beş qoyun, ona on qoyun. Nəyi vardısa dağıtdı qohumlarına. Dedi:

– Da mən innən belə heç aylə də qurmuyajam. Dünyanın axırı bu döylü?

Bu dəxl eylədi, çıxdı getdi. Getdi bir tacirə nökər oldu. Allahverdi xan kimi bir vəzir köhnə paltar geyindi, getdi bir tacirə dedi ki, gəlim sənin yanına maa bir iş ver, işdiyim. Dedi ki, mənim dəyirmanım var, işdədə bilirsənsə, verim işdət. Gəldi girdi, başdadı orda işdəməyə. Köhnə paltar, una-zada bulanıf. Kimdi tanıyan bu Allahverdi xandı. Orda dolanırdı.

Camaat kasıflıx tapdı, təzə vəzir dolandıra bilmədi. Camaat çox pis günə qaldı. Ağsakqallar gəldi şahın yanına ki, əşi, sən bu vəziri neynədin. Onu tap gətginən. Camaat hamısı kasıf düşüf.

Dedi:

– Əşi, mən nə bilim hara gedif? Hardan tapım gətirim?

Bir ağsakqal kişi vardı. Dedi ki, Şah Abbas sağ olsun, mən sənə bir məsləhət eliyim, onda taparsan.

Dedi:

– Nətər?

Dedi:

– O hardadısa, kasıf-kusuf adamın evində olmaz. O tacirin yanında olar, varrı adamın.

– Bə nağarım?

Dedi:

– Qoyun sürüsünü gətir meydana, tərəzini də qoy qavağa. Zonanda nə qədər tacir varsa, çağır yanına. Hərəsinə bir heyvan ver. Çəkdir qafanda, ver. Beş kilo gələjəh, on kilo gələjəh, yüz kilo gələjəh. Adını yaz, qavağına da çəkisini yaz. Denən apar qırx gün saxla, qırx günnən soora gətir. Artıx da gəlsə, boynunu vurdurajam, əysih də. Həmin çəkini düz versin.

Heylə də eylədi. Bu tacirrər qaldı məhətdəl ki, qırx gün bunu saxlıyajam, kökələjəh, ot vermiyəjəm, arıxlıyajax. Mən nətər eliyim ki, qırx günnən soora həmən çəkini versin? Bekaf-bekaf bu tacir getdi dəyirmana. Dedi:

– Xozeyn, niyə bekafsan?

Dedi:

–Ə, demə, Allah evini yıxsın, padşah başımıza bir oyun açıf.

– Nədi?

Dedi:

– Belə-belə, bir heyvan verif ki, apar qırx gün saxla, qırx günnən soora gətir həmən çəkini versin. Artıx da gəlsə, boynunu vurdurajam, əysih də.

Bildi ki, bunnan ötəridi. Dedi:

– Əşi, o bekara şeydi, onu nə var saxlamağa.

Dedi:

– Nətər yanı? Qırx gün azdı? Bir ay on gün eliyir. Ya kökələjəh, ya arıxlıyajax.

Dedi:

– Qorxma, mən saxlıyaram. Get mana bir cüt canavar balasını ovçulardan al gət, bir də qoyunu gətir.

Gətirdi setka düzəltdi, canavar balalarını saldı birinə, qoyunu da birinə. Verirdi, yedirdirdi, axşama yaxın bir dəfə canavar balalarını buraxırdı bu setkanın içinə. Cumurdular ki, indi qoyunu yiyələr, bu da setkadadı dana. Qoyun tayfası da

canavardan qorxuf ət tökən olur. Tutduğu əti tökürmüş. Qafan da yanında idi dana. Beş günnən bir, on günnən bir qoyurdu qafana çəkirdi, görürdü hə.

Qırxıncı gün idi. Gedəjeydilər, tacirrər aparajeydi. Bu da gəldi.

– Ə, dəyirmançı, vəziyyət? Heyvan nətərdi?

Dedi:

– Ə, düzdü, qorxma. Su verməmişəm heyvana. Günorta-yatan bu heyvan su içmiyəjəh. Ora gedəndə günorta sula, yarım kilo əysihdi. Yarım kilo su içəjəh. Qoy qapana, düz gələjəh.

Bu da heyvanı götdü gəldi ki, camaat yığışıf, qapan quru-luf, çəkillər. Artıx gələni bir tərəfə yığıllar, əysih gələni bir tərəfə. Baxır ki, heş düz gələni yoxdu. Biri artıx gəlir, biri əysih gəlir. Şah deyif, cərgəyə yığıflar hamını. Bu da suladı, gətdi qoydu üs-dünə, bununku düz gəldi. Bu sevindi ki, sən öl, mənimki düz gəl-di. İndi padşah maa ənam verəjəh. Qapandar dedi ki, şah sağ ol-sun, tək bir nəfərinki düz gəlif. Qalanınkı gah artıxdı, gah əysih.

Dedi:

– O artıx gələni də burax getsin, əysih gələni də burax getsin. Düz gələni gətir mənim yanıma.

Bu dedi: "İndi mənim kefimdi dana. Mənimki düz gəldi".

Şah dedi:

– Ə, o heyvanı kim saxlıyıf, heylə düz gəldi?

Dedi:

– Heş kim, özüm saxlamışam.

Dedi:

– Bax, sana birinci dəfədən deyirəm, səni öldürəjəm, əyəm düzünü deməsən, boynunu vurdurajam. Düzü nədi, onu de maa.

Axı bu da ona and içif ki, sənin adını vermiyəjəm. Şah gördü ki, bu çox ayan-bəri eliyir, dedi:

– Ə, bunun boynunu verin kəndirə.

Kəndiri atdılar bunun boynuna, çəkdilər, xırtdaya-xırtdaya qaldı. Gördü ki, ölür dana. Əlini qaldırdı, saldılar aşağı. Dedi:

– De görüm kim saxlıyıf?

Bir də demiyəndə bir də saldı. Üş dəfə kəndiri bunun xirtdəyinə salanda gördü ki, da öldürəjəh bunu, əl çəkmir. Dedi:

– Əşi, mənim bir dəyirmançım var, o saxlıyıf.

Dedi:

– Bə bayaxdan deyirdin mən saxlamışam. Niyə boynuna almırsan?

Vəzirə dedi:

– Dur get, onu götür gəl.

Vəzir durdu bunnan gəldi. Allahverdi xan vəzir bilirdi ki, şah bunnan ötəri belə elyir. Vəzir gördü bu bir sifətdədi, – tanıyıllar da bir-birini, – köhnə paltar, un da vurufdu, heş tanımax olmur ki, bu Allahverdi xan vəzirdi. Dedi:

– Ay Allahverdi, gəlif bura niyə girmisən? Yekə kişisən, səni gəzməhdən yorulmuşam. Gəl, şah səni çağırır.

Dedi:

– Ə, şah məni neynir? Şah mənim boynumu vurdururdu bir toğludan ötəri. Mən gedif təzdənnən şaha vəzirrih eliyəjəm?

Dedi:

– Vallah, çağırır səni.

Götdülər gəldilər.

– Ə, hardasan Allahverdi xan vəzir? Səni gəzməhdən yorulmuşam.

Yalvar-yapış. Dedi:

– Şah sağ olsun, bir toğludan ötəri məni öldürürdün. Neynirsən məni? Mən sənə o qədər ki, xeyir verirdim, sən onu bilmədin.

Dedi:

– Yox ey, gəl vəzirriyi götür.

Baxdı ki, vəzifəyə qoyduğu adamlardı, buna gülüşüllər, özünün qohumları isə qalıf qıraxda. Fikirrəşdi ki, vəzirriyi götürüm, indiyətən yadıma düşmüyən qohumlarımı çəkim vəzifəyə, bunnarın da hamısını vurum salım, getsin, maa gülüşüllər. Heylə də elədi. Başdadı öz qohumlarının hamısını işə qoydu, yaxşı var verdi. Ölüncə də evlənmədi.

# ŞAHIN YUXUSU

Bir kişi olur. Evində kasıflıx olur, ayləsini dolandıra bilmir. Çox fikirri imiş. Arvad da bunun üzünü çox danıyırmış ki, evin tikilsin, camaatın kişilərinnən dala qalmısan sən, bir şey qazana bilmirsən. Buların da yaxınnığında İlannı dərə deyilən yer varmış, ilannar padşahı da burda yaşıyırmış. Kişi də canınnan bezir, deyir:

– Ə, sən öl, gedəjəm düz bu ilannar padşahının yanına, o məni çalsın, canım bu arvadın da əlinnən qutarsın.

Elə bu dəkqədə çapar gəlir:

– Ay haray, ay haray.

– Ə, noluf?

– Şah deyir ki, yuxu görmüşəm, bir yuxu yozan gətirin.

Kişi deyir ki, aha, tapdım. Sən öl, gedif yalannan-palannan bunun yuxusunu yozajam, görəh nətər olur. Çapara dedi ki, sən get, mən gəlirəm. Durdu, bu İlannı dərəynən gəlirdi. Gördü bir dənə kahanın qavağında bir ilandı, qalxıb quyruğunun üsdə, buna tamaşa eliyir. Dedi:

– Ə, nə baxırsan?

Dedi ki, baxıram görüm, hara gedirsən? Dedi:

– Gedirəm, şah yuxu görüb, onun yuxusunu yozam.

Dedi:

– Nə cür yozassan?

Dedi:

– Ə, nə bilim, ağlıma gələni danışajam.

Dedi:

– A bədbaxt, elə orda da boynunu vurajax. Şah sənə deyəjəh mən yuxuda nə görmüşəm? Sən onda ona denən ki, ay şah, sən yuxuda görmüsən ki, ətrafın canavara dönüb. Ehtiyatdı ol, sui-qəsçilər hazırraşıf səni öldürməlidi. Canını qutarmax üçün ehtiyatını əldən vermə. O yuxunu görüb, ged onu deginən, amma nə alsan, kişisən, yarı böləjeyih.

– Əyə, sən öl, hamısını saa gətirəjəm.

Düzəldi yola. Getdi şahın yanına. Şah dedi ki, ə, sən yuxunu yoza bilirsən?

Dedi:

– Hə.

Dedi:

– Nə görmüşəm yuxuda?

Dedi:

– Belə-belə.

Şah belə baxdı, baxdı, dedi:

– Ə, gedin iki dənə dəvəni yüklüyün, əlinizə nə gəlir, xələt-mələt, pul-para, yüklüyün verin bunun yedəyinə, aparsın. Sən öl, bu elə bil ki, şıxdı. Hər şeyi dəqiq dedi. Buna mühafizəçilər-zaddar.

Dedi:

– Heş nə lazım döylü. Maa bir dənə ağaşdan-zaddan verin, əlimə alım, dəvənin ovsarınnan tutum gedim.

Dəvənin ovsarınnan tutdu, gəldi. Dərəyə yaxınnaşanda dəvəni bağladı bir ağaca, dedi:

– Ə, gedim onnan hesabı çəkim, ona verdiyim bir dəvənin yükünü on il yeyəjəh uşaxlar.

Yaxınnaşanda gördü ilan gənə duruf, aralıdan buna tamaşa eliyir. Bunun da belində xançalı vardı, beyqəfildən xançalını çıxardanda ilan özünü verdi içəri. İlan özünü içəri verəndə bu xançalı atdı, xançal ilanın quyruğunu yaraladı.

Nəysə, bu xançalı götdü, dəvələri aldı yedəyinə, getdi. Getdi evə. Arvad dedi:

– Ə, kişi qazaşdan gəlir.

Töküldülər. Əşi, bunu gətir, onu götür. Bir müddət keşdi. Bir müddətdən sora şah adam göndərdi ki, yuxu görmüşəm, denən bura gəlsin. Bu durdu dedi ki, vay evi yıxılan canım, ilanı da vuruf yaralamışam. İndi mən nağarmalıyam? Sən öl, gedirəm ilanın yanına, deyəm, ə, məni çal, elə qoy yuvanın ağzında ölüm. Da bir də o şahın yanına getmiyin.

Bu gəldi. İlan çıxıf durufmuş, baxırdı buna. Gəldi belə keşdi, buna sarı yaxınnaşdı. Belə keşdi, belə keşdi. İlan dedi:

– Ə bilirəm, niyə şırmanırsan? Get ona denən ki, yuxuda görmüsən ki, göydən tülkü yağır. Ətrafın tülkü fason adamlarnan dolufdu. Sana yaltaxlanıllar, sana yalan sözdər deyillər, elə bilirsən ki, bular ayrı aləmdi. Özünü qoru olardan.

Gəldi kişi bunu deyəndə padşah dedi:

– Əyə, halal olsun buna. Əyə, gedin dörd dəvə yüklüyün, xəzinədən də qızıldan-zaddan buna xurcun tutun, verin aparsın. Bu mənim sağ əlimdi.

Bu dəfə gənə də dəvənin ovsarınnan tutuf gəlirdi. Dağın o biri tərəfinnən gəlirdi fikirrəşə-fikirrəşə: "Əyə, başın varsa, neynirəm bu dəvənin ikisinin yükünü aparım ilana verim. Elə dördünü də özüm aparım istifadə eliyim də. Heş ilanın da gözünə görükmüyüm. Elə bu dərəynən hərrənim gedim, girim evə". Belə də elədi. Apardı yükü boşaltdı. Bəy-xan kefində dolanırdı.

Ara bir xeylax keşdi, şah bunu bir də çağırdı. Dedi ki, deyin gəlsin bura, gənə yuxu görmüşəm. Dedi:

– Hə, da bu sondu.

Gəldi ilanın yanına. İlan dedi ki, bilirəm niyə gəlmisən. Get denən ki, sən gördün kü, yuxuda göydən qoyun yağır. İnsannar qoyun kimidi, hamı sakitdəşif. Qurd qoyunnan otduyan devrdi. Heş nədən çəkinəcəyin olmasın, qorxma daa, şahlığını elə.

Gəldi bunu deyəndə dedi:

– Ə, gedin altı dəvə yüklüyün, altısının da verin ovsarını bunun yedəyinə, aparsın evinə. Bu mənim sağ əlimdi.

Nəysə, dəvələri aldı yedəyinə, gəldi. Fikirrəşə-fikirrəşə gəlirdi. Dedi:

– Ə, altı dəvə aparıf böyüh sərvət sahibi olmuşam. Ölkədə ikinci şəxsəm. Məni xayişə aparan kim, məclisə çağıran kim. Bütün buları o ilanın sayəsində qazanmışam. Sən öl, bu

altı dəvənin altısını da aparajam onun yanına, deyəjəm, qardaş, halal-xoşun olsun. Altısını mən xarşdamışam, altısı da sənindi.

Belə də elədi. Gəldi dəvə yedəyində, altısını da cərgəy-nən ilanın yuvasının ağzına düzdü. İlan çıxdı, dedi:

– Ə, niyə gəlmisən?

Dedi ki, qardaş, özünə agahdı hər şey. Altı dəvə mən aparmışam, altı dəvə də saa gətirmişəm. Ala, halal-xoşun olsun. Dedi:

– Ay Allahın ağılsız bəndəsi, o altı dəvə mənim nəyimə lazımdı, onun üsdündəki mənim nəyimə lazımdı? Maa Allah-tala bu torpağı urza verif, bunu yalıyıf dolanıram, ömrümü başa vururam. Mana nə lazımdı qızıl-gümüş, pul-para? O sana dediyim yuxular devranın yuxularıydı. Canavar yağır deyəndə sən özün canavara dönmüşdün. Sən də o burulğandeydin. Xançalı atdın, quyruğumu yaraladın. Tülkünü dedim, sən də tülküyə döndün, oraynan xəlvət getdin. İndi qoyunu demişəm, sən də qoyun kimi gəlif boynunu bükmüsən yanımda, altı dəvəni təklif eliyirsən. Ə, yeri, götür get, apar ver balaların xaşdasın.

## SAVABIN XEYRİ

Şah Abbas cənnətməkan həftədə bir dəfə vəzir Allahverdi xanı alıf yanına, eli xəlvət dolaşırmış dərviş libasında ki, görüm elim, camaatım nə qayda dolanır, mənnən razı, narazı olan varmı? Bir gün də belə gedəndə eli hərrənir, bir kəntdə gejəliyəsi olullar. Neçə varrının qapısına gedillər, olara darvaza açan olmur. Bu da səfərə çıxmamışdan qavax əmr eliyir ki, bütün kəntdərdə işıx yanmıyajaxdı, tüsdü çıxmıyajaxdı. Nə ojax yanajax, nə çırax yanajax. Deyif, görüm mənim əmrimə kim tabe olmur. Görür şəhərdən kənarda bir işıltı gəlir, ordan tüsdü çıxır. Deyir:

– Ey Allahverdi, gedəh ora, görəh kimdi? Mənim əmrim niyə ona çatmıyıf, çatıfsa, niyə mənim əmrimə tabe deyil?

Gəlif görüllər ki, bir cındır kümədi. Kümənin qapısını döyəndə burdan mənim təki bir qoja ağaca dirənə-dirənə çıxır.

– Ay sizə qurvan olum, mənim də qapımı gejə vaxdı qonax döyərmiş. Kimsiz, ay dərviş baba?

Xoş-beş, buları evə keçirir. Azdan-çoxdan bulara verir, deyir:

– Bəs bir oğlum var, ay bala. Oğlum bir mülkədara çoban işdiyir, altı ayı bir toğluya. İndi buyünnəri mənim oğlum üş dənə toğlu alıf gətirəjəhdi, bir ilin hakkiyətidi. Oğlum gedif ki, ala gətirə, sabah oları kəsəh, bazara çıxardax. Gəlinim hamilədi. Gəlinim bari-həmlini yerə qoyanda ona xaşdıx üçün. İndi oturun, oğlum gələjəh.

Bir də görüllər, oğlu qavağında üş dənə toğlu gəldi. Oğlan deyir ki, ey qonax, mənim hələ indiyətən qapımı qonax aşmıyıfdı. Siz ki, Allah yolunda qonax gəlmisiz, nə yiyəssiz? Şah Abbas deyir ki, mən böyrəhdən başqa heş-zad yemərəm. Deyəndə bular çıxır ana-bala. Deyir:

– Ay bala, nağayrax, nətər eliyəh?

Deyir:

– Nənə, neyniyəjeyih. Bunu sabah bazara aparajeyih. Ya diri apardıx, ya ətini apardıx. Bunnarı kəsəh, böyrəhlərini

bişirəh, qonax yesin. Allahın hüzurunda qapımızı qonağ açıfdı. Qonağın urzası özünnən gələr, nənə. Ətdərini də sabah çıxardax İsfahan bazarında satax, gənə elə həmən pulumuz puldu.

Nənəsiynən razılaşıllar, toğluları kəsillər. Böyrəyi gətirillər. Şah Abbas deyir ki, olara deynən mən kimsəninsə yanında yemərəm. Təh bişirif, təh yeyərəm. Bunu gətirillər, verillər. Ojağı qalıyıllar, manqalı qoyullar Şah Abbasın yanında, özdəri çıxıllar. Şah Abbas böyrəyin yağınnan bir az ojağa salır iyini çıxardır, bir az cızıldadır. Bu böyrəhlərin altısını da qoyur öz kaşlyokuna, ağzını bağlıyır. Bular gəlir.

Axşam olur, yatanda qarı bulara yalvarır ki, sizə qurvan olum, bir dənə komadı. Gəlinimin vaxdıdı, bari-həmlini yerə qoyur. Elə bu qapıda sizə yer qayırım. Gəlinim bari-həmlini yerə qoysun, ayrı bir yerim yoxdu. Deyir:

– Eybi yoxdu.

Bunnara qapının ağzında yer qayırır. Bunnar yatanda Şah Abbas durur. Şah Abbas da elm adamımış da. Bilirdi ki, uşağ olanda onun taleyi yazılır. Durur, düz gətirir qapının ağzına yorğan-döşəyini salır ki, burdan mələk gəlif keçəndə onu görüm, onu tutum, deyim bu uşağın baxdını yaxşı yerə yazsın. Bunu yuxu tutur.

Nəysə, həmlini yerə qoyur, gəlir bunun bir oğul evladı olur. Oğlan evladı olanda Şah Abbası yuxu tutur, yatır. Bir mələh bunun taleyini yazıf çıxanda Şah Abbas oyanır, bunun yapışır biləyinnən. Deyir:

– Ey mələk, hardan gəlirsən?

Deyir ki, bəs beyjə bu evin sahibinin bir oğlan evladı dünyaya gəldi, onun taleyini yazıram. Dedi:

– Nə yazdın?

Dedi:

– Beyjə Şah Abbasın bir qız evladı dünyaya gəldi. Bu oğlanın taleyini yazdım Şah Abbasın qızının taleyinə. Amma Allah-taalanın izniynən oların on səkkiz il ömrü var. Olar bir-biriynən əhdi-peyman eliyif gərdəyə girən gejəsi bir-birinə

murad alıf murad verə bilmiyəjəhdi. Oları bir ilan çalıf ikisini də öldürəjəhdi.

Deyir:

– Yazıya pozu olarmı? Bunu poz.

Deyir:

– Yox, Allahın yazısına pozu yoxdu. Yazdım, getdi.

Mələk gedir. Bu durur, səhər açılır, gəlir çıxır taxdı-tacına. Deyir:

– Vəzir Allahverdi xan, bazara adam göndər, desin ki, xəsdəlih yayılıf, bazara kim ölü ət gətirsə, onu tutun gətirin.

Bu özü bilir ki, ət sabah bazara gedəsidi. Vəzir Allahverdi xan bazara çıxan təki görür qarıynan oğlu gətirir əti satır. Buları tutullar gətirillər. Bu nə qədər and-aman eliyir, vallah, sağlamdı, indi kəsmişəm. Deyir:

– Yox ey, şahın əmri var. Bazarda xəsdə ət satılır, camaata xəsdəlih düşür.

Bunu gətirəndə deyir:

– De görüm, bunu niyə satırsız?

Bu nağıl elədiyim təki deyir. Deyir:

– Vəzir Allahverdi xan, vəkil, gəlin görün inanarsuz bir adam bir il işdiyə, üş toğlu ala, üş toğlunu da bir qonağa kəsə. Buna kim inanar?

Hamı deyir, heylə şey ola bilməz. Bu adamın buna ehtiyacı var. Deyir:

– Ola bilməz? Vəzir Allahverdi xan, mənim kaşlyokumu gətir.

Gətirir.

– Badnos gətir.

Böyrəhləri götürür, deyir:

– Bu neçə qoyunun böyrəyidi.

Deyillər, üş qoyunun böyrəyidi. Deyir:

– Axşam bu qoyunnar məə kəsilif, bu da böyrəhləridi. Gedin bu adamların xurcununu doldurun qızılnan, gümüşnən, yola salın. O uşağı da gətirin, mən özüm böyüdəjəm.

Bu uşağı gətirir, elə bir bina tikdirir ki, bu binaya adicə hava da dolmağa yer olmur ha. Bütöy beton-sement tökür ki, bu uşağı mən böyüdəjəm, görəh yazıya pozu varmı? Mən qoymuyajam, bu ilan hardan girəjəh?

Bu uşaxlar böyüyür. On beş-on altı yaşına keçənnən soora buları salır bir otağa. Bu uşaxların yeməyin də Şah Abbas özü aparır, işməyini də, yerrərini də axşam olanda özü əlinnən salır. Səhər ertə özü gedir buların yeməyini öz əlinnən verir, buların yatağını da özü yığır ki, görüm bu ilan hardan gələjəhdi.

On səkkiz yaşdarı tamam olur. Həmin gejə buların kəbinnəri kəsilir. İndi bir-birinnən murad hasil eliyən gejədi. Gəlin gərdəyə gedir. Şah Abbas deyir:

– Heş kəs getmiyəjəh.

Həmən gejə özü çırağı aparır. Çırağı yandıranda ilan Allah-taalanın hökmüynən olur baş tükü, gəlir dolaşır Şah Abbasın biləyinə. Çırağın şüşəsinnən keçir, lalasınnan dolanır çırağın boynuna. Şah Abbas öz əliynən gətirir qoyur qızının otağına. Buların yerin döşüyüf salır, qapını bağlıyıf gedir. Buların da axşam azuqələrin gətirif qoyur stolun üsdünə ki, nə vaxt ajsaz, yeyərsiz.

Bu iki cavan bir-birinə o qədər aşiqi-məşuq olur, oynuyur, gülür ki, tamam buların yemək yadınnan çıxır. Bu ilan da Allah-taalanın hökmüynən keçir buların yatağının altına ki, bular yatan təki ikisini də öldürməlidi. Allahın əmridi, yazı belə yazılıf. Bir də görüllər çöldən nəysə zarıncı bir səs gəlir:

– Ay ev sahibi, ay burda kim var, ay ajınnan ölürəm, mənə imdad.

Bular pəncərədən baxıllar ki, bir aj sayıldı, yıxıla-yıxıla sürünür.

Deyir:

– De görəh, nə isdiyirsən?

Deyir:

– Üş gündü dilimə taarı tamı dəymir. Məə bir tam verin, gedə bilmirəm, – deyəndə bular biri-birinə deyir ki, biz neynirih yeməyi, onsuz da bizim oynamağımız-gülməyimiz bizim

üçün yeməhdi. Babam nə biləjəh ki, bunu kimə vermişih. Bular bir torbaya töküllər yeməyi, pəncərədən sallıyıllar ki, götür, qaş get. Elə bir yerdə ye ki, səni padşah görməsin, görsə, doğruyajaxdı. Bu yeməyini götürür, aparır yeyir. Arvadı da təzə hamiləlihdən qutarmışmış. Yediyin yeyir, yemədiyin aparır verir. Arvadı yeyir, döşünə süd gəlir, körpəsini mayalandırır. Allaha okqədər xoş gedir ki, əmr eliyir:

– Cəbrayıl, o ilana elə başağrısı verərsən ki, yatar, sabaha qədər yuxudan ayılmaz. O gəşdərin[24] hərəsinə yüz il ömür verdim. Yüz il olar ömür sürəjəhdi. Bu dünyanın da padşahlığın olara qismət elədim.

Nəysə, sabah açılır. Şah Abbasın gejə yerinə od doluf axı, beyjə bular ölməlidi. Tezdənnən durur gəlir. Qapını açır, görür nə? Elə bil evə nur saçılır. Gəşdərin üzünnən gül açılır, evə elə bil nur yayılıf. – “Ey İlahi, yazıya pozu olarmı?”

Cuma günü imiş. Çölə çıxanda görür Cənabi Cəbrayıl Allah-taalaynan söypətə gedir. Deyir:

– Ya Cəbrayıl, hara gedirsən?

Deyir:

– Allah-taalaya istahazaya gedirəm.

Deyir:

– Cəbrayıl, min kəlmə danış, min birinci kəlmə mənim ərzimi Allah-taalaya ərz eylə ki, yazıya pozu olarmı?

Gedir Cəbrayıl Allah-taalaynan söypət edir min kəlmə, min birincidə deyir:

– Ya Allahım, bir şəxs dedi ki, de görüm, yazıya pozu olarmı?

Allah-taala deyir:

– Yazıya pozu olmaz, amma savabın xətrinə ola bilər. Get öz əlinnən o uşaxların yatdığı döşəyin altını qalxız. Onda görəssən, yazıya pozu var, yoxdu.

Cəbrayıl qayıdıf gələndə Şah Abbas bunun yolunu kəsir:

[24] Gəşdərin – gənclərin

– Ya peyğəmbər, canım saa fəda, Allah-taaladan mənim kalamımı aldınmı?

Deyir:

– Aldım.

Deyir:

– Allah-taala nə dedi?

Deyir:

– Allah-taala bir söz deməmədi. Gəl, görəjeyih.

Gedir uşaxların döşəyini qalxızanda görür nə? Burda bir ilan yatıfdı, inan ki, bu adamların beşini də birdən udar. Deyir:

– Görürsən? Get uşaxlardan soruş, görəh beyjə olar nə savaf eliyif ki, Allah-taalaya xoş gəlif, Allah-taala olara bir belə də ömür verif. Allah-taala bu ilana baş ağrısı verif, bu hələ də yuxudan ayılmıyıf.

Cəbrayıl bu ilanı götürür atır pencərədən, deyir:

– Allahın heyvanı, çıx get. De görüm, bura nə löyünnən gəldin?

İlan dil açır, deyir ki, bəs bir tük şəklində Şah Abbasın qoluna dolandım, çırağın şüşəsinnən keşdim, gəldim bura. Beyjə o uşaxların ikisini də mən zəhərriyif öldürməli idim, Allah-taala mənə bir dərd verdi, yatmışam, yuxudan ayılmamışam.

Uşaxlara deyəndə uşaxlar deyir:

–Vallah, ay ata, Allahdan gizdin olmuyan sözü sənnən niyə gizdədəh. Beyjəki tamımızı biz yemədik. Bir sayıl gəlmişdi. Onu tökdük torbaya, salladıx, o sayıl yedi, Allaha yalvara-yalvara getdi.

Deyir:

– Hə.

Həmən o sayılın arvadının döşündə maya yoxudu körpəsini mayalandıra. Uşağ ölüm ayağında idi. Üş cana bu uşaxlar can verdi, üş nəfəsi yaşatdı. Allaha xoş getdi, ona görə bulara yüz il ömür verdi. Yazıya da pozu yoxdu. Allah o savabı ofsanata saldı. Yazıya pozu yoxdu, amma ofsanat var. Oların gördüyü ofsanatdı. İndi Allah-taala o ofsanatdan bizim əlimizi əysih eləməsin. Heylə ofsanatdar daim bizim qarşımıza çıxannardan olsun.

## BACI HƏSRƏTİ

Deyir, bir kişi olur, naxırçı olur. Günü bir çörəyə kəndin malını-qoyununu otarırdı. Bir gün gedir, düzdə oturuf fikirrəşəndə bunun gözünə ağ bürüncəhli bir kişi görünür. Gəlir buna salam verir, salam alır. Deyir, bəs sənin ömrün yaxınnaşıf, mən gəlmişəm sənin canu almağa. Deyəndə bu yalvarır-yapışır. Deyir:

– Ay Azreyil, mənim canımı alma. Qoy gedim, həm çarığım köhnədi, arz eləmişəm ki, Allah, pulum olsun, bircə təzə çarığ alıf ayağıma geyinim. Həm də qərif diyarda bir bajım var, neçə ildi o bajımnan görüşməmişəm. Gedim onnan halallaşım, gəlim.

Buna Azreyil deyir:

– Səə üş gün möhlət verdim, get bajınnan halallaş, gəl.

Bu durur gəlir çarıxçının yanına. Çarıxçıya zakaz verir, ayağın ölçdürür. Çarıxçının böyründə suyun içində balıxlar varmış. Balıx baş qaldırır, başdıyır qakqıldıyıf gülməyə. Bu deyir ki, bu nə olan şeydi, balıxlar niyə güldü? Bir dənə bilici tapıllar. Bilici deyir ki, a kişi, sənin üşcə gün ömrün qalıf, sən bir həftəyə zakaz vermisən, çarıx tikdirirsən. Balıxlar gülür ki, sən üş günə qədər ölüf gedəssən, o çarığı niyə tikdirirsən.

Deyir:

– Mən möhlət almışam.

Gəlir arvada deyir:

– Arvad, dur heyvəmə çörəh qoy, gedirəm bajımnan halallaşmağa.

Arvad deyir:

– A kişi, bajuu yanına bir aylıx yoldu. Gedərsən, yolda ölüf qalarsan. Qojalmısan, heydən düşmüsən. Bajın hardan yaduva düşdü?

Deyir:

– Yox ey, olmaz. Gedəjəm bajımnan halallaşmağa. Ölümitim dünyasıdı.

Nəysə, arvad durur bir az çörəh qoyur dəstərxanına, götürür gəlir. Yolda gələndə görür ki, bir meyid aparıllar basdırmağa. Bu meyitdən keşmir. Düşür bu meyidin arxasına, meyidin namazına durur, basdırılır, bunun fatihəsi verilir. Camaat dağılannan soora durur yoluna rəvan olur. Bu, Allah-taalaya xoş gəlir. Allah-taala onun ömrünü on il uzadır. Deyir: "Bu adam ki, ölüdən keşmədi, Qurannan, namazdan keşmədi, on il ona ömür verdim, Cəbrayıl".

Bu soora keçif gedir. Görür ki, heymədə bir nurani şəxs oturuf Quran oxuyur. Burdan da keşmir. Oturur, bu, Quranı qutarana qədər buna qulağ asır. Deyir: "Heç olmasa qulağ asım da, ömrümün axır çağıdı". Allaha bu da xoş gedir. Cəbrayıla əmr eliyir ki, o ki Qurannan keçif getmədi, on il ona ömür verdim, getsin yaşasın.

Gəlir bajısının yanına. Bajısınnan halal-hümmət eliyir. Bajısı deyir:

– Ay qardaş, gəlmişkən bir həftə qal.

Deyir:

– Yox ey, ay bajı, buyünnəri qayıtmalıyam.

Bajısıynan görüşəndə bajısı okqədər sevinir ki, Allah-taalaya xoş gedir. Allah-taala deyir:

– Cəbrayıl, bajısını sevindirdiyinə görə on il də ömür verdim, getsin yaşasın.

Bajısıynan görüşür, qayıdır gəlir. Kişi gəlir oturur, qüsulun verir, paklaşır. Yönü qivləyə uzanır, kəlmeyi-şəhadətin oxuyur ki, ta mən ölməliyəm də. Vaxdım üş gündü, o da tamam oldu. Ha gözdüyür, ölmür. Axşam olur, ölmür, sabah olur, ölmür. Deyir: "Bu nə olan şeydi?" Nə qədər gözdüyür, gözdüyür. Axırısı gəlir Azreyilnən görüşdüyü yerə. Deyir: "Gedim, görüm nətər oldu. Bəlkə Azreyil özü öldü, gəlif mənim canımı almadı? Gedim, görüm oralarda var, yoxdu".

Gələndə bunun gözünə gənə bir şəxs görükür. Qurban olduğum peyğəmbərlərin səması bunun gözünə görükür. Deyir:

– Ya peyğəmbər, bu nejə olan şeydi. Bəs yazıya pozu varmı? Mən öləsi idim, niyə ölmədim?

Deyir:

– De görüm bajının yanına gedəndə haralarda nə görmüsən?

Deyir:

– Vallah, gedəndə yolda gördüm bir tabut aparıllar. Tabutdan keşmədim, o şəxsin namazına durdum. Onu qavıra qoyuf basdırana qədər gözdədim. Bunu görmüşəm. Bir də getdim gördüm bir nurani şəxs Quran oxuyur. Ona çox marağım oldu, Quran oxunuf qutarana qədər keşmədim. Soora da getdim bajımnan görüşdüm. Bajım da çox sevindi.

Deyir:

– Hə. Meyiddən keşmədiyin üçün Allah-taala səə on il ömür verdi. On il Qurana qulağ asdığına görə, on il də bajının ürəyini şad elədiyinə görə. Allah-taala səə otuz il ömür verif. Ruzanı da bol eliyəjəh, get yaşa.

Deyək, yaxşılığına görə Allah-taala bunun yazısını pozdu.

## ALLAH XOFU

Günnərin bir günü bir yahudi olur, bu yahudinin iki övladı olur. Özü də sərkərdə olur həmən yahudi. Bu yahudi oğlannarın çağırtdırır yanına. Deyir:

– Oğlum, sizdən bir xayişim var. Mən sizə vəsiyə eliyim. Kimin qəlbində Allah xofu varsa, mənim yarağımı, yasağımı, atımı ona verərsız.

Bu vəsiyyəti eliyənnən sora canın tapşırır. Qırxı da çıxır. Kiçik qardaş böyük qardaşın çağırır. Deyir ki, mənim qəlbimdə Allah xofu var, yarax-yasax maa çatajax. Böyük qardaş deyir, yox maa çatajax, ortancıl deyir, yox maa çatajax. Deyir, yox, bu işdəri aşsa-aşsa, Əli Əleyhsalam açajax. Gəlillər üçü də Əli Əleyhsalama qonax olurlar.

– Salamı əlöykü.

– Əlöykət salam.

Əli Əleyhsalam buları çağıtdırır çay işməyə. Xanım Fatmeyi Zəhra təndir odduyurmuş. Deyir:

– Xeyir ola.

Bular əhvalatı açıf deyillər. Deyir:

– Yaxşı, onnan asand nə var ki?

Qəmbər ləqəbin Əli Əleyhsalam qoyuf ona, əsl adı Qulamdı. Bu Qəmbər də oturmuşmuş. Fatmeyi-Zəhranı Əli Əleyhsalam çağırır, deyir ki, əmi qızı, təndir qızaranda bizə xəbər eliyərsən. Deyir ki, baş üsdə. Məqam çatır, Əli Əleyhsalamı çağırır ki, təndir qızarır. Üç qardaşın üçün də götürür, Qəmbər də qapıda hərrənirmiş, gətirif təndirin başına. Deyir:

– Allah xofu var qəlbizdə?

Deyillər:

– Bəli, var.

Deyir:

– Əgər qəlbizdə Allah xofu varsa, özüzü atın təndirə.

Neyniyir, bu üş qardaşın heş biri özün təndirə atmır. Çağırır, Qəmbər, Qəmbər. Qəmbər gəlir. Deyir, eşidirəm, ağa.

Deyir, Qəmbər özu at təndirə. Qəmbər özünü atır təndirə. Üsdünün gül ləçəklərin çırpa-çırpa çıxır təndirdən. Deyir:

– Qəlbində Allah xofu olan Qəmbər kimi olar. Sizin heç birizin qəlbində Allah xofu yoxdu. Amma bu gecə qonağımsız.

Heç birinə heç nə demir. Gecənin bir aləmində buların üçün də durğuzur, Qəmbəri də durğuzur ki, durun səfərə çıxırıx. Az gedillər, çox gedillər. Bir xeylax gedənnən sora başqa bir məmləkətin yaxınnığında səhərə yaxın deyir, üçünüz gedin odun-ojax dalınca, mən Qəmbəri göndərirəm getsin ət alsın. Qəmbər gedir ət almağa. Görür kü, sallaxxana doludu ətnən. Hər tərəfdə gözəl-gözəl ətdər var. Amma bir qəssab var, bunun sallaxxanasında ətdər dümsarıdı, dakqanax sümükdü. Amma deyir ki, Əli hakqı, nə bir qıram kəm çəkmərəm, nə bir quruş artıx almaram. Bu adamın nööbəsi hədinnən artıx çoxdu. Gəlir durur nööbəyə. Qara pulları da Əli Əleyhsalam tökmüşmüş bunun ovcuna. Nööbəsi çatanda deyir, maa dörd kilo ət ver. Tay demir, dolmalıx ver, souzdux ver, kabablıx ver. Elə deyir, maa dörd kilo ət ver. Pulu da tökür avcına. Sayır görür ki, dörd kilo ətin qiymətidi. Qəmbər əti gətirir. Əli Əleyhsalam deyir ki, Qəmbər, bu nə ətdi alıf gətirmisən? Bu heş nəyə yarıyan deyil. Get, ət al, gətir. Gedir gənə nööbəyə durur. Qəssab deyir:

– Nə isdiyirsən?

Deyir:

– Ağam dedi ki, ayrı ət versin, verdiyi teyxa sümükdü.

Gətirir bu dəfə də teyxa ət verir. Əli Əleyhsalam deyir:

– Qəmbər, bu dolma bişirmək üçündü. Burda nəyin üsdündə bunu doğruyajeyih, dolmalıx eliyəjeyih? Get denən ağam deyir ki, mənim pulumu versin, ət lazım deyil.

Gedir nööbəyə durur. Qəssab deyir ki, indi nə isdiyirsən? Deyir ki, ağam dedi, mənim öz pulumu versin, ət isdəmirəm. Gətirir dörd kilo ətin pulun verir. Amma baxır görür ki, bu tamam başqa puldu. Bular süpürrəşillər, o içəridən, bu çöldən. Qəmbər sərkərdə, bu da ki, qəssab. Əli Əleyhsalama agah idi,

bilirdi nədən ötəri gedir. Bular başdıyır bir-birin qırmağa. Əli Əleyhsalam çatır, deyir ki, nədi, niyə dalaşırsız? Qəssab deyir:

– Bəs belə-belə.

Deyir:

– Düz deyir, öz pulunu verəydin.

Deyir:

– Mən nə bilim onun pulu hansıdı?

Deyir:

– Daxılı çək, öz pullarım özümə gələjək.

Daxılı çəkir, pullar bir-bir dolur Əli Əleyhsalamın ovcuna. Deyir:

– Bəli, mənim öz pullarım düzdü.

Qəssab tükanı bağlıyır. Deyir:

– De görüm, sən kimsən?

Deyir:

– Bil və agah ol ku, mən Əli Əleyhsalamam. Qəssab deyir ki, mən səni göydə gəzirdim, yerdə tapmışam. Bu gün mənim qonağımsız.

Həmən o üç yahudini də çağıtdırıf gətirdir. Bular hamısı düşür bunun dalınca gedir. Getdikləri məmləkətdə də şah elə bir xəsdəliyə düçar olur ki, buna müsəlman qanı lazım olur. Bu məmləkətdə də yeganə müsəlman insan bu qəssab olur, onun ayləsi olur, bir də bir övladı var, o olur. Əli Əleyhsalam deyir:

– Neyçün məni gəzirdin?

Deyir:

– On yeddi ildi evlənmişdim, mənim övladım olmurdu. İndi mənim əlhəmdülillah beş yaşında bir oğlum var. Bir imarət tikdirmişəm, o imarətə quş quşduğuynan ayax qoymu-yuf. Arz eləmişəm ki, Əlinin adına and verirəm, Allah-taala mana bir övlad versin, bir imarət tikdirim, o imarətə birinci Əli Əleyhsalam ayax bassın. Əlhəmdülillah, gəlmisən.

Gedillər girillər içəri. Salam-kalamdan sora bu körpə Əli Əleyhsalamdan əl çəkmir. Gedir-gəlir bunun əbasınnan

öpür, əlinnən öpür, üzünnən öpür. Yemək bişir, hala gəlmək məqamında darvaza döyülür.

– Qəssab evdədi?

– Bəli, evdədi.

Çağırır, qəssab gəlir.

– Eşidirəm.

– Bəs ya sən getməlisən, ya övradın getməlidi, ya oğlun getməlidi. Şahın hüzurunda kəsilməlisiz, isdi-isdi şah qanızı işsin ki, sağalsın. Bu məmləkətdə sizdən başqa müsəlman yoxdu.

Arvad kişinin üzünə baxır, kişi arvadın üzünə baxır. Uşax da Əli Əleyhsalamın yanındaymış. Uşax gəlir atasın-anasın yanına. Qəssab arvadına deyir ki, qonağın yanında mən səni kəssəm, düz gəlmiyəjəh, mən o uşağı saxlıya bilmiyəjəm. Mən kəsilsəm, sən uşağı saxlıya bilmiyəssən. Gətir uşağı kəsək, qanın verək, bu məlun aparsın. Belə də eliyir. Qanın yığıf aparıllar. Məqam çatır, yemək ortalığa gələndə Əli Əleyhasalam az gözdüyür, uşax gəlmir, çox gözdüyür, gəlmir. Qəssabın adı Məhəmməd imiş. Deyir:

– Məhəmməd, uşax nejoldu? Mənim çox xoşuma gəlirdi?

Deyir:

– Çöldə oynuyur, anasının yanında.

Bir deyir, iki deyir, beş deyir, on deyir. Deyir:

– Məhəmməd, sənin rəngin bayaxkı rəng deyil. Uşax hanı?

Qəssab başına gələni Əli Əleyhsalama danışır. Deyir:

– Get uşağı qüsulla, götür gəl.

Uşağı qüsulluyuf gətirir. Əli Əleyhsalam bəlğəminnən çəkir uşağın kəsilmiş yerinə, oturur iki rükət namaz qılır, Allaha dua eliyir, uşax ayılır. Bu yahudilər də həmən məqamda Əli Əleyhsalama baxırdılar. Deyir:

– Qəlbində Allah xofu olan Məhəmməd kimi olar, Məhəmmədin övradı kimi olar, Məhəmmədin oğlu kimi olar. Qəmbəri gördün, qızarmış təndirə necə atıldı düşdü? Bugünkü günü də sizə gösdərmək üçün sizi mən qonax saxladım. Heç birizin qəlbində Allah xofu yoxdu.

Onnan sora yahudinin oğlannarı iman gətirillər, şəhadət verillər, dönüf olurlar müsəlman.

## ALTI MANATIN MİSALI

Bir gün Fatimeyi-Zəhra əleyhəssalam İmam Hüseynəmi, İmam Həsənəmi hamilə idi. Həzrət Əlinin gözünə bir az fikirri kimi görünür. Həzrət Əli deyir ki, əmi qızı, niyə belə fikirri görükürsən. Deyir:

– Ya Əli, evdə cəmisi altı maatımız var. Unumuz da yoxdu, yeməyə ərzağımız yoxdu. Amma sənnən niyə danım ki, ürəyim də nar isdiyir.

Nar da bazarda pula gedən şey imiş. Həzrət Əli deyir ki, sən niyə heylə şeyə qızırqalanırsan. O altı maatı gətir maa, mən gedif alıf gətirərəm. Durur, o altı maatı qoyur civinə, küçəynən bazara tərəf gedir. Görür ki, küçənin ortasında bir nəfəri şappaşap döyür beş-altı nəfər. Yaxınnaşır, deyir:

– Ə, bir dayanın.

Hamı dayanır. Bunu tanıyıllar bu kimdi.

– Ə, onu niyə döyürsünüz, o yazığı niyə belə kökə salırsınız?

Deyir ki, iki ildi mənnən altı maat pul alıf, onu vermir. Deyəndə bunun da civindəki elə odu da. Çıxardır bunu verir, deyir ki, mən ödüyərəm onu. Yazıxdı, niyə döyüf öldürürsünüz. Buraxın, çıxsın getsin.

Nəysə, bunu alır əldən, boşduyur. Pul qalmadı axı. Əli boş, elə fikirri-fikirri bazara tərəf gedir ki, tanışa-zada rast gəlsəm, onnan alaram. Fatma nar isdiyir, gərəh onu alam aparam. Görür bir nəfər bazarın girəcəyində çağırır:

– Ya Əli, sənnən işim var, bərdən gəl. Ya Əli, sənnən işim var, bərdən gəl.

Bu yaxınnaşır. Görür dəvənin ovsarınnan tutuf beləsinə duruf:

– A qardaş, xeyirdimi?

Deyir ki, ya Əli, başına dönüm, iki gündü bu dəvəni tutmuşam yedəyimdə, pula getmir. Bir adam gəlif soruşmur ki, ayə, bunu satırsan, satmırsan? Sənin qadan alım, sən tut bunun ipin-

nən, bəlkə mənim elə baxdım açıla. Özüm də filan yerdən gəlmişəm, yolum da uzax. Belə deyəndə Əli deyir ki, nolar, ver maa.

Həzrət Əli ovsardan tutanda dəvə yiyəsi deyir ki, ya Əli, sana qurvan olum, mən gedim bircə isdəkan su içim, ona qədər müşdəri gəlsə, bax, min beş yüz maata bu dəvəni ver. Deyir ki, ayə, dəvəni ucuz deyirsən axı. Dəvənin biri bu saatdarı iki min, üş mindi. Sən ucuz deyirsən. Deyir:

– Saa qurvan olum, min beş yüzə ver, onnan artığa vermə.

Nəysə, bu deyir, gedir. Bu ayna gedən kimi ayrısı gəlir:

– Ya Əli, bu dəvəni satırsan?

Deyir:

– Hə, satıram.

– Dəvəyə nə verim?

Deyir:

– Yiyəsi deyir ki, min beş yüz maat versin.

Deyir:

– Əşi, sən nə danışırsan. Yox, mən o qiymətə alammaram.

– Bəs nə qədər verirsən?

Deyir:

– O dəvəyə iki min bir yüz maat pul verirəm.

– Ayə, o kişi deyif ki, min beş yüzdən artığa vermə.

Deyir ki, ya Əli, başaa dönüm, mən səni tanıyıram, burda axı düzgün olmur, dəvənin qiymətini çox ucuz deyirsən. Ala bu iki min bir yüzü. Sayır verir Həzrət Əliyə. Deyir ki, dəvəni ver maa, gedim. Dəvəni verir, bu, götürüf gedir.

Bu ayna gedən kimi dəvə yiyəsi gəlir.

– Ya Əli, deyəsən, dəvəni satmısan?

Dedi:

– Hə, satmışam.

– Məən pulumu verirsənmi?

Çıxardır iki min bir yüz maatı. Deyir ki, bax, iki min bir yüz maata satdım. Deyir:

– Başına dönüm, adamın ağzınnan söz çıxar. Bəs sən özün düzgünnühdən, mərhəmətdən danışırsan, mən dediyim sözü

niyə belə eliyirsən sən. Mənim min beş yüz maatımı ver, mən iki min bir yüzü isdəmirəm.

Nə qədər eliyirsə, görür yox ey, əmələ gəlmir. Axırı min beş yüz maatı sayır, verir.

Deyir:

– Bə bu altı yüz.

Deyir:

– Halal xoşun olsun, sən satmısan, dəllal puludu, sənin olsun.

Bu altı yüz maatı qoyur civinə, fikirri-fikirri gəlir: “Əyə, mən bunu xaşdıyım, xaşdamıyım”. Elə bu dəkqədə peyğəmbərimiz Həzrəti Məhəmməd böyürdən çıxır.

– Ə, əmioğlu, niyə fikirrisən?

Deyir ki, vallah, əmioğlu, hal-qəziyyə belə-belə. Azuqəmiz yoxdu, Fatma mənnən həm azuqə isdiyif, həm nar isdiyif. Belə bir işə düşmüşəm, pul da qalıf əlimdə. Mən indi nətər eliyim, nətər olsun ki, halal olsun.

Deyir:

– Əmioğlu, iki gün bunnan qabax mən moizə eliyəndə orda dedim biri darda qalanı dardan qutarsa, bir yoxsulu çətin vəziyyətdən çıxarsa, əgər ona beş maat xaşdamısansa, Allah on qat onun əvəzini saa çatdırajax. İndi sən altı maat verif bir can xilas eləmisən, Allah da on qat əvəzini saa yetirif da. Get rahat onu xaşdaginən, evinə ayın-oyun al, apar.

## MUSA ALLAHI QONAQ ÇAĞIRIR

Bir gün Musa peyğəmbər Allah-taalanın yanına gedir. Deyir:

– Ya ilahə-illallah, bütün peyğəmbərlərin sahibi sənsən, amma heş kimə qonax getməmisən. Mən istiyirəm mana qonax gələsən.

Deyir:

– Ya Musa, yeyən döyüləm, içən döyüləm, heş kimə görükməmişəm. Get millətini dolandır. Tohit dininə amin de.

Deyir ki, yox. Mən istiyirəm sən mənə qonax gələsən, camahat görə, fironnar bilə ki, Musa nə cür peyğəmbərdi.

Deyir:

– Get, şənbə günü sana qonağam.

Gəldi milləti, qohum-əqrəbəni çağırdı, qazanı asdılar, bildirçin ətinətən kabab bişirən, aş dəmləyən. Sara adında bir qız burda qulluğ eliyirdi. Bu eynidə yaxında bir evdə bir zahı gəlin varıydı. Bağışda, ifadəmə görə üzr istiyirəm. Evdə heş nə yoxuydu. Gəlin uşağı doğuf, uşağ ağlıyır. Ananı hal aparıf, qüvvəsizdıx əldən salır, yemağın da iyi gəlir. Bu dəkkədə akuşkənin altına bir dilənçi gəlir. Dilənçi akuşkəni tıkqıldadır, deyir:

– Ay bajı, kim var evdə?

Bu zarıyır, deyir:

– Mənəm, ay bajı, kimsən?

Deyir:

– Mən dilənçiyəm.

Deyir:

– Vallah, sənin genə ayağın yeriyir, gedirsən. O iy gələn tərəfə get. Mən təzə zahı yatmışam, halım pisdi, durmağa imkanım yoxdu. Qarnım da ajdı.

Deyir:

– Bajı, onda gedim, bir şey tapsam, sana da gətirərəm.

Bu yaxın gəlir. Kimə deyirsə, heş kim bunu yaxına buraxmır. Həmin Sara qulluğ eliyirdi burda. Buna yaxınnaşır, deyir:

– Bacılı, Allah verdığı o bərəkətdən bir avıc bir yarpağa bük ver mana, Allah əvəzin verər.

Deyir ki, mənim ixtiyarım çatmır, mən qulluxçuyam. Qoy gedim aşpazın yanına. Aşpazın yanına gedir. Deyir, get peyğəmbərin yanına. Mana deyif ki, qazanın ağzını Allah gələnə kimi aşma. Bu dəkkədə peyğəmbər yaxınnaşır:

– Sara, nə iş görürsən?

Deyir ki, ya peyğəmbər, bir qab yemağ istiyirəm, bir dilənçi var ona verəm, bəlkə savaba yetər.

Deyir:

– Dilənçi-milənçi yeri döyül bura. Allah gəlməmiş qazannarın ağzın heş kim aça bilməz.

Bir az ayana gedir. Deyir:

– Ya peyğəmbər, bir ayağını saxla.

Saxlıyır. Deyir ki, Allah məni sana nökər yaratmıyıf ki? Deyir:

– Yox.

Deyir:

– Özün çağırmısan. Mən burda yeməliyəm, axşam da beş dinarımı verməlisən?

Deyir:

– Hə.

Deyir:

– Yemağımı indi ver. Bəlkə Allah gəlmiyəjehdi.

Deyir:

– Ay xanım, qoy qazanın ağzı açılsın, onnan sonra.

Deyir:

– Mən nə xanım döyüləm, nə də Allahı gözdüyən döyüləm. Mənim payımı ver özümə.

Qayıdır deyir ki, aşpaz, bişmişlərdən bir qab düzəlt, ver bu Sara yesin. Ağanın malı gedir, nökərin canı. Aşpazdan nə

gedir? Bir qabı doldurur verir. Sara bir turp yarpağını qoyur yemağın üstünə, gətirir dilənçiyə verir. Deyir:

– Ay bajı, ala apar. İmkan ola qabı gətir, olmaz da mən xəjalət qalajam.

Deyir ki, yox, qabı gətirəjəm, amma bu yemağı çatdırım zahıya. Gətirir akuşkəni döyür. Gəlin deyir ki, gəl içəri, qapı açıxdı. İçəri gedir-getmir, dilənçi yeyir-yemir, buna sözüm yoxdu. Bu gəlin yeyir, yedıxca özünə gəlir. Qarnı doyannan sonra əllərin silir ətəyinə, deyir:

– Xudabənd aləm, aləmləri yaradan Allah, qiyamətin günündə, aləmin dibində peyğəmbər nəslinə hesabat verəndə bu qadını orda şəfaətçi elə, bütün müsəlman xalqına şəfaətçi olsun. Mənim qarnımı doyurdu, Allah, sən öz nurunnan bu gəlinin savabını müstəcəb elə.

Boşqabı da gətirif verillər Saraya. Dilənçi də çıxır gedir, zahı da uşağın əmizdirir yatır.

Gejə peyğəmbər də, Sara da yuxuda görür ki, qırx dəvə ləngər salıf, nurnan yüklüdü. Bir körpüdən keçir, körpü ləngər verir. Bir tacir çıxır qabağına ki, bu dəvələrin qiyməti nədi, onu mən verim, dəvənin avsarın burax getsin. Deyir ki, yox, bu dəvələrin qiymətin ancax Sara öz savabıynan ala bilər. Yoxsa bir belə qızıl, ləl-cəvahir versəniz, heç birinin qiymətin ödəmir. Bunu peyğəmbər də yuxuda görür. Sara şükür eliyir Allahın varlığına ki, ey Xudabənd aləm, mən bir öynə aj qaldım, yemədim, o saili boş qaytarmadım, o zahının qarnın doyurdum, mana o bəsdi.

Səhər Musa gəlir. Deyir ki, Sara, yaxın gəl. Gəlir.

Deyir:

– Sara, bu gejə yuxuda görmüşəm...

Deyir:

– Ya peyğəmbər, görduğunu mən də görmüşəm, heç ağzı açma.

Deyir:

– And olsun yaradanın qüdrətinə, bütün varidatımı, bütün nəsilləmə nə xərcim var, son qəpiyinə qədər verirəm sana. Tək bircə dəvənin yükü savabı ver mana.

Deyir:

– Ya peyğəmbər, istiyirsən yeddi arxa ölənlərimi də qaytarıf təzdən dirildəsən, genə verməɾəm.

Səhər yol alır peyğəmbər Turi-Sənaya. Min danışır, min birdə səda gəlir:

– Ya Musa, nəyə gəlmisən?

Deyir:

– Ya Xudabənd aləm, ola bilərmi ki, sizdə də yalan olsun. Bəs sən dedin qonax gələjəm, niyə gəlmədin?

Deyir:

– Ya Musa, gəldim. Həmin o dilənçi kim idi? Mən idim da. Gəldim, vermədin.

Deyir ki, əşi, bir heylə əziyyətnən qazannar asdırdım, filan. Bəs onun savabı? Deyir:

– Savabını sana yuxuda bəyan elədim. Savabı Sara qazandı. Öz qarnın aj saxladı, payın verdi sailə. Sail də çatdırdı zahıya.

İndi hər adam ehsan verir. O ehsanatın hamısı qəbul olmur. Yüz tikədən bircəciyi qəbul olur, o da kimin bəxtinə düşə.

# SÜLEYMAN PEYĞƏMBƏR VƏ BAYQUŞ

Süleyman peyğəmbər gedirmiş yolnan. Gəlir çıxır bir bulağın başına. Görür ki, bir gözəl qız var. Yanındakına deyir ki, bu qızı aparacam. Deyir:

– Ya peyğəmbər, sən peyğəmbərsən, bütün cannı-cinninin dilin bilirsən. Axı yaramaz. Elçi göndər.

Elçi göndərillər. Qız deyir ki, mən ona gedərəm bir şərtnən. O elə bir ev tiksin ki, içəridən baxanda çöl görünsün, çöldən baxanda içəri görünməsin. Yanındakılar deyif ki, bu ancax quş sümüyünnən olar. Süleyman peyğəmbər əmr eliyir, bütün quşdar yığılır, bayquş gəlmir. Bayquşun dalınca qartal gedir, gəlmir, qaranquş gedir, gəlmir, axırda bülbül gedir. Bülbül çox cəh-cəh vurur, oxuyur.

Deyir:

– Bülbül, özü niyə yorursan? İnsannara etibar yoxdu, getmiyəcəm.

Deyir:

– Mənasın de?

Deyir:

– Mənası odur ki, filan vaxdı filan tarixdə bir əmoğlu, əmiqızı bir-birini sevdi. Filan çayın qırağında bir bina tikdilər, yaşamağa başdadılar. Orda əmisi qızı dedi ki, əmoğlu, mən ölsəm, nağarassan? Dedi ki, əmiqızı, peyğəmbərimizin şəriyəti var, əri ölən ərə getməlidi, arvadı ölən arvad almalıdı. Deyir, yox, sənin etibarın yoxdu. Deyif, onda əmiqızı, mən ölsəm, sən nağarassan? Deyir, ölüncə başıma qara bağlıyıf sənin yası saxlıyaram. Sora elə olur ki, padşah bir qara qulu dar ağacınnan asdırır. Bunnar çəkif gedənnən sora Allahın əmriynən bu ölmür, kəndir qırılır, düşür yerə, qaçır. Qız da balkonnan baxırmış. Görür bir qara qul piyada gəlir. Deyir, kimsən? Deyir, ay xanım, başına dönüm, mən padşahın zülmünnən qaçmışam. Deyir, gəl bura. Əmisi oğlu da cüzam xəsdəliyinə tutulmuşdu. Deyir, apar bunu filan yerdə yandır gəl. Padşahın adamları səni xəbər

alanda deyərəm qaçırdı, tutuf öldürdüm, filan yerdə də yandırmışam. Qara qul aparıf meyidi yandırıf. Padşah car çəkəndə ki, filan adamı axtarıram, bu deyir, budey, bax, orda yandırmışam. Deyir, bülbül qardaş, ona görə insana etibar yoxdu.

Deyir:

– Bayquş qardaş, indi birin də mən deyim sən qulaq as. Gündoğannan bir oğlan, günbatannan bir qız oxuyur, ruhani məktəbin qutarır. Dənizin qırağında bir bina tikif orda yaşıyırmışdar. Elə olur ki, ayıb olmasın, oğlan çölə çıxanda da qızın şiklini üsdündə gəzdirirmiş. Oğlanın adı Məhəmməd olur, qızın adı Diləfruz. Bir günnəri qəflə-qatır Zəngəzur şəhərinə alverə gedəndə Məhəmməd deyir, Diləfruz, icazə ver, mən də bularnan gedim. Deyir, Məhəmməd, dözə bilmərəm. Deyir, üş günnük yoldu. Bir gün yol, bir gün alver, bir gün də ayannan bəri qayıtmaq. Deyir, yaxşı, get. Bu gedir.

Zəngəzur şəhərinin padşahının da Məstan addı bir pişiyi olur. Karvan əhli baxır, görür ki, bu Məhəmməd çox ağıllı adamdı, həm də çox biliklidi. Bunu özdərinə başçı seçillər. Zəngəzur şəhərinin padşahına xəbər verillər ki, bəs belə bir alverçi gəlif. Başçını çağırır. Deyir, adın nədi? Deyir, Məhəmməd. Deyir, şərtimiz var. Bu pişik sabahacan bu lampanı əlində tutdu, mən səni aparacam. Nə qədər varın-döölətin varsa mənimdi, adamlarını da zindana saldıracam. Yox, saldı yerə, söndürdü, mənim padşahlığım sənindi. Pişik örgənmiş pişik idi. Sabahacan lampanı əlində saxlıyır. Sabah bunu soyundurullar, bunun cibinnən qızın şikli çıxır. Padşah şiklə baxır, bir könüldən min könülə qıza vurulur. Deyir, yaz, qoy qız gəlsin. Deyir, yaza bilmərəm. Bunu qoyurlar məngənəyə. Nəysə, zornan buna yazdırıllar, qol çəkdirillər. İmza yerinə altdan yazır ki, zülm ilə qolum. Bunu verillər qasidin birinə. Deyir, günortaya mən çatdıraram ora. Qız da əli qoynunda balkonnan yola baxırmış. Qasid gələndə qız kağızı alıf oxuyur. Qasidin paltarın dəyişdirir, çimizdirir, yedizdirir, deyir, get yat. Gedir kənkan gətirir, qapının ağzınnan içəridən dərin quyu qazdırır.

Qasidə deyir, dur gedək. Gedəndə qasid düşür quyuya. Qız hərdən qasidin başına daş tökür ki, kopoğlu, mənə düzünü de görüm Məhəmmədin başına nə gəlib? Deyib, başına dönüm, məni öldürməginən, düzün deyəcəm. Bəs bizim padşahın bir pişiyi var, qumar oynuyurlar, padşah udur. Məhəmmədi soyunduranda cibinnən sənin şiklin çıxdı. O da məni göndərif səni aparmağa. Deyir, otur kopoğlu. Tələ qurdurur, üş dənə siçan tutur. Bir yeşik qayıtdırır, siçannarı qoyur yeşiyə. Kişi paltarın geyir. Qasidə deyir ki, mən gəlincə dəbərsən, səni qıracam. Quyun ağzın örtür, gedir.

Padşaha xəbər verillər ki, naməçi gəlif. Deyir, adı nədi? Deyir, Məhəmməd. Deyir, gət bura, elə mənim toruma düşən Məhəmmətdərdi. Bu dediyi kimi, pişik oturuf, gecə yarı olanda bu siçanın birin çıxarıf pişiyin qabağına buraxır. Pişik siçana baxmır. Gecə yarıdan keçənnən sora birin də buraxır. Pişik gənə siçana baxmır. Üzün tutur Allaha, deyir, Xudavəndi-aləm, məni sabah soyunduracaxlar, mən qadınam, özü də həmliyəm. Siçanın birin də buraxanda siçan pişiyin üsdünə atdan yuxarı dırmaşıf. Pişik çırağı vurur yerə, siçanı götürür gedir. Mərci udur, elə ordaca əmr eliyir ki, padşahı salın zindana. Padşahı salırlar zindana, türmədə nə qədər adam varsa, hamısın çıxartdırır. Bunun xəzinəsində nə varsa, dağıdır. Yeddi dənə nər yüklüyür qızılnan, gümüşnən. Məhəmmədi də türmədən çıxartdırır, üzün-başın qırxdırır, təmizdədir. Hələ özün nişan vermiyif. Deyir, Məhəmməd, mən padşaham. Gəl qal mənim yanımda, mənə vəzir ol. Deyir, başa dönüm, mənə dünya malı lazım deyil. Mənim gözü yolda qalanım var. Məni burax, gedim. Deyir, yaxşı. Bir qoca vəziri vardı. Deyir, vəzir, mən gedirəm, üş günə, beş günə bu padşah türmədə ölməlidi. Yerinə sənsən. Atını minir, karvanı bu yannan yola salır, özü o yannan hərrənir çapıf gedir, çıxır evə. Görür ki, karvan gəldi. Bir az umu-küsü eliyir. Məhəmməd deyir, ay arvad, mənnən küsmə, mənim başıma oyun gəlif. Məni bir nəfər qutarıf. Allah elə eliyərdi mənim əlimə düşərdi, onu dalımda gəzdirərdim. Nəhayət,

əri çölə çıxır. Arvad paltarın dəyişir. Məhəmməd bunu görüb deyir, arvad, məni qutaran adam gəlif. Amma arvadın tapmır. Deyillər, yağın tualetdədi. Gedif tualetin qabağın kəsəndə arvad bir də paltarın dəyişir. Deyir, gəl otur. Səni zindandan xilas eliyən mənəm.

İndi, ay bayquş qardaş, dünyada yaxşı da var, yaman da var. Dur gedək.

Bayquş durur gəlir. Sifdə düşəndə peyğəmbər buna çox pis baxır. Bayquş ordan uçur düşür ayrı yerə. Orda da buna tərs-tərs baxanda bir də bayquş qayıdır öz yerinə. Deyir:

– Bayquş, yeri niyə dəyişdin?

Deyir:

– Ya peyğəmbər, sifdə çox qəzəbli baxdın, tab gətirəmmədim. Sora gördüm ondan da qəzəbli baxırsan. Dedim ki, yurd yurddan sayalı olar, bir də öz yurduma qayıtdım.

Peyğəmbər dedi ki, səə üş sual verəcəm. Tapdın, səni azad eliyəcəm. Tapmasan, səni öldürəcəm, sənin sümüyün mənə lazımdı.

Deyir:

– Gedəcək çoxdu, gələcək?

Deyir:

– Ya peyğəmbər, gedəcək çoxdu.

Deyir:

– Nədəndi o?

Deyir:

– Gedən gedif, gələn də onun dalınca gedəcək.

Deyir:

– Avadannıx çoxdu, xarabalıx?

Deyir:

– Ya peyğımbər, xarabalıx çoxdu.

Deyir:

– O nədəndi?

Deyir:

– Xaraba qalan qalıf, daldan gələn də xaraba qalacax.

Deyir:

– Yaxşı, arvad çoxdu, kişi?

Deyir:

– Ya peyğəmbər, arvad çoxdu.

Deyir:

– O nədəndi?

Deyir:

– Ya peyğəmbər, arvad sözünə baxan kişi də arvaddı.

Peyğəmbər orda bayquşun adını qoyur bəy quş, gündə də üş sərçə ona cirə verir. Bilmirəm görmüsüz, görməmisiz. Amma mən görmüşəm. Sərçələr yığılır bayquşun başına, ayağın qoyur birinin üsdünə, o birilər uçur gedir.

Süleyman peyğəmbərin hekayəti belə oluf.

# QİSMƏTDİR, YOXSA SEVDADIR?

Davud peyğəmbərin qırx oğlu varıydı. Dööləti də çoxıydı, bədəni də gümrahıydı. Həə... Tay bı gecə-gündüz Allaha şükür eleerdi. Allah şeytana nəhlət eləsin. Şeytan da Adəm öölADının qəlbini almışdı dənə Allahdan. Bı Davud peyğəmbər Allaha şükür-səna elədiycə, şeytanı acı kəsirdi, ha çalışırdı, mıyı yolınnan döndərə bilmeerdi.

Günün birində Allah-taala dedi:

– Şeytan, Allah səə nəhlət eləsin, görirsən, bı Davud peyğəmbər gecə-gündüz məə şükür-səna eleer. Ancaq səə onnan çox şey vermişəm, heç sən şükür eləmeersən. Sənnən Davud peyğəmbər olmaz.

Şeytan dedi:

– Tay oa qırx dənə oğıl vermisən, o eləmiyəndə kim eliyəcək?! Qırx oğlı al onun əlinnən, görəy şükür eliyəcəy, ya yox.

Allah dedi:

– Yox, oa görə döyür[25], helə oon qəlbindədi.

Şeytan dedi:

– Qırx oğıla goradı, məə inanmeersan, yoxla.

Hə... Oyıdı, Xudavənd-aləm əmr elədi Əzrayıla, Əzrayıl Davud peyğəmbərin oğlının qırxını da öldirdi. Davud peyğəmbər səmimi qəlbdən dedi, İlahi və Rəbbim, şükür, verən də sənsən, alan da.

Dedi:

– Şeytan, Allah səə nəhlət eləsin, indi nə deersən?

Dedi:

– Tay elə dööləti ona vermisən, döölətə baxır, oğul yadınnan çıxır.

Allah əmr elədi, Davud peyğəmbərin nə ki dööləti varıydı – at otaran gördi atdar, qoyın otaran gördi qoyınnar, dəvə otaran gördi dəvələr ordan yıxıldı öldi, hamısı qırıldı.

---

[25]Döyür – deyil

Çobannar, ilxıçılar başdarına, gözzərinə döyə-döyə gəldilər Davud peyğəmbərin yanına. Gördilər otırıb.

Dedilər:

– Ya peyğəmbər, döölətün hamısı qırıldı, heç səbəbini də bilmədüy, helə o ordan yıxıldı öldü, bı bırdan yıxıldı öldü.

Davud peyğəmbər dedi:

– Öz məslaatıdı, o, dööləti vermişdi, o da alır. Şükür məslaatına.

Çıxartdı bıların hakqını verdi, mürəxxəs elədi, hər kimdi çıxdı getdi.

Allah ginə çağırdı şeytanı, dedi:

– Şeytan, Allah səə nəhlət eləsin, indi nə deersən, bəs döölətə görəydi o şükür-səna?!

Dedi:

– Sən ki o gümrah bədəni ona vermisən, bədəninə baxır, şükür-səna eleer.

Xudavəndi-aləm xəssəlik göndərir mıın canına, imtaan eleer. Bəli... Hay bir gün, iki gün, bu düşdü bimar. Elə bimar ki, bütöv bədəni göz-göz oldu yara. İndi rəvayətnən deellər ki, bu barama qurdu həmin Davud peyğəmbərin bədəninnən əmələ gəlib. Bədəni çürüyüb düşdükcə yerə, deeb: "Ey Allahın heyvanı, Allah məyi səə yem yaradıb, ye".

Allah dedi:

– Şeytan, indi nə deersən?

Şeytan bir qoca kişi cildində gəldi Davud peyğəmbərin yanına.

Dedi:

– Ay Allah səən öyü yıxsın, o Allah səə nə ağleeb ki, oa bı qədər şükür-səna eleersən? Qırx oğlıyı öldirdi, döölətüyü aldı, özüyü də bı günə saldı.

Dedi:

– Ay kişi, elə demə, Allahın öz məslaatıdı, verən də odu, alan da odu. Bir müddət qırx oğıl verdi, var-döölət verdi, gümrah bədən verdi, indi də belə eleer. Şeytan nə qədər eleer,

mıyı yolınnan çıxarda bilmədi. Helə şükür-sənasını qəlbdən elədi. Şeytan mınnan əl çəkdi, çıxdı getdi. Xudavənd-aləm irəhmini yendirdi mın üssünə, hay bir gün, iki gün, mın yaraları yaxşı oldu. Gördü bədəni elə gümrahdı.

Otırmışdılar, Allahın əmriynən Cəbrayıl tərəfinnən səda gəldi ki, ya Davud, Allah səə bir oğıl əta eliyəcəy ki, o qırx oğılın əvəzi olacağ. Bütün yer üzünün, torpağın, suyun, küləyin hamısının dilini biləcəy. Oydı kı, Süleyman peyğəmbəri Allah verdi Davud peyğəmbərə.

Bir quş gəldi Süleyman peyğəmbərə salam verdi. Süleyman peyğəmbər əta elədi, dedi:

– Ey Allahın heyvanı, nədi, nə isseersən?

Quş (adını unudub – top.) dedi:

– Dünyaya təzə gələn peyğəmbər sənsən?

Süleyman peyğəmbər dedi:

– Hə, mənəm.

Quş dedi:

– Onda mənə de görüm, qismətdi, yoxsa söödadı?

Peyğəmbər dedi:

– Ey Allahın heyvanı, əgər Allah bir şeyi səə qismət eleersə, sööda nədi? Allah oyu oa qismət eliyəcəy.

Quş dedi:

– Yox, mən qəti mına boyın qoymeeram. Tutsa, qismətdi, tutmasa, söödadı.

İndi birinin qızı var, birinin oğlı. Peyğəmbər dedi:

– Əgər Allah onu yaradanda bir-birinə yazıbsa, sənnən, mənnən neçəsi ola, xeyri yoxdı. O oa qismət olacağ.

Helə bı deməkdeydi, yazı yazan mələk varıydı, o gedirdi. Süleyman peyğəmbəri gördü, yendi. Quş da durmuşdu. Bılar bir-birinə salam verdilər.

Dedi:

– Ey Allahın mələyi, – Süleyman peyğəmbər dedi, – hardan gəlib, hara gedirsən?

Dedi:

– Ya peyğəmbər, günçıxanda bir padşah varıydı, oon bir oğlı oldı. Oon taleyini yazırdım. Günbatanda da bir padşah varıydı, onun da bir qızı oldı. Xüdavənd-aləm mənə əmr elədi ki, ged, o qızın taleyini yaz o oğlana.

Quş da eşidirdi. Dedi:

– Bə oların haçağ əhd-peymanıdı?

Dedi:

– On səkgiz ili tamam eliyən günü olar əhd-peyman eliyəcək, Allah mənə belə buyurdu, mən də belə yazmışam.

Bəli... Bı tale yazan mıyı dedi, qənəd vurdu, mürəxxəs salam, qalxdı. Peyğəmbər dedi, indi ay Allahın heyvanı, – quşa dedi, – gördün?! Quş dedi:

– Ya peyğəmbər, günçıxanda bir oğlan var, günbatanda bir qız. İndı çox da tale yazan oların taleyini bir-birinə yazdı. Olar nətəər qouşacaxlar: biri dünyanın bı başında, biri o biri başında.

Dedi:

– Allah yazıb, nə yolnan olır-olsun, olacağ. Allahın qismətidi o.

Quş hirssəndi. Qənəd vırdı, qalxdı havaya, düz yeddi il o qız olan vilayətə qanad vırdı. Yeddi il gecə-gündüz... Qız gəlmişdi yeddi yaşına, qapıda oyneerdi. Həmin quş şığıdı, aldı qızı caynağına, qalxdı. Bir dərya varıydı, keçəcəy yeri yoxıdı. O dəryanın ortasında balaca bir ada varıdı. Həmin adada bir ağac varıdı, yeddi yüz metrə uzunnuğıydı. O dəryaları quş qənəd vırıb keçdi, o qızı apardı qoydu o ağacın başına. Dedi, indi o oğlan məən başıma dönsün, bu qızı ala bilsə. İndi görəy söödadı, yoxsa qismətdi.

Bı qız bırda qalmağda olsın, quş getdi bir ilin azuqəsini, yeməgini-içməgini – qabağ tuluğda gətirillərdi suyu, – gətdi caynağında, qoydu bı qızın yanına – ağacın başına. Bizə dünya belə görünür ha, Allahın yanında bı dünya yarpağın yarısının yarısı boyda döyür. O ağacın yarpaxlarının hər birisi qıza bir dünya boyda yer oldı. Qız qaldı bırda.

Həmin ki, o oğlan vardı, oyı da atası qoymeerdi, içəridən adam tutmışdı, tərbiyəsinnən, dərsiynən, nəyinnən məşğul olurdu. Bu oğlan on yeddi yaşına gəlmişdi. Qız da on iliydi ki, o ağacın başındaydı. İldə bir dəfə quş aparıb ona azuqə verirdi – çörəgdən-sudan, qayıdıb gəlirdi.

Bəli, bu oğlanın tay-tuşunnan bir-ikisi yığışdı yanına, otdılar söhbətə. Dedi, şahzadə, sən padşah oğlusan, on yeddi yaşun var. Anadan olannan sən hələ bu öydən çölə çıxmamısan ki, görüm məən atamın vilayəti hansıdı, yolu hansıdı, qonşılarnan nətəərdi? Helə girmisən öyə, vırmısan qapını. Sabaynan bu atan öləndə, axı bunun yerində sən olmalısan. Nə atoon qoşununu bilmeersən, nə vilayətini tanıyırsan, nə o birisi qonşılarnan aranı bilirsən.

Şahzadə getdi atasının yanına. Dedi:

– Ata.

Dedi:

– Nədi?

Dedi:

– Ata, məən tay on yeddi yaşım var. Mən hələ öydən çölə çıxmamışam. Sabaynarı* bir şey olanda, mən nə səən qoşunu tanımeeram, nə vilayəti, nə qonşı padşahları. Bəs nətəər olacağ?!

Padşah ayıldı, dedi:

– Oğul, düz deersən. Mına beş yüz qoşın verdi, vəziri də qoşdı mına.

Dedi:

– Gedərsən, məən torpağımı, vilayətimi gəzərsən, məən oğlıma görkəzərsən.

Bəli, bular atdandılar. Bular gəzməydə olsın, səhrada gəzirdilər, şahzadə öz atasının torpağını gəzirdi. İndi şahzadə də çöl-bayır, heyvanat görməmişdi. Gördü, vallah, bir heyvan otdeer, deersən Allah qüdrətinnən xalğ eleeb. Göyliydə, xamlığda başıaşağı, şirin otdeer. Baxdı, şahzadə üzünü tutdu qo-

--------------------

Sabaynarı – sabah

şına, dedi, and olsın Allaha, bir insan bı heyvana oxdan, qılış-dan vıra, vay halına. Bı nədisə, mıyı diri tutmalıyığ.

Mıyı boşdadılar, ətdən çəpər elədilər qoşını. Bu da ceyrandı. Bir qəfil ceyran başını qaldırdı, gördü, oho... Şahzadə dedi, ancaq bı and məynən olsın, bı heyvan kimin yanınnan qaçsa, oon başını bədəninnən götizzirəcəm. Ceyran başını qalxızdı, gördü ki, mını ətdən çəpər eleeblər. Baxdı, nəzər saldı, gördü iki adamın arasında boş yer var, bir-birinnən aralıdı, bir cizvi[26] yol var. Ceyran cüt qıçını vırdı, düz şahzadənin çiyninin üssinnən tullandı. Şahzadə gördi bı ceyran mıın çiyninnən tullandı, qaşdı. Üzünü tutdu qoşuna, vəzirə, dedi, and olsun bizi xəlq eliyənə, bunu mən qaçırtmışam, mən tutmalıyam. Ya ölməliyəm, ya tutmalıyam bunu. Bir insan mənim dalımca gələ, onun başını bədəninnən götirəcəm. Ya öləcəm, ya tutacam. Qoşunun bir dənəsi qorxısınnan gedəmmədi.

Bəli... Ceyran qaşdı, şahzadə qovdu. O qədər qovdu ki, öz vilayətinnən çıxdı, getdi. Səhranın birində şahzadənin atının bağrı çatdadı, at yıxıldı öldü. Şahzadə baxdı gördü ki, Xüdavəndi-aləm, bıra bir yerdi ki, bir torpağdı ki, Allahın bir qarışqası yoxdı, bir dənə otu yoxdu. Dedi:

– Hə, burda mən ölməliyəm.

Otdu aşağı, özü də yorğın, ac-susuz. Həmən o günkü gün on yeddi il tamam olmışdı. Həmən quş caynağında qıza azuqə aparırdı. Bir illik azuqəni dənə. Axı ildə bir dəfə aparırdı. Quşun da yolu həmin bu səhradan keçirdi. Quş bu on yeddi ildə nə qədər gedirdi, gəlirdi, torpağda bir dənə qaraltı görməmişdi. Quş genə baxanda gördü ki, bı səhrada bir dənə qaraltı görünür. Quş yavaş-yavaş yaxınnaşdı mına, yendi aşağı. Oğlan gördü ki, bir dənə quş gəlir.

Dedi:

– Xudavənd-aləm, səni and verirəm Əmirəlmöminə, ya Əli, məən imdadıma çatginən. Mınnan mənə bir nicat yolla.

---

[26] Cizvi – cüzi

Quş o qədər yendi ki, görsün bu qaraltı nədi. Oğlan firsəti itirmədi, əl atdı yapışdı quşun caynağınnan. Quş qalxdı. Quş bilmədi bı qıynağınnan yapışan nədi. Quş qalxdı, bəli, qanad vırdı, həmən dəryanı keşdi. O ada ki deerüy, adada yendi ki, görüm məən bu ayağıma yapışan nədi? Quş yendi aşağı. Oğlan da özünü itirmişdi, bihuş olmuşdu. Quş gördü ki, bı bəni-insandı. Quş issədi ki, şığısın, mıyı da didişdirsin. Oğlan heç huşa gəlməmişdi. Quş gördü ki, bir nərə çıxdı: "Ey Allahın heyvanı, tanı məni, Əliyəm, Əli!" Axı oğlan Əlini köməyə çağırmışdı. Quş özünü itirdi, tez qalxdı havaya, apardı qızın azuqəsini verdi, qayıtdı çıxdı getdi vilayətinə.

Bir qədər soora oğlan ayıldı, özünə gəldi, oyuza-buyüzə baxdı, gördü, ay Allah, dörd tərəfi dəryadı, çıxış yeri yoxdı, özi də ac-acına. Gördü ki, bir balaca adadı, ortasında da bir yekə ağac var. Dedi, ya Əmirəlmömin, noolardı, mən gedəydim o ağaca, orda mənə bir ruzi oleydi. Mən əldən getdim acınnan. Allahın mərhəmətinnən, peyğəmbərin qüdrətinnən, Əlinin bərəkətinnən oğlan gəldi yavaş-yavaş ağacın yanına. Gördü, vallah, ağacın barı-zadı yoxdu. Dedi, həə, mınnan da əlim çıxdı. Otırdı ağacın altında. Qız da ağacın başındaydı. Gördü, Allah, ağacın altında bir oğlan otırıb, Allah elə bil qüdrətinnən yaradıb. Ağzını tutub dedi:

– Ey oğlan, ey bəni-insan, çıxış yolı yoxdu burdan heç yerə.

Bu ki, quş buna bir illiy azuqə gətirmişdi, oon yarısını gündə atdı o ağacın dibinə, yarısını özü yedi. Düz bir il belənçiy keşdi. Qız gündəlik yeməyinin yarısını ağacın dibinə – oğlana atdı, yarısını da özü yeyirdi.

On səkgiz il tamam oldu. Oğlan da qalıb bırda. Hara çıxacağ, çıxış yolu yoxdu. Qız gördü ki, bıdı, quş gəlir, il tamam olırdı. Dedi:

– Oğlan, quş gəlir, səyi ağacın dibində görsə, tikə-tikə eliyəcəy.

O siftə ki qıza tuluğda su gətirmişdi, tuluğu atdı yerə, dedi:

– Oğlan, tez gir o tuluğun içinə.

Quş yendi gəldi ağacın başına, o bir illik azuqəni qoydu. Qız dedi:

– Ey Allahın heyvanı, məyi gətirib vilayətimnən qoymusan bıra, ancaq o siftə ki, mənə o tuluğda su gətirmüşdün. Həmin tuluğu bırda, ağacın başında məşğulət eleerdim, çalırdım. Əlimdən düşdü ağacın altına. Sənnən xayiş eleerəm, oyı gətir ver mənə. Quş şığıdı, aldı caynağına, gətdi qoydı qızın yanına, özü də qanad vırdı, çıxdı getdi. Tuluğdan oğlan çıxdı. Baxdı gördü vallah, bırda bir qız var, elə bil qüdrətinnən yaranıb.

Həmənki gün on səkgiz il tamama yetirdi. Mələy demişdi axı kı, ya peyğəmbər, on səkgiz ilin tamamında onlar əhd-peyman eliyəcəylər. Həmin qıznan oğlan on səkgiz yaşlarında əhd-peyman elədilər. Bir il də keşdi, on dokquzuncu il tamama yaxınnaşırdı. Allah-taala bulara bir oğul əta elədi.

Bir il tamama yetəndə, quş ginə qıza azuqə gətirdi. Qız gördü quş gəlir, bu oğlanı da, uşağı da tez atdı tuluğa, tez ağzını bağladı, başdadı yalannan pıçıldamağa. Quş ginə gəldi azuqəni yığdı mıın yanına. Axı on səkgiz ildən bir il keşdi. Ona görə quş azuqəni bıra qoyannan soora qənəd vırdı, düz Süleyman peyğəmbərin yanına çatdı. – "Salam". – "Əleykəssalam". Quş dedi:

– Ya peyğəmbər!

Peyğəmbər dedi:

– Nə olub, ay Allahın heyvanı?

Quş dedi:

– Bəs sən deyirdin qismətdi, sənə demədim söödadı, tutarsa, tutar, tutmazsa, tutmaz. İndi başıma dönsün o oğlan o qızı tapsa. Yeddi yaşınnan aparıb qoymışam tək, kimsəsiz adada. Özü də mələk demişdi on səkgiz yaşında, mən düz on səkgiz ildi saxleeram qızı orda.

Peyğəmbər dedi:

– Ey Allahın heyvanı, hə, elə sən deyənmiş, qismət deyilmiş, söödaymış. Ged, o qızı da gətir, apar qoy öz vilayətinə, amma qabağcan mənim yanıma gətir, onnan soora apar.

Quş qənəd vırdı, qalxdı. Qız bir də baxdı ki, quş gəlir. Ginə də tez oğlannan uşağı da qoydı tuluğa, ağzını bağladı. Quş gəldi, qıza dedi, min belimə, səyi aparıram öz vilayətinə. Qız dedi:

– Ey Allahın heyvanı, neçə ildi bu tuluğa adət eləmişəm, icazə versəydün, bu tuluğumu da götürərdim.

Quş dedi:

– Götür.

Qız özünnən qabağ tuluğu qoydu quşun belinə, özü də mindi. Qənəd vırdı düz Süleyman peyğəmbərin yanına. Getdilər. Orda qız özünnən qabağ tuluğu qoydı yerə, soora özü də düşdü.

– Salam.

– Əleykəssalam.

Dedi:

– Ey Allahın heyvanı, aç o tuluğun ağzını.

Quş iki caynağıynan bu tuluğun ağzını didişdirəndə oğlan sataşdı mıın gözünə. Əmirəlmömininin nərəsi bunun qulağındaydı. Gördü ki, həmin nərənin yiyəsidi bu. Quş özini itirdi. Bir qədərdən soora özünə gəldi, oğlan da çıxdı, uşağ da çıxdı. Süleyman peyğəmbər dedi, ey Allahın heyvanı, Allahın qismətini heç kəs poza bilməz. Bir şeyi Allah qismət eliyənnən soora, yüz bəndə gələ, ona heç zad eliyə bilməz. O oğlanı sən özün öz əlüynən bir il mınnan qabaq aparıb qoymışdın ora. Bu da bunun balası.

## ÜÇ ÖLÜM

Bir dənə padşah olur. Bu padşahın iyirmi-otuza yaxın dəvəsi olur, iki yüzə yaxın qoyunu olur, yüzə yaxın malı olur, varı-dövləti, bağı-baxçası, üş dənə də arvadı olur, heş birinnən züriyəti olmur. Bir günnərisi bı, dağın başına çıxıb belə baxanda öz-özünə fikirrəşir: "Ya Rəbbim, ya rəsulallah, bəs bı qədər mal, pul, var-dövlət, qızıl, gümüş... Səhər bəs mən kəlləmi qoydum yerə, bılar kimə qalajax?" Belə həsrətnən baxanda vəzir-vəkil gördü ki, ağa nətər baxır. Dedilər: "Ə, ağa fəxr eliyir ey, bı qədər mal, pul, var-dövlət". Gəldilər dedilər:

– Ağa, bax gör nə qədər bağ-baxça...

Dedi:

– Qutardız?

Dedi:

– Hə.

Dedi:

– Yaxşı, səhər bı ağa başını yerə qoydu, bılar kimə qalajax?

Belə deyəndə bılar da həsrət keçirdi. Dedi:

– Ağa, icazə ver, gedək adama bir dənə baxıcı tapax, götürəh gələh, o baxıcı gəlsin, baxsın, görsün bu arvatdarın hansı birinnən sizə züriyət olajax. İşdi, olmasa, gedəh başqasın alax.

Dedi:

– Yaxşı.

Bılar getdi, bir on gün gəzdilər. Hərəsi elə bir baxıcı tapdı ki, ta bıların dediyində səhv olmur. Gətirdilər. Bı baxıcılar dedilər ki, bizi neynirsiz? Dedi, sizi bı məqsədə çağırmışıx, bizim ağanın üç arvadı var, heş birinnən züriyəti olmur. Baxın görəh bının hansınnan züriyəti ola bilər. İşdi, olmasa, ayrısın alsın.

Dedi:

– Onda ağa arvatdarıynan bir yerdə olsun evdə, biz bir-bir girəh yoxluyax.

Bının biri girdi içəri, belə baxdı-baxdı, dedi:

– Ağa, xətraa dəyməsin, vallah dana. Üç yox, lap otuz arvad alasan, sənnən züriyət yoxdu. Ode, o qıraxkı arvad var ey, onnan bir oğlun olajax. On yeddi yaşına çatanda gündüz saat iki tamamda ilan çalajax, öləjəh.

Dedi:

– Get.

İkinci girdi içəri. Baxdı, baxdı, bı da həsrətin ötürdü. Dedi:

– Nədi?

Dedi:

– Ağa, xətraa dəyməsin, üç yox, üç yüz arvad alasan, sənnən züriyət yoxdu. Ode, o qıraxkı arvad var ey, onnan bir oğlun olajax. On yeddi yaşına çatanda gündüz saat iki tamamda ağaşdan yıxılıb öləjəh.

Üçüncünü çağırdılar. Bı da baxdı, baxdı, bı da həsrətin ötürdü. Dedi:

– Nədi?

Dedi:

– Ağa, xətraa dəyməsin, üç yox, üç min arvad alasan, sənnən züriyət yoxdu. Ode, o qıraxkı arvad var ey, onnan bir oğlun olajax, on yeddi yaşına çatanda gündüz saat iki tamamda suda boğulub öləjəh.

Bı da gedənnən soora vəziri-vəkili çağırdı, dedi:

– Vəzir-vəkil, bının üçü də dedi ki, bı arvatdan başqa züriyətin olmuyajax. Üçü də dedi, bir oğlun olajax, üçü də dedi, on yeddi yaşına çatanda öləjəh, üçü də dedi, saat ikidə öləjəh. Amma biri dedi ilan çalajax, biri dedi ağaşdan yıxılajax, biri dedi suda boğulajax.

Dedi:

– Ay ağa, təki sənin övladın olsun, on yeddi yaşına çatsın, bütün şəhəri qaldırarıx ayağa, onu basarıx bağrımıza, özümüz ölərik ki, qoymarıx ona bir şey ola.

Nəysə, gəldi bı arvatdan bının bir oğlu oldu. İndi bı uşax böyüdühcə, bu da həsrətdi də. Bir gün baxdı gördü ki, uşağın on yeddi yaşının tamam olmağına iki gün qalır. Çağırdı:

– Vəzir-vəkil.

– Ağa, nədi? Nə deyirsən, neyniyək?

Dedi:

– Ə, nə deyirsən yox ey. Səhər yox, biriyün onların dedihləri vaxt tamamdı, uşağın on yeddi yaşı tamam olur.

Deyəndə bılar da həsrət ötürdü. Genə vəzir dedi:

– Ağa, onda da saa demişdim, indi də deyirəm dənə. Bütün şəhəri qaldıraram ayağa, gələrik onu basarıx bağrımıza, özümüz ölərik ki, qoymarıx ona bir şey ola.

Nəysə, əmr verdilər, bütün şəhər əhli həmin gün yığıldı. Vəzir çıxdı bir hündür yerə, dedi:

– Ey millət, görürsünüz, göydə Allah, yerdə bizim padşahdan başqa qüvvəmiz yoxdu. Bının bir oğlu var, bu gün saat iki tamamda bir hadisə olmalıdı. Kim onu bağrına basıf keçirsə, ona bir küp qızıl verəjeyih. Bütün şəhər əhlini yeddi gün pulsuz yeyib-içməyə, deyib-gülməyə dəvət eliyəjeyih.

İndi kimi qızılın xatirinə, kimi yeyib-işməyin xatirinə, kimi vəzirin xatirinə, kimi padşahın xatirinə, kimi bu uşağın xatirinə, kimi tutduğu yolun xatirinə o basır bağrına, bı basır bağrına. Bir də baxdılar ki, iki tamama bir dəyqə, iki dəyqə qalıf-qalmıyıf. Hamı əlin qaldırdı göyə: “İlahi, şükür sənin varlığa, vaxt keçir”. İndi bu uşax da başın qaldıranda belə baxdı ki, çarhovuzun qırağında bir armud ağacı var, üstündə bir armud var. İndi bı nətəri bıların əlindən çıxırsa, on yeddi yaşında uşax, özü də kefnən böyüyən. Bıların əlinnən nətər qalxdısa, çıxdı ağaca, əlini uzatdı ki, armudu dərə, heş demə armudun üstə ilan varmış, uşağın barmağınnan çaldı. Çalan kimi gup suya. Baxdılar ki, düz iki tamamdı. İlan çaldı, ağaşdan yıxıldı, suda boğuldu. Allahın yazısına pozu olmaz.

## ÜÇ VƏSİYYƏT

Bir varrı, dövlətdi ata olur, həddən artıx malı, pulu, varı-dövləti olur. Gözünün ağı-qarası bircə oğlu olur. Bunu qənimət bilir, bu uşağı elə böyüdür ki, ancaq ye, iş, de, gül, gəz, oynaginan. Bir gün bu kişi elə bir vəziyyətə düşür ki... Baxır ki, ta köçür. Köşməh məqamı gələndə birdən ağlına gəlir ki, ya rəbbim, ya rəsulallah, bəs mənim bu qədər malım, pulum, varım, dövlətim, qızılım. Gözümün ağı-qarası olan bu oğlumu mən belə örgətmişəm. İndi mən ölənnən soora qoşulajax yoldaşdarına, mal da gedəjəh, pul da gedəjəh, var da, dövlət də. Mənim adımı batırajax, mən neyniyim? Yanında oturannara deyir ki, xayiş eliyirəm çıxın çölə, oğlum görün ordadımı, çağırın, ona bir söz deyəjəm. Bunlar çıxır çölə, çıxannan soorasına oğlun çağırıllar. Gəlir, deyir:

– Ay ata, nədi? Ay ata, nədi?

Deyir:

– Ay bala, mən ölürəm.

– Ata, nə danışırsan?

Deyir:

– Bunu saxla, sooranın işidi.

Dururlar. Deyir:

– Eliyərsən, eləməzsən öz işindi. Sənə üş dənə vəsiyətim var.

Deyir:

– Nədi?

Deyir:

– Birinci vəsiyətim odur ku, mən ölənnən soorasına, yoldaşdarın töküləşəjəh, qırx gün yeyib-içib soora durajaxlar dana. Qırx çıxannan soorasına görəssən bir günnərisi yoldaşdarın gəldi ki, gedəh çay içəh, çörəh yiyəh. Onda sən onlara etiraz eləmə. Denən, gedin, mən də gələjəm. Oğul, babalım boyuna, babalım boyuna, içmə sən. Amma olara denən gedin sabah saat on ikidə filankəsin evində qonaxlıx düzəldin, mən

də gələjəm. Sən onlara on iki de, oğul, genə deyirəm babalım boyuna, babalım boyuna, özün saat ikidə get.

Deyir:

– Yaxşı.

Deyir:

– İkinci vəsiyəm odur ki, babalım boyuna, babalım boyuna, qumar oynama. Oynasan, qumarı hər yerinnən qalxannan, bilənnən yox, qumarın ən məşhur ustası kimsə, axtar tap, onuynan oyna. Üçüncü vəsiyətim odur ku, oğul, birdən əlin aşağı düşdü... Məndə də olurdu. Nə qədər varrı-dövlətdi adam olasan, gətirdiyin vaxt olsa da, itirdiyin vaxt da olur da. Əlin aşağa düşsə, heş yerə getmə. Gəl evimizə yaxın bir yerdə oturginən, gələn qohumlara, dostlara, tanışdara əl aç, sana kömək eləsin. İşdi, onnar da sana kömək eləməsə, oğlum, dördüncünü deyirəm, babalım boyuna, babalım boyuna, orda bir zəncir asmışam, görürsən? Babalım boyuna gəlib ordan özünü asıb öldürməsən.

Dedi:

– Yaxşı.

Allah cəmi ölənnərə irəhmət eləsin. Bu ata irəhmətə gedir. İrəhmətə gedəndə oğlan görür kü, dostdarı gəldi. Gəlif oturullar, qırx gün bunlar çay içir, çörəh yiyir. Biri qabı qoymağa, biri nə bilim nəyə. Qırxınnan bir dörd-beş gün keçənnən soora... İndi nə qədər ərköyün böyüsə də, ata həsrəti ayrıdı da. Deyir:

Dara düşsək, arxamızda
Bir möhtəşəm dağdır ata.
Daim yanan, alovlanan,
Sönməyən ocağdır ata.

İşıq saçar yolumuza,
Qüvvət verər qolumuza,
Yurdumuza, elimizə
Arxadır, dayaqdır ata.

O, layiqdir məhəbbətə,
Bu qüvvətə, əzəmətə.
İnsanlığa, sədaqətə
Əbədi mayakdır ata.

Mayak dənizdə gəmiyə yol göstərən işıqdı, həyatda övlada yol göstərən işığ atadı. İndi bı o qədər həvəsdidi, maraxlanır, qalıb belə. Bir də görür kü, atasının qırxınnan beş-altı gün keçir. Axşamçağı görür yoldaşdarı gəlir. Ağlına gəlir ki, atamın qırxı da çıxıf, bunlar nə əcəb gəlif? Gəldilər:

– Salamməleyküm.

– Əleykümətsalam.

– Ə qardaş, nədi?

Dedi:

– Allah ataa irəhmət eləsin, – bı da qırx yeddi gündü oturuf dana, – gedəh eynimizi açax, bir şey eliyəh, – deyəndə, atasının sözü yadına düşdü. Əlin saldı cibinə ki, bınnara pıl verə. Dedilər:

– Ə, ayıbdı, biz sənnən bir şey istiyirik? Sən niyə belə eliyirsən?

Dedi:

– Onda gedin, sabah saat on ikidə qonaxlıx təşkil eliyin Kərimgildə, mən də gələjəm.

Bunlar getdi. Səhər açıldı. Allah hamınızın qarşıdan gələn səhərlərinizi xeyirə aşsın. Bu yatdı, durdu. Getdi malı-heyvanı qaytarıb gətirdi, sahat on ikidə gəldi evə. Allah verən loxmadan-tikmədən yeyənnən soora uzandı yatdı. Yatdı, saat ikidə ayıldı, dedi:

– Hə, atam deyən vaxdı, durub gedim görüm.

Gəldi gördü bunlar gözdüyüflər, görüflər bu gəlmiyif, başdıyıflar vırıflar[27]. Baxdı kı, bını tanıyan yoxdu. Biri vırıb birinin çənəsin əzif, birinin gözü tökülüf, birinin qolı sınıb. Belə baxdı, baxdı, dedi:

[27] Vırıflar – içki içiblər

– Hə, ata, Allah sənə qəni-qəni irəhmət eləsin. Mənə on iki deyil, ikidə get deyib ki, iki saatdan soora içkinin əlamətin görüm. Toba sənə bu günnən içki.

Onnan soorasına gəldi. Aradan bir neçə gün keçənnən soora dedi, gedim bu qumarı örgənim. Gəldi birinə dedi, mən məşhur qumar oynuyanı gəzirəm. O dedi mən döyüləm, bu dedi mən döyüləm. Sizin kimi hörmətdinin biri dedi:

– Ə bala, qumarbaz bulağın üstündə oturubdu. Ora getsən, onu taparsan.

Gəldi, gördü bir nurani kişidi, oturub, amma qapqara qaralıb. Əynində bir dəst paltar var, üstdən bir put darı töhsən, altdan çıxmaz. Cırıx-cında, özü də qəm dəryasında. Salam da verdi, bı dinmədi. Bir az qalxannan soora bı kişi belə başın qaldırdı, gördü bir cavan oğlandı.

Dedi:

– A bala, nədi, niyə durmusan?

Dedi:

– Heç əmi, oturmuşam dayna, sənin yana gəlirdim.

Dedi:

– Nəyə?

Dedi:

– Gəlmişəm mənə qumar örgədəsən.

Dedi:

– Bala, neçə yaşın var?

Dedi:

– İyirmi yeddi, iyirmi səkkiz.

Dedi:

– Ay bala, saa yaramaz, çıx get.

Nəkqədər elədisə, bı əl çəkmədi. Dedi:

– Bala, evim filan yerdədi. Sabax gələrsən bizə, mən səni örgədərəm.

Səhər açıldı, Allah qarşıdan gələn səhərlərizi xeyrə aşsın. Bu durdu gəldi bura. Gəldi gördü kü, kişi oturufdu, bunu göz-

düyür. – Onda həbelə evlər yoxudu, dam evləri vardı ey, doqquz metrə eni, doqquz metrə uzunu, onnan olardı.

Dedi:

– Gəldin?

Dedi:

– Hə.

Qumarı dəyəsən indi kartnan oynuyullar, o vaxtı aşıxnan oynuyurdular. Dedi:

– Bala, qumarı nəynən oynuyullar?

Dedi:

– Nə bilim.

Dedi:

– Neçə aşığnan?

Dedi:

– Bilmirəm.

Dedi:

– Neçə irəngnən?

Dedi:

– A kişi, bilsəydim, sənin yana nəyə gəlirdim? Ona görə gəlmişəm ki, məni örgədəsən.

Dedi:

– İndi mən onları əlimdə belə oynadajam. Görürsən aşığların biri ağdı, biri sarı, biri qırmızı, biri göy, biri yaşıl. Burdan atajam damın bajasınnan qırağa. Deyəjəm, ağ aşıx böyrü üstə duruf, qırmızı aşıx yanı üstə, sarı asıx başı üstə duruf. Get, mən dediyim kimi düzülübsə, onda bil ki, mən ustadam, gəl səni örgədim. Düzülmüyüfsə, mənnən ustad olmaz.

Dedi:

– Yaxşı.

Bı dediyi kimi elədi, atdı. Bı damın bajasına çıxdı, getdi gördü ki, – necə ki qabax əmr verəndə saldat düzülmürdü, – bı da dediyi kimi düzülüb. Belə baxdı, baxdı, dedi:

– Qurban olum səni yaradan ustad əllərə, gör nə gözəl sənətdi, gedim örgənim.

Gəldi dedi:

– Əmi, necə demişdin, heylə düzülüb. Xayiş eliyirəm ki, məni örgət.

Dedi:

– Oğul, neçə yaşın var?

Dedi ki, məsələn, iyirmi yeddi. Dedi ki, mənim də var əlli yeddi. Əlli yeddi ildi mən bunu oynuyuram, örgənirəm. Amma yadında qalsın ki, qumar oynuyanın axırı çöldə aj qarına uzanandı. Mənnən sənə əmanət.

Dedi:

– Əmi, Allah ömrü uzun eləsin, canı sağ eləsin. Toba saa bu günnən qumar.

Qumara da nifrət elədi. Gəldi bir gün də keçənnən soora dedi: "Gedim bu əl açmağı örgənim". Gəldi qohum-qardaşın getdiyi yolun üstə durdu. Gördü biri gəlir. Dedi:

– Burda niyə oturmusan?

Dedi:

– Ə, qahım, maa min manat pul ver.

Dedi:

– Ə, pulum vardı, axşam gədə götdü getdi toya.

Gördü biri gəlir. Dedi:

– Ə, burda niyə oturmusan?

Dedi:

– Ə, qahım, maa beş yüz manat pul ver.

Dedi:

– Ə, canın hakqı, qız padruqasıgilə gedirdi, verdim ona.

Aradan bir az keşdi, gördü biri gəlir. Dedi:

– Ə, burda niyə oturmusan?

Dedi:

– Qalx maa bir iyirmi manat pul ver.

Dedi:

– Canın hakqı, pulum yoxdu. Elə iyirmi manatım vardı, onu da verdim anama qonax gedirdi.

Axırda gördü biri gəlir. Dedi:

– Ə, burda niyə oturmusan?

Dedi:

– Maa bircə abbası pul ver.

Dedi:

– A vijdansız, mənim bir abbasım olseydi, gedib verərdim para çörəyə, alardım, gətirif yeyərdim. Sənin kimi oğula verməzdim ki, o cür atanın adın batırasan, nəsli bu kökə salasan.

Dedi:

– Hə, gedim indi özümü asım.

Gəldi evə, atası dediyi zəncirin yanına. Əyağın altda bir dayanacax qoydı, qalxdı bı zənciri keçirdi boğazına. Boğazına keçirənnən soorasına ağlına gəldi, dedi: "Ay canım, mən çimməmişəm ey. Gedim yuyunum, özümü pak eliyim, gəlim". Düşdü getdi, çimib qutarıb gələnnən soora, dedi: "Ata, Allaha agahdı ki, sənin yana üzü qara gəlmirəm, dedikləri örgənif gəlirəm. Gəlmişəm özümü asam". Əyağının altda bir dayanacax qoydı, ordan düşüb boğulsun dana. Dayanacax getməynən bunun tap yerə düşməyi bir oldu. Bir də belə baxdı, başın qaldırdı, gördü bu boyda qızıl, üstündə də bir kağız. Aşdı oxudu, gördü atası yazıf ki, oğul, mən sənə üş nəsihət verdim. Onlardan nəticə çıxartdınsa, buna ehtiyacın yoxdu, çıxartmasan, babalım boyuna, babalım boyuna, bınnan soora bunu götürüb mənim adımı doğrultmasan. Dedi: "Həə, Allah saa irəhmət eləsin, ata. Bunuynan da mən qumara da tööbə eliyirəm, piyanıskalığa da tööbə eliyirəm, başqasına əl aşmağa da".

Ata malın götürdü getdi. Üş qulplu saxsı küp olurdu, onnardan ikisin aldı gətdi. Birinə atasının pulun yığdı. Birin də aşdı, dedi: "Atamın varı da var, dövləti də. Mən kişi kimi qazanıb buna yığajam".

Ona görə də, misal gəlir ki, ağıllı adam atasının adın batırmaz, adın uca tutar.

## LOĞMANLA ŞƏYİRDİ

Keçmişdə Loğman adında bir həkim olır. Bı Loğman bütün xəstəliylərə əlac eleermiş. Kim xəssələnsə, mının yanına qaçarmış. Helə sağaltdığı adamların gətirdiyi ət, yağ, süt, qatıq, yumırtteynan ayləsin saxlıyarmış. Loğmanın ayləsi beş nəfəriymiş: özü, arvadı, oğlı, bir də bacısının əri öldüyü üçün bacısıynan bacısı oğlı Ərəstun da mıynan qalarmış.

Loğman öz oğlıynan bacısı oğlı Ərəstuna dərs keçirmiş, amma Ərəstun öz oğlınnan yaxşı bilirmiş, deyilənləri tez gətirirmiş. Ona görə də Loğman Ərəstunnan daha çox məşğul olırmış. Axı məllim dərsini yaxşı bilən şagirdi lap çox isseer.

Bir gün belə, beş gün belə. Loğmanın arvadı görir ki, əri öz oğluynan heç məşğul olmeer, amma gündə tezzənnən axşamacan helə Ərəstunnan məşğul olır, sual verir, dərs xəbər alır. Deer:

– Ay kişi, diyəsən sən bacun oğlın öz oğlımızzan çox isseersən!

Loğman deer:

– Ay arvad, bı nə deməydi?

Arvad deer:

– Ay kişi, nə deməydi? Helə tezzənnən axşamacan ancaq bacun oğlıynan, Ərəstunnan məşğul olırsan, öz oğlımız heç yadua da düşmir.

Loğman bir az fikrə gedir, deer:

– Arvad, vallah, bilirsən, bizim oğlımız Ərəstun kimi istedaddı deyil. Ərəstuna bir gündə başa saldığımı oğlımıza heç on günə də başa sala bilmeerəm. Bizim oğlımızdan həkim çıxmaz.

Arvad deer:

– Ay kişi, sən nə danışırsan? Əgəm Ərəstunnan məşğul olduğun qədər öz oğlımıznan da məşğul olsan, o, Ərəstunnan da çox bilər.

Nəysə, o deer, bı deer, o deer, bı deer, axırda Loğman deer, arvad, mən sənə sübut eliyərəm ki, Ərəstun bizim oğlımızdan qat-qat dərrakəlidi. Arvad deer, eliyə bilməzsən. Loğman deer, yaxşı, indi gör nətəər sübut eleerəm.

Axşam olır, bılar çörəy-zad yeeb yatmağa gedəndə Loğman Ərəstunnan öz oğlına deer, bala, hazırraşun, sabah o başdannan ova gedəssüz. Bılar ikisi də söyinir. Cavan adam ola, ova gedməy ola. Gedib yatıllar, sabah o başdannan Loğman bıları durğızır, bılar yarağlanıb, yasağlanıb gedillər ova. Bılar gedənnən soora Loğman arvadına deer ki, arvad, axşama yaxşı aş bişir, uşağlar ac gələcəy.

Arvad deer:

– Baş üssə.

Bılar axşamacan gəzillər, o dağ səən, bı dağ məən, axırda yorılıllar, həmi də görillər tay axşamdı, hava qaralmağa başdeer, qayıdıllar evə. Loğman görir uşaqlar gəlir. Arvadına deer, arvad, gətir surfanı-zadı sər. İki dənə döşəycə qoy, birini Ərəstuna, birini də öz oğlımıza. Arvad gətirib qoyır. Loğman öz oğlının döşəycəsinin altına bir qəlin kitab qoyır, Ərəstunun döşəycəsinin altına da bir dənə vərəq qoyır. Arvad deer:

– Əşi, bı nə deməydi?

Loğman deer:

– Arvad, səbrün olsın, axırını gözzə.

Arvad tay hessad demeer, başdeer gözzəməyə. Nəysə, yeməy-zad gəlir ortalığa. Bıların oğlı da, Ərəstun da gəlib otırır. Loğmanın oğlı helə otıran kimi başdeer yeməyə, tay tezzən yediylərinin üssindədilər axı. Amma Ərəstun nədənsə, rahatdana bilmeer. Helə göölsiz-göölsiz başdeer yeməyə. Bir az keçir, Loğman siftə üzin öz oğlına tutır, deer, oğıl, plov nətəərdi? Xoşua gəlir? Oğlı cavab verir ki, hə, ata, çox daddıdı. Loğman deer:

– Oğıl, heç bir dəyişiyliy-zad hiss eləmeersən ki?

Oğlı deer:

– Yox, ay ata, nə dəyişiyliy? Hər şey öz qaydasındadı.

Loğman deer:

– Hə, oğıl, çörəyüyü ye.

Soora Loğman üzünü Ərəstuna tutur, deer:

– Ərəstun, bala, sən nətəər, heç bir dəyişiyliy-zad hiss eləmeersən ki?

Ərəstun deer:

– Vallah, nə bilim, ay dayı, məə elə gəlir ki, ya yer bir təbəqə yuxarı qalxıb, ya da göy bir təbəqə aşağı yenib.

Ərəstun tay heç zad demeer. Bılar çörəylərini yeeb qutarannan soora deer:

– Arvad, gördün, Ərəstun döşəycənin altındakı bir dənə vərəqin fərqini o saad bildi, amma oğlımız o qəlinniyində kitabın fərqini bilmədi. Sən də deersən ki, belə…

Bəli, vaxt keşdiycən Ərəstun həkimliyi bir az da yaxşı örgəndi. Yavaş-yavaş Loğmanın yanına gələn xəssələrin sayı azalırdı, tay hamı Ərəstunun yanına gəlməyə başdeerdi. Bı da Loğmana acığ gedirdi. Bir tərəfdən də arvadı Loğmana deerdi, əşi, görirsən? Səə deerdim az məşğul ol bı bacun oğlıynan. Tay bı vilayətdə səni saya salan yoxdı, o dünənki uşağın hörməti səən hörmətüyü üssəleer. Loğman bir yerdə səyf-zad eliyəndə Ərəstun o saad oon səyfin tutırdı, elə olırdı ki, Loğmanın bilmədiyi yollarnan sağaldırdı xəssələri. Loğman gördi ki, yox. Doğırdan da, əgər belə getsə, Ərəstun mıyı üssəliyəcəy. Fikirrəşdi ki, tay Ərəstuna heç zad örgədmeem. Ərəstun mın yanına gəlib bir şey sorışanda Loğman bir bəhaneynən aradan çıxırdı. Yavaş-yavaş Ərəstun mıyı başa düşdi, tay mınnan soora bir də Loğmanın yanına gəlmədi, helə özi məşğul olmağa başdadı.

Loğman gördi ki, tay Ərəstun mıynan hesablaşmeer, helə xəssələri öz bildiyi kimi sağaldır. Bir gün çağırdı, dedi, bacoğlu, deyəsən, tay səən mənə ehtiyacun yoxdu? Ərəstun dedi, o nə sözdi dayı, sən mənim məllimimsən, məən hər vaxt səə ehtiyacım var. Loğman dedi:

– Yox, ehtiyacun olseydi, gəlib məsləhətdəşib eliyərdün. Anoyu da götir, çıx mənim öyimnən, tay səyi bu qədər örgətdim, bəsdi.

Ərəstun bilmeer nağarsın, gəlir əhvalatı anasına danışır. Anası gəlir ki, ay qardaş, Ərəstun nə günah iş tutub ki, sən belə eleersən? Loğman deer:

– O tay böyiy-zad saymeer, məynən hesablaşıb-eləmeer. Belə eeerəm ki, oon ağlı başına gəlsin.

Bacısı çox yalvarır, Loğman deer:

– Yox!

Ərəstun anasını da gətirir, gəlir lap kəndin qırağında camaatın köməyinnən bir dənə daxma tikir. Başdeellar ana-bala orda yaşamağa.

Mıın üssinnən bir müddət keçmişdi. Bir gün xəbər yayılır ki, bəs padşahın qızı bərk xəssələnib, tay ölim ayağındadı, kim oyı sağaltsa, padşah oyı dünya malınnan qane eliyəcəy. Mıyı eşidən kimi Loğmanın arvadı deer:

– Ay kişi, tay oyı sən sağalda bilmiyəndə kim sağaldacağ?

Deellər:

– Padşah söz verib ki, kim qızı sağaltsa, oyı dünya malınnan qane eliyəcəy. Gərəy gedib sağaldasan oyı.

Loğman dedi:

– Ay arvad, axı sağalda bilməsəm, şah boynımı vırdıracağ.

Arvada tamah güc gəldi, dedi:

– Yox, sən boynua götir, sağaldassan.

Nəysə, Loğman şaha xəbər göndərdi ki, sağaldaram sənin qızuyu. Şah mıyı gətizzirdi. Dedi:

– Səynən bir şərtim var. Qızımı sağaltdun, sözimiz sözdi, nə istəsən, verəcəm səə. Yox, sağalda bilməsən, boynun vırılacağ.

Loğman razılaşdı. Dedi:

– Amma şah sağ olsın, gərəy mən bir otaxda qıznan tək-tənha olam. Qıznan mənnən başqa heç kim olmamalıdı otaxda.

Şah razılaşdı.

İndi sizə kimnən deem, Ərəstunnan. Dayısı bı işi boynına götirəndə Ərəstun siftə təəccübləndi, çünki o dayısının biliyinə bələdiydi. Bilirdi ki, padşahın qızını sağaltmağ asan iş döyir. Soora başa düşdi ki, arvadı Loğmanı məcbur eleeb bı işi boynına götirməyə. Fikirrəşdi ki, indi dayısı qızı sağalda bilməsə, şah oon boynını vırdıracağ, ona köməy eləməy lazımdı. Hər nətəər

olsa, həm məllimi olıb, həm də dayısıdı. Bı da gəldi, həmin o otağın divarınnan bir balaca deşiy açdı, başdadı baxmağa.

Loğmanı saldılar bı otağa, qızı da gətirdilər. Loğman bildi ki, bı xəssəliy nədisə, qızın başındadı. Qızın baş qapağını götirdi, gördi ki, qızın başında damarrardan birinə bir dənə gənə yapışıb, o da tay elə yerdədi ki, o gəniyə əl vursan, o saat damarlar qırılar, adam ölər. Bəs nağayrım, nətəər eleem? Loğman nə qədər fikirrəşdi, bir əlac tapa bilmeerdi, helə qalmışdı gəniyə baxa-baxa.

Axı, Ərəstun da deşiydən baxır… O da görirdi ki, dayısı pis vəziyyətdə qalıb, bir az da keçsə, vaxt qutaracağ, gəlib mıyı aparıb boynun vıracağlar. Yavaşcadan deer:

– Dayı, qızğın, Loğman, qızğın, qızğın!

Loğman o saat səsinnən taneer ki, Ərəstundu bı. Görir hə, ağıllı söz deer. Götirir bir dənə iynəni, qıpqırmızı olıncan qızdırır, qızdırır. Gətirir dal tərəfdən gənəyə vıranda, gənə yapışdığı damardan qabaq ayağlarını qopardır. Qopardan kimi, Loğman makqaşnan gənəni götirib atır yerə. Qız o saad özinə gəlir. Loğman kəllə çanağını qoyır yerinə, şaha xəbər göndərtdirir ki, bəs sağaldı qızun. Şah, əyyannar, camaat gəlir, görillər həə, qız sağ-sağlamatdı. Nətəər şərtdəşmişdilər, şah Loğmana çoxlı xələt, qızıl, gümüş verib yola salır. Ancaq Ərəstunın bı çoxbilmişdiyi Loğmana bir az da artıq yer eleer.

Günin birində Loğmanın bir kişiynən sözü çəpləşir. O deer, bı deer. Axırda Loğman hirssənir, deer:

– Get, get, indi xəssələnəndə yanıma gələrsən.

Kişi deer:

– Ayə, səyi neyneerəm, Allah Ərəstunun canın sağ eləsin, o sənnən min dəfə yaxşı həkimdi, nə də səən kimi özini qaldırıb göyin üzinə qoymeer.

Bı söz Loğmana çox yer eleer, bı kişidən hayıf çıxmaq isseer. Fikirrəşir, fikirrəşir, axırda deer:

– Həə, kişinin arvadını pılnan ələ alıb issədiyimi eliyərəm.

Gizzinnən çağırtdırır kişinin arvadını, deer:

– Sənə bir qədər qızıl pıl verirəm, mənim dediyimi eliyəssən.

Arvad deer.

– Nədi?

Loğman deer:

– Ərün çöldən alaf çalmaxdan gələndə tez qayğanağ bişirərsən, yağını da bir az çox eliyərsən.

Arvad razılaşır. Sabahısı kişi yorğın-arğın ot çalmaxdan qayıdanda arvadı bir yağlı qayğanağ bişirir, qoyır mıın qabağına. Kişi helə həyətdə oturıb başdeer yeməyə. Helə bı vaxt Ərəstun mıın öyinin yanınnan keçirmiş. Görir ayə, sən ölmiyəsən, kişi tərri-tərri, köynəyini-zadını da soyınıb, yağlı yumırtta yeer. Tay Ərəstun da həkim adamdı, bilir ki, tərri adam çılpağ otırıb yağlı xörəy yiyəndə mütləq xəssələnməlidi dənə. Öyin tuşında ayağını saxladı. Kişi Ərəstunu görən kimi durdı ayağa:

– Salamməleyküm.

– Əleykiməssalam.

– Nə var, nə yox?

Kişi qayıtdı ki, ay Ərəstun, xəbərün oldı? Bəs o gün səən dayunnan – Loğmannan savaşdım. Ərəstun dedi:

– A kişi, nə üssində?

Kişi hər şeyi mına danışdı. Ərəstun da arif adamıydı, o saat məsələni başa düşdi. Kişiyə dedi:

– Sənin arvadun aldadılıb. Sən tərli adam, bı yağlı xörəyi yiyən kimi mütləq xəssələnməlisən. Oa gora da, yeeb qutaran kimi, get peyin kümbülünü[28] qaz, gir oon içinə, gecəni orda yat.

Kişi elə də elədi. Arvada dedi:

– Hə, arvad, səyi alladıblar. Get Loğmana de ki, peyin kümbülünü qazıb oon içində yatdım.

Arvad gəlib əhvalatı Loğmana danışır. Loğman görir ki, tay yavaş-yavaş Ərəstunnan bacarmağ çətinnəşir, Ərəstun helə yerri-yersiz mıın bütün işdərinə bırnın soxır. Yavaş-yavaş

---

[28] Kümbül – qalaq

Loğman fikirrəşir ki, bı Ərəstunnan canımı nətəər qutarım? Biyannan da günnən-günə camaatın arasında Ərəstunın hörməti artır. Tay bütün xəssələr oon yanına gəlir. Başqa vilayətdərdən də gəlib Ərəstunu xəssə üssə aparıllar.

Günin birində Ərəstunun gözi tutılır. Hay büyün açılar, sabah açılar, görillər yox e, getdiycən bir az da xarablaşır. Tay Ərəstun öydən çölə çıxa bilmeer. Anası dirənir mıın üssinə ki, ay oğıl, qoy gedim dayunnan – Loğmannan bir dənə dərman gətirim, yoxsa onnan başqa kim əlac eliyə bilər səən gözzərüə? Ərəstun çox deer ki, sən bilmeersən, dayım məən gözimin tutılmağını bilsə, elə eliyəcək ki, heç bidəfəliy açılmasın, dayı məəndi, mən oyı taneeram. Nə qədər anasını başa salmağa çalışır, olmeer. Axırda deer:

– Yaxşı, ana, gedirsən, get, amma səə bir şey tapşıracam, oyı yadunnan çıxartma.

Anası deer:

– Nədi?

Ərəstun deer:

– Ana, gedib dayıma diyərsən ki, belə-belə, Ərəstunun gözi tutılıb, ona bir dərman ver. Onda dayımın dediyi birinci sözü yadunda saxla, gəlib məə diyərsən.

Anası deer:

– Baş üssə, orda nə var ki.

Nəysə, gəlir, Loğmana deer ki, belə-belə, Ərəstunın gözi tutılıb, ay qardaş, oa bir dərman. Loğman deer:

– Hə, hə, ay dad oon əlinnən. Dayan, bı saad dayısı ona bir dərman versin ki, gözinə tökən kimi açılacağ. Götirir nəsə göy bir şeyi əzib tökir kağızın arasına, verir mına.

Arvad götirir gəlir evə. Ərəstun da gözzeerdi. Deer:

– Ana, nooldu?

Anası deer:

– Ay bala, sənə demədim? Dayun bir dərman verdi ki, gəl görəsən. Dedi, helə bircə dəfə gözinə tökən kimi sağalacağ.

Ərəstun dedi:

– Ana, axı mən səə söz tapşırmışdım!

Arvad deer:

– Həə, ay oğıl, helə getdim, dedim ki, bəs belə-belə, Ərəstunın gözi tutılıb, ona bir dərman, o da dedi ay dad oon əlinnən.

Helə mıyı diyəndə Ərəstun deer:

– Ana, əl aman, əl aman.

Yanı ki, əl vırma, çünki göz elə şeydi ki, əldən ho götirir. Ərəstun tez öz əllərini daldan bağlatdırdı ki, birdən bilməz gözinə vırar. Soora anasına dedi ki, hə, ana, indi aç görim nədi dayımın göndərdiyi o dərman. Anası açdı, Ərəstun gördi ki, bı göy daşdı. Göy daş da elə şeydi ki, gözə düşən kimi tay o göz kor olmalıdı. Ərəstun oyı tökdirdi o yana, gözi də öz-özinə sağaldı, yaxşı oldı.

Mınnan soora Loğman bir az da qəzəbləndi. Arvadı da bir tərəfdən deerdi, ay kişi, axı mən deerdim ki, o bacun oğlı axırda heç kimi saymıyacağ. Axırda iş o yerə gəlib çatdı ki, Loğman dedi:

– Yox, Ərəstun, bı vilayətdə ya sən olmalısan, ya da mən, iki qoçın başı bir qazanda qaynamaz.

Ərəstun çox dedi ki, ay dayı, gəl sən bı daşı tök ətəyünnən, mən səən şagirdün olmışam, heç vaxt da səən üzüə ağ olmamışam. Mümkün olmadı. Bılar camaatın hamısın topladılar meydana. Loğman dedi:

– Ay camaat, mən neçə ildi ki, bı vilayətdə həkimliy eleerəm. Yüzdərnən, minnərnən xəssəni ölümnən qutarmışam. İndi bı Ərəstun, dünənki uşağ çıxıb ortalığa ki, bəs nə var, nə var, mən də varam. Mən oa çox dedim ki, ay oğıl, sən gəl mən olan yerdə özüyü atma ortalığa, nə çox vilayət, get başqa yerdə həkimliy elə, o məyi başa düşmədi. Oa görə də, mən qəti fikrə gəlmişəm: iki qoçın başı bir qazanda qaynamaz, bir vilayətdə ya o olmalıdı, ya mən. Biz bir-birimizi öldirməyə çalışacoğ. Kim kimi öldirsə, sağ qalan bı vilayətdə həkimliy eliyəcəy, ölən də ki, tay baxtınnan küssün.

Camaat, ağsakqallar çox deer bına, xeyri olmeer. Deer, yox ki, yox. Ərəstun da tay məcbur olır, razılaşır. İndi püşk atmalıdılar ki, görsinnər birinci fürsət kimə düşəcəy. Loğman nətəər bijdiy işdədirsə, birinci fürsət mına düşir. Üzün tutır camaata, deer:

– Ay camaat, gördüz də, tay birinci fürsət mənə düşdi. Düz qırx günnən soora yığışın bı meydana, mən hamuzun gözi qabağında Ərəstunı öldirməyə çalışacam. Bı qırx gündə mən oyu nətəər öldirməy hakqında, o da nətəər sağ qalmaq hakqında fikirrəşsin. İndisə dağılışa bilərsüz.

Camaat hamısı dağlışıllar evlərinə. Ərəstun da anasını götirib gəlir evə. Anası helə ağleer ki, ay oğıl, mən bilirəm, oon əlinnən sağ qutara bilmiyəssən sən. Ərəstun deer:

– Ana, sən ağlama, Allah kərimdi.

Tay Loğman Ərəstunın məllimi olmışdı dənə, Ərəstun bilirdi ki, dayısının elə güjdi biliyi-zadı yoxdı ki, ağıla gəlmiyən bir ölüm üsulu fikirrəşib tapsın. Yaxşı, bəs bı məyi nəynən öldirə bilər?! Birdən Ərəstunın yadına düşir ki, dayısı çoxlu ilan saxleerdi, oların üssində təcrübə aparırdı. Deer:

– Hə, sən öl, dayım məyi ilannan öldirməyə çalışacağ.

Tay mınnan soora heç nəyi vecinə almeer. Düz otuz səkgiz gün gəzir-dolanır, otuz dokquzuncu gün çağırır anasını, deer, ana, get, qonşıdan bir qazan süd al, bir qazan ayran al, bir qazan da qatığ.

Anası tez gedib alıb gətirir. Ərəstun deer:

– İndi ana, sözzərimə yaxşı-yaxşı qulaq as. Əgər məən sağ qalmağımı isseersənsə, indi mən səə diyəcəylərimi yaxşı-yaxşı yadunda saxlıyıb sabah meydanda olara əməl eliyərsən. Sabah dayım məyi ilannan öldirməy issiyəcəy. İlan məyi vıran kimi, sən özüyü itirmə, tez məyi götir, birinci ayrannan dolu qaba at. O qədər yu ki, ayran göy rəngə çalsın. Onnan soora götir məyi at qatığnan dolu olan qaba, orda da yuannan soora axırda sütnən dolu qaba atıb yuarsan. Əgər bı dediylərimi yadunda saxlıyıb düzgün yerinə yetirsən, mən sağ qalacam.

Nəysə, qırx günün tamamında camaat toplaşır meydana, tay hamı səbirsizziynən gözzeerdi dənə. Loğman da gəlir. Bı tərəfdən də Ərəstunnan anası gəlir. Loğman gözzeer, hamı yığışannan soora özinnən razı halda gəlir düz meydanın ortasına. Deer:

– Ay camaat, yaduzdadı ki, qırx gün mınnan əvvəl söhbət belə oldı ki, mən Ərəstunı öldirməyə çalışacam. İndi mən sözimin üssində durıram. Əgər bı Ərəstun, doğırdan da, bir şey bilirsə, qoy özini ölməyə qoymasın.

Mıyı deeb, Loğman gəldi Ərəstunun qabağında bıynan üz-üzə dayanıb, gülə-gülə cibinnən bir sarı, balaca ilan çıxartdı. Ərəstun bir az özinə gəldi, düz fikirrəşib ki, dayısı mıyı ilannan öldürməyə çalışacağ. Gördi bı çox zəhərri bir ilandı. Helə Loğman ilanı Ərəstuna tərəf eliyən kimi, ilan Ərəstunı qolınnan vırdı. Ərəstun yıxıldı. Yıxılan kimi, bı nətəər demişdi, anası helə də elədi. Siftə mıyı götirdi atdı ayran qabına, axırda da südnən dolu qaba atdı. Ərəstun hamının gözinin qabağında durdu ayağa, gəldi meydanın ortasına. Dedi:

– Ay camaat, hamuzın gözinin qabağında dayım məyi öldürməyə çalışdı, ancaq mən özimi ölümdən qutara bildim. İndi mən qırx gün vaxt verirəm. Qırx günnən soora ginə də toplaşun bı meydana, bı dəfə mən Loğmanı öldürməyə çalışacam. Qoy bacarırsa, o da özünü qutarsın ölümdən.

Camaat hamısı dağılışır. Loğman da çox fikirli halda qayıdır evə. Gəlir, başdeer fikirrəşməyə ki, görəsən bı Ərəstun nəynən, hansı üsulnan öldirməy issiyəcəy məyi?!

İndi bu fikirrəşməydə olsın, sizə deem Ərəstunnan. Ərəstun ordan anasını da götirib gəldi evə. Evdə palazdan, parçadan nə varıydı, hamısını satdı, getdi bir az gön aldı, dana göni, bir də çoxlu çəkiş aldı. Ordan gəldi çobanın yanına.

– Salamməleyküm, çoban qardaş.

– Əleykümsalam. Nə var, nə yox?

Ərəstun dedi:

– Çoban qardaş, bı çobanlıxdan nə qədər əməyhakqı alırsan?

Çoban dedi ki, beş şahı. Ərəstun dedi:

– Gələ bı beş şahını da mən verirəm sənə, al bu gönü, – dana gönünnən əl boyda kəsdi, verdi bına, – bir də bı çəkişi, helə qoyını otara-otara səərdən axşamacan bı çəkişnən bı gönü döyəcdiyərsən.

Çoban razılaşdı. Ərəstun ordan gəldi ilxıçının yanına.

– Salamməleyküm.

– Əleykümsalam.

– Qardaş, bırdan nə qədər əməyhakqı alırsan?

– Filan qədər.

– Gələ mıyı da mən sənə verirəm, bı çəkişnən bı gönü döyəcdə.

Ordan gəldi əkinçilərin yanına, nə bilim, ordan ora... Bir söznən, hamıya payladı bı gönnən, çəkişdən.

Loğman gecənin bir aləmi bayıra çıxmışdı, gördi ayə, sən ölmiyəsən, takqatak kəndi götirib başına.

– Ayə, bı nə ola bilər?

Qaçdı çobanın yanına:

– Salamməleyküm.

– Əleykümsalam.

– Ayə, çoban qardaş, bı nədi, işün-gücün qutarıb, cəht gəlmisən bı gönü döyəcdəməyə?

Çoban deer:

– Həə, vallah, mıyı sənin bacıoğlu Ərəstun verib ki, axşamacan döyəcdə. Mənnən də nə gedir e, döyəcdirəm.

Loğman heç zad başa düşə bilmədi, ordan gəldi ilxıçının yanına, ordan oon yanına. Hamısı eyni sözzəri təkrar elədi. Loğmanı fikir götirdi ki, ayə, görəsən Ərəstun mıynan nə eləməy isseer mənə? Ha fikirrəşdi, bir yerə çıxarda bilmədi. Tay bının yuxısı çəkildi ərşə, gecə-gündüz başdadı fikirrəşməyə.

Beləcə otuz dokquz gün keşdi, qırxıncı gün hamı yığıldı meydana, Ərəstun da gəldi, durdu meydanın ortasında. Bir də gördilər ki, Loğman gəlir, ancaq əvvəlki Loğmannan əsər-əlamət yoxdı. Bı qırx gündə Loğman o qədər arıqleeb ki, bir

dəri qalıb, bir sümük. Nəysə, bı da gəldi durdu meydanın ortasında. Ərəstun dedi:

– Ay camaat, qırx gün mınnan əvvəl dayım məyi öldirməyə çalışdı, özi də ilannan. İndi də mən onu öldirməyə çalışacam. Özi də mənim üsulum çox sadə olacaq.

Mıyı deeb, Ərəstun böördəki ustula yaxınnaşdı. Gətirib iskana qənd atıb, bir tünd şərbət qayırdı verdi Loğmana ki, iç mıyı. Loğman iskanı kənar eleeb dedi, mən nə bilim, sən o şərbətə nə qatmısan! Bı belə diyəndə, Ərəstun götirdi iskanı çəkdi başına. Soora ikinci iskanı düzəltdi verdi mına. Loğman gülə-gülə dedi:

– Ərəstun, deməy, sən mıynan öldirməy isseersən məyi? Hayıf mənim sənə verdiyim dərsdən. Şərbətnən də adam ölər?

Ərəstun deer:

– Mən nə deerəm ki, iç, soora söhbət eliyərik.

Loğman iskanı çəkir başına, heç şərbət iskanın dibinnən qutarmamış Loğman yıxılır yerə, canın tapşırır. Camaat hamısı mat-məətdəl qalır ki, bəs belə də şey olar? Heç şərbətnən də adam ölər? Ərəstunnan soruşıllar. Ərəstun deer, yaduzdadısa, mən hərəyə bir parça gön, bir dənə də çəkiş verdim ki, bını döyəcdiyin. Loğman da fikirrəşirdi ki, görəsən bı Ərəstun məyi nəynən öldirəcəy. Takqatak kəndi başına götirdi. Loğman gecə-gündüz başdadı fikirrəşməyə ki, görəsən Ərəstun mıynan nağarmağ isseer. Fikirrəşməy də ən pis şeydi. Qırx gündə o fikir Loğmanın ürəyini tamam üzdü, oon ürəyi nəzilib, sapdan da nəziy olmışdı. Şərbət də çox güjdi şeydi, Loğmanın o tamam zəyifləmiş ürəyi şərbətə davam gətirə bilməzdi. Oyıdı ki, şərbəti içən kimi ürəyi qırıldı, düşdi qəfəsə, oynan da Loğman öldi.

Yardılar, gördilər hə, sən ölmiyəsən, doğırdan da, ürəy qırılıb, düşüb qafatıya[29]. Onnan soora Ərəstun təkbaşına başdadı vilayətdə həkimliy eləməyə. Hamı da onnan razılıq eleerdi, günnən-günə hörməti artırdı.

---

[29] Qafata – döş qəfəsi

## ŞAH QIZININ ARZUSU

Deyir ki, şahın qızı şahın oğluna gəlin gedirdi. Şahın qızının nə dərdi olub? Elə gözün açıb şah qızı olub. Amma yetim oğlan varıdı: nə dədəsi vardı, nə anası. Baxdı gördü, xudaya, nə dəmdəsgahnan bı gəlin gedir. Dedi, yetimə kimdi gəlin verən. Olardı bir on yaşında. Gəlin qabağını kəsmək onnan qalıb. Bı mının qabağın kəsir. Onda maşın yoxuydu, gəlini faytonnan, dəvəynən aparırdılar. Uşağ dedi, yox e, mən gəlinbacının qulağına söz deyəcəm. Gəlin də baxdı gördü ki, balaca uşağdı dənə. Dedi:

– Qoyun gəlsin.

Gəldi, dedi:

– Gəlinbacı, de görüm dünyada nə dərdün var?

Belə ayıldı bu. Dərdi yoxdu axı, şah qızıdı, şah oğluna da ərə gedir. Nəyi var, nəyin dərdin çəkə? Dedi:

– Var.

Dedi:

– Nədi?

Dedi:

– Xəbər alma. Uzun dəmir nərtifanım oleydi, polad çəkişim oleydi, bir də yüz əllilik mismarım oleydi. Tay xəbər alma nəyə göra dedim, odu məən dərdim.

Çıxartdı bir dənə qızıl onnuğ bı oğlana verdı. Gəlin çıxdı getdi, oğlan da getdi.

Bı oğlan apardı mıyı xırdalatdırdı. İndi bizim uşağlar necə tum satır, sakqız satır. Bı da bir gün bir şey satdı, bir az qazandı, sabah başqa şey satdı, bir az qazandı. Bu onnuxdan əlinə maya saldı. Allah-taala buna okqədər bərəkət verdi ki, balaca putka qayırdı, putkadan yekə tükan qayırdı. Elə-elə bu otuz yaşına çatanda rayonda mınnan imkannı tacir olmadı. Neçə mağazinnəri, tükannarı. Oturub-durub deyərdi ki, mən bilmədim o şahın qızı hara getdi. Allah, ömürrük onun quluyam mən, onun hesabına varrandım da mən. Bı onnuğu o ver-

di, elə bil əlinin bərəkəti məə düşdü. Bu qədər cahı-cəlalı, duudumanı onun hesabına yaratmışam.

Dünyada on beş gün aydınnığ olur, on beş gün qarannığ. Bu insannarın da qara günü də var, ağ günü də var. Ağ günü görən gərək qədrin bilə. Qara günü də görən gej-tez qara günnən çıxanda, çox da göynən getmiyə. Oa görə ki, bılar bacı qardaşdı, bir-birinə yoldaşdı. Həmən o qız ki getmişdi şah oğluna, elə bilginən o biri şah qəfil bı şahnan müharibə elədi. Bıların torpağın, malın, pılın əlinnən aldı, oğlun, ərin – hamısın öldürdü. Bir dənə qaldı bı gəlin. Bı gəlin də yaşdaşıb da, orta yaşı keçibdi. Bı gördü torpağı aldılar, dedi, mən elə keçmiyim də, mən şah arvadı, şah gəliniyəm. Bir dənə çadıra büründü, bı vətənnən qaçdı. Baş götürdü ölkəbəölkə, ölkəbəölkə gəldi. Axı bı görmüş adam, əlin açıb dilənməyə də xəcalət çəkir, aclıq da üz verir. Allah heç kimi pis günə qoymasın. Oğul gedib, ər gedib, vətən gedib, hər bir şeyi itirib tənha qalıb. Bir mının müdarası[30] yoxdu ki, bir yerə gedə daldalana. Helə öz-özünə fikirrəşə-fikirrəşə, ilahi, mən nağayrım, nətəəri eliyim? Baxdı, dilənməyə utandı ki, mən çörəyi nətəər istiyim. Üstündə-başında olannardan verdi nəsə aldı, elə-elə bılar da qutardı. Bə kimə mən gedim daldalanım? Gördü bir çoban qoyun otarır. Dedi:

– Çoban qardaş, məə aylöön köhnə libasın ver. Mən gedib bir adama desəm qənfet ver məə, deyəcək mının geyiminə bax, geciminə bax, gəlib məə əl açır. Məcburam gərək dilənəm, bir tikə çörək tapam yeyəm.

Çoban getdi bir dəst köhnə paltar gətdi verdi mına. Şəhərbəşəhər gəldi, gəldi, həmən tacirin tükanına girdi. Deməli, o vaxt oğlanı görəndə mının üzündə xal varıydı. Xalı görəndə dedi, vallah, həmən oğlandı. İndi böyüyüb, yaşı otuzu keçib. Maşallah olsun. Oturub öz yoldaşlarıynan nərd oynuyur. Bı oğlan mına baxdı ki, üzünnən bı dilənçiyə oxşameer. Mına gətdi bir qızıl onnuğ verdi. Qadın bı qızıl onnuğu aldı əlinə,

[30] Mudarası – arxası, dayağı

qızıl onnuğu verdiyi o xoş günnər yadına düşəndə yaş gözünnən süzüldü. Amma oğlan görmeer. Qız onnuğu atdı mının polkasın üssə, çıxdı getdi. Dedilər:

– Ə, camaata bir abası, iki abası verirsən, sən ona onnuğ verdün, ağladı, atdı bıra.

Dedi:

– Nə, bay.

Yügürdü mının dalıycan. Dedi:

– Dayan, bacı. Mən baxdım sənin üzüvə, şəxsiyyətüvə, gördüm sən dilənçiyə oxşameersən, oa görə səə onnuğ verdim. Mən hər adama onnuğ vermərəm, abası-zad verərəm. Götürməmisən, üstəlik də ağlıyıb atmısan ora. Xeyir ola, mən səyi tanımeeram, eləmeerəm, nəyə görə, nə səbəbə almadın?

Dedi:

– Var da bir məqsədim.

Dedi:

– Mən səni tanımeeram, sən məni.

Dedi:

– Mən səyi yaxşı tanıyıram.

Dedi:

– Tanıya bilməzsən.

Dedi:

– Yaxşı tanıyıram.

Dedi:

– De.

Dedi:

– Bura yeri döyül.

Dedi:

– Onda gəl gedək.

Gəldi bu yanındakı adamları çıxartdı. Dedi:

– Hə, bacı, indi de görüm sən məyi hardan tanıyırsan?

Dedi:

– Yaxşı yaduva sal, uşağ olanda şahın qızı şah oğluna gəlin köçürdü ha, onun qabağın kəsdin.

Dedi:

– Hə, elə yadımdadı. Bax o sıranı görürsən? Onun verdigi o qızıl onnuğa Allah o qədər bərəkət verdi, hamısı onun hesabınadı. Ömür boyu onun quluyam, amma bilmeerəm o hardadı.

Dedi:

– Həmən o qız mənəm.

Dedi:

– Ola bilməz.

Dedi:

– Mənəm.

Dedi:

– Bu günnər nədi? Bu nədi?

Başına gələn əhvalatı nağıl elədi. Müharibə oldu, ərim getdi, balam, varım-döölətim, özüm də düşmüşəm dilənçi gününə. Nə yerim var, nə yurdum var, nə məsgənim var, nə daldanacağım var. Səyi görəndə, üzüün xalınnan səyi tanıdım. Oa görə baxdım, səə onnuğu verdiyim o günnər yadıma düşdü, keçən günnərim, xoşbaxt günnərim. İndi qara günnərimi yadıma salıb ağlıyıram ki, gör nə günnərə qaldım, nələr gəldi başıma, Allah.

– Ay bacı, sənin başua dönüm, ayağun altda ölüm, gəl gedək bizə. Deyəcəm, bacım idi, orda müharibə olub, gəlib. Sən mənim doğma, axirət dünya bacımsan, mən də sənin qardaşın. Sənin o onnuğuynan mən imarət yapmışam, gəl gedək. Deyir, çörəyi ver çörəkçiyə, birin də üstəlik. Mən çörəgi itirməmişəm. Dayma da qəlbim səyi axtarıb ki, kaş oyı görüb halallıq aleydim. Gəl gedək, elə bil öz dədə malındı.

Götürdü mıyı apardı öyünə. Orda dedi, bacı. Dedi:

– Hə.

Dedi:

– Məyi başa sal, həmişə fikirrəşirəm ki, sən o uzun dəmir nərtifanı, polad çəkişi, yüz əllilik mismarı neynürdün? Bu sənin nəyüvə lazım idi? Şah qızıydın, şah arvadıydın.

Deyir:

– Qardaş, sən oyı deyəndə mən tiskindim qalxdım. Dedim, vaxt gələcək mənim qara günüm olacax. Xudavənd-aləm Allah, hələ şah qızıyam, şah arvadıyam. Birdən birə qara gün çökəndə, nərtifan qoyeydim, mismarrıyeydim polad çəkişnən, məyi pilləkən-pilləkən düşürdeydin, birdən göydən yerə çırpbeydin. Çünki bu xoş günümün qara günü də gələcək. Amma birdən-birə düşmüyeydim də zülümə. Elə birdən də düşdüm yerə. Çünki qara günün bir xoş günü var, xoş günün bir qara günü var. Bax mən gəldim bu günə çıxdım, şükür Allaha, sən də gəldin bu günə çıxdın. O nərtifannan çəkişi bu günə görə axtarırdım.

İndi Xudavənd-aləm Allah heç kimi gördüyü günnən dala qoymasın. Heç kimi vaxtsız dərdə-qəmə salmasın, Hüseynin məzlum hürmətinə. İndi, bala, bu həyat belə gəlib. Bu həyatın qara günü də var, ağ günü də var.

## BELƏ DƏ QALMAZ

Bir məmləkətin padşahı dəyişilir, yerinə gətirif bunun öz oğlunu təyin eliyillər. Atadan miras qalmış vəzir, vəkil, xəzinədar hamısı öz yerində işdiyir. Ərizəyə, şikayətə gələnnərin hamısı gəlir baş vəzirin yanına. Çünki uzun müddətdi xalq tanıyır. Eyni zamanda padşah cavandı da, cavannığına görə bunnar vəzirə daha çox etimad göstərillər. Bu vaxdı cavan padşah xəyala düşür ki, bu vəzir kimdi ki, mən ola-ola camahat bunu saya. Mən bunun başın əkməliyəm.

Bir gün belə, iki gün belə. İsdiyir padşah olsun, isdiyir məəllim olsun, isdiyir adicə bənnanın əlin altında işdiyən fəhlə olsun, evə gələndə onun həvəsin, marağın evin kadını bilir. Bir gün evə gələndə padşahın yoldaşı görür ki, bu neçə gündü evə çox pəjmürdə gəlir. Deyir ki, de görüm sənin dərdin nədi?

Deyir:

– Heş.

Deyir:

– Bura bax. Mənnən sənə yaxın adam var, ikinci bir yaxın adam tanıyırsan? Dərdii maa denən.

Bu fikirrəşir ki, qoy açım deyim. Deyir ki, hal-qəzyə belə-belə. Mən baş vəziri uzaxlaşdırmax isdiyirəm. Deyir:

– Elə bu.

Deyir:

– Hə.

Deyir:

– Burda nə var ki. Səhər taxtı-tacında əyləş, birinci zərgəri çağır. Zərgər gəlsin əyləşsin. Zakaz ver ki, maa bir üzük bağlıyajaxsan bu çəkidə, bu formada. Qaşına da iki kəlmə söz yazdırajaxsan. Mən toy məclisinə gedəndə o sözdəri oxuyan kimi peşmannıyam, yas məclisinə gedəndə o sözü oxuyan kimi özümdə bir səbr, təmkin yaransın. Bunu zakaz ver. Onnan sora vəziri çağır. Denən iki kəlmə söz lazımdı. Yas yerinə gedəndə oxuyanda şadlanam, toya gedəndə oxuyam bədbinnəşəm. O tapammıyajax. Onnan sora boynun vurdur, çıxsın getsin.

Bir az düşünür. Baxır ki, ə, bu nətər məsələdi ki, mən yas mərasimində şadlanam, şadlıx mərasimində də məyusdaşam. Elə düz deyir bu arvad, bunu eliyəjəm. Səhər gedir taxtı-tacda əyləşir. Əmr eliyir vəzir gəlir, zərgər gəlir. Dediklərimin hamısın başa çatdırannan sora vəzir deyir, qibleyi-aləm sağ olsun, maa vaxt ver. Deyir:

– Nə qədər vaxt isdiyirsən?

Deyir:

– On beş gün.

Deyir:

– Saa qırx gün vaxt verirəm, amma sözü gətir. Gətirməsən, boynu vurdurajam.

Vəzir gəlir evə. Mehtəri çağırır deyir, mənim atımı yəhərrə. Xəzinədarı çağırır deyir, maa üş sikkə pul gətir (bir sikkə pulnan ağır bir səfəri yola salırsan). Arvad fikirrəşir ki, ə, bu üş sikkə pulu neynir. Gəlir deyir:

– A kişi, hara gedirsən?

Deyir:

– İşim var.

Deyir:

– Yox ey. Sən bu aylənin başçısısan, gedirsən, bir belə pulu neynirsən?

Deyir ki, belə-belə. Padşah belə bir zakaz verif. Mən bir kisəni yol xərci götürürəm, birin dərdimə əlac eliyənə verəjəm, birin də nəzir-niyaz paylıyajam. Deyir ki, a kişi, padşah nədi, üzük nədi, qaş nədi. Boş söhbətdi. Bu bir kadın əməlidi düşmüsən. Get, Allah sənə yar olsun.

Bu da eşidir ki, Tehranda filankəs var, Təbrizdə filankəs var. Gəlif bunnardan soruşur, deyillər, heş-zad bilmirik. Yayın orta ayıdı, göydən od yağır. Bir məsəl var deyir, tüpürsən göydə quruyur. At yedəyində bir biyaban düznən gedir. Bu yerdə də bir tapal qoyun otaran var. Bir tapal qoyun da on beş-iyirmi qoyuna deyilir. Görür ki, bir dərd əhli gəlir. Durur yolda bunu gözdüyür. Vəzir gəlif buna yaxınnaşanda başın qaldırıf deyir:

– Salaməlöykü.

Deyir:

– Əleykimət salam, ey dərd əhli.

Deyir ki, sən nə bilirsən mən dərd əhliyəm? Deyir:

– Yayın günündə bir adamın huşu kəsmiyə ki, atı minə gedə. At yedəyində piyada gedirsən. Da bunnan böyük dərd var? Dərdin nədi?

Deyir:

– Eh, Tehranda İsgəndər, Təbrizdə Məhəmməd dərdimə əlac eliyəmmədi, sən bu çölləmədə bir tapal qoyunun yanında maa neyniyəjəhsən?

Deyir:

– Yaxşı, onun hansı sənin paltarını soyunduruf, atı əlinnən alıf?

Deyir:

– Heç hansı.

Deyir:

– Onun biri də mən. Sözü maa denən, əlac qılaram qılaram. Qılmaram, səə yaxşı yol. Mən də o adamların biri.

Bir az durur, baxır, baxır. Özü də tarixən açılmıyan, çətin olan məsələni çoban həll eliyir. Deyir, hal-qəzyə belə-belə. Deyir:

– Neçə ildi vəzir işdiyirsən?

Deyir:

– Qırx ildi. Bunun babasınnan yönü bəri vəzirəm.

Deyir:

– Onun qırx ili də sənin burnunnan gəlsin. Orda nə var ona cavab vermiyəsən.

Deyir ki, kişi, üş sikkə pul götürmüşəm. Biri dərdimə əlac eliyən üçündü, biri yol xərcim üçündü, biri də nəzir-niyaz paylamax üçündü. Onun üçün də saa verəjəm. Denən qayıdım. Deyir, yox, mən onu eliyəmmərəm. Məni aparajaxsan özünnən. Deyir, axı o mənim boynumu vurajax. Deyə

bilməsən, sənin də boynu vurajax. Çox danışıxdan sora vəzir də ağıllı adamdı. Görür ki, bu kamil adamdı. Deyir, gedək.

Gəlir evə. Oğluna deyir ki, qoyunnara yiyə dur. Get atımı gətir, yəhərrə. Bir nabələd qonax gəlif, hardasa üş günə gəlif çıxajam. Durur düşür vəzirin yanına, gəlif çıxıllar saraya. Xəbər gedir ki, qibleyi-aləm sağ olsun, vəzir gəlif, özüynən də ucaboylu, bir şir qamətli adam gətirif. Taxt-taca çıxıf əyləşir. Vəzirin, vəkilin, təlxəyin – hamısın yığır ki, vəzirin boynun vurdurajam. Gəlir baş əyir, ehtiram göstərir. Deyir, qibleyi-aləm sağ olsun, sizin axtardığınız sözü bu adam deyəjəh. Deyir ki, buyur. Buyur deyəndə çoban deyir ki, qibleyi-aləm sağ olsun, siz bir vəziri ki, saraydan uzaxlaşdırmax isdiyirsiz, niyə bunu bu əhvala salmısınız?

Deyir:

– Nə əhvala?

Deyir:

– Yayın günü at yedəyində gedir, huşu kəsmir ki, minə.

Padşah da cavandı. Görür ki, bu çox danışır. Deyir, artıx danışma. Fərraş. Görür ki, bunun da boynun vurajaxlar. Deyir, qibleyi-aləm sağ olsun, darıxma. Siz o üzüyün qaşına yazdırın ki, belə də qalmaz. Sən yas mərasiminə gedəndə oxuyajaxsan ki, belə də qalmaz. Buyün şərdi, sabah xeyir olajax. Onda sən özündə bir rahatçılıx tapajaxsan. Hansı şənniyə gedəndə oxujaxsan ki, belə də qalmaz, yəni bunun bir qarannıx günü də var. Onda da istər-istəməz qəmlənəjəhsən.

Padşah deyir ki, bu sözə görə mənnən nə isdiyirsən? Deyir ki, heş bir şey. Çünki mən sizdən varrıyam.

Deyir:

– Necə varrısan? Deyir ki, gəl yanaşı durax, mən sizdən ucayam. Mənim bu dünyadam apardığım torpax və apardığım libas sizinkinnən artıx olajax. Ona görə də sizdən varrıyam.

Bu məsəllər onnan ötrüdü ki, ey insannar, dünya varına uyma, əl çirkidi. Yuyular da, gedər də, gələr də. Çalışın səmimiyyət qurun, mehriban olun, bəşəriyyət üçün fayda verin.

## VAR-DÖVLƏTİ BAŞQASINA QİSMƏT OLAN KİŞİ

Bizim bu Qarabağda, Kür ovalığında, indi hansı rayondadı, hardadı onu bilmirəm, bir dənə varrı kişi varmış. Həddinnən artıx varrı imiş. Bunun qapısında da mənim qapımdakı tut kimi böyük bir tut ağacı varmış. Bu kişinin gözəl evi-eşiyi, varı-varyatı. Bir gün bu gedir Hacc ziyarətinə. Qavax bu Hacc ziyarəti beş-altı ay çəkərmiş ey. Bir gün kişi tək imiş evdə, bir dənə fala baxan gəlir. Girir evə-eşiyə baxır, deyir:

– Bəh-bəh-bəh, nə gözəl evdi. Hayıf ki, yiyəsinə qismət döylü.

Kişi hirsdənir, deyir:

– Axmağın qızı axmax, sən nə danışırsan? Nətər yanı yiyəsinə qismət döylü?

Deyir ki, bu, Lənkəranda bir gəmiqayıran Muxdar var, ona qismətdi. Kişi mənim kimi başdan xarab imiş. Hirsdənir, arvadı qapıdan qovur.

Aradan bir neçə il keçir, bu çıxır gedir Hacc ziyarətinə. Gəlif görür ayə, ev nə gəzir, eşih nə gəzir, hamısını Kür daşıf, yuyuf götürüf gedif. Tut ağacı kökünnən yoxdu.

Nəysə, kişi sarsılır, bir müddət özünə gələ bilmir. Beş-altı aydan sora bu söypət yadına düşür. Bir gün çarığın dabanını bərkidir, deyir:

– Gedəjəm Lənkərana, görüm bu nə hak-hesabdı. Münəccim axı belə bir söz demişdi.

Deməli, gəlir Lənkərana çatır. Orda soraxlıyır, soraxlıyır. Gəmiqayıran Muxdarın qapısını tapanda görür, sən öl, tut ağacı böyrü üsdə bunun dokqazınnan çöldə duruf. Kişinin tükləri biz-biz oluf. İsdiyir qayıdıf getsin, deyir:

– Yox ey, bu Muxdarnan söypət eliyəjəm.

Çağırır, Muxdar kişi evdə imiş, çıxır. Deyir:

– Əşi, xeyirdimi. Niyə gəlmisən?

Deyir:

– Vallah, bu tut ağacı mənim ağacımdı. Amma bir yeddi-səkkiz il bunnan qabax demişdilər ki, bu sana qismətdi. Muxdar kişi, gəl bura, bunun içində otuz kilo qızıl var. Yerini bilməzsən. Onsuz da sənin qismətindi ey.

Deyir:

– A kişi, bunu elə bil filankəsin oğluynan filankəsin oğlu dənizdən iki dənə kəlin g..ünə qoşuf çəkif gətdilər ki, bunnan bizə qayıx düzəlt. Mən də dedim ki, bala, hələ yaşdı, qoy bir az təpsin, sora yonuf düzəldərəm. Filankəsdər gəlsinnər desinnər, sən götür apar, mən neynirəm.

Deyir:

– Yox ey, onsuz da mən gəlmişəm sana halallığını verəm gedəm. Baltanı gətir.

Baltanı gətirir. Ağacın koğuşunda bir çiv varmış, çivi çıxardan kimi otuz kilo qızıl aşır tökülür yerə. Muxdar nə qədər eliyir ki, qızılını götür apar, deyir:

– Sən öl, bir dənəsini də aparmaram.

Deyir:

– Onda bircə gejə qonağım ol dana. Bir gejə qonağım ol, sora gənə çıx get.

Nəysə, bular axşamdan Allah verənnən yeyillər, içillər, yatıllar. Muxdar da arvada pıçıldıyır ki, arvad, bunun yoluna iki dənə çörəh bişir, heç olmasa, bu qızıldan beş-altısını çörəyin içinə qoy da. Bu kopoğlu tərsdi, götürmür. Bir belə qızılı da bu gətirif evin içində verif maa. Bunnan heç olmasa, halallıx alax dana.

Deməli, arvad iki dənə çörəh bişirir təndirdə. Xamırın arasını doldurur qızılnan. İndi sizə kimnən deyim, bu gəmiqayıran Muxdarın bir dənə də pinəçi qonşusu varmış, bazarın qavağında pinəçilih eliyirmiş.

Nəysə, səhər duruf olannan-olmazınnan gənə yiyir, kişinin heyvəsinə iki dənə çörəyi qoyur, deyir:

– Saa yaxşı yol.

Kişi heybəni götürür, gələndə görür çarığın davanı cırılıfdı. Deyir ki, qardaş, bunu tik, iki dənə çörəyim var, birini verim saa, biri də mənim. Deyir:

– Əşi, bunu heş dörd çörəyə tikməzdər. Mən də axşam evə iki çörəh alasıyam. Heç olmasa iki çörəyi ver, tikim.

Kişi çörəyin ikisini də verir pinəçiyə. Pinəçi kişinin çarığını tikir, kişi çıxır gedir. Pinəçi axşam çörəhləri gətirif evə verəndə arvad baxır, deyir:

– Buy, nə yaxşı oldu. O gün Muxdargildən iki dənə çörəh almışam borc, bu da elə o çörəyə oxşuyur. Ayıfdı, qara çörəh vermiyim. Get sən canı, özümüzə qara çörəh al, bu çörəhləri qaytarım Muxdargilə.

Deməli, Muxdarın arvadı görür kü, qonşunun arvadı çağırır. Çıxır, çörəyi görəndə arvad dəhşətə gəlir. Deyir:

– Mən bişirdiyim çörəhdi ey bu.

Deyir:

– Aaz, mən nə bilim, kişi bazarda kimnənsə alıfdı.

Heyləcə çörəhlərin ikisi də qayıdır Muxdarın evinə. Kişi də gənə bir qəpihsiz çıxır gəlir.

## ÜÇ QARDAŞ

Üç qardaş olur, bir də bir bacı. Kiçik qardaşın adı Musa olur. Musa o biri qardaşdarın hamısınnan ağıllı olur. O biri qardaşdar bir az utancaq olurlar, çəkincək olurlar, küt olurlar, amma bu cəsarətli, bilikli bir cavan olur. Amma bunların bacıları da hədinnən çox xəsis olur. Elə olur ki, qardaşdarı işdiyirmiş, bacılarının əli gəlmirmiş öz qazancından bunlara doyunca yemək verməyə. Elə olur qonşu kənddən bu qıza elçi düşür. Qızın fikrin soruşullar, ərə verillər, gedir. Toyu olur.

Aradan bir xeylax keçir. Bir gün üç qardaş işdən evə gəlir. Ortancıl qardaş böyük qardaşa deyir ki, bacımızı ərə verdik. İndi yol böyüyündü, sən hamımızın böyüyüsən, ata əvəzisən. Get bacımızdan bir xəbər gətir, gör onun vəziyyəti nətərdi.

Nəysə, oğlan səhər yol çörəyi götürür, düşür yola. Gedir çatır. Er[31] gəlir, günortadan gəlif. Deyir ki, qardaş, bilirəm yol gəlmisən, acmısan. Qoy yeznən də işdən gəlsin, bərabər çörək yeyərik. Yeznə də bacıdan betər xəsisdi. Axşam yeznə gəlir. Əlin-ayağın yuyur, girir içəri.

– Salam-məlöyküm.

– Əlöykümət-salam.

– Qardaşım gəlif. Xoş gəlmisən.

Süfrə açanda yoldaşı deyir ki, mən indicə çörək yemişəm. Yoldaşdarnan biçində çörək yemişəm, ac döyüləm. Yəqin qardaşın da ac olmaz. Yerlərimizi açax, yatax. Qardaşı da utancaxdı. Deyə bilmir ki, mən yol gəlmişəm, acmışam.

Gejəni birtəhər səhər eliyir. Gözləmir bunların yuxudan durmasını. Deyir, nə qədər ki dizimdə taqət var, gedə bilirəm, gedim. Yol boyu otdan-pencərdən yeyə-yeyə gəlir çıxır evə.

Qardaşdar işdən gəlir. Görüllər ki, qardaşdarı dilxordu.

– Ayə, nədi, nolufdu? Danış bizə.

---

[31] Er – tez

Bu heş nə danışmır ki, mən gördüyümü gördüm, qanım qaraldı, dilxor oldum. Qoy bunlar da dilxor olmasınlar. Deyir, lap yaxşıdı. Kefi kök, dolanışığı yaxşıdı.

– Bəs niyə qanın qaradı?

Deyir:

– Uzax yol gəlmişəm. Nolacax?

Aradan bir on gün keçir. Ortancıl qardaş deyir ki, növbə mənimdi, indi də mən gedim. Böyük qardaş deyir ki, ə, neynirsən, getmə. Deyir:

– Yox ey, gedəcəm.

O deyir, bu deyir. Balaca qardaş deyir ki, ə, nə istiyirsən, qoy getsin dana. Hələ növbə maa çatasıdı.

Nəysə, bu da yola düşür gedir. Böyük qardaşın başına nələr gəlirsə, daha təkrar eləmirəm, bunun da başına gəlir. Qayıdır dilxor gəlir. Böyük qardaş bilir bu niyə dilxor gəlir, amma kiçiyin xəbəri yoxdu axı.

– Əyə, noldu, sən niyə belə eliyirsən?

Deyir:

– Heç nə, yorulmuşam.

Bir müddət keçir, balaca qardaş bir axşam deyir, indi növbə mənimdi. Gedib indi bacımnan mən görüşüm. Bu iki qardaş deyir, biz böyüyük, heş olmasa birtəri yola verdik, ürəyimizə salmadıx da. Buna da açıx demədik ki, özünə dərd eliyər. İstəklimiz budu, bunu nətər qaytarax yoldan? Nə illah eliyillər, nə fənd eliyillər, olmur. Qardaşdarı deyir ki, mən gedəcəm. Daha qardaşdarının əlacı kəsilir, yola salır. Yola düşür, gedir çıxır bacısının evinə.

– Ay bacı, nətərsən, necəsən?

Deyir:

– Lap yaxşı.

– Hə, bacı, qadan alım. Yol gəlmişəm, yorulmuşam. Gör nəyin var.

Deyir:

– Ə, bir az səbr elə, yeznən gəlsin, onnan bərabər yeyərsən.

Deyir:

– Aaz, başın xarab olub? Yeznəm bəlkə gec gəldi, ya gəlmədi, ya çöldə yedi. Mən oturuf ajınnan burda qarnımı qujaxlıyacam ki, yeznəm gələcəh.

– Əyə, qardaş, səbr elə.

Deyir:

– Nə səbr elə ey.

Durur evi gəzir, əlinə düşənnən oturur döşüyür, yeyir-içir. Dirsəklənir. Öz-özünə fikirrəşir ki, qardaşdarım bunun üçün dilxormuş. Aradan bir az keçir, yeznə gəlir. Deyir, qoy hələ fikir verim, görüm bu neyniyəcəh. Süfrə açıb ortaya çörək gətirəndə yeznə deyir ki, mən aj döyüləm, yemişəm, yəqin qardaşın da aj olmaz. Yerimizi aç, yatax.

Deyir:

– Ə, bəri bax. Sən ajsan, aj döyülsən, mana nə? Bajı, mən yeyəcəm.

Süfrədə olannan silir-süpürür, başın atır yatır. Öz-özünə deyir, qoy bir az da fikirrəşim.

Yeznə yorğanın altınnan gizlin deyir:

– Aaz, bax gör qardaşın yatıf?

Deyir:

– Deyəsən yatıf.

Deyir:

– Bax gör yeməyə çörək var?

Deyir:

– Allah haqqı, olan çörək o idi. Çörək yoxdu evdə.

Deyir:

– Aaz, dur bir kömbə sal külə.

O vaxdı da orta ocağ idi. Musa gözdüyür. Yorğanın altınnan baxır. Bacısı kömbəni salır, üstün basdıranda kül kömbəsi deyirdilər, Musa yerinnən dik qalxır. Deyir:

– Bacı.

Deyir:

– Nədi?

Deyir:

– Bacı, bu gecə bir yuxu görmüşəm.

Deyir:

– Nə yuxu görmüsən?

Oxlavı alır əlinə. Bax üç qardaş yerimizi bölürdük. Burdan belə düşdü böyük qardaşıma. Kömbənin ortasınnan bir xətt çəkir. Burdan belə düşdü ortancıl qardaşın payına. Bax bu orta da mənim payıma. Oxlavın ucuynan kömbəni külə qarışdırır.

– Ayə, qardaş, neynədin? Ora kömbə salmışdım.

Deyir:

– Kül sənin başına. Gecənin bu vaxtı kömbə salarlar? Yeznən aj idi, aj idi. Yeyərdi da, əlinnən almışdım?

Bir az keçir aradan. Deyir:

– Aaz, bax gör qardaşın yatıf.

Deyir:

– Hə, deyəsən bu dəfə yatıf.

Deyir:

– Əlac yoxdu. Dur get inəyi sağ, gətir. Heç olmasa süd içim, ölürəm axı.

Bu yavaşcaca gedir inəyi sağır, gəlmək istiyəndə Musa yavaşca durur. Yeznə deyir:

– Ə, hara gedirsən?

Deyir:

– Havamı dəyişməyə çıxıram da.

Gedir durur pəyənin qapısında. Görür bacısı əlində sərnic qapıdan çıxdı. Çıxanda yavaşca deyir ki, evə aparsan qardaşın əlimdən alar, bəri ver, bəri ver. Qız da elə bilir bu əridir. Deyir:

– Ala.

Südü çəkir başına, sərnici verir. Deyir:

– Get.

Arvad əlində boş sərnic girir içəri. Əri deyir:

– Aaz, hanı süd?

Deyir:

– Verdim, içmədin?

Deyir ki, aaz, sənin başın xarab olub, mən çölə çıxmamışam axı. Sən öl, qardaşın çölə çıxdı, o səni alladıf. Girir içəri deyir:

– Noluf ey sizə, niyə yatmırsız bu gecə?

Nəysə, aradan bir az keçir. Payız vaxdıdı, kələmin yetişən vaxdı. Əri deyir:

– Aaz, acınnan ölürəm, neyniyim?

Deyir:

– Ə, əlac yoxdu, get bostanda kələm ye.

Artıq səhərə yaxındı. Musa gözdüyür. Əlinə bir zopa alır. Elə ki yeznələri kələm ləklərinin arasında başdıyır xımır-xımır yeməyə, bu haray salır:

– Bajı, özü yetir, eşşək girif bostana kələmi yeyir.

Bunu bir kökə qoyur. Sürüyür gətirir evə. Səhər açılır. Səhər açılanda deyir ki, indi mən bildim qardaşdarım niyə dilxor oluflar. Bu xasiyyətinizi indən belə dəyişin. Gedirəm, and olsun Allaha, eşitsəm ki, xəsislik eliyirsiz, gələn qonağın qabağına süfrə açmırsız, genə gələrəm ha.

## KEÇƏLİN EVLƏNMƏSİ

Bir Keçəl var imiş. Bir gün Keçəl anasına deyir ki, ana, məni öyləndir. Deyir:

– Ay bala, pulun yox, varın yox, yaxşı öyümüz yox, paltarın yox. Sana mən gedim kimin qızını alem, nə deyim?

Deyir:

– Ana, and olsun Allaha, ya səni qaldırıf yerə elə çırpajam ki, yeddi bölük olajaxsan, ya mana bir qız al.

Arvad düşör kəntdə bu qapı mənim, o qapı sənin qız gəzer. Munu qızlar görör, lağa qoyor, gülüşör. Bir də bir bayavoy qız var imiş – yaşdı qız, ərə-zada getmiyif. Deyir ki, mən gedəjəm Keçələ.

Deyir:

– Ana, məni oğluna alarsanmı?

Deyir:

– A qızım, alaram.

Deyir:

– Get oğluna denən məni alsın.

Gəlir deyir:

– Oğul, sana filan yerdə filankəsin öyündə bir qız tapmışam, gəl gedək.

Deyir:

– Ana, get danış, gör nə istiyir.

Keçəlin nənəsi geder qızın anasının, atasının yanına. Deyir:

– Oğlum əl çəkmer. Gözümün ağı-qarası bircə dənə oğlum var, qızınızı istiyir. Qızınızı verdiniz, verdiniz. Vermədiniz, damınızı, daşınızı oddoof özümü də içinə atajam. Onsuz da mənim oğlumun axırı ölümdü, mən də ölüm.

Bu arvad kişiyə deyir ki, ə kişi, Keçəlin nənəsi gəlib, belə deyir. Nağayrax? Deyəndə deyir ki, arvad, Keçəlin qavağına elə kötüklər dığırrıjam, elə kötüklər dığırrıjam, Keçəl adını-ünvanını bilmijək. Denən verirəm. Deyir ki, verirəm.

Getsin mana, məsəlçün, iki min manat pul gətsin, qızıma qızıl gətsin, üzük alsın, sinəbənd alsın, paltar alsın, bir də öyünü-eşiyini bir az babətdəşdirsin, toyun xarcını, bir də beş-altı erkək gətsin, toyu başdıyax. Deyir:

– Yaxşı.

Gəler, Keçələ deyəndə Keçəl deyir:

– Allah, qarınınkı "Quran"nan keçif. Onsuz da mana qaynatamgil bir belə şey deyif, mən buları hardan tapajam? Bu qaynatamnan qaynənəmə elə dağ çəkməliyəm ki, öləndə də desinnər Keçəl onun qızını istiyirdi, onun üstündə olara dağ çəkdi.

Anasına deyir ki, get qaynənəmə, qaynatama denən ki, nə deyir gətirəjəm, amma qızına cehiz qırx dənə dooşan verəjək. Deyir:

– Yaxşı.

Nolojax, bu kişi varrı kişi idi. Qırx dənə dooşanı tutduror, bir dama dolduror. Keçəli çağırer, deyir:

– Bu qızımın dooşannarını ata malı kimi toyatan apar kökəlt, toyda kəsəjəm dooşannarı.

Keçəl qapıyı açanda dooşanın biri hopbaner belə geder, biri elə, biri də belə. Dooşanmı tapılajeydı burda? Çöldən yığılan dooşan. Keçəl fikirrəşer, fikirrəşer. Əlini başına qoyur, çox fikirrəşənnən sonra deyir, qarınınkı "Quran"nan keçif, daa mənimki ölümdü. Amma fikirrəşim görüm, qaynatamnan qaynənəmin damqasını həncəri qoyuram. Olara bir damqa qoymalıyam.

Bir düdüyü var imiş. Bu düdüyü əlinə aler, yanqılı-yanqılı geder bir qayanın başında oturor, başdıyır düdüyü çalmağa. Düdüyü çalıf Keçəl belə baxanda örör kü, Allah, qayanın dörd tərəfində qırx dooşan nədi, bəlkə yüz dooşan var. Bu düdüyün səsinə hamısı buraya yığılıf. Keçəl qayadan tüşör, belə-belə ağaşnan-zadnan vuror, görör bular getmer. Daa düdüyü kəser, düdüyü buraxanda dooşan dağılır geder. Deyir, haa, sən öl, tapmışam. Otuz dokquz gün dooşan beləjə otdoo-

jax, gündə bir dəfə, iki dəfə çalıf dooşanı başıma yığajam ki, görüm azalıbmı. Qırxıncı günü gedif toylada çalajam, kişinin dooşannarını təhvil verif toyu başdıyajam. Hələ munun qızıl pul yadına tüşmör.

Bu gəlir, deyir ki, yaxşı, mən şərikəm sənin dediklərinə. Dooşannarı buraxer, bu düdüyü çaler. İndi sana söylüyüm bu kişidən. Kişi deyir:

– Arvad.

Deyir:

– Haa.

Deyir:

– Arvad, gəl bəzənək-düzənək, gedək görək hansımız Keçəldən bir dooşan ala bilerik. Dooşanın biri əysik gəlsin, məsələn otuz dokquz dooşan olsun, qızı vermeef Keçəlin də boynun vurdurojam.

Arvad deyir:

– Yaxşı, amma qavaxca mən gedim.

Arvad bəzəner, düzəner, xanım kimi geyiner, pudralaner, kıraskalaner, civinə də puldan-muldan qoyur, gəler.

– Salamməleykü.

– Əleykümətsalam.

– Ay qardaş, deyirlər sənin çoxlu dooşanın var.

Deyir:

– Bəli, var.

– Mənim oğlum var, təpədəgöz bircə oğlum. Ağır xəstədi, ona dooşan əti, dooşan qanı buyuruflar. Nə qədər pul isteersən, var isteersən verim, mana bir dooşan.

Bir az Keçəl çəm-xam, naz-qınc eliyənnən sonra, deyir:

– Mənim bir şərtim var.

Deyir:

– Nədi?

Deyir:

– Gəti yanına bir damqa basem, dooşanı verim.

Bu arvad bir az fikirrəşer, deyir: "Ə, gedif heç öydə kişiyə də demiyəjəm. Kimdi məni görən, kıçamı açıf baxan? Mənim özümün ayləm var, ərim var, nə işinə qalıf, cəhənnəm olsun". Deyir:

– Razıyam, ay Keçəl.

Keçəl damqeyi qızdırer, arvadın kıçasına cızıpbadan damqeyi belə basanda bərk yandırmer dana, buruya həriflərzaddar düşənnən sonra düdüyü "düd" eliyir, dooşannar yığıler, bir dooşanı tutor, arvada verer. Arvad söyünə-söyünə dooşanı gətirer, gəler. Gəler, qapılarına çatanda Keçəl də munun dalınnan gəler. Birdən düdüyü çıxarder, dü-rü-rü-rü. Dooşan arvadın qoltuğunnan part eliyif qaşdığınnan Keçəlin yanına. Arvad kirimişcə, kor-peşman içəri girer, başdıyır ağlamağa.

– A kişi, öyün yıxılsın, məni hara yolladın? Keçəl başıma bu oyunu gətdi, pulumu da aldı, kıçama da bir damqa basdı, dooşanı verdi. İntaası dooşan əlimnən sıçradı getdi. Mən nağarım, mən neylim?

Deyir:

– A köpək qızı, günah səndədi. İndi özüm gedəjəm, sən dayan.

İndi kişi gedir. Kişi də bu vəziyətdə, yalvar-yapış, uzun həngamədən sonra kişiyə də bir dooşan verir. Dooşanı kişi gətirer. Gənə qapıya ələndə düdük çalıner, "di-ri-li-ri" deyəndə dooşan hopbaner, ya Allah. Kişi də ağlıya-ağlıya kor-peşman içəri girer. Deyir:

– Arvad, sənin atana rəhmət, gənə sən mənnən yaxşı idin. Mənim lap ürəyim yatdı.

İndı qızın ürəyi götürmör. Deyir:

– Dədə.

Deyir:

– Haa.

Deyir:

– Ay dədə, indi mən gedəjəm.

Deyir:

– A qızım, yox, səni qoymaram.

Deyir:

– Yox, vallah. Sən neynersən? Mənim nişannımdı, məni ona verersən. Mən gedəjəm, heç bəzənib-düzənmijəm, pul da vermijəm, damqa da basdırmıjam, dooşanın birini alıf gələjəm.

Qız saçınnan tük kəser, – uzun saçı var imiş, – bir dənə nəzik kəndir hörör, civinə qoyor, geder.

– Keçəl, salamməlöykü.

– Əlöyküməssalam.

Deyir:

– Ay Keçəl, sən bilersən ki, mənim təpədəgöz bircə qardaşım var. Qardaşım ağır xəstədi, dooşan əti buyuruflar. Bu dooşanın birini verməlisən.

Deyir:

– Ağız, dooşan da sana qurvandı, hələ tülkü də böyründə. Niyə vermerəm? Sən gəlifsən, xanıma hər şey qurvandı. Dooşanı sənnən ötəri bəsdeerəm.

Dooşanı tutuf verəndə qız deyir:

– Bu dooşanın əyağını bu gətdiyim kəndirnən möykəm-möykəm sən tutorsan, mən bağleeram.

Qız dooşanın əyaxlarını möykəm-möykəm bağlıyır, qoltuğuna vuror, ya Allah. Geder qapılarına çatanda Keçəl nə qədər düdüyü çaler, dooşan nə qədər partdıyırsa, çıxammer. Qız qoltuğunda dooşan içəri girer. Deyir:

– Dədə.

Deyir:

– Haa.

Deyir:

– Dooşanı gətdim. Ala, bu da dooşan.

Kişi dooşanı bir dama saler, qapıyı qıfılleer, gəler Keçəlin yanına. Deyir:

– Keçəl, dooşannarı çağır, sayax.

Dooşan düdüyü "dürü-lö-rö-röt" eliyəndə qırx dooşan idi, indi munun başına altmış dooşan yığıler. Deyir:

– Ayə, mənim öz dooşannarım...

Deyir:

– A kişi, öz dooşannarım nədi? Mənim də dooşanım var, içinə qatmışam, otdoor. Seç, dooşanını götü. Sən dooşanını tanımayanda, mən sənin dooşanını hardan taneeram? Mənim bircə dooşanım var, sənin öyündədi, gətirəjəm. Mən onu taneram. Kişi bir az bu ana baxer, bir az o ana. Qırxını, əllisini munun belə ayırtdırer, aparer dama saler.

Deyir:

– Arvad, bu baş tutmadı. A Keçəl, bizə beş-on gün möhlət ver. Allah, nağayrax, neyləyək?

Bular fikirrəşer ki, bir qurğu qurax, bu dooşan planı tutmadı, bu Keçəldən munu alax. Keçəl də qaratikənnərin başınnan yun yığıb, içi dolu tir-tikə, zir-zivil. Yerə tökülən, eşiyə tökülən, zivilxanalara tökülən yunnarı gətirif gündə anasının qavağına qoyuf munu didiv özdərinə, mübarək olmamış, toy palazı qayırellar. İndi Keçəl: "Allah, mən nağayrım, neyliyim? Mana bir iş qoyajaxlar[32], yaxşısı budu bu işdən çıxım". Kişi gəler, arvadın da gətirer. Deyir ki, gedək görək Keçəl nə iş görör. Gəler görör kü, Keçəlnən Keçəlin anası yun didir.

– Salamməlöykü.

–Əlöyküməsalam.

– Bu nə yundu, nağayrersınız?

Deyir:

– Bu yunu didif, təmizdiyif palaz qayırırıx Keçəlin toyluğuna. Sən qızına cehiz verən kimi mən də oğluma cehiz qayıreram.

Deyir:

– Yaxşı, savah gəlif biz də kömək elijeyik sizə. Qonşu qonşuya tən gərək, tən olmasa gen gərək. Gəlib biz də kömək elijeyik.

Deyir:

---

[32] İş qoymaq – kələk qurmaq

– Quda döyülükmü, gəlin.

Savah bular gələndə qız da bulara qoşulor gəler. Gəlellər, okqədər yun didellər, okqədər hərəkət basellar ki, bir də baxellar ki, ağızdarınnan köpük gəler, ajellar. Amma bu qız duror bir axtafa su götürör, çileer, bu Keçəlin öyünü siler süpürör, yığer. Peçi qaler, bir-iki kirri qav var imiş, onu yuyur, buraları təmizdeer. Buraları elə eliyir gülə-gümüşə döndərer. Bilmerəm, Keçəlin anası da nə pişirifmiş. Bunnan da bir damcı oralarda taper bu qız özü yiyir, deyir, anamnan dədəm özü bilər, cəhənnəmə olsun, nağarasıyam olara. Hə, bu kişi arvada işarə eliyir ki, arvad, biz ajınnan öldük, hənirimiz kəsildi, dur gedək. Bular duror, yığışanda arvad deyir:

– Dərdin alem, xörək pişirmişəm. Oturun bircə qırıx yiyin, gedin, – deyəndə gedif qavın ağzını açanda qız deyir:

– Ay ana, onun içində bir damcı yimək var idi, onu mən yimişəm. Yoxdu heş nə.

Arvadnan kişi deyir:

– Nağayrax?

Qız deyir:

– Öyünüz tikilsin, bular elə bir adamdı ki, iş tutmuyana əpbək vermellər. Bax, mən öyü gümüş təki yığdım, süpürdüm, təmizdədim, bu öyü qayırdım, siznən barabar yun diddim, mana yimək verdi. Gərək burda işdiyəsiniz.

Deyir:

– Onda yaxşı, bizim işdəməyimiz qaldı savağa.

İndi bular isteer ki, munun içinnən nəsə bir şey çıxsın, bular qızı verməsin, bahanə eləsin. Savah buruya gələnətən Keçəl geder ağaşdarın başınnan, zivilxanadan, burdan-ordan gənə yarım meşoy yun yığer. Gətirer bu yunun içinə iynə qırığı, sancax qırığı, şüşə qırığı – nə varsa dolduror. Qızın anası gəler, dədəsi gəler. Deyir ki, ay Keçəl, yununuz varsa, gətirin didək, işiniz varsa, görək, biz varıf günörta gedejeyik ayrı yerə. Bir qohumumuz ölüf uzax yerdə, oroya gedejeyik. Keçəl gətirer yunu buruya qoyanda kişi yunun üstə oturanda iynə-zad

kıçasına bater. Şüşənin qırığı əlini-əyağını kəser, filan pesməkan, kişi qızıl-ala qanın içində. Arvad ağlıya-ağlıya, gözünün yaşını tökə-tökə, kişiyin birtəəri qolunamı girer, sürütdüyə-sürütdüyəmi öyünə aparer. Kişiyi yüyüllər, dərmənniyillər, kişi yerdə inildeer. Keçəl də eşider ki, qaynatası xəstələnif. Güya bilmer, özünü bilməməzdiyə vuror. Bir dəstə loğman paltarı geyiner, başına-gözünə də kimnənsə taper bir papax qoyur filan-bəsməkan, indi kişinin yanına gəler. – "Mən loğman, qapı-qapı gəzerəm". Qaynənəsi deyir:

– Mənim yoldaşım xəstələnifdi, ona bax.

Gəler onun yanına. Baxanda deyir ki, munun bircə dənə müalicəsi var.

– Munun maalicəsi nədi?

Deyir:

– Munun maalicəsi bir qurvağadı. Bir qurvağa tapersan, qurvağeyi kəsersən, pişirdif yidirderik bu kişiyə, bunnan da bu yara, bu xora siyrilir, süpürülör, varer geder.

Qurvağeyi də taper kəser. Bu qurvağeyi-zadı da muna yidirder. Bu kişinin vəziyəti daha da pis olor. Savah Keçəl gəler qapıya anasınnan. Deyir:

– Qızı mana verirsinizmi, mənim başıma hələ çoxmu oyun açajaxsınız? Camaatı yığıf sizi camaat içində bədnam elijəm.

Kişi deyir:

– Ay arvad, bu Keçəlin əlinnən çıxammıjeyih, qoy bizə üç çual yalan danışsın.

Fişkalar qayrıler hündür, Keçəli çıxardellar başına. Birinci çualı verellər. Deyir:

– Ay camaat, bilin, agah olun, qaynatamı aldatdım dooşanı verdim, bir belə pulunu aldım, varını aldım, kıçasına damqa basdım. İnanmersız, açın baxın.

Kişi utandığınnan deyir:

– Keçələ keçəl, çual doldu ey, hara yığırsan? Ağzını bağla bəri tulla, bəri tulla, bəri tulla.

Ağzını bağleer tulloor. İndi qaynənəsini deyir. Arvad da deyir:

– Öyün yıxılsın, məni camaatın içində biyavır elədin. Qardaşım-zadım burdadı, mən öldüm, bağla bəri tulla.

İndi qızı deyəndə deyir:

– Ay camaat, bilin agah olun, bu qız mənimdi, mən munu aleram. Namusu əppəyə büküf itə tulloofsan, it yimiyif. Mən namusumu çölə atıf bu qızın başına oyun açardım. Gül təki bir qızdı, dooşanı verdim dooşanı da apardı, dədəsi də kəsif yiyəmmədi. Atası gəldi dooşanı istədi, qırx dooşanın yerinə altmış dooşan verdim. Bu kişi mənnən nə istiyir? İndi ya bu kişiyi öldöröjəm, ya qızı versin.

Arvad kişinin üzünə baxer, kişi arvadın üzünə baxer. Deyir:

– A kişi, canın üçün, uzun paza rast gəlmişik. Bu bilinməz dərtdi. Yaxşısı budu ki, qızı verək.

Qızı verellər, yaxşı da cernən-cehiznən qızı yola salellar. Keçəl toy eliyir, qızı aparer.

## DÖYÜLƏN AXMAQ

Bir arvadın, üzr isdiyirəm, oynaşı olur. Kişi də buna imkan vermir ki, vaxt tapıb bunnan görüşə bilsin. Günorta vaxdıymış, bazar da yaxınmış. Gəlir evə, görür heş nə yoxdu yeməyə, heş nə hazırranmıyıf. Arvada deyir ki, aaz, günorta vaxtıdı, nətər yanı yeməh, çörəh-zad yoxdu. Deyir ki, ə, yeməyi nədə hazırrıyıllar?

Deyir:

– Nətər yanı nədə hazırrıyıllar?

Deyir:

– Qazanımız deşilif, – arvad özü qəsdən deşif ha, – budey ha, deşilif, içində heş nə qalmır. Sən də gəlmirsən ki, səni göndərəm bazardan heç olmasa bir qazan alasan.

Deyir

– Ə, gedim alım gəlim də.

Gedir, ara yaxınmış dana, bir saat çəkmir qazanı alır gəlir. Arvad görür tez gəldi. Deyir ki, ə, aldın gətdin?

Deyir:

– Hə.

Deyir:

– Onun duzunu örgəndin?

Deyir:

– Nə duzunu?

Deyir:

– Onun pişmişinə satıcıdan örgənərdin nə qədər duz tökülür?

Bu bir də qayıdır bazara ki, qazan satannan örgənsin ki, bu qazanın tutumu nədi, nə qədər duz tökülür. Qazan satan da görür ki, bu ağıldan vayennidi. Deyir:

– Ə, səy oğlu səy, ya bir belə, ya bir belə (söyləyici əvvəl bir ovcunu, sonra iki ovcunu göstərir – top.).

İndi bu da yadınnan çıxmaması üçün arvad soruşajax axı nə qədər, əlini belə eliyir, “ya bir belə, ya bir belə” deyə-

deyə gəlirmiş. Bir nəfər də taxılı döyür. Xırmanın qırağında oturuf deyir:

– Ay Allah, mənim urzamı verginən, özün urza verənsən.

Görür, ə, bir adam gəlir, deyir, "ya bir belə, ya bir belə". Bu adam deyir ki, sən öl, bu kopoğlu mənim bu taxılımın bərəkətinə deyir, ya bir belə olajax, ya bir belə. Durur "tfu" deyir ağaca, düşür bunun canına.

– Ə qardaş, məni niyə döyürsən, bax nağarıram?

Deyir:

– Ə, sən maa deyirsən ki, sənin taxılının bərəkəti ya bir belə olsun, ya bir belə olsun.

Deyir:

– Ayə, mən bə nə deyim, nətər deyim?

Daa qazanın duzu yadınnan çıxır. İndi bunun sözü qalır bunun yadında ki, ə, bə nə deyim.

– Ə, getdin gördün ki, belə bir vəziyyət yaranıf, denən Allah bərəkət versin, biri min olsun, daha da çox olsun.

İndi bu dəfə gəlir ki, bir ölü düşüf, camahat hamı ağlaşır. Deyir:

– Ə, biri min olsun, başınıza belə şeylər tez-tez gəlsin.

Kişi örgətdiyi fason bu sözdəri deyəndə düşüllər bunun canına, bunu möhkəm çırpıllar. Deyir:

– Ə, bəs nə deyim?

Deyillər:

– Ə, sən gördün ki, belə bir yer var, denən görüf-görəcəyiniz bu olsun, son qəminiz olsun.

Bu gəlir toya, gənə bunu döyüllər. Deyir ki, ə, yaxşı, mən nağayrım, nə deyim? Deyir:

– Ə, gördün belə bir şey var, deynən bir yaxşı hava çal, mən də oynuyum.

Qolunu qaldırır bir belədən-belə süzür, belədən-belə süzür. Bir xam at örgədirmişdər. Gəlir bunun yanına çatanda qolunu qaldırır, at belindəkini də çırpır yerə. Bunu bir də möhkəm çırpıllar. Deyir:

– Ə, bəs mən nə deyim?

Deyir:

– Ə, gördün ki, belə bir xam at örgədillər, bir qırıx göy ot yolginən, püşö-püşö eləginən.

Bir qoja kişi də mənim kimi şələni alıf dalına, indi yorulufmuş, oturufmuş bir arxın qırağında, dincini alırmış. Görür bir adam ayannan bəri gəlir. Tez bir çəngə ot yolur, bu kişiyə yaxınnaşanda başdıyır püşö-püşö eləməyə. Kişi durur bunu çırpır.

– Ə, mən nəyəm ki, sən mana püşö-püşö deyirsən.

Deyir:

– Evin tikilsin, mana başa sal, mənim başıma bu qəzalar gəlif.

Deyir:

– Ə, qəza bullardan gəlmiyif sana, evinnən gəlif. Evin yıxılsın, evinə tez get, gör nə var. Ordan gəlifdi qəza, sənin burdakı başına gələn qəzalar elə-belə şeydi.

## YAXŞILIĞA YAMANLIQ

Bir gün bir kişi xurcununa bir az taxıl yığıf dərmana gedirmiş. Dərmana gedəndə görür ki, kollux alışıf yanır, kolluğun içində bir dənə ilan yanır. Dik qalxıf quyruğunun üsdünə, çıxmağa yer yoxdu. Deyir Allah-tala bu kişinin qəlbinə xof salır. Kişi öz dənini boşaldır yerə, torbanı kəpənəh tutan tor kimi düzəldir belə, tutur. İlan hoppanıf girir torbaya. Çəkif gətirir. Torbanın ağzını açır ki, ilanı buraxa, çıxıf getsin. İlan qıvrılır kişinin boğazını tutur ki, de görüm, sənin harannan çalım. Deyir:

– Ay Allahın heyvanı, mən sənə yaxşılıx eliyif ölümnən qutarmışam. Sən məni niyə çalmalısan ki?

Deyir:

– Bilmirsən, siz insannarın arasında yaxşılığın axırı yamannıxdı.

Deyir:

– Əgər bu dediyini sübut eliyə bilsən, məni haramdan çalırsan, çal.

Deyir:

– Onu sübut eləmək lazım döylü, elə o sübut olunmuşdu. Gəl gedək kimdən deyirsən soruşax.

Belə gedəndə görür ki, bir dənə gamış ayannan bəri gəlir. Kişi də zahid oluf. Allahdan rica eliyif ki, bu gamışa imkan ver, fikrini bizə bildirsin. Deyir:

– Ay Allahın heyvanı, mən bu ilana yaxşılıx eləmişəm. Bu ilan odun içində yandığı yerdə odun içinnən çıxartmışam. Taxılımı, uşaxların çörəyini töküf yerə bunu çıxartmışam. İndi bu da deyir, çalmalıyam səni. Sən bizə de görəh o, çalmalıdı?

Deyir:

– O səni gözünnən çalmalıdı.

Deyir:

– Niyə?

Deyir:

– Ona görə ki, mənim öz sahibimin qapısında on yeddi dənə balam var, hələ onnarın neçə balası var bilmirəm. Qocalmışam, sütdən kəsilmişəm. Məni buraxıfdı bu meşəyə ki, get kolluxda başını saxla. İndi onnan gözü doymur. Gedif o gün qəssab gətirif. Görürəm qəssab məni tutuf oramı-buramı qurdalıyır ki, görüm bunun nə qədər əti var, bunu da kəsif satım. Deyir, ona görə o ilan səni gözünnən çalmalıdı, – deyəndə kişi deyir:

– Ay Allahın heyvanı, çal da.

Deyir:

– Yox, üş nəfər demişih, üçünnən də soruşassan.

Gedillər, görüllər çay axır. Çayın üsdünnən körpü keçir. Deyir:

– Gəl bu çaydan soruşax.

Deyir:

– Soruşax.

Nəysə, kişi bir də Allahdan xayiş eliyir ki, Allahın hökmüynən çay bizə cavab versin. Çay deyir ki, o ilan səni çalmalıdı.

Deyir:

– Nəyə görə?

Deyir ki, ölünüzü mən təmizdiyirəm, dirinizi mən təmizdiyirəm, bağınızı, bosdanızı, hamısını mən suvarıram. Palınızı-paltarınızı, qabınızı-qaşığınızı, hamısını. Amma səhər-səhər gəlirsiniz əl-üzünüzü yuyanda üzümə tüpürüf gedirsiniz. Deyəndə kişi deyir:

– Düz deyir, çalmalıdı.

Kişi öz səyfini o saat başa düşür ha. Onnar dedihcə dirənir ki, ilan çal, düz deyir.

Bu səfər görüllər çayın o üzündə bir çinar ağacı var. İlan deyir:

– Gəl gedəh həm o sərində sərinnənəh, həm də çinardan soruşax.

Gəlillər çinarın divinə. Gənə də kişi xayiş eliyir. Çinar deyir ki, oy, oy, oy, o ilan səni bir yerinnən yox, hər yerinnən çalmalıdı.

Deyir:

– Əşi niyə? Səni bura insannar əkmiyif?

Deyir:

– Əkif ey, düzdü. Bir dəfə mən balaca çubux boyda olanda əkiflər. Amma indi nə qədər ki, yaydı, qoyun da, quzu da, mal da, heyvan da, özünüz də gəlif mənim kölgəmdə dincəlirsiniz. Qışda bir az soyux olan kimi hərəniz bir balta götürüf, şakqaşak doğruyuf aparırsınız.

Kişi deyir:

– A ilan, onsuz da mənim əjəlim bura qədərmiş da, məni çal.

Belə deyəndə görür bir tülkü o yannan qaça-qaça gəlir. İlan deyir ki, inanmırsan, gəl bu tülküdən soruşax. Kişi deyir:

– Ə, bunnar belə dedisə, insan ömrü boyu tülkünün düşmanıdı, tülkü çoxdan hə deyər.

Deyir:

– Yox, gəl bunnan soruşax.

İlanın uje əjəli gəlif ey. Üş-dörd dəfə çöyürənnən sora deyir:

– Yaxşı, soruşax.

Tülküdən ilan soruşur ki, mən bunu çalmalıyam, yoxsa yox. Tülkü deyir:

– Ə, gedin özünüzü ələ salın. Nətər o, torbanı belə tutdu, sən də hoppandın girdin o torbaya. Ağzına gələni danışırsan?

Deyir:

– İnanmırsan?

Deyir:

– Yox.

Deyir:

– Tut.

Kişi bir də torbanı tutur. İlan bir də hoppanır girir torbaya. Kişi torbanın ağzını aşmax isdiyir, tülkü deyir:

– Ə, namərd oğlu namərd, hara açırsan? Vur təpəsinə.

Kişi vuruf ilanı öldürəndə bir ovçu çıxır o yannan. Tülkü də ovçudan qaçır axı. Tülkü deyir:

– Paho, mən yaman yerdə ilişdim. O kopoğlu məni öldürəjəh.

Kişi deyir:

– Ə, gəl gir torbaya.

Girir torbaya. Kişi torbanı alır dalına. Ovçu da gəlir axı. Yolda qabaxlaşıllar. Deyir:

– A qardaş, burdan keçən tülkünü görmədin?

Deyir:

– Ölüsünü deyirsən, dirisini?

Yanı dirisi ölüsünnən bahadı dana. Öldürüf də satmır ey, dirisini satır.

## BİTLƏ BİRƏ

Bir bit olur, adı Təziy olur, birənin adı Narmanazıx. Guya bular ayilədilər də. Bir gün Narmanazıx abedə ocaq qalıyır, bir qab qoyur ki, su qızsın, Təziyin paltarrarın yusun. Küləh əsir, Təziyi götürür atır ocağa. Təziy ölür. Narmanazıx başdıyır başına-götünə döyməyə. Kəntdə traxtor varımış. Traxtor deyir:

– Ey Narmanazıx, saa nə gəlif?

Deyir:

– Təziy ocağa düşüf yanıf.

Traxtor başdıyır:

– Nərr-nərr, hırr-hırr.

Bir qarğa gəlir, qonur traxtorun üstə. Deyir:

– Ey traxtoru-zat, saa nə gəlif belə eliyirsən?

Deyir:

– Narmanazıx deyir ki, Təziy düşüf ocağa, yanıfdı.

Qarğa nətəəri hirsdənirsə, başdıyır: "Qarr, qurr, qarr". Gəlir qonur bir çinar ağacına. Çinar dilə gəlir, deyir:

– Ey qarğeyi-qurqut, saa nə gəlif?

Deyir:

– Traxtoru-zat deyir ki, Narmanazıx deyir, Təziy düşüf ocağa, ölüf.

Çinar hirsdənir, nətəəri yarpağın silkəliyirsə, yarpaxlar tökülür suya. Dibinnən su axırmış. Su dilə gəlir, deyir:

– Ey çinari-burbut, saa nə gəlif?

Deyir:

– Qarğeyi-qurqut deyir ki, traxtoru-zat deyir, Narmanazıx deyir, Təziy düşüf ocağa, yanıf.

Su hirsdənir, bulanır, daşıb zəmiyə dolur. Zəmi deyir:

– Ey adili-bünövrə, saa nə gəlif?

Deyir:

– Çinari-burbut deyir, qarğeyi-qurqut deyir, traxtoru-zat deyir, Narmanazıx deyir, Təziy düşüf ocağa, yanıf.

Zəmi hirsinnən yatır suya, başını qoyur yerə. Bu heyində zəmi sahibi gəlir, deyir:

– Ey abiyi-zəmzəm, saa nə gəlif?

Deyir:

– Çinari-burbut deyir, qarğeyi-qurqut deyir, traxtoru-zat deyir, Narmanazıx deyir, Təziy düşüf ocağa, yanıf.

Zəmi sahibi hirsdənir, beli soxur özünə. Bu heyni zəmi sahibinin oğlu gəlir, deyir:

– Ey ateyi-bel-buxun, saa nə gəlif?

Deyir:

– Abiyi-zəmzəm deyir, adili-bünövrə deyir, çinari-burbut deyir, qarğeyi-qurqut deyir, traxtoru-zat deyir, Narmanazıx deyir, Təziy düşüf ocağa, yanıf.

Oğlan da keçəlimiş. Keçəlini qartdıya-qartdıya, qışqıra-qışqıra anasının üstünə gedir. – Keçələ əl vurdun başınnan qan axmalıdı. – Gedif görür anası təndirə çörək yapır. Anası deyir:

– Keçəli-səri-soxdar, saa nə gəlif?

Deyir:

– Ateyi-bel-buxun deyir, abiyi-zəmzəm deyir, adili-bünövrə deyir, çinari-burbut deyir, qarğeyi-qurqut deyir, traxtoru-zat deyir, Narmanazıx deyir, Təziy düşüf ocağa, yanıf.

Arvat hirsdənir, öz süd vəzdərin, – bizdə ona əmcəh deyillər, – götürüf yapır təndirə. Niyə? Təziy ölüb. Bu heynidə kəndin axundu gəlir, deyir:

– Ey arvadi-püstə-təndir, saa nə gəlif?

Deyir:

– Keçəli-səri-soxdar deyir, ateyi-bel-buxun deyir, abiyi-zəmzəm deyir, adili-bünövrə deyir, çinari-burbut deyir, qarğeyi-qurqut deyir, traxtoru-zat deyir, Narmanazıx deyir, Təziy düşüf ocağa, yanıf.

Axund hirsdənir, başındakı əmmaməni götürüf çırpır yerə ki, Təziy niyə ölüf cavan vaxtında. Bu heyində dəyirmançı gəlir:

– Axundu-hindiqulu, saa nə gəlif?

Deyir:

– Arvadı-püstə-təndir deyir ki, keçəli-səri-soxdar deyir, ateyi-bel-buxun deyir, abiyi-zəmzəm deyir, adili-bünövrə deyir, çinari-burbut deyir, qarğeyi-qurqut deyir, traxtoru-zat deyir, Narmanazıx deyir, Təziy düşüf ocağa, yanıf.

Deyir:

– Onnan ötəri ağlıyırsan?

Deyir:

– Bəli, o boyda Təziy ölüf.

Deyir:

– Gedəh mən saa Təziyi də verim, Narmanazığı da. Ta kəndin ağıllısı sənsən, bir dənə bitdən ötəri əmmamanı salmısan yerə. Gedəh, görəh axmağı nə gündədi.

Dəyirmançı axundu gətirir, deyir:

– Sən başı qoy dəyirman daşının üsdünə, mən gedim suyu buraxım, gəlsin. Təziynən Narmanazıx yanmıyıflar, suyun içindədilər, tutarsan. Yaxşı?

Deyir:

– Yaxşı.

Dəyirman işə düşdü qutardı də. Suyu qoşan kimi dəyirman daşı işə düşür, bunun başın xırt-xəşil eliyir. Deyir: "İndi o sənin Narmanaziyin, o da Təziyin, di tut".

## OĞLAN VƏ GÜNƏŞ

Bir gün bir oğlanı Günəş yandırır. Oğlan üzün tutur Günəşə, deyir:

– Sən nə qədər güjdüsən?

Günəş deyir:

– Güjdü olsaydım, bulud qabağımı almazdı.

Oğlan gedir buludu tapır, deyir:

– Sən nədən belə güjdüsən? Qüvvəti nədən alırsan?

Deyir:

– Güjdü olsaydım, yağış mənnən yağmazdı.

Gedir yağışı tapır, – rəvayətdi də, – deyir:

– Sən nədən belə güjdüsən?

Deyir:

– Güjdü olsaydım, qamış mənnən bitməzdi.

Qamışı tapır, deyir:

– Sən nədən belə güjdüsən?

Deyir:

– Güjdü olsaydım, camış məni yeməzdi.

Gedir camışı tapır, deyir:

– Sən nədən belə güjdüsən?

Deyir:

– Güjdü olsaydım, çoban dəyənəynən belimə beş-altısın vurmazdı.

Deyir:

– Ay çoban, sən nə güjdüsən?

Deyir:

– Güjdü olsaydım, siçan çörəyimi yeməzdi.

– Ay siçan, sən nə güjdüsən?

Deyir:

– Güjdü olsaydım, pişih məni yer üzünə həsrət qoymazdı.

Getdi pişiyi tapdı:

– Pişih, nədən güjdüsən?

Pişih başdadı forsdanmağa, dedi:

Güjdücəyəm, güjdücə,
Dəmir darax dizdicə.
Buğlarımı buraram,
Gəlif-gedəni vuraram.

Oğlan fikirrəşdi ki, bu pişih güjdüdü də, bunu götürsün gəlsin evinə. Götürdü gəldi evə. Məytəb vaxtı çatırdı. Bunu yedirtdi, içirtdi, qoydu evə. Amma fortuşkanı[33] açıx qoydu, çıxdı getdi məytəbə. Ata-anası da evdə yoxdu. Pişik o nəfəsdihdən hay elədi, şəhərdə nə qədər pişik vardı yığıldı evə. Uşax dərsdən gəldi, qapını aşdı, gördü, nəə? Pişihlər bu evdə bir hay salıflar ki, gəl görəsən. İstədi nəysə yesin, heş nə tapa bilmədi. Üzün tutur pişihlərə:

Pişihlər, pişihlər, mavi pişihlər
Bizə də pay verin, barı pişihlər.
Biri qab götürüf, biri qazança,
Biri tay götürüf, biri sapanca.
Biri yüh dibində yedi olanı,
Biri kol dibində verdi salamı.
Biri stol üsdə çaldı nağara,
Biri qol götürüb süzdü havayı.
Biri barmağıyla cırdı üzümü,
Biri tühləriylə sildi dizimi.

Durur pişihləri çıxardır çölə. Deyir:

– Yox, siznən mənimki tutmaz. Siz, həqiqətən, güjdüsüz.

[33] Fortuşka – nəfəslik

## AXMAQ CANAVAR

Bir gün ac-yalavac bir canavar meşənin içiynən gedirdi. Birdən qabağına bir eşşəh çıxır. Canavar buna deyir:

– Ay eşşək, səhərdən elə yeməh axtarırdım, əlimə yaxşı düşmüsən, indi səni yeyəciyəm.

Eşşək dedi:

– Ay canavar qardaş, deyəsən, sən lap axmaxsan. Sən bəs bilmirsən ki, eşşəyin ətin ancax səhər ertə yeməh olar. Gecə yeyərsən, səni zəhərriyif öldürər. İsdiyirsən indi məni yeyib öləsən? Gözdə bırda, gedim mən də sənin üçün yumuşax yorğan-döşəh gətirim, səhərə kimi yat, səhər duruf yeyərsən.

Canavar bına dedi:

– Ay sağ ol! Ağıllı söz deyirsən. Get, tez elə, yorğan-döşəh gətir, mən də oturuf səni gözdüyürəm.

Eşşəh yırğalana-yırğalana çıxdı getdi, bir də qayıtmadı. Canavar da səhərə kimi eşşəyi gözdədi. Səhər açılanda bildi ki, eşşəh onu alladıf. Aj qarına genə meşəni dolaşmağa başdadı. Bütün gejəni gəzdi. Səhərə yaxın qabağına bir keçi çıxdı. Tez keçinin qabağın kəsif dedi:

– Keçi, indi mən səni yeyəciyəm. Allah səni maa yaxşı yetirif.

Keçi də qorxağ olur axı. Yazıx neynəsin. Canavarın qabağında tir-tir əsməyə başdadı. Dedi:

– Sən nə vaxt isdəsən, məni yeyə bilərsən. Ancax onu bil ki, mənim ətim çox dadsızdı. Gərəh mənim ətimi sarımsağnan, turşuynan yeyəsən. Qoy gedim evdən sarımsağ, turşu gətirim, onnan sora ye məni.

Canavar tez razılaşdı.

– Di get, tez ol turşu, sarımsağ götü, gəl.

Canavar keçini gözdədi, gözdədi, nə qədər gözdədisə, keçi gəlif çıxmadı. Axırda başa düşdü ki, keçi də bını alladıf. Canavar kor-peşman, ac qarına, deyinə-deyinə genə meşəni gəzməyə başdadı, görsün ki, əlinə nə keçir. Gəlif meşənin qırağındakı çaya

çatdı. Gördü çayın yaxınnığındakı palçığın içində bir camış eşələnir. Camış elə həylə olur ee. Harda lil, zığ görsə, gərəh özün verə ora, xasiyətidi. O tərəfə aşajax, bı tərəfə aşajax. Çıxmaz palçıxdan. Canavar da bını görən kimi tez camışın qabağın kəsdi ki, bəs mən acınnan ölürəm, Allah səni nə yaxşı yetirif, indi səni yeyəjəm. Camış bir az o tərəf bı tərəfə aşannan sora dedi:

– Mən elə bilirdim ki, sən ağıllısan, sən demə axmağıymışsan ki! Heş sənin dişdərinnən heyvan qaçıf qurtara bilər? – Yalannan belə deyir ee. Başın alladır. – Bəs sən görmürsən ki, mən başdan-ayağa palçığın içindəyəm. Qoy gedim girim suya, palçığımı təmizdiyim, gəlim. Onnan sora məni ye.

Canavar dedi bına:

– Düz deyirsən, get, çim, gəl. Amma tez gəl, day dözə bilmirəm.

Camış özün çaya vıran kimi başdadı gülməyə.

– Ayə, ay canavar, get başqa yerdə özaa yem axtar, sən çox axmağsan, məni yeyə bilməzsən. Mən bırdan heş vaxt çıxmaram.

Camış çay yuxarı üzdü, çay aşağı üzdü. Canavar bildi ki, camış bını alladıf. İnnən belə gedif suda camış tuta bilməz ki! Bildi ki, camış da onu alladıf. Təzədən başdadı gəzməyə, görsün qabağına nə çıxır. Elə bir az gəzmişdi ki, qabağına bir at çıxdı. Tez atın qabağın kəsdi ki, bəs acınnan ölürəm, bı dəyqə səni yeyəjəm. At da neynəsin yazıx. Gördü kü, hiylə işdətməsə, xeyri yoxdu. Dedi:

– Bilirəm ki, məni yeyəssən. Amma bir xayişim var. Rəhmətdih atam vəsiyət eləmişdi ki, yaşımı bilməmiş ölmüyüm. Dal ayağımın altında nə vaxt doğulmuşam o yazılıf, onu oxu maa de, sora məni yeyərsən.

Canavar dedi:

– Yaxşı, tez elə, gəti görüm.

At dal ayağını qaldırdı. Canavar arxa tərəfinə keçən kimi bını elə vırdı ki, canavar bir də ayağa dura bilmədi. Ona görə də bına axmağ canavarın nağılı deyillər.

## SƏBƏTƏ SALINMIŞ TÜLKÜ

Bir günnəri bir kişi gəlir meşiyə. Görür ki, bir tülkü bir cəvərən hörür. Kişi gedir deyir:

– Ay tülkü lələ, nağayrırsan?

Deyir ki, səbət hörürəm. Kişi muna deyir ki, sən içəridən hör, mən çöldən, görəh kim tez qutarajax.

Deyir:

– Gəl höör görəh.

Tülkü səbətin içinə girif hörür, kişi də çölünnən. Kişi tez qutarır, munun ağzın bağlıyır. Səbəti alır çiyninə, gedir. Aparır munu bazara.

– Ay bəhməz alan, ay bəhməz alan, bəhməz satıram, – deyə çağırır. Kişinin biri yaxınnaşıf soruşur:

– Ay qardaş, neçiyə verirsən?

Deyir:

– Beş maata.

Nəysə, munun pulun verir, alıb gətirir evə. Arvada deyir ki, arvat, munun içindəki bəhməzdi, ala qoy işkafa, xaşıl bişirərsən, tökərih üsdünə, yeyərih.

Deyir:

– Yaxşı, ay kişi, nə yaxşı aldın?

Deyir:

– Ucuz verirdi, aldım.

Bir gün hava soyuğumuş. Kişi deyir ki, arvat, bir xaşıl bişir, bəhməzdən də tökəh, görəh nətər bəhməzdi. Arvat gətirir bir qazan xaşıl çalır. Evdə qəlbi işkaf varmış. Uşağa deyir ki, get o bəhməzi gəti bura. İşkafın da yeri qarannıxdı dana. Ordan tülkü belə gözün bərəldəndə, uşax gəlir deyir ki, ay ana, vallah, ordan bir göz işıldıyır. O birisin göndərir, deyir:

– Dur get gəti. Səy köpəyoğlu, bəhməzin gözü var işıldıya?

O birisi də gedir, o bunnan bərk gəlir qorxusunnan. Deyir:

– Ay ana, vallah, düz deyir, göz işıldıyır.

Nəysə, neçə uşax varsa göndərir, axırda arvad özü gedir. Baxır görür ki, ordan bir göz parıldıyır. Qayıdır kişiyə deyir ki, ay öyün yıxılsın, uşax düz deyir, bir göz işıldıyır. Kişi gedir görür ki, doordan, bir göz işıldıyır. O dəəqə başa düşür də. Görür ki, tülküdü. Səbəti çıxardıf qoyullar öyün ortasına. Deyir ki, arvat, bir qazan su qoy ocağın üsdə qaynasın, bu saat gəlləm. Kişi gedir meşədən beş dənə, on dənə şil çubux qırır. Çubuğu qırır gətirir, uşağı-zadı, hamısın çıxardır çölə. Qazanı da qoyur ora, çubuxları da basır suyun içinə. Qırılmır axı onda çubux. Bu cəvərənin ağzın açır, tülkünü buraxır. Bəsdi deyincə munu çırpır, çırpır, buraxır. Tülkü gedir.

Aradan bir müddət keçənnən sora bu kişi getmişimiş meşədən odun qırmağa. Bu tülkü görür ki, bu kişi gəlif meşiyə odun qırmağa. Gedif nə qədərnə dosdu-tanışı varmış, tülküymüş, canavarmış, nəymiş, hamısın yığır gətirir ki, gəlin mənim düşmənim burdadı, tutağın, parçalıyağın. Kişi qorxusunnan qaçıf çıxır ağaca. Bullar bir belə, beş belə. Deyillər:

– Gəlin bel-belə durax, munu ağacın başınnan alax.

Amma ən altda da bu döyülən oturur. Kişi baxıf ki, uje muna çatıflar. Elə ağajın başına çathaçatda kişi qışqırır ki, arvad, isdi su, şil çubux. “İsdi su, şil çubux” dəəndə, altdakının canında axı bir qorxu var, nətəər pırtdıyır altdan çıxırsa, hamısı partapart tökülür, qaçıf gedillər.

## SALAMI KİMƏ VERDİ?

Bir günnəri Günəş, Şaxda, Küləh oturmuşumuşdar. Bir tülkü gəlir bınnarın qabağınnan gedir. Tülkü gəlif bınnarın qabağınnan keçəndə bınnara salam verir. Salam verir, tülkü gedir. Bınnar tülkü gedən kimi deyir, tülkü salamı maa verdi, o deyir, maa verdi, şaxda da deyir, maa verdi. Bıllar belə mübaasə eliyəndə, tülkü qayıdıf gəlir. Qayıdıf gələndə deyillər, gəlin tülküdən soruşax, görəh salamı kimə verdi. Deyillər, tülkü, salamı kimə verdin? Deyir:

– Küləyə verdim.

Günəş deyir:

– O qədər şüamı salajam ki, bir dənə üsdündə tüh qalmasın, bitəv bədənin yansın.

Küləh deyir:

– Heş bir şey eliyə bilmiyəssən. Mən o qədər sərin əsəjəm ki, şüaları qoymuyajam tülkünün üsdünə düşsün.

Şaxda deyir:

– O qədər qar-şaxda eliyəjəm ki, tülkü, sən yuannan qırağa çıxa bilmiyəssən.

Onda Küləh deyir ki, sən işində ol, onda mən əsmiyəjəm, nə qədər şaxda olsa da, saa bir şey eləmiyəjəh. Tülkü deyir ki, odu ki, mən salamı Küləyə verdim.

# TÜLKÜ VƏ DƏVƏ

Bir kəndçi olor. Kasıb adam olor. Bir neçə il işdeer, bir dəvə aler. Kəndçinin də beş-altı uşağı olor. Dəveyi kirayə verməklə bu dolaner. Ay geder, il geder. O qədər işdeer ki, dəvənin beli yağır olor. Payızın günü həmi dəvə xəsdələner, həmi qojaler, yeriməyə halı olmor. Kişi deyir ki, arvad, bu dəveyi aparıb çölə buraxajam. Yoldaşı deyir ki, a kişi, indiyə qədər bizi bu dolandırıf, insaf da yaxşı şeydi. Dəveyi aparıf buraxma. Bu qışı çıxsın, ölər, qapıda ölsün. Arvadı danleer, deyir:

– Yox, mən aparıb dəveyi çölə buraxajam.

Dəveyi aparıb bir dərəyə buraxer. Dəvənin qılçaları tutmor yeriməyə, payızın son ayı. Bir tülkü gəler, görör kü, burda bir dəvə yater. Dilini çıxardıf, dil bu uzunnuxda. – Dəvənin dili qədər heç bir heyvanın dili olmaz. – Tülkü geridən baxer-baxer, deyir: "Təki onun dilini mən yemiş olam". Bu dəvənin yanına ələndə deyir:

– A dəvə, niyə burdasan?

Başına ələni söylöör. Deyir:

– İşdədim, işdədim, bu hala düşdüm. Xazeynim məni gətirib bura buraxıb.

Deyir:

– Bir şərt bağlıyax sənnən.

Deyir:

– Nə şərt.

Deyir:

– Mən zağa yeri bilerəm, aparım səni ora qoyum. Otdan-alafdan gətirim verem, sən diril, yazbaşı çıxanda, otduyanda dilini mana ver, – deyəndə dəvə fikirrəşer. Deyir: "Yazatan böyük iş var, qoy razı olum". Tülkü bir az kömək eliyir, dəvə qalxer geder. Zağaya saler dəveyi. Tülkü başdeer qayalardan, qapçığalardan[34] otdan-zaddan gətirer, dəvə diriler. Yazbaşı

[34] Qapçığa – əlçatmaz qayalıq yer

dəvə başdeer otdamağa. Elə bil dəvə cavannaşıb. Tülkü seviner ki, indi dilini mana verəjək. Gəler deyir:

– Ay dəvə!

Deyir:

– Eşiderəm.

Deyir:

– Şərtimiz var, biz şərt bağladıx. İndi dili mana verməlisən, – deyəndə deyir:

– Verim də.

Ağzını belə ayırer, deyir:

– Gəl qopar.

Deyir:

– Qorxoram axı.

Deyir:

– Yox, qorxma.

Deyir:

– Yox, özün qopar dilini mana ver.

Bular spor eliyəndə deyir:

– Vallah, gedif canavarı gətirəjəm. Canavar səni yijək, dilini də mən yiyəjəm.

Gedir görür arıq, qoja canavar var, tərpənnəmer. Canavara söylöör vəziyyəti mən söylüyən kimi. Deyir ki, dəvə yeri bilirəm, gedək dəveyi ye, bu şərtlə, dili mənimdi. Deyir:

– Yaxşı, gedək.

Canavar gələndə dəvə fikirrəşer ki, onsuz canavar da ölüdü, məni yiyəmməz.

Canavar dəvəyə deyir ki, şərt bağlıyıfsız, tülküyə dilini niyə vermersən? Deyir:

– Vererəm. Dizlərimi yerə qoyum, gəlsin hopbansın dilimi qoparsın.

Tülkü seviner. Hopbananda dəvə tülkünün boğazınnan tutor, tülkünün başı dəvənin ağzında qaler. Dəvə yuxarı qalxanda tülkü belə-belə hopbaner düşör. Dəvə tülkünün boğazını sıxer, yerə tulloor. Canavar deyir:

– Ay tülkü, hakqın batası oldu, gəl gedək.

# MƏTNLƏRİN SÖYLƏYİCİLƏRİ HAQQINDA

Aşağıda nağılların söyləyiciləri, nağılın ilk dəfə çap olunduğu mənbə, onu təşkil edən süjetlər haqqında məlumat verilmişdir. Nağılların süjet nömrəsi "Azərbaycan nağıllarının süjet göstəricisi" (Qısa adı: TR) kitabı əsasında verilmişdir. Topludakı nağılların böyük əksəriyyətinin həmin kitabda qarşılığına rast gəlinir, yalnız bir neçə süjetin qarşılığı yoxdur ki, onlar haqqında da əlavə bəhs olunmuşdur.

*İsgəndər Zülqərnə:* Abbasov Abbas Mahmud oğlu, Cəbrayıl rayonu, Soltanlı kəndi, təvəllüdü 1938, təhsili ali, ibtidai sinif müəllimi. TR 782**+875D+888A+806*+798*+ +831C. Toplayan: İlkin Rüstəmzadə.

*Tısbağa qız:* Bayramova Narış İsa qızı, Ağcabədi rayonu, Afşar kəndi, təvəllüdü 1945, təhsilsiz. TR 465C+ 807*B. Toplayanlar: İlkin Rüstəmzadə, Zəfər Fərhadov.

*Narxatın:* Bayramova Narış İsa qızı, Ağcabədi rayonu, Afşar kəndi, təvəllüdü 1945, təhsilsiz. TR 451B*. Toplayanlar: İlkin Rüstəmzadə, Zəfər Fərhadov.

*Huri qızı:* Bayramova Narış İsa qızı, Ağcabədi rayonu, Afşar kəndi, təvəllüdü 1945, təhsilsiz. TR 881. Toplayanlar: İlkin Rüstəmzadə, Zəfər Fərhadov.

*Tacir oğlu:* Bayramova Narış İsa qızı, Ağcabədi rayonu, Afşar kəndi, təvəllüdü 1945, təhsilsiz. TR 875D+882. Toplayanlar: İlkin Rüstəmzadə, Zəfər Fərhadov.

*Şah Abbasla məleykə:* Bayramov Musa Şükür oğlu, Bərdə rayonu, Seyid Yusifli kəndi, təvəllüdü 1934, təhsilsiz. TR 559+653A+661*. Toplayanlar: Əfzələddin Əsgər, İlkin Rüstəmzadə.

*Üç qız:* Bayramov Musa Şükür oğlu, Bərdə rayonu, Seyid Yusifli kəndi, təvəllüdü 1934, təhsilsiz. TR 432. Toplayanlar: Əfzələddin Əsgər, İlkin Rüstəmzadə.

*Zərgərin nağılı:* Şəldiyev İsmayıl Sadıq oğlu, Kəlbəcər rayonu, Ağcakənd kəndi, təvəllüdü 1933, təhsili orta-ixtisas. TR 922*. Toplayan: İlkin Rüstəmzadə.

*Halal qazanc:* İsmayılova Mehbarə Hüseyn qızı, Tovuz rayonu, Qaradaş kəndi, təvəllüdü 1948, təhsili səkkizillik. *TR 835**+0* (Bu süjetin qarşılığına rast gəlinmir). Toplayan: Səyyarə Qasımova.

*Kor dilənçi, dəmirçi və balıqçı:* Məmiyev Barat, Saatlı rayonu, Kamallı kəndi, təvəllüdü 1919, sənəti molla. TR 456*+896*. Toplayan: Elsevər Muradov.

*Bəhluldan əyal istəyən kişi.* Şıxəliyeva Bikə, Saatlı rayonu, Kamallı kəndi, təvəllüdü 1933. TR 800*A. Toplayan: Əfzələddin Əsgər, Elsəvər Muradov.

*İbrahim Əjdər:* Ağayeva Xədicə Seyid Rəsul qızı, Saatlı rayonu, Hacıqasımlı kəndi, təvəllüdü 1928, mərsiyəçi. TR 970. Toplayan: Qədim Qubadov.

*Musa peyğəmbər və qara qul:* Alıyev İsrafil İsmayıl oğlu, Kəlbəcər rayonu, Molla Bayramlı kəndi, təvəllüdü 1940, sənəti molla. TR 460B. Toplayan: İlkin Rüstəmzadə.

*Qaraçuxasını yatıran şəxs:* Bayramov Musa Şükür oğlu, Bərdə rayonu, Seyid Yusifli kəndi, təvəllüdü 1934, təhsilsiz. TR 460*. Toplayanlar: Əfzələddin Əsgər, İlkin Rüstəmzadə.

*Qaraçuxasını axtaran kişi:* İsmayılov İsmayıl Sədi oğlu, Laçın rayonu, Cicimli kəndi, təvəllüdü 1947, təhsili orta. TR 460A. Toplayan: İlkin Rüstəmzadə.

*Şah Təhmasib.* Söyləyən Aşıq Abbas, Ordubad rayonu, Təşadizə kəndi, yaşı 70. 1985-ci ildə yazıya alınıb. Toplayan: Əfzələddin Əsgər.

*Şaha bel bağlama:* Bayramov Musa Şükür oğlu, Bərdə rayonu, Seyid Yusifli kəndi, təvəllüdü 1934, təhsilsiz. TR 911. Toplayanlar: Əfzələddin Əsgər, İlkin Rüstəmzadə.

*Şahın yuxusu:* Qasımov Musa İbrahim oğlu, Bərdə rayonu, Seyid Yusifli kəndi, təvəllüdü 1940, ali təhsilli zootexnik. TR 558*. Toplayanlar: Əfzələddin Əsgər, İlkin Rüstəmzadə, Tahir Orucov.

*Savabın xeyri.* Bayramova Narış İsa qızı, Ağcabədi rayonu, Afşar kəndi, təvəllüdü 1945, təhsilsiz. TR 750B*. Toplayanlar: İlkin Rüstəmzadə, Zəfər Fərhadov.

*Bacı həsrəti.* Bayramova Narış İsa qızı, Ağcabədi rayonu, Afşar kəndi, təvəllüdü 1945, təhsilsiz. TR 777*. Toplayanlar: İlkin Rüstəmzadə, Zəfər Fərhadov.

*Allah xofu.* Şərifov Sahib İmaş oğlu, Füzuli rayonu, Bala Bəhmənli kəndi, təvəllüdü 1955, təhsili 8 illik, molla. TR 750B*. Toplayanlar: İlkin Rüstəmzadə, Zəfər Fərhadov.

*Altı manatın misalı.* Qasımov Musa İbrahim oğlu, Bərdə rayonu, Seyid Yusifli kəndi, təvəllüdü 1940, ali təhsilli zootexnik. TR 771***. Toplayanlar: Əfzələddin Əsgər, İlkin Rüstəmzadə, Tahir Orucov.

*Musa Allahı qonaq çağırır.* Alıyev İsrafil İsmayıl oğlu, Kəlbəcər rayonu, Molla Bayramlı kəndi, təvəllüdü 1940, sənəti: molla. TR 751A = AT 751A*. Toplayan: İlkin Rüstəmzadə.

*Süleyman peyğəmbər və bayquş.* Əliyev Əhliman Şirin oğlu, Füzuli rayonu, Yuxarı Kürdmahmudlu kəndi, təvəllüdü 1931, təhsili orta. TR 983*+895+880. Toplayanlar: İlkin Rüstəmzadə, Zəfər Fərhadov.

*Qismətdir, yoxsa sevdadır?* Ağayeva Xədicə Rəsul qızı, Saatlı rayonu, Hacıqasımlı kəndi, təvəllüdü 1928, təhsili orta. TR 930K*. Toplayan: Qədim Qubadov, Elsevər Muradov.

*Üç ölüm:* Abbasov Abbas Mahmud oğlu, Cəbrayıl rayonu, Soltanlı kəndi, təvəllüdü 1938, sənəti: molla. TR 934A. Toplayan: İlkin Rüstəmzadə.

*Üç vəsiyyət:* Abbasov Abbas Mahmud oğlu, Cəbrayıl rayonu, Soltanlı kəndi, təvəllüdü 1938, sənəti: molla. TR 910A. Toplayan: İlkin Rüstəmzadə.

*Loğmanla şəyirdi.* Muradov Sövdümalı Şahməmməd oğlu, Saatlı rayonu, Kamallı kəndi, təvəllüdü 1930, müəllim. TR 928**+1863*A+1863*B+1863*D. Toplayan: Elsevər Muradov.

*Şah qızının arzusu.* Ağayeva Şəfiqə Təhməz qızı, Saatlı rayonu, Hacıqasımlı kəndi, təvəllüdü 1932, evdar qadın. Bu süjetin qarşılığına rast gəlinmir. Toplayan: İlkin Rüstəmzadə.

*Belə də qalmaz.* İsgəndərov Paşa Əvəz oğlu, Laçın rayonu, Ərikli kəndi, təvəllüdü 1950, ali təhsilli riyaziyyatçı. Toplayan: İlkin Rüstəmzadə.

*Var-dövləti başqasına qismət olan kişi.* Babayev Aslan Mehdi oğlu, Bərdə rayonu, Dəymədağlı kəndi, təvəllüdü 1958, ali təhsilli. Toplayanlar: Əfzələddin Əsgər, İlkin Rüstəmzadə.

*Üç qardaş.* Süleymanov Süleyman Mehralı oğlu, Ağcakənd kəndi, təvəllüdü 1946, orta təhsilli, sazbənd. Toplayan: İkin Rüstəmzadə.

*Keçəlin evlənməsi.* İsmayılova Mehparə Hüseyn qızı, Tovuz rayonu, Qaradaş kəndi, təvəllüdü 1948. *AT 570.* İlk dəfə toplanan nağıl süjetlərindən biridir. Toplayan: Səyyarə Qasımova.

*Döyülən axmaq.* Qasımov Musa İbrahim oğlu, Bərdə rayonu, Seyid Yusifli kəndi, təvəllüdü 1940, ali təhsilli zootexnik. TR 1696. Əfzələddin Əsgər, İlkin Rüstəmzadə, Tahir Orucov.

*Yaxşılığa yamanlıq.* Babayev Aslan Mehdi oğlu, Bərdə rayonu, Dəymədağlı kəndi, təvəllüdü 1958, ali təhsilli. Toplayanlar: Əfzələddin Əsgər, İlkin Rüstəmzadə.

*Bitlə birə.* Məmmədova Zərnigar Aslan qızı, Zəngilan rayonu, Zəngilan kəndi, təvəllüdü 1949, təhsili ali, kimya müəllimi. Toplayan: Mətanət Abbasova

*Oğlan və günəş.* Məmmədova Zərnigar Aslan qızı, Zəngilan rayonu, Zəngilan kəndi, təvəllüdü 1949, ali təhsilli, kimya müəllimi. Toplayan: Mətanət Abbasova.

*Axmaq canavar.* Əliyev Rəhim Ağarza oğlu, Cəbrayıl rayonu, 71 yaş, təhsilsiz. Toplayan: Zəfər Fərhadov.

*Səbətə salınmış tülkü.* Ağamirzəyeva Bənövşə, Ağdam rayonu, Xıdırlı kəndi, 68 yaş. Toplayan: Mətanət Abbasova.

*Salamı kimə verdi?* İbrahimova Tutu Novruz qızı, Zəngilan rayonu, Bartaz kəndi, təvəllüdü 1956, təhsili orta. Toplayan: Mətanət Abbasova.

*Tülkü və dəvə.* Əhmədov Kamal Həmid oğlu, Tovuz rayonu, Qaradaş kəndi, təvəllüdü 1934, təhsili orta. *TR 76***.

## İÇİNDƏKİLƏR

İsgəndər Zülqərnə ........ 3
Tısbağa qız ........ 19
Narxatın ........ 31
Huri qızı ........ 42
Tacir oğlu ........ 57
Şah Abbasla Məleykə ........ 66
Üç qız ........ 73
Zərgərin nağılı ........ 80
Halal qazanc ........ 94
Kor dilənçi, dəmirçi və balıqçı ........ 114
Bəhluldan əyal istəyən kişi ........ 131
İbrahim Əjdər ........ 141
Musa peyğəmbər və qara qul ........ 151
Qaraçuxasını yatıran şəxs ........ 161
Qaraçuxasını axtaran kişi ........ 167
Şah Təhmasib ........ 171
Şaha bel bağlama ........ 190
Şahın yuxusu ........ 196
Savabın xeyri ........ 200
Bacı həsrəti ........ 206
Allah xofu ........ 209
Altı manatın misalı ........ 213
Musa Allahı qonaq çağırır ........ 216
Süleyman peyğəmbər və bayquş ........ 220
Qismətdir, yoxsa sevdadır? ........ 225
Üç ölüm ........ 234
Üç vəsiyyət ........ 237
Loğmanla şəyirdi ........ 244
Şah qızının arzusu ........ 256
Belə də qalmaz ........ 261
Var-dövləti başqasına qismət olan kişi ........ 265
Üç qardaş ........ 268

Keçəlin evlənməsi ........................................................ 273
Döyülən axmaq ............................................................ 282
Yaxşılığa yamanlıq ...................................................... 285
Bitlə birə ..................................................................... 289
Oğlan və günəş ............................................................ 292
Axmaq canavar ............................................................ 294
Səbətə salınmış tülkü .................................................. 296
Salamı kimə verdi? ..................................................... 298
Tülkü və dəvə .............................................................. 299

**Söyləyicilər haqqında məlumat .............................. 301**

**Azərbaycan folkloru külliyyatı,**
**XI cild, Nağıllar (XI kitab),**
Bakı, "Nurlan" nəşriyyatı, 2009.

Nəşriyyat redaktoru:
**Məhsəti Süleymanova**

Kompyuterdə yığan:
**Kəmalə Zeynalova**
**Səfa Əliyeva**

Korrektor:
**Könül Əliyeva**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Ramin Abdullayev**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 308 səh.
Tirajı: 500

Kitab AMEA Folklor İnstitutunun
Redaksiya-Nəşriyyat şöbəsində yığılmış, səhifələnmiş,
"Nurlan" nəşriyyatında hazır diapozitivlərdə
ofset üsulu ilə çap olunmuşdur.